

# KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA



№1 (24) 2009

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

BAKI DÖVLƏT UNİVERSİTETİ

KİTABXANAÇILLQ-İNFORMASİYA FAKÜLTƏSİ

# KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

Elmi-nəzəri, metodik və təcrübi jurnal

№ (24) * 2009

1997-ci ilin

oktyabrından çıxır

**BAKI -2009**

KBT- 78

K 73

**Təsisçi və baş redaktor: professor Xəlil İSMAYILOV**

**Məsul katib: dosent Knyaz ASLAN**

**REDAKSİYA HEYƏTİ:**

**Professor Abuzər XƏLƏFOV**
**Professor Zöhrab ƏLİYEV**
**Professor Bayram ALLAHVERDİYEV**
**Dosent Nadir İSMAYILOV**
**T.e.n. Kərim TAHİROV**
**F.e.n. Aybəniz ƏLİYEVA-KƏNGƏRLİ**
**Tamella İSMİXANOVA**
**Mələk HACIYEVA**
**B.m. Solmaz SADIQOVA**

K 73 *Kitabxanaşünaslıq və biblioqrqfiya: elmi-nəzəri, metodik və təcrübi jurnal.-B.: Bakı Universiteti Nəşriyyatı, 2009.-№1.-156 s.*

*Redaksiyanın ünvanı:*
*AZ-1073/1. Bakı şəhəri, Zahid Xəlilov küçəsi 23,*
*2№-li tədris korpusu, IV mərtəbə, Kitabxanaçılıq-injormasiya fakültəsi,*
*«Kitabxanaşünaslıq və biblioqrafiya» jurnalının redaksiyası*
*Telefonlar: 439-05-47; 439-08-03*

**© «Kitabxanaşünaslıq və biblioqrafiya», 2009**

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЕ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**БАКИНСКИЙ Г ОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**
**БИБЛИОТЕЧНО-ИНФОРМАЦИОННЫЙ ФАКУЛЬТЕТ**

# БИБЛИОТЕКОВЕДЕНИЕ

# И

# БИБЛИОГРАФИЯ

**Научно-теоретический,**
**методический и практический журнал**

**№1(24) * 2009**

**Выпускается**
**с 1997 года**

**БАКУ-2009**

**БВК-78**
**К 73**

**Учредитель и**
**главный редактор: профессор Халил ИСМАИЛ0В**

**Ответственный секретарь: Доцент Князь АСЛАН**

**РЕДАКЦИОННАЯ КОЛЛЕГИЯ:**

**Профессор Абузар Халафов**
**Профессор Зохраб Алиев**
**Профессор Байр;ш Аллахвердиев**
**Доцент Надир Исмаилов**
**к.и.и. Керим Тахиров**
**ш.ф.н. Айбениз Алиева-Кенгерли**
**Тамсила Исмиханова**
**Мелек Гаджиева**
**Ст. преп. Солмаз Садыгова,**

К 73 *Библиотековедение и библиография: Научно-теоретический, .методический и практический журнал .- В., Изд-во Бакинского Университета,*
*2009.-№ 1.-156 с.*

*Адрес редакции:*

*Аз -1073/1 г. Баку, ул. Захида Халилова, 23,*
*учебный корпус №2, этаж IV, БнбяиОтечно-информациоиный факультет,*
*редакция журнала*
*«Библиотековедение и библиография».*
*Тел.: 439-05-47; 439-08-03*

**© «Библиотековедение и библиография», 2009**

# *MÜNDƏRİCAT*

### ***RƏSMİ SƏNƏDLƏR***

*"Azərbaycan kitabxanalarının fəaliyyətinin yaxşılaşdırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı............................................6*

*"Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə milli strategiya"nın və "Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə milli startegiyanın həyata keçirilməsi ilə bağlı Dövlət Proqrami"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı.................................................................9*


### ***KİTABXANAŞÜNASLIQ***

***A.A.XƏLƏFOV*** — *Müstəqillik illərində ali kitabxanaçılıq təhsilinin inkişafı..................................10*

***X.İ.İSMAYILOV*** — *Kitabxanaların idarə edilməsinin müasir problemləri............................................27*

***X.İ.İSMAYILOV, P.KAZIMİ*** — *Kitabxana işinin demokratikliyi haqqında..............................................36*

***E.Y.ƏHMƏDOV, G.ƏHƏDOVA*** — *Kitabxanaların hüquqi təminatında beynəlxalq əməkdaşlığın rolu................41*

**M.M.MƏMMƏDOV** *Kitabxanaların idarə olunmasında marketinqin rolu....................................47*

**K.ASLAN** *Nəsirəddin Tusi irsində kitab və mütaliə məsələləri.............................................55*

**A.CƏFƏROV** *Azərbaycan Kənd Təsərrüfatı Akademiyası Kitabxanasında professor-müəllim heyətinə kitabxana xidmətinin təşkili.......................................................73*

**A.ABDULLAYEVA** *Milli kitabxana gənclərin informasiya mədəniyyətinin formalaşması sistemində................................................84*

## BİBLİOQRAFİYAŞÜNASLIQ

**Z.H.ƏLİYEV** *Müasir biblioqrafik fəaliyyətin təşkili, inkişafı və tətbiqi məsələləri...................91*

**X.İ.İSMAYILOV**
**N.İ.İSMAYILOV**
**İ.Z.BAYRAMOVA** *Azərbaycan Respublikasının regionlarının kitabxana informasiya resurslarının inkişafının bəzi məsələləri (Gəncə-Qazax iqtisadi rayonunun nümunəsində).........................................99*

**V.Ə.VƏZİROVA** *Mərkəzləşdirilmiş kitabxana sistemlərində biblioqrafik fəaliyyətin təşkili məsələləri.............................................112*

**Q.S.HACIYEVA** *Ən-Nədiminin «Fihrist» əsəri biblioqrafiya mənbəyi kimi..................120*

**S.A.SADIQOVA** *Azərbaycan kitabına həsr olunmuş biblioqrafik informasiya mənbələri......126*

***S.P.İSMAYILOVA*** *Müstəqillik illərində folklorşünaslıq biblioqrafik mənbələrdə*......................132

## *KİTABŞÜNASLIQ*

***Ş.TAHİRQIZI*** *Monoqrafiyalar elmi ədəbiyyatın növü kimi*......................................................*141*

## *BEYNƏLXALQ ƏMƏKDAŞLIQ*

***N.İ.İSMAYILOV***
***M.HACIYEVA*** *Milli kitabxana: Beynəlxalq əməkdaşlığın yeni mərhələsində*................................*154*

# RƏSMİ SƏNƏDLƏR

## “AZƏRBAYCAN KİTABXANALARININ FƏALİYYƏTİNİN YAXŞILAŞDIRILMASI HAQQINDA” AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan kitabxanaları Azərbaycan xalqının milli sərvətidir. Xalqımızın yaratdığı qiymətli tarixi-mədəni, ədəbi-bədii və elmi-fəlsəfi irsin toplanıb saxlanmasında, bəşər mədəniyyətinin qazandığı nailiyyətlərin nəsildən-nəslə çatdırılmasında və cəmiyyətimizin intellektual-mənəvi potensialının artırılmasında kitabxanalarımız əvəzsiz rol oynayır.

Ölkəmiz qədim dövrlərdən başlayaraq, öz yüksək kitab mədəniyyəti ilə seçilmiş və zəngin kitabxanaları ilə tanınmışdır. Azərbaycanın müxtəlif kitabxanalarında saxlanılan və xalqımızın ədəbi-estetik, elmi-mədəni fikir dünyasını əks etdirən çox sayda əlyazma XIX əsrin əvvəllərindən regionda cərəyan edən hadisələr nəticəsində ölkə xaricinə aparılmış və bu gün də dünya kitabxanalarında Şərq fondlarının əsasını təşkil edərək mühafizə olunur.

XIX əsrdə Azərbaycanda maarifçilik hərəkatının güclənməsi, neft sənayesinin görünməmiş yüksəlişi və ictimai-siyasi həyatda baş verən dəyişikliklər ölkəmizin elm-mədəniyyət mərkəzi kimi tanınan şəhərlərindəki kitabxanalar şəbəkəsinin yaradılması və genişləndirilməsinə gətirib çıxarmışdır. XX əsrdə milli kitabxana mədəniyyəti tarixinin yaddaqalan hadisələri baş vermiş və respublikanın ən böyük kitab xəzinələri yaradılmış, bütün bölgələri əhatə edən geniş kitabxanalar şəbəkəsi qurulmuş və mərkəzləşdirilmiş, kitabxanaların maddi-texniki bazası möhkəmləndirilmiş və Kitab palatası təşkil edilmişdir. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində erməni silahlı dəstələri işğala məruz qoyduqları ərazilərimizdə vandalizm aktı törətmiş, illərlə fondlarında 4 milyondan artıq kitabın mühafizə olunduğu 1000-ə yaxın kitabxananı və kitabxana filiallarını birləşdirən mərkəzləşdirilmiş kitabxana sistemlərini bütünlüklə dağıtmışlar.

Bu gün geniş kitabxana-informasiya şəbəkəsinə malik Azərbaycanda 12 mindən çox müxtəlif tipli kitabxana mövcuddur. 1996-cı ildə Azərbaycan hökuməti "Azərbaycan Respublikasında kitabxana işinin vəziyyəti və onu yaxşılaşdırmaq tədbirləri haqqında" qərar qəbul etmişdir. 1999-cu ildə "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanunu qüvvəyə minmişdir.

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 2004-cü il 12 yanvar və "2005-2006-cı illərdə Azərbaycan dilində latın qrafikası ilə çapı nəzərdə tutulan əsərlərin siyahısının təsdiq edilməsi haqqında" 2004-cü il 27 dekabr

tarixli sərəncamlarına əsasən, son üç il ərzində ümumi sayı doqquz milyona yaxın ədəbiyyat nəşr olunmuş və ölkə kitabxanalarına hədiyyə edilmişdir.Yeni nəşrlər kitabxana fondlarını və onlardan istifadə imkanlarını xeyli genişləndirməklə yanaşı, həmin kitabların yerləşdirilməsi baxımından çətinliklər yaratmışdır. Müasir Azərbaycan cəmiyyətinin informasiya təminatının həyata keçirilməsində ölkə kitabxanalarının tutduğu mühüm yer mədəniyyətin bu sahəsində informasiya cəmiyyətinin tələblərinə uyğun olaraq, müasir texnologiyaların tətbiqini zəruri edir. Kitabxanaların fəaliyyətinin yaxşılaşdırılmasının ölkəmizin ictimai-mənəvi həyatının daha da canlanmasına təsiri baxımından böyük əhəmiyyətini və Azərbaycanın informasiya cəmiyyətinə doğru əhatəli inkişaf perspektivlərini nəzərə alaraq, elmi-mədəni sərvətlərdən hərtərəfli istifadə imkanlarının genişləndirilməsi və eləcə də Azərbaycan kitabxanalarının dünya informasiya məkanına daxil olmasının təmin edilməsi məqsədi ilə qərara alıram:

**1.** Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi ilə birlikdə:

**1.1.** Azərbaycan Milli Kitabxanasının modernləşdirilməsi, müasir informasiya texnologiyaları ilə təmin edilməsi və maddi-texniki bazasının möhkəmləndirilməsi ilə bağlı tədbirlər planı hazırlayıb iki ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

**1.2.** Yerli icra hakimiyyəti orqanlarının təkliflərini nəzərə alaraq, Azərbaycanın regionlarında fəaliyyət göstərən kitabxanaların təmirinə, maddi-texniki bazasının möhkəmləndirilməsinə və müasir informasiya daşıyıcılarına ehtiyacının ödənilməsinə dair xüsusi tədbirlər planını hazırlayıb iki ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

**1.3.** Ölkənin iri kitabxanalarının elektron kataloqu və elektron kitabxanasının müasir standartlar səviyyəsinə qaldırılması və onun bazasında "Azərbaycan ədəbiyyatının virtual kitabxanası"nın oxucuların tam istifadəsinə verilməsini təmin etsin.

**2.** Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi müvafiq qurumlarla birlikdə "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"nı hazırlayıb üç ay müddətində Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

**3.** Azərbaycan Respublikasının Təhsil Nazirliyi məktəb kitabxanalarının maddi-texniki bazasının möhkəmləndirilməsinə və müasir informasiya texnologiyaları ilə təchizatına dair tədbirlər planını hazırlayıb iki ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**4.** Azərbaycan Milli Elmlər Akademiyası "Akademiya şəhərciyi"nin ərazisində Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Kitabxanası üçün yeni binanın tikilməsi ilə bağlı təkliflərini bir ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**5.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**6.**Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 20 aprel 2007-ci il**

**“AZƏRBAYCAN RESPUBLİKASINDA 2009-2015-Cİ İLLƏRDƏ ELMİN İNKİŞAFI ÜZRƏ MİLLİ STRATEGİYA”NIN VƏ “AZƏRBAYCAN RESPUBLİKASINDA 2009-2015-Cİ İLLƏRDƏ ELMİN İNKİŞAFI ÜZRƏ MİLLİ STRATEGİYANIN HƏYATA KEÇİRİLMƏSİ İLƏ BAĞLI DÖVLƏT PROQRAMI”NIN TƏSDİQ EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI**

Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan elmində islahatların aparılması ilə bağlı Dövlət Komissiyasının yaradılması haqqında ” 2008-ci il 10 aprel tarixli 2756 nömrəli Sərəncamının 2-ci bəndinin icrasını təmin etmək məqsədi ilə qərara alıram:

1. “Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiya” təsdiq edilsin.
2. “Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiyanın həyata keçirilməsi ilə bağlı Dövlət Proqramı” təsdiq edilsin.
3. Bu Sərəncamın 1-ci və 2-ci bəndlərində qeyd edilən Milli Strategiyanın və Dövlət Proqramının həyata keçirilməsi üzrə əlaqələndirici orqan Azərbaycan Milli Elmlər Akademiyası müəyyən edilsin.
4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.
5. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 4 may 2009-cu il.**

**Abuzər XƏLƏFOV**
***Əməkdar elm xadimi, BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademiki, tarix elmləri doktoru, professor.***

## MÜSTƏQİLLİK İLLƏRİNDƏ ALİ KİTABXANAÇILIQ TƏHSİLİNİN İNKİŞAFI

Müstəqilliyin ilk illərində ölkənin iqtisadi, siyasi, mədəni və mənəvi həyatında baş verən və getdikcə dərinləşən böhran və ziddiyyətlər təhsil sistemini böyük çətinliklər qarşısında qoymuşdu. Müsavat və Xalq Cəbhəsi cütlüyünün uğursuz siyasəti nəticəsində yaranmış iqtisadi çətinliklər, xaos, hərc - mərclik, hökumətin həyata keçirdiyi düşünülməmiş tədbirlər ali məktəblərin, o cümlədən Bakı Dövlət Universitetinin həyatında da güclü tənəzzülə səbəb olmuşdu.

Maddi vəziyyət ağır olduğundan onlarla ali məktəb müəllimləri təhsil sistemini tərk etmişdi. Yalnız 1993-cü ilin yayında Heydər Əliyevin xalqın təkidi ilə ölkə rəhbərliyinə gəlməsi Azərbaycan təhsilini böhrandan xilas etdi. Ulu öndər təhsil sisteminə müstəqil Azərbaycan quruculuğunun ayrılmaz tərkib hissəsi kimi baxırdı. Məhz buna görədir ki, dövlətin təhsil sahəsində həyata keçirdiyi tədbirlər, təhsil sistemində yeni islahatların aparılması, dünyanın qabaqcıl ölkələrinin təhsil sahəsindəki təcrübələrindən istifadə edilməsi ali məktəblərin maddi - texniki bazasının möhkəmləndirilməsi, professor-müəllim heyətinin və tələbələrin sosial vəziyyətinin yaxşılaşdırılması, ali məktəblərdə demokratiyanın gücləndirilməsi, yeni azərbaycançılıq ideyalarına, yeni dünya baxışına, təfəkkür tərzinə söykənən dərsliklərin və dərs vəsaitlərinin yazılması və s. tədbirlər müstəqil Azərbaycan təhsil sisteminin yaradılması və daha da inkişafı üçün əlverişli şərait yaratdı.

Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi 34 illik fəaliyyəti dövründə "xalqın milli sərvəti" hesab etdiyi Bakı Dövlət Universitetinə böyük diqqət və qayğı göstərmişdi. Müstəqilliyin ilk illərində Heydər Əliyev universitetin inkişafını təmin etmək, yeni şəraitdə fəaliyyətini canlandırmaq, tədris və təhsilin keyfiyyətini yüksəltmək, maddi-texniki bazasını möhkəmləndirmək, təhsil islahatının həyata keçirilməsi işini sürətləndirmək, əməkdaşların sosial

problemlərini yaxşılaşdırmaq, universitet təhsilinin nüfuzunu artırmaq məqsədi ilə ciddi tədbirlər həyata keçirməyə başladı.

Heydər Əliyevin sərəncamları ilə universitetin 75, 80 illik yubileyləri keçirildi.

Heydər Əliyevin sərəncamları və tövsiyələri əsasında BDU-nun rəhbərliyi yeni şəraitə uyğun olaraq təhsilin və tədrisin keyfiyyətini yüksəltmək məqsədilə konsepsiya işləyib hazırladı. Keçən illər boyu bu konsepsiyanın yerinə yetirilməsi uğurla davam etdirilmişdir. İndi böyük iftixar hissi ilə demək olar ki, Bakı Dövlət Universiteti müstəqillik illərində böyük inkişaf yolu keçmiş, dünyanın qabaqcıl universitetlərindən biri kimi şöhrət qazanmışdır.

Müstəqilliyin ilk illərində Bakı Dövlət Universitetinin Kitabxanaçılıq fakültəsi də böyük çətinliklərlə üzləşdi. Fakültənin qəbul planı yarıbayarı azaldı. Tələbələrin yeni dərsliklər, dərs vəsaitləri, proqramlarla təmin edilməsi işi olduqca çətinləşmişdi. Məlum olduğu kimi, SSRİ dövründə fakültə tədris planlarını, kitabxanaşünaslıq və biblioqrafiyaya dair bütün fənn proqramlarını Moskvadan alırdı. Moskva ilə əlaqə kəsildikdən sonra onları əldə etmək olduqca çətinləşdi. Yaxın müddətdə hazırlanması böyük vaxt və səriştə tələb edən belə vəsaitləri çap etmək və tələbələrin istifadəsinə vermək mümkün deyildi. Bu da özlüyündə tədris prosesinin təşkilinə və onun keyfiyyətinin yüksəlməsinə mənfi təsir göstərməyə bilməzdi.

Universitetdə aparılan yenidənqurma işləri və islahatlar, əldə edilən uğurlar fakültənin işinə də müsbət təsir göstərməyə, qəbul planı ilbəil artırılmağa başlandı. Kafedraların kadr potensialı möhkəmləndi. Yüksək ixtisaslı müəllim kadrları hazırlamaq üçün şərait yarandı.

Müstəqillik illərində fakültənin işinin yenidən qurulmasında, fakültə kollektivinin universitetdə aparılan təhsil islahatlarına cəlb edilməsində fakültə dekanlığının və ixtisas kafedralarının işi təqdirəlayiq olmuşdur. Müstəqilliyin ilk illərində fakültə dekanı vəzifəsində Kitabxanaşünaslıq kafedrasının müdiri prof. A.Xələfov işləmiş, 1993-1994-cü tədris ilindən isə bu vəzifəni fakültənin yetişdirməsi prof. X.İsmayılov tutmuşdur. O, indiyə qədər bu vəzifədə müvəffəqiyyətlə fəaliyyət göstərməkdədir.

Müstəqilliyin ilk illərində fakültədə 4 kafedra- Kitabxanaşünaslıq, Biblioqrafiyaşünaslıq, Kitabxana fondu və kataloqların təşkili və Kitabşünaslıq kafedraları, 3 tədris laboratoriyası - Kitabxana işinin təşkili və idarə olunması, Kitabxana fondu və kataloqların təşkili və Biblioqrafik axtarış sistemlərinin təşkili laboratoriyaları fəaliyyət göstərirdi. Fakültədə 40 nəfərə yaxın professor-müəllim və köməkçi texniki heyət çalışırdı.

Müstəqilliyin ilk illərində keçid dövrünün çətinlikləri ilə əlaqədar fakültəyə tələbə qəbulu azalmağa başladı. 1995-ci ildə universitetin axşam şöbəsində tələbə hazırlığından imtina etməsi ilə əlaqədar fakültənin axşam şöbəsi və qiyabi rus bölməsi bağlandı. Bütün bunlar tələbə qəbuluna mənfi təsir göstərdi.

Fakültə rəhbərliyi tələbə qəbulu məsələsinə çox həssaslıqla yanaşır, qəbulun azalmaması üçün universitet rəhbərliyi və dövlət orqanları qarşısında məsələ qaldırırdı. Fakültənin bu səyi nəticəsiz qalmadı. 90-cı illərin ikinci yarısından başlayaraq tələbə qəbulu tədricən artmağa başladı. Artıq 90-cı illərin axırında hər il fakültəyə 130 nəfər tələbə qəbul edildi. 90-cı illərin əvvəllərində fakültədə iki ixtisas üzrə: kitabxanaşünaslıq-biblioqrafiya, kitabşünaslıq və kitab ticarətinin təşkili ixtisası üzrə kadr hazırlandı. 1997-ci ildə Azərbaycan Respublikası Təhsil Nazirliyi kitab əmtəəşünaslığı ixtisası üzrə tələbə qəbulunu dayandırdı. Bu vəziyyəti düzgün hesab etməyən fakültə rəhbərliyi çox düzgün mövqe tutaraq, fakültədə kitab ticarətinin təşkili ixtisasının əvəzinə, respublikamızda indiyə qədər kadr hazırlanmayan, ancaq yüksək ixtisaslı mütəxəssis kadrlara böyük ehtiyac duyulan "Nəşriyyat işi və redaktə etmə" ixtisası üzrə şöbə yaratmağa müvəffəq oldu. Beləliklə, 1997-ci ildən başlayaraq Nəşriyyat işi və redaktəetmə ixtisasının gündüz şöbəsinə 30 nəfər tələbə qəbul edildi. Bu şöbənin ilk buraxılışı 2000-ci ildə oldu. Nəşriyyat işi və redaktəetmə ixtisası üzrə 2008-ci ilə kimi 387 nəfər yüksək ixtisaslı kadr hazırlanmışdır.

Kadr hazırlığı fəaliyyətini müvəffəqiyyətlə davam etdirən Kitabxanaçılıq-informasiya fakültəsi 1991-2009-cu illərdə iki ixtisas: Kitabxanaşünas-biblioqrafiya və Nəşriyyat işi və redaktəetmə ixtisasları üzrə 2481 nəfər yüksək ixtisaslı bakalavr kadr hazırlamağa müvəffəq olmuşdur. Fakültə həmçinin müstəqillik illərində kadr hazırlığının keyfiyyətində böyük dəyişiklik etməyə müvəffəq oldu. İnformasiya cəmiyyətinin kitabxana işi qarşısında qoyduğu vəzifələrə müvafiq olaraq tədrisin təşkilində yeni keyfiyyət dəyişikliyi etmək üçün tədris planında dəyişikliklər edildi. Tədris planına cəmiyyətin informasiya tələbatını ödəmək üçün informasiya texnologiyasına, kitabxana işinin kompüterləşdirilməsinə dair yeni fənlər salındı. Bu mühüm problemi həll etmək üçün isə fakültənin adının dəyişdirilməsi ideyası irəli sürüldü. 2004-cü ildə fakültə elmi şurası fakültənin adının dəyişdirilib "Kitabxanaçılıq-informasiya" fakültəsi qoyulması haqqında fikir irəli sürdü. Bu təklif son on ildə universitetin maddi-texniki bazasının yüksəldilməsində, universitet təhsilinin dünya standartları səviyyəsinə yüksəldilməsində böyük işlər görmüş rektor, akademik Abel Məhərrəmov tərəfindən müsbət qarşılandı və 2004-cü ildən fakültə Kitabxanaçılıq-informasiya fakültəsi adlandırılmağa başladı. Fakültənin adının dəyişdirilməsi ilə əlaqədar, fakültədə informasiyaya aid fənlərin keçirilməsinə geniş şərait yarandı. Fakültənin tədris planına müasir informasiya cəmiyyətinin tələblərini ödəyə biləcək yeni fənlər salındı.

**Kitabxanaşünaslıq kafedrası üzrə:**

"Kitabxana işinin kompüterləşdirilməsinin əsasları", "Kitabxana iqtisadiyyatı, kitabxana işinin texniki vasitələri", "Uşaqlara və gənclərə kitabxana xidməti", "Dünya kitabxanalarının tarixi", "Kitabxana marketinqi",

“Kitabxana informatikası”, “Patent və normativ texniki sənədlər”, “Kitabxanalarda patent informasiya texnologiyası”, “Dünya milli kitabxanaları”, “Kitabxanaşünaslığın tarixi, nəzəriyyəsi və metodologiyası”, “Kitabxanaşünaslığın müasir problemləri”.

**Biblioqrafiyaşünaslıq kafedrası üzrə:**

“Biblioqrafik proseslərin texniki vasitələri və avtomatlaşdırılmış informasiya axtarış sistemləri”, “Normativ texniki və patent sənədlərinin biblioqrafiyası”.

**Kitabxana resursları və informasiya axtarışı sistemləri kafedrası üzrə:**

“Mərkəzləşdirilmiş kitabxana sistemlərində (MKS) informasiya axtarış sistemləri”, “Kataloqlaşdırmanın müasir problemləri”, “Sənədlərin elmi sistemləşdirilməsi metodikası”, “Sənədlərin predmetləşdirilməsi”, “Predmet kataloqu və onun avtomatlaşdırılması”.

**Kitabşünaslıq və nəşriyyat işi kafedrası üzrə:**

“Kitabşünaslığın müasir problemləri”, “Kitabşünaslığın tarixi, nəzəriyyəsi və metodologiyasının əsasları”, “Kitab sosial və kütləvi kommunikasiya sistemində, Mətn nəzəriyyəsi”, “Nəşriyyat işində menecment və marketinq” və s.

Azərbaycan Respublikasının Milli Məclisi 1992-ci ilin dekabrında “Azərbaycan Respublikasının Təhsil Qanunu”nu qəbul etdi. Respublikamızda təhsil islahatlarının aparılmasında bu qanunun mühüm rolu oldu. 6 bölmə 58 maddədən ibarət olan bu qanunda təhsilin bütün sahələri: təhsil sahəsində dövlət siyasəti, vətəndaşların təhsil hüquqları, təhsilin dili, təhsil və din, təhsil sisteminin idarə olunması, təhsil prosesinin iştirakçıları, onların hüquqları, vəzifələri və sosial müdafiəsi, təhsil sisteminin maliyyələşdirilməsi, maddi-texniki bazası, təhsil sahəsində beynəlxalq əməkdaşlıq məsələləri əksini tapmışdır. Burada ali təhsil sistemində ciddi dəyişikliklərin aparılması nəzərdə tutulmuş, Azərbaycanın tarixində ilk dəfə olaraq çoxpilləli təhsilə keçilmişdir.

1992-1993-cü dərs ilində yeni Təhsil Qanunu respublikamızın ali məktəblərində tətbiq edilməyə başladı.

BDU yeni Təhsil Qanununa keçən ilk tədris müəssisələrindən biri olmuşdur. Yeni təhsil sisteminə keçmək üçün universitetin bütün fakültələrində hazırlıq işləri görüldü, komissiyalar yaradıldı. Həm fakültələr, həm də universitet miqyasında qanunun əsas müddəalarını öyrənmək və onu tezliklə tətbiq etmək üçün müzakirələr, metodik müşavirələr, elmi şuralar keçirildi.

Universitetin Elmi Şurası 1993-cü ildə bütün fakültələrdə çoxpilləli təhsil sisteminin ardıcıl həyata keçirilməsi üçün dördillik “Bakalavr” tədris planlarının tərtib edilməsi haqqında qərar çıxardı. Məlumdur ki, qərar qəbul edilənə qədər Azərbaycanda ali təhsilli kadrların hazırlanması SSRİ ali təhsil sisteminə əsaslanırdı və təhsil birpilləli idi. Ali təhsil ali məktəbin tipindən asılı olaraq 4 və 5 illik idi. Bir qayda olaraq bütün universitetlərdə (o zaman universitetlər olduqca az idi, Azərbaycanda cəmi bir universitet BDU fəaliyyət

göstərirdi. Xalq təsərrüfatının ayrı-ayrı sahələri üçün kadr hazırlayan ali məktəblər institut adlanırdı) beşillik təhsil sistemi tətbiq edilirdi.

Azərbaycan Respublikasının Təhsil Qanununa görə bütün universitetlərdə çoxpilləli təhsil sistemi tətbiq edildi. İlk dəfə olaraq respublikamızda Avropa təhsil sisteminə keçildi. Yeni təhsil sistemi üç pillədən ibarət idi: bakalavr, magistr, doktor.

İkipilləli ali təhsil müəssisələrinin birinci pilləsini bitirənlər mövcud dövlət standartlarına müvafiq olaraq ümumi ali təhsili başa vurur, öyrəndiyi ixtisasın ümumi məsələlərinə yiyələnir. Fakültə elmi şuralarının qərarı ilə "Bakalavr" ixtisas və elmi dərəcəsi alan tələbələrin ali məktəblərdə və elmi müəssisələrdə işləmək hüququ yoxdur.

"Bakalavr" təhsil pilləsi buraxılış işi yazıb dövlət imtahan komissiyası qarşısında müdafiə etmək və istiqamət üzrə yekun dövlət imtahanı verməklə başa çatır. "Bakalavr" dərəcəsi almış mütəxəssislər qəbul imtahanı verib magistraturaya qəbul olurlar. Magistratura əsasən dərin ixtisaslaşmalar aparılmaqla fərqlənir. Bu və ya digər elmin ayrı-ayrı sahələri araşdırmalar, tədqiqatlar vasitəsilə öyrədilir. Belə araşdırmalarda magistrlərin bilavasitə iştirak etməsi, buraxılış dissertasiya işi yazması onların elmi işçi kimi formalaşmasına imkan yaradır. Magistraturada həmçinin gələcək mütəxəssislərin yüksək dərəcəli elmi işçi, müəllim, aparıcı alim olacağını nəzərə alaraq, dünya elmi və mədəni sərvətlərinə yiyələnə bilmək bacarığı aşılamaq üçün xarici dillərdən heç olmasa birini mükəmməl bilməsi tələb olunur. Magistraturanı başa vuranlar müdafiə etdikləri elmi işə görə ixtisaslaşdırılmış elmi şuranın qərarı ilə "Magistr" ixtisası və elmi dərəcəsi alır. Bu dərəcə ona seçdiyi ixtisas üzrə ən yüksək pillələrdə, ali məktəblərin "Bakalavr" pilləsində, elmi tədqiqat müəssisələrində, birpilləli institutlarda, kolleclərdə işləmək hüququ verir. "Magistr" ixtisas və elmi dərəcəsi almış şəxslər istehsalatda da yüksək vəzifələrdə işləmək hüququna malikdirlər.

Kadr potensialı və maddi-texniki bazası imkan verən, müxtəlif ixtisaslar üzrə böyük laboratoriyalara, elmi-təcrübi bazalara malik olan bəzi universitetlər və akademiyalar üçpilləli təhsil sisteminə keçə bilərlər. Magistr hazırlığına icazə verən ali məktəblərə magistraturaya test vasitəsilə qəbul imtahanları verən şəxslər qəbul edilirlər. Magistraturanı qurtaran şəxslər doktoranturaya qəbul edilə bilirlər. Üç il müddətində doktoranturada tədqiqatlarını davam etdirən, öz elmi işlərinin nəticələrini doktorluq dissertasiyası kimi ixtisaslaşdırılmış elmi şuralarda müdafiə edən şəxslər doktoranturanı bitirmiş hesab edilirlər. Doktorlar universitetlərdə, institutlarda, elmi tədqiqat müəssisələrində, təcrübə bazalarında və s. işləyə bilərlər.

Azərbaycan Respublikası Təhsil Qanununun əsas müddəalarını tətbiq etmək üçün kitabxanaçılıq fakültəsinin kollektivi mühüm tədbirlər həyata keçirməyə başladı. İlk əvvəl qanunu öyrənmək məqsədilə ixtisas kafedralarında və fakültə

elmi şurasında qanunun müzakirəsi keçirildi, tədbirlər planı tərtib edildi. Qərara alındı ki, yeni qanuna müvafiq "Bakalavr" hazırlamaq üçün tədris planı hazırlansın. Əlbəttə, bu iş o qədər də asan deyildi. Çünki 1993-cü ilə qədər fakültə 5 illik tədris planı əsasında işləmişdi. Yeni plan isə 4 illik olmalı idi.

4 illik tədris planı hazırlamaq üçün o qədər də zəruri olmayan bir sıra fənlər çıxarılmalı, bir sıra fənlərin, o cümlədən ixtisaslaşma fənlərinin saatları isə azaldılmalı idi. Bu planda istehsalat təcrübələrinin də saatları xeyli azalmışdı. Ciddi müzakirələrdən sonra "Bakalavr" ali baza tədris planı tərtib etmək mümkün oldu. Tədris planı fakültə elmi şurasında, universitet elmi şurasında, sonra Təhsil Nazirliyində təsdiq edildi. Yeni 4 illik "Bakalavr" ali baza tədris planı təsdiq edilənə qədər fakültə 1989-cu ildə Moskvada kitabxanaşünaslıq təhsili üzrə ümumittifaq elmi metodik şurası tərəfindən təsdiq edilmiş 5 illik tədris planı ilə işləyirdi. Tədris planı tərtib etmək sahəsində kitabxanaçılıq fakültəsinin böyük təcrübəsi var idi. 1989-cu ildə SSRİ dövründə tərtib edilmiş beşillik tədris planı fakültənin dekanı prof. Abuzər Xələfov tərəfindən tərtib edilmiş və Moskva şəhərində kitabxanaşünaslıq təhsili üzrə ümumittifaq elmi-metodik şurasında müzakirə və təsdiq edilmişdi. Şura bu tədris planının yüksək elmi və tədris keyfiyyətlərini, dünya standartlarına cavab verdiyini nəzərə alaraq onun SSRİ-nin bütün universitetlərində tətbiqini tövsiyə etmişdi. Bu plan məzmunu etibarılə kitabxanaçı kadrların hazırlanması sahəsində dünya standartlarına cavab verən, ən mükəmməl və gələcək perspektivləri nəzərə alan bir tədris planı idi. Avropa ölkələrində kitabxanaçı kadrlar hazırlayan tədris planlarına uyğun gələn bu planda riyazi və texniki elmlərin tədrisinə geniş yer verilmiş, kompüter texnikasının öyrənilməsinə xeyli vaxt ayrılmışdı. Bu da fakültəyə imkan verirdi ki, respublikanın şəraitinə və tələbatına uyğun kadrlar hazırlasın.

1993-cü ildə Azərbaycan Respublikasının Təhsil Qanununa müvafiq çoxpilləli təhsil prosesinə keçərkən kitabxanaçılıq fakültəsində yeni tədris planı hazırlandı. Bu planın əsasında 1989-cu ildə Moskvada təsdiq edilmiş tədris planı dururdu. Planda müasir şəraitdə Azərbaycanın müstəqilliyi ilə əlaqədar bir sıra ciddi dəyişikliklər edildi. Hər şeydən əvvəl Azərbaycan tarixi, Azərbaycan dili və ədəbiyyatı, xarici dil fənlərinin tədrisinə xüsusi diqqət yetirildi. Tədris planında olduqca geniş yer tutmuş ictimai fənlərin saatları azaldıldı və bir sıra fənlər çıxarıldı. Bundan başqa, ixtisas fənlərinin tədrisində də bir sıra yeniliklər baş verdi. 4 illik təhsil müddətinə keçilməsinə baxmayaraq ixtisas fənlərinin saatları nəinki azaldılmadı, əksinə, yeri gəldikcə kitabxanaşünaslıq, biblioqrafiya və kitab tarixi fənləri üzrə artırıldı. Belə ki, respublikamızın milli xüsusiyyətləri nəzərə alınaraq "SSRİ-də və xarici ölkələrdə kitabxana işinin tarixi" fənninin tərkib hissəsi kimi tədris edilən "Azərbaycanda kitabxana işinin tarixi", həmçinin "Azərbaycanda kitab tarixi" və "Azərbaycan biblioqrafiyasının tarixi" fənlərinin müstəqil fənn kimi tədris

edilməsi nəzərdə tutuldu. Yeni təhsil sisteminə birbaşa yox, tədricən keçməyin daha məqsədəuyğun olmasını nəzərə alan fakültə elmi şurası "Bakalavr" tədris planlarında müvəqqəti olaraq keçid dövründə ixtisaslaşmalar aparılmasının saxlanılmasını lazım bildi. Bu, əsas etibarılə dərs saatlarının azalmasının qarşısının alınması və "Bakalavr" ixtisas dərəcələrində keçilməsi zəruri olan fənlərin formalaşdırılmasına qədər ənənəvi ixtisaslaşmalardan istifadə edilməsi üçün saxlanılmışdı.

Lakin 4 illik "Bakalavr" tədris planı uzunömürlü olmadı. Cəmisi 4 il keçdikdən sonra bu planı yenisi ilə əvəz etmək zərurəti meydana çıxdı. Keçən müddət ərzində respublikamızın ali məktəbləri "Bakalavr" hazırlamaq sahəsində müəyyən təcrübə əldə etdilər, həmçinin xarici ölkələrdəki ali məktəblərin işi ilə tanış olmaq imkanı qazandılar. Bu müddətdə Təhsil Nazirliyinin yaratdığı yüksək ixtisaslı mütəxəssislərdən ibarət komissiya təhsil standartlarını hazırladı. Ayrı-ayrı ixtisaslar, o cümlədən kitabxanaşünaslıq-biblioqrafiya ixtisası üzrə standartların yaradılması yeni tədris planlarının tərtibinə və təhsil prosesinin keyfiyyətinin yüksəldilməsinə müsbət təsir göstərdi. Standartda müəyyən bir ixtisas üzrə kadr hazırlığı zamanı tədris planına daxil ediləcək bütün predmetlərin qısa proqramının verilməsi və öyrənilmə dərəcəsinin müəyyənləşdirilməsi tədris planlarının tərtibində mühüm rol oynadı.

1996-cı ildə Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən hazırlanıb təsdiq edilən ixtisas standartları 1997-ci ildə "Bakalavr" pilləsi üzrə yeni tədris planlarının hazırlanmasına kömək etdi. Azərbaycan Respublikası Təhsil Nazirliyində təhsil standartları hazırlayan komissiyanın kitabxanaşünaslıq və biblioqrafiya ixtisasları üzrə sədri Kitabxanaşünaslıq kafedrasının müdiri prof. Abuzər Xələfov olmuşdur.

Kitabxanaşünaslıq və biblioqrafiya üzrə ixtisas standartı fakültəmizin tarixində ilk dəfə hazırlanmışdı. Komissiya uzunmüddətli axtarışlar aparmış, bir çox xarici ölkələrin ixtisas standartları ilə tanış olmuş, yerli şəraiti və tarixi ənənələrimizi nəzərə alaraq bu standartı tərtib etmişdir.

Bu standarta müvafiq olaraq tərtib edilən yeni "Bakalavr" ixtisası tədris planı daha da təkmilləşdirilmiş, Avropa ölkələrinin çoxpilləli "Bakalavr" tədris planlarına uyğunlaşdırılmışdır. Planda respublikamızın milli xüsusiyyətləri, tarixi, tədris ənənələri nəzərə alınmış, elmi-texniki tərəqqinin son nailiyyətləri öz əksini tapmışdır.

1997-ci ildə tərtib edilmiş kitabxanaşünaslıq və biblioqrafiya üzrə tədris planında ixtisaslaşmalar çıxarılmış, onların yerini ümumi ixtisas kurslarının daha mükəmməl tədrisi tutmuşdur.

Həmçinin yeni dövrün tələblərinə uyğun olaraq ixtisas fənləri üzrə bir sıra ümumi kurslar plana daxil edilmişdir. Kitabxanaşünaslıq üzrə "Kitabxana iqtisadiyyatı", "Uşaqlara kitabxana xidməti", "Normativ-texniki və xüsusi növ

sənədlərin təsviri, təsnifləşdirilməsi", "Kitabxanada kataloqlaşdırma proseslərinin mexanikləşdirilməsi və avtomatlaşdırılması" fənlərini; biblioqrafiya üzrə: "Uşaq və gənclər üçün ədəbiyyatının biblioqrafiyası", "Normativ-texniki sənədlərin və patent ədəbiyyatının biblioqrafiyası" fənlərini buna misal göstərə bilərik.

1997-ci ildə respublika ali məktəblərinin bütün fakültələrində "bakalavr" ixtisas dərəcəsi üzrə, yəni təhsilin birinci pilləsi üzrə ilk buraxılış oldu. Bununla əlaqədar Azərbaycan Respublikasının Təhsil Nazirliyi təhsilin ikinci pilləsini - "Magistratura" pilləsini davam etdirmək haqqında xüsusi sərəncam verdi və bu sərəncamda respublika üzrə "Magistr" hazırlanan ixtisasların siyahısı sadalandı. Bu siyahıya "Kitabxanaşünaslıq", "Biblioqrafiyaşünaslıq", "Kitabşünaslıq və nəşriyyat işi" ixtisasları da daxil edilmişdir.

Fakültə nazirliyin əmrinə müvafiq olaraq "Kitabxanaşünaslıq", "Biblioqrafiyaşünaslıq" və "Kitabşünaslıq və nəşriyyat işi" magistr tədris planını tərtib etməyə başladı. Təhsil Nazirliyi tərəfindən müəyyən təlimati məktublar, standartlar, nümunələr göndərilməsinə baxmayaraq, fakültə üçün yeni olan "Magistr" tədris planının tərtibi ciddi axtarışlar və müzakirələr tələb edirdi. Kollektivin qarşısında mühüm vəzifə qoyulmuşdu. Fakültənin kollektivi və elmi şurası bu işin öhdəsindən müvəffəqiyyətlə gəldi. Kitabxanaçılıq fakültəsi 1997-ci ildə magistr planını tərtib edib başa çatdırdı. Bu planda əyani şöbədə təhsil müddəti iki il nəzərdə tutulmuşdur. Fakültənin tərtib etdiyi magistr təhsil planı 1997-ci ilin iyun ayında Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən təsdiq edilmişdir.

1999-2000-ci tədris ilindən başlayaraq Kitabxanaçılıq – informasiya fakültəsinə üç ixtisas: Kitabxanaşünaslıq, Biblioqrafiyaşünaslıq, Nəşriyyat işi və redaktəetmə ixtisasları üzrə magistr qəbuluna başlandı. 2000-ci ildə magistraturaya 6 nəfər qəbul edildi. İlk illər çətin olsa da fakültənin kafedraları magistr hazırlamaq işinin öhdəsindən müvəffəqiyyətlə gəldi. 2002-ci ildə fakültədə ilk magistr buraxılışı oldu. Fakültəni altı nəfər magistr bitirdi. Universiteti bitirən magistrlər hazırda BDU-da və respublikanın elmi-texniki kitabxanalarında müvəffəqiyyətlə çalışırlar. Müstəqillik illərində fakültənin magistratura şöbəsini 75 nəfər müvəffəqiyyətlə bitirmişdir.

90-cı illərdə respublikamızın müstəqilliyi ilə əlaqədar yeni dövrün tələbatına uyğun böyük təşkilati və elmi metodik işlər həyata keçirilmişdir.

Respublikamızda müstəqil, suveren, demokratik dünyəvi dövlətin qurulması, sosializm quruculuğundan, marksizm-leninizm nəzəriyyəsindən imtina edilməsi, hər şeydən əvvəl təhsilin demokratikləşdirilməsini və humanistləşdirilməsini, onun məzmununda böyük ideoloji dəyişikliklər aparılmasını, başqa sözlə, onun elmi-nəzəri və metodoloji əsaslarının yeni təfəkkür tərzi, yeni dünyagörüşü baxımından işlənilməsini tələb edirdi. Göstərilən vəzifələrin öhdəsindən tez bir müddət içərisində gəlmək o qədər də

asan iş deyildi. Bu işin yerinə yetirilməsində bütün kollektivin səyi tələb olunurdu.

Kollektiv 90-cı illərin əvvəllərindən başlayaraq ilk növbədə fakültədə tədris edilən bütün dərs proqramlarını yenidən işləməyə başladı. Proqramların yenidən işlənməsi, bəzi proqramların isə yenidən tərtib edilməsi olduqca məsuliyyətli idi. Bütün proqramlar suverenliyimizin qarşıya qoyduğu tələblərə cavab verməli, milli ideologiyamıza uyğun yenidən işlənməli, bəşəri sərvətlərlə zənginləşməli idi. Proqramların məzmunundan kommunist ideologiyasının çıxarılması, yeni demokratik əsasda işlənilməsi tələb edilirdi. Məlumdur ki, kommunist rejimi zamanı SSRİ-də kitabxanaşünaslıq səhv olaraq iki yerə ayrılmışdır: sovet kitabxanaşünaslığı və burjua kitabxanaşünaslığı. Sovet kitabxanaşünaslığı dünya kitabxanaşünaslığının əsas müddəalarını burjua ideologiyası adlandıraraq ondan imtina edirdi. Bu da sovet kitabxanaşünaslığı deyilən kitabxanaşünaslığın dünya kitabxanaşünaslığından təcrid olunmasına, ümumbəşəri sərvətlərdən məhrum edilməsinə gətirib çıxarmışdı.

Məhz buna görədir ki, yeni cəmiyyət quruculuğu bazar iqtisadiyyatı şəraitində kitabxana işinin, kitabxanaşünaslıq elminin demokratik, elmi-nəzəri və metodoloji əsaslarının yenidən işlənməsi və kitabxanaşünaslığın gələcəyinin müəyyənləşdirilməsi zərurəti meydana çıxırdı.

Yeni iqtisadi və siyasi sistemin təşəkkül tapdığı bir zamanda başlıca söhbət kitabxana işi sahəsində mövcud prinsiplərin yeniləşdirilməsindən və qismən dəyişdirilməsindən deyil, onların köklü surətdə təzədən formalaşdırılmasından gedirdi. Bu da hər şeydən əvvəl keçmiş totalitar rejimdən, sosializm quruculuğu illərindən miras qalmış kitabxanaların ideologiyalaşdırılması, sinfilik, partiyalılıq kimi anti-elmi və qeyri-humanist prinsiplərin rədd edilməsini, onun dünyəvi, humanist prinsiplərlə əvəzlənməsini tələb edirdi.

Bütün bu nəzəri müddəalar kitabxanaşünaslığa dair tərtib edilmiş yeni proqramlarda öz əksini tapdı. Kitabxanaşünaslıq, Kitabxana fondu və kataloqların təşkili, Biblioqrafiyaşünaslıq və Kitabşünaslıq kafedraları da yeni cəmiyyət quruculuğu və bazar iqtisadiyyatına keçid şəraiti ilə əlaqədar öz proqramlarını yenidən, müstəqilliyimizlə əlaqədar nəzəri cəhətdən təkmilləşdirmişlər. Kitabxanaşünaslıq fənləri üzrə 30-dan artıq proqram, Biblioqrafiyaşünaslıq fənləri üzrə 27 proqram, Nəşriyyat işi və redaktəetmə ixtisası üzrə 20-dən artıq proqram yenidən işlənib nəşr edilmişdir. Demək olar ki, fakültədə tədris edilən bütün fənlər proqramlarla təmin edilmişdir.

Fakültə kollektivinin 90-cı illər fəaliyyətində tərtib edilmiş yeni fənn proqramlarına uyğun dərsliklərin, dərs vəsaitlərinin, metodik vəsaitlərin yazılıb nəşr edilməsi də mühüm yer tutur. Keçid dövrünün hər cür çətinliyinə baxmayaraq fakültə alimlərinin ciddi səyi nəticəsində Azərbaycanın tarixində ilk dəfə olaraq orijinal dərsliklər və dərs vəsaitlərinin yazılıb çap etdirilməsinə nail olunmuşdur.

**Kitabxanaşünaslıq kafedrası üzrə:**

**Dərsliklər:**

1.Abuzər Xələfov. Kitabxanaşünaslığa giriş: Dərslik. I hissə.-B., 2001.-400 s.

2.Abuzər Xələfov. Kitabxanaşünaslığa giriş: Dərslik. II hissə.-B., 2003.-314 s.

3.Abuzər Xələfov. Azərbaycanda kitabxana işinin tarixi: Dərslik. I hissə (ən qədim dövrlərdən XX əsrə qədər).-B., 2004.- 328 s.

4.Abuzər Xələfov. Azərbaycanda kitabxana işinin tarixi: Dərslik. II hissə (XX əsrin birinci yarısında Azərbaycanda kitabxana işi).-B., 2007.- 552 s.

5.Abuzər Xələfov. Kitabxanaların kompüterləşməsinin əsasları: Dərslik.-B., 2006.-106 s.

6.Əli Rüstəmov. Kitabxana informatikası.-B., 2002.- 551 s.

**Dərs vəsaitləri:**

1.Abuzər Xələfov. Kitabxanaşünaslığa giriş.-B., 1996.- 58 s.

2.Abuzər Xələfov. Kitabxana işinin tarixi kursuna giriş.-B., 1996.-38 s.

3.Xəlil İsmayılov. Kitabxana işinin idarə edilməsinin metodikası və təşkilati məsələləri.-B., 1995.- 96 s.

4.Xəlil İsmayılov. Kitabxana menecmentinin əsasları.-B., 2005.-200 s.

5.Rasim Kazımov. Bazar iqtisadiyyatı və kitabxanalar.- B., 1996, 3 s.

6.Rasim Kazımov. Kitabxana işinin iqtisadiyyatı: Dərs vəsaiti.-B., 2004.- 88 s.

7.Rzayev Sahib. Oxuculara xidmət (Kitabxana xidməti): Dərs vəsaiti.-B.: BUN, 2002.-64 s.

8.Əli Rüstəmov. Respublika soraq-informasiya fondlarının avtomatlaşdırılması.-B., 1990.-203 s.

9.Əli Rüstəmov. İnformatika: Dərs vəsaiti.-B., 2001.-190 s.

10. Zğhrab Baxşəliyev. Kitabxanaşünaslığa giriş.-B., 1998.-92 s.

11. Murtuz Zəngibasarlı və b. Azərbaycan Respublikası Elmi Pedaqoji kitabxanası.-B., 1997.-98 s.

12. Elçin Əhmədov. Dünya milli kitabxanaları: Dərs vəsaiti.-B., 2007.-140 s.

13. Knyaz Aslan. Azərbaycanda təhsil sisteminə kitabxana xidməti: Dərs vəsaiti.-B.:BUN, 2005.-300 s.

14. Knyaz Aslan. Qədim və orta əsrlər dünya kitabxanaları: Dərs vəsaiti.-B.:BUN, 2008.-288 s.

15. Knyaz Aslan. Dünya kitabxanalarının tarixi: Dərs vəsaiti.-B.:BUN, 2008.-296 s.

16. Mehmanəli Məmmədov. Oxucu sorğularının ödənilməsində kitabxanalararası abonementin rolu. M.F.Axundov adına Azərbaycan Dövlət kitabxanası.-B., 1993.-34 s.

17. Mehmanəli Məmmədov. Kitab çeşidi işinin nəzəriyyəsi və metodikası: Dərs vəsaiti.-B.:Mütərcim, 2005.- 112 s.

18. Məmmədov Mehmanəli. Respublika Elmi-Texniki Kitabxanasında KAA-nın təşkili.-Bakı Dövlət Universiteti.-B., 1994.- 42 s.

Müstəqillik illərində fakültənin kollektivi dərslik və dərs vəsaitləri ilə yanaşı olaraq kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və kitabşünaslığın aktual problemlərinə dair ciddi elmi-tədqiqatlar aparmış və öz tədqiqatlarının nəticələrini monoqrafiya kimi nəşr etdirmişlər. Uzun müddətli elmi-tədqiqatların elmi nəticəsi olan milli kitabxanaşünaslıq elmini yeni elmi-nəzəri və metodoloji müddəalarla zənginləşdirən bu qiymətli elmi-tədqiqat əsərləri milli kitabxanaşünaslığımıza dəyərli töhfələrdir.

**Monoqrafiyalar:**

1.Abuzər Xələfov. Heydər Əliyev və Azərbaycanda kitabxana işi.-B.:Azərnəşr, 2006.-312 s.

2.Abuzər Xələfov XXI əsrin əvvəllərində Azərbaycanda kitabxana işinin əsas inkişaf istiqamətləri (mülahizələr, təkliflər, proqramlar).-B., 2006.- 106 s.

3.Abuzər Xələfov. Azərbaycanda ali kitabxanaçılıq təhsili. B.,1998.- 130 s.

4.Xəlil İsmayılov. Azərbaycan Respublikasında kitabxana işinin metodik təminat sisteminin inkişaf tarixi.-B., 200.- 416 s.

5.Knyaz Aslan. Şəxsiyyətin formalaşmasında bədii ədəbiyyatın rolu (Azərbaycan kitabxanalarının materialları əsasında).-B., 2005.- 300 s.

6.Knyaz Aslan. Elm və təhsil fədaisi. (Prof. A.Xələfovun 75 illiyinə həsr olunur).-B., 2006.- 240 s.

7.Əli Rüstəmov. Rayon (bölgə) mərkəzləşdirilmiş kitabxana sistemlərində informasiya texnologiyaları: planlaşdırılması və tətbiq mexanizmi: Monoqrafiya.-B., 1993.- 152 s.

8.Ə. Rüstəmov. Avtomatlaşdırılmış kitabxana informasiya sistemləri (layihələşdirilməsi, işlənməsi və tətbiqi). Monoqrafiya.-B, 2007.- 362 s.

**Biblioqrafiyaşünaslıq kafedrası üzrə:**

**Dərslik:**

1.Zöhrab Əliyev. Azərbaycan biblioqrafiyasının tarixi.-B., 2007.-186 s.

**Dərs vəsaitləri:**

1. Hacıyeva Q. Xarici biblioqrafiya.-B., 2008.- 140 s.

2. Raifə Vəzirova, Nadir İsmayılov Biblioqrafik tərtibatın metodikası.-B., 2004.- 60 s.

3. Nadir İsmayılov, Qəmzə Hacıyeva. Kitabxanada ölkəşünaslıq (diyarşünaslıq) üzrə biblioqrafik fəaliyyət.- B., 2004.- 120 s.

**Monoqrafiyalar:**

1. Nadir İsmayılov. Azərbaycan Respublikasının kitabxana və informasiya ehtiyatları: İnkişaf mərhələləri, nəzəriyyəsi və təkmilləşdirilməsi yolları.-B., Mütərcim, 2005.- 300 s.

**Kitabxana resursları və informasiya artarış sistemləri kafedrası üzrə**

**Dərs vəsaitləri:**

1.Kitabxanaşünaslıq (Kitabxana kataloqları) (Prof. A.Xələfovun redaktəsilə). B., 1996.- 212 s.

2.Tacəddin Quliyev və b. Təbiətşünaslığa dair ədəbiyyatın təsviri və təsnifləşdirilməsi metodikası.-B., 1997.- 82 s.

3.Tacəddin Quliyev və b. Biblioqrafik təsvirin tərtibi qaydaları.-B., 1996.- 68 s.

4.Tacəddin Quliyev. Azərbaycanda kitabxanaçılıq işi. (Respublika Həmkarlar İttifaqının materialları əsasında).-B., 2004.- 230 s.

5.Mayıl Həsənov. Kitabxana fondunun formalaşdırılması və idarə edilməsi. B., 2004.- 144 s.

6.Aşur Əliyev. Kitabxanaşünaslıq (Kitabxana kataloqları 3-cü fəsil).-B., 1996.- 212 s.

7.Aşur Əliyev. Kitabxanaşünaslığa dair ədəbiyyatın təsviri, təsnifləşdirilməsi metodikası.-B., 1997.- 90 s.

8.Çap əsərlərinin biblioqrafik təsviri qaydaları.-B., 2001.- 86 s.

9.Normativ-texniki sənədlərin təsviri və təsnifləşdirilməsi.- 2001.- 214 s.

10. Biblioqrafik təsvirin tərtibi qaydaları.-B., 2007.- 136 s.

**Monoqrafiyalar:**

1. Sevda Xələfova. Azərbaycanda dövlət kütləvi kitabxanalar şəbəkəsinin inkişafı (1970-1990).-B., 2007.- 160 s.

**Kitabşünaslıq və nəşriyyat işi kafedrası üzrə**

**Dərsliklər:**

1.İsmayıl Vəliyev. Ədəbi-bədii və uşaq kitablarının redaktəsi.-B., 2002.- 200 s.

2.İsmayıl Vəliyev. Redaktənin əsasları: I hissə: Nəzəriyyə və təcrübə.-B., 2002.- 96 s.

3.İsmayıl Vəliyev. Redaktənin əsasları: II hissə: Redaktənin metodikası mətnin redaktor təhlili.-B., 2003.- 184 s.

4.İsmayıl Vəliyev. Redaksiya - nəşriyyat işinin əsasları.-2004.- 140 s.

**Dərs vəsaitləri:**

1.Bayram Allahverdiyev, R.Məmmədzadə. Müasir mərhələdə kitab ticarətinin təşkili.-B., 1996.- 225 s.

2.Nailə Mehrəliyeva. Yeniyetmələrin mənəvi tərbiyəsində məktəb kitabxanalarının yeri.-B., 2006.- 230 s.

3.Şəhla Quliyeva. Müəllif hüququ.-B., 2007.- 210 s.

**Monoqrafiyalar:**

1.Bayram Allahverdiyev. Ümumi kitab tarixi.-B., 2003.- 384 s.

2.Vüsalə Azərqızı. XV-XVII əsr türk təzkirəçiliyi.-B., 2007.- 270 s.

3.Sevda Quliyeva. Azərbaycan soraq-məlumat ədəbiyyatı.-B., 2006.- 176 s.

Doğrudur, indiki şəraitdə fakültə tələbələrinin dərsliklərə və dərs vəsaitlərinə böyük tələbatı baxımından bu nəşrlər olduqca azdır. Demək olar ki, bu tələbatın ancaq 20%-i təmin edilmişdir.

Belə bir vəziyyət fakültə kollektivinin qarşısında yaxın gələcəkdə tələbələri dərsliklər və dərs vəsaitləri ilə təmin etmək vəzifəsi qoyur. Məlum həqiqətdir ki, bu cür nəşrlər olmadan öz sənətinin kamil mütəxəssislərini hazırlamaq qeyri-mümkündür.

Müstəqillik illərində fakültənin kollektivi öz elmi tədqiqatlarının müəyyən hissəsini bu və ya digər elmi jurnallarda və məcmuələrdə məqalələr şəklində də dərc etdirmişlər. 200-ə yaxın məqalə dərc etdirmiş müəllimlər kitabxanaşünaslıq, biblioqrafiya və kitabşünaslığın müasir elmi problemlərinin öyrənilməsində əhəmiyyətli nailiyyətlər əldə etmişlər.

Bütün dünyada unikal elmlərdən biri sayılan kitabxanaşünaslıq və biblioqrafiya sahəsində az müddət ərzində 30 nəfər yüksək elmi potensiala malik kadrın yetişdirilməsi təqdirəlayiq bir hadisədir. Hazırda fakültədə yüksək ixtisaslı kadr hazırlanması üçün məqsədyönlü, ardıcıl siyasət yeridilir. Belə kadrların hazırlığı əsasən əyani və qiyabi aspirantura, dissertantlıq yolu ilə həyata keçirilir. Doğrudur, keçid dövrü fakültədə elmi dərəcəyə malik müəllim kadrların hazırlanmasına mənfi təsir göstərdi. Cəmiyyətdə baş verən iqtisadi çətinliklər, fakültədə ixtisaslaşdırılmış elmi şuranın olmaması müdafiələrin qarşısının alınmasına səbəb oldu. Ancaq bu çətinlik uzun sürmədi. 90-cı illərin axırı və 2000-ci ilin əvvəllərindən başlayaraq fakültədə doktorluq və namizədlik dissertasiyalarının müdafiəsi sahəsində ciddi dönüş baş verdi. Bir doktorluq, 7 namizədlik dissertasiyası müdafiə edildi. Bu sahədə Kitabxanaşünaslıq kafedrası xüsusilə fərqləndi. Fakültə üzrə müdafiə edilən 8 dissertasiyadan 7-si Kitabxanaşünaslıq kafedrasında hazırlanmışdır.

Müstəqillik illərində respublikamızda müdafiə edilən doktorluq dissertasiyasını xüsusilə qeyd etmək yerinə düşərdi. Kitabxanaçılıq-informasiya fakültəsinin yetirməsi, 1994-cü ildən fakültəyə başçılıq edən dos. Xəlil İsmayılov uzun illərdən bəri işlədiyi olduqca böyük elmi və təcrübi əhəmiyyəti olan "Azərbaycan Respublikasında kitabxana işinin metodik təminat sisteminin inkişaf tarixi"nə həsr edilmiş dissertasiya işini müvəffəqiyyətlə müdafiə edib tarix elmləri doktoru elmi dərəcəsini aldı. Bu müdafiə Azərbaycan milli kitabxanaşünaslığı tarixində mühüm hadisə idi.

Həmçinin kitabxanaşünaslıq kafedrasının aspirant və dissertantlarından: Knyaz Aslan, E.Əhmədov, M.Məmmədov, Ə.Nəcəfov, Ş.İslamova və S.Xələfova müvəffəqiyyətlə namizədlik dissertasiyası müdafiə edib elmlər namizədi alimlik dərəcəsi almışlar.

Müdafiə edilən doktorluq dissertasiyasının elmi məsləhətçisi və namizədlik dissertasiyalarının elmi rəhbəri kafedranın müdiri, əməkdar elm xadimi, prof. Abuzər Xələfov olmuşdur. Kitabxanaşünaslığın aktual problemlərinə həsr edilən bu qiymətli tədqiqat əsərləri Azərbaycan milli kitabxanaşünaslığının inkişafında mühüm mərhələ təşkil edir. Bu mərhələnin əsas xüsusiyyətləri mövzu rəngarəngliyidir. Müxtəlif aktual problemlərə həsr edilən bu tədqiqatlar kitabxanaşünaslığın mövzu əhatəliyinin genişləndirilməsi və onun bütövləşməsi üçün əlverişli şərait yaradır, kitabxanaşünaslıq elmləri arasında inteqrasiya, bir-birinə qoşulma və biri digərinin hesabına zənginləşmə prosesini təmin edir. Fikrimizi təsdiq etmək üçün müdafiə edilən mövzulardan bir neçəsinin adını çəkmək yerinə düşər: “Azərbaycanda uşaqlara kitabxana xidmətinin təşkili”, “Şəxsiyyətin formalaşmasında bədii ədəbiyyatın rolu”, “Azərbaycan Respublikası kitabxanalarında kitabxanalararası abonement sistemi, Azərbaycan Respublikasının Dağlıq Qarabağ Muxtar Vilayətində kitabxana işinin tarixi”, “Azərbaycan Respublikası Elmlər Akademiyası kitabxana şəbəkəsinin təşəkkülü və inkişafı”, “Azərbaycanda kitabxana şəbəkəsinin inkişafı” və s.

Müstəqillik illərində fakültə kollektivi tərəfindən çap edilmiş dərsliklər, dərs vəsaitləri və monoqrafiyaların siyahısından görünür ki, Kitabxanaçılıq-informasiya fakültəsində elmi-tədqiqat işlərinin istiqaməti, mövzu dairəsi, tədqiqat obyektləri xeyli genişlənmiş, mücərrəd mövzuların tədqiqinə az yer verilmiş, daha çox yer isə kitabxana işi təcrübəsinə həsr edilmiş mövzulara verilmişdir ki, bu da respublikamızda kitabxana xidməti prosesinə, kitabxana işinin günün tələbləri səviyyəsində qurulmasına müsbət təsir göstərmişdir.

Fakültədə aparılan elmi-tədqiqat işlərinin işıq üzü görməsində 1997-ci ildə fakültənin dekanı prof. Xəlil İsmayılov tərəfindən təsis edilmiş və elmi redaktorluğu ilə nəşr edilən “Kitabxanaşünaslıq və biblioqrafiya” elmi-nəzəri və təcrübi jurnalının olduqca böyük rolu olmuşdur. Jurnalın səhifələrində fakültənin professor-müəllim heyətinin elmi-tədqiqat işlərinin yekunları, elmi araşdırmaları, yeni fikir və ideyaları, təhsil sistemində aparılan islahatların xarakter və xüsusiyyətləri, həmçinin kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq, nəşriyyat işi və redaktə fənlərinin tədrisi metodikası haqqında çox qiymətli elmi məqalələr dərc edilir. Jurnal respublikamızın elmi kitabxanalarında çalışan əməkdaşların məqalələrini də nəşr edir ki, bu da onun coğrafiyasını xeyli genişləndirməklə kitabxanaların təcrübi fəaliyyətinə müsbət təsir göstərir. Jurnal son zamanlar fakültədə təhsil alan magistrlərin ilk tədqiqatlarını və magistr dissertasiyalarının nəticələrini də dərc etməyə başlamışdır ki, bu da

fakültədə magistr hazırlığına olduqca müsbət təsir göstərir. Jurnal müntəzəm olaraq kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və kitabşünaslıq sahəsində yeni fikir və ideyaların, yeni araşdırmaların elmi nəticələrini çap etməklə kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və kitabşünaslıq elmlərinin inkişafına əhəmiyyətli təsir göstərir. Jurnalda fakültədə tədris edilən fənlərə dair məqalələrin dərc edilməsi tələbələr üçün də böyük əhəmiyyətə malikdir.

Jurnalda respublikamızla yanaşı olaraq digər xarici ölkələrin (Gürcüstan, Ukrayna, Belorusiya və s.) mütəxəssislərinin də məqalələri dərc edilir ki, bu da fakültənin beynəlxalq əlaqələrinin genişlənməsinə olduqca müsbət təsir göstərir.

"Kitabxanaşünaslıq-biblioqrafiya" elmi-nəzəri, metodik və təcrübi jurnalının hər il 2 nömrəsi; hər bir nömrə 9 çap vərəqi həcmində çap edilməklə indiyə qədər 23 nömrəsi işıq üzü görmüşdür. Jurnalda 11 il müddətində 492 adda, 207 çap vərəqi həcmində məqalə dərc edilmişdir ki, bunu da fakültə kollektivinin mühüm nailiyyəti kimi qiymətləndirmək olar.

62 il bundan əvvəl, 1947-ci ildə Bakı Dövlət Universitetinin Filologiya fakültəsinin yanında əsası qoyulan və cəmi 16 nəfər tələbə qəbul edilən Kitabxanaçılıq şöbəsi indi ən aparıcı fakültələrdən birinə çevrilmişdir. Şöbə təşkil edilən zaman onun yeganə kitabxanaşünaslıq və biblioqrafiya kafedrasında cəmi iki nəfər müəllim işləyirdi. Bu müəllimlərin heç birinin nə elmi adı, nə də baza təhsili yox idi. 1962-ci ildə Kitabxanaçılıq şöbəsinin həyatında mühüm bir hadisə baş verdi. Şöbə müstəqil fakültəyə çevrildi. Fakültənin dekanı vəzifəsinə kitabxanaçılıq şöbəsinin yetişdirməsi olan tarix elmləri namizədi Abuzər Xələfov təyin edildi. Müstəqil Kitabxanaçılıq fakültəsinin təşkilinin təşəbbüskarı və yaradıcısı fakültənin ilk dekanı Abuzər Xələfov olmuşdur. Müstəqil Kitabxanaçılıq fakültəsinin tarixində 1970-1980-ci illər xüsusi inkişaf və tərəqqi mərhələsi kimi xarakterizə olunur.

1969-cu ildə Heydər Əliyevin hakimiyyətə gəlməsi ölkənin inkişafında dönüş mərhələsinin başlanmasına səbəb oldu. Xalq təsərrüfatının bütün sahələrinin inkişafında, elm, mədəniyyət və təhsil sisteminin tərəqqisində böyük nailiyyətlər əldə edildi. Bu dövrdə Bakı Dövlət Universitetinin Kitabxanaçılıq fakültəsi də böyük uğurlar əldə etmişdir. Ulu öndərin bilavasitə göstərişi və qayğısı sahəsində Kitabxanaçılıq fakültəsinə tələbə qəbulu ilbəil artırılmış, fakültə SSRİ-nin müttəfiq respublikalarının ali məktəblərinin Kitabxanaçılıq fakültələri içərisində ən böyük fakültəyə çevrilmişdir. 70-ci illərdə fakültənin əyani şöbəsinə 125, axşam şöbəsinə 50, qiyabi şöbəsinə 100 nəfər tələbə qəbul edilmişdir. Artıq 1975-ci ildə fakültənin bütün şöbələrində 2 mindən artıq tələbə təhsil alırdı. 80-ci illərin axırlarında fakültənin inkişaf tempi xeyli aşağı düşmüş, qəbul planı yarıbayarı azalmışdır. Müstəqilliyin ilk illərində daha da böyük çətinliklə üzləşmiş, fakültə bağlanmaq təhlükəsi qarşısında qalmışdır. 1993-cü ildə ulu öndər xalqın tələbi ilə ikinci dəfə hakimiyyətə gəldikdən sonra

bütünlükdə təhsil sistemi, o cümlədən Kitabxanaçılıq fakültəsi hər cür çətinliklərdən qurtardı və 90-cı illərin ikinci yarısından təhsil sistemində inkişaf başlandı.

Beləliklə, Azərbaycan mədəniyyətinin mühüm tərkib hissəsi olan kitabxanalar üçün yüksək ixtisaslı kadr hazırlayan Kitabxanaçılıq-informasiya fakültəsi müstəqillik illərində keçid dövrünün hər cür çətinliklərinə baxmayaraq hərtərəfli inkişafa nail olmuş, dünya standartlarına uyğun kadr hazırlamağa başlanmışdır. Fakültədə bakalavr və magistrlərlə yanaşı olaraq doktorlar hazırlamaq üçün də geniş şərait yaranmış, kadr potensialı xeyli güclənmişdi. 2008-2009-cu tədris illərində Kitabxanaçılıq-informasiya fakültəsinin bakalavriat pilləsinin əyani və qiyabi şöbələrində 451 nəfər tələbə təhsil alır. Bunlardan 259 nəfər əyani şöbədə, 192 nəfər isə qiyabi şöbədə oxuyur. Magistr pilləsinin əyani və qiyabi şöbələrində 41 nəfər magistr təhsil alır. Bunlardan 17 nəfəri təhsilini əyani, 24 nəfəri qiyabi davam etdirir.

Həmçinin müstəqillik illərində fakültənin yanında elmi kadrlar yetişdirmək üçün kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq, nəşriyyat işi və redaktə etmə ixtisasları üzrə aspirantura və dissertantura şöbələri fəaliyyət göstərmişdir. Hazırda fakültənin 4 nəfər əyani, 2 nəfər qiyabi aspirantı və 6 nəfər dissertantı vardır.

Fakültədə 40 nəfərdən artıq əməkdaş fəaliyyət göstərir. Bunlardan 4 nəfər elmlər doktoru, professor, 1 nəfər elmlər namizədi professor, 10 nəfər elmlər namizədi, dosent, 2 nəfər elmlər namizədi, müəllim, 9 nəfər baş müəllim, 4 nəfər müəllim, 1 nəfər baş metodist, 4 nəfər baş laborant, 2 nəfər laborantdır. Bu da MDB ölkələri içərisində yüksək göstərici hesab edilə bilər. Dünyada unikal elmlərdən biri sayılan kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və kitabşünaslıq sahəsində yaxın müddətdə 30 nəfər elmi potensiala malik kadr yetişdirmək təqdirəlayiq bir hadisədir. Hazırda fakültədə yüksək ixtisaslı kadr hazırlanması üçün məqsədyönlü, ardıcıl siyasət yeridilir. Fakültənin əməkdaşları respublikamızda ali məktəblərin bayraqdarı sayılan BDU-nun yüksək elmi potensiala malik böyük kollektivinin tərkib hissəsi kimi onun etimadını doğrultmağa ciddi səy göstərir.

.

**АБУЗАР ХАЛАФОВ**

## РАЗВИТИЕ ВЫСШЕГО ОБРАЗОВАНИЯ БИБЛИОТЕЧНОГО ДЕЛО В ГОДЫ НЕЗАВИСИМОСТИ
## РЕЗЮМЕ

*В статье были анализированы направлении развития образования библиотечного дела в Азербайджане в годы независимости, был освещен деятельность факультета библиотечное дело-информация в области проведения реформ в образовании.*

**ABUZAR KHALAPHOV**

## DEVELOPMENT OF HIGH LIBRARY SCIENCE EDUCATION IN YEARS OF SOVEREIGNTY
## SUMMARY

*In article is analyzed the directions of development of library science education in Azerbaijan in years of sovereignty, is lightened activities of the faculty library science-information in area of conducting of reforms in education.*

**Xəlil İSMAYILOV**
*Kitabxanaçılıq-informasiya fakültəsinin dekanı*
*Tarix elmləri doktoru, professor*

## KİTABXANALARIN İDARƏ EDİLMƏSİNİN MÜASİR PROBLEMLƏRİ

Kitabxana işinin intensiv olaraq istiqamətləndirilməsi və onun idarə edilməsinin təkmilləşdirilməsi əsas məsələlərdən biridir. Bu problemin xüsusilə vacib olması kitabxana şəbəkələrinin mərkəzləşdirilməsindən sonra daha da mühüm əhəmiyyət kəsb etdi.

Vahid iri kitabxana müəssisələrinin formalaşması,ərazi kitabxana şəbəkələrinin Mərkəzi kitabxana sistemində birləşdirilməsi, müxtəlif struktur bölmələrin yaradılması,yeni filial kitabxanalarının fəaliyyətə başlaması, idarə etmə işində köklü dəyişikliklərin həyata keçirilməsini yeni idarəetmə formalarının axtarılmasını və bu mürəkkəb prosesin sistemli şəkildə idarə edilməsini qarşıya qoyur.

Təəssüflər olsun ki, kitabxanaların kütləvi şəkildə fəaliyyət istiqamətinin dəyişməsi yəni MKS-lərin yaradılması və bu dövrdə digər kitabxanalardan fərqli olaraq onların idarə edilməsinə lazımı diqqət verilməməsi MKS-lərin işində bir sıra çatışmazlıqlara gətirib çıxardı.Əsas çatışmazlıqlar həm ilk illərdə, həm də indiki zamanda MKS-lərin potensial imkanlarından lazımi səviyyədə istifadə edilməməsi ilə bağlı olmuşdur.

Bu gün əsas var ki, qeyd edək ki, MKS-lərin idarəçilik fəaliyyətinin qarşısında qoyulan vəzifələrin yerinə yetirilməsi günün tələblərinə tam cavab vermir.

MKS kimi mürəkkəb bir müəssisənin idarə edilməsi üçün idarəçiliklə məşğul olan kadrların xüsusi ixtisas hazırlığına cəlb olunması daim diqqət mərkəzində olmalıdır.MKS-lərdə problem situasiyaların təhlili göstərir ki,idarəetmə məsələləri lazımi səviyyədə elmi əsaslara söykənmir,hətta bu məsələ ilə bağlı elmi ixtisas ədəbiyyatlarında belə yazılara rast gəlinmir.

MKS-lərin idarə edilməsi barədə təlimat xarakterli göstərişlər əksər hallarda elmi tədqiqatların nəticələri kimi verilmir və ya metodik göstərişlər kitabxana metodologiyasına əsaslanmır, ona görə də praktikada lazımı səviyyədə tətbiq olunmur. Məsələn: hələ 1978-ci ildə MKS-lər yaradılarkən qəbul olunmuş «Mərkəzləşdirilmiş kitabxana sistemlərinin texniki işi» adlı təlimat sistemin işinin perspektiv planlaşdırılması yollarını müəyyənləşdirir. Halbuki, indiyədək MKS-lərin idarə edilməsi məqsədilə heç bir metodik göstəriş nəzərdə tutulmamışdır. Nəticə etibarı ilə təlimatın ikinci nəşrində «Mərkəzləşdirilmiş kitabxana sistemlərində işin təşkili» (1985) əsasnaməsində idarəetmənin perspektiv planlaşdırılması məsələləri ümumiyyətlə çıxarılmışdır.

Bütün bunlar göstərir ki, MKS-lərin idarə edilməsində müxtəliffikirlilik hökm sürür və elmi əsaslara söykənən təkliflərin olmadığından irəli gəlir. Həmçinin idarəetmə probleminin təhlili göstərir ki, Mərkəzi Kitabxana Sistemləri yaradılarkən vaxtı ilə kiçik kitabxana kollektivlərində çalışmış, idarəçilik səriştəsi olmayan işçilər MKS-lərdə rəhbərliyə cəlb olunmuşdur ki, bununla bağlı problemlər sonralar özünü büruzə vermişdir. Onlar həm psixoloji cəhətdən, həm də bir professional mütəxəssis kimi MKS-lərin idarə edilməsində lazımı səviyyədə iştirak edə bilmədilər. Məntiqi olaraq qeyd etməliyik ki, bütün bu vəziyyət MKS-lərin idarə edilməsinə öz təsirini göstərdi.

Nəhayət, MKS-lərin idarə edilməsi təcrübəsini nəzərdən keçirdikdə məlum olmuşdur ki, bir sıra digər faktorlar da MKS-lərin idarə olunmasında özünü göstərmişdir. Bunlara misal olaraq kitabxanaçı kadrların ixtisasının artırılmasında kitabxana təcrübəsi və nəzəriyyəsində idarəetmə məsələlərinin lazımi səviyyədə öyrədilməməsi, ayrıca rəhbər işçilər üçün xüsusi seminar və praktikumların keçirilməməsi də öz təsirini göstərmişdir.

Qeyd etmək lazımdır ki, son illərdə bir sıra elmi-tədqiqat işləri MKS-lərin idarə olunmasına həsr olunmuş və onların fəaliyyətinin ayrı-ayrı sahələrini əhatə edir. Xüsusilə Rusiya kitabxanaşünas alimləri, o cümlədən S.A. Basovanın «Mərkəzləşdirilmiş Kitabxana Sistemlərində məqsədli idarəetmənin təşkili», A.D.Baçkovanın «Mərkəzləşdirilmiş kütləvi kitabxana şəbəkələrində kitabxana işçilərinin əmək bölgüsü və onun kooperasiyası», T.P.Maleviçin «Mərkəzləşdirilmiş kitabxana şəbəkələrinin idarəetmə fəaliyyətində ictimaiyyətin iştirakı», bunlardan başqa metodiki və tövsiyə xarakterli, bir sıra MKS-lərin idarə olunması problemlərinə həsr olunmuş S.A.Babenkonun, N.İ.Karpovun, S.E.Diyaxovanın, İ.S.Sadrinanın, yazıları çap olunmuş, bu problemlə bağlı hazırda Rusiya Dövlət Kitabxanasında, M.E.Saltıkov-Şedrin adına Dövlət Ümumi Kitabxanasında, Moskva Dövlət Mədəniyyət və İncəsənət Universitetində tədqiqatlar aparılır, lakin MKS-lərin idarə olunması nəzəriyyəsi hələ də tam işlənilməmiş, mövcud olan tövsiyələrdə isə bir sıra mübahisəli problemlər vardır.

Mərkəzləşdirilmiş kitabxana şəbəkələrinin idarə olunması ilə yanaşı böyük universal elmi kitabxanaların idarə olunması məsələlərinə xüsusi diqqət verilmiş bir sıra yeni elmi işləmələr hazırlanmışdır. Kitabxanaların idarə olunmasının təkmilləşdirilməsinə həsr olunmuş elmi tədqiqatlar Rusiya Dövlət kitabxanası, Rusiya xarici ədəbiyyat kitabxanası, Rusiya EA ümumi elmi texniki kitabxanasının Sibir şöbəsi və s. iri kitabxanaları tərəfindən işlənilmişdir. İlk dəfə kitabxanaların idarə edilməsinin təkmilləşdirilməsinə həsr olunmuş elmi-praktik konfransın əsası 1979-cu ildə Rusiya Dövlət Kitabxanası tərəfindən qoyulmuşdur.

Sovet kitabxanaşünaslığında əsas müvəffəqiyyətlərdən biri də idarəetmə problemlərinin tədqiq olunması,öyrənilməsi və tətbiq olunmasıdır. Həmçinin idarəetmənin ayrı-ayrı sahələri, xüsusilə, kitabxana fondunun idarə olunması kitabişləmə prosesinin idarə olunması,kataloqlaşdırmanın keyfiyyətli idarə olunması və s. əhatəli şəkildə tədqiqata cəlb olunmuşdur. Bundan başqa idarəetmə aspektlərinə həsr olunmuş tədqiqatlar oxucu fəaliyyətinin idarə olunması kimi ayrıca tədqiq olunmuş və bu barədə bir sıra sərəncamlar da qəbul olunmuşdur.

İdarəetmənin ayrı-ayrı aspektlərinin tədqiq olunması idarəetmə probleminə kompleks yanaşmağa imkan verir. Odur ki, kitabxanaların idarəetmə fəaliyyətinin bütün aspektlərini müqayisəli təhlil etməklə kitabxana proseslərinin yeniləşməsi vəzifələrinə uyğun olaraq yeni texnologiyaların tətbiqini nəzərdə tutmalıdır.

Kitabxanaların idarəetmə problemlərini öyrənən zaman kitabxanaçı kadrların hazırlıq səviyyəsi, onların ixtisasının artırılması mütləq nəzərə alınmalıdır. İdarəetmə məsələlərinin öyrənilməsində idarəetmə kadrlarının hazırlığı ayrıca nəzərdə tutulmur,lakin kitabxanaçılıq sahəsində ümumi biliklərin öyrənilməsində həmçinin idarəetmə aspektləri də geniş şəkildə öyrədilməli və nəzəri-praktiki cəhətdən izah edilməlidir. Kitabxanaların idarə edilməsi problemlərinin tədqiq olunması göstərir ki, tədqiqatçılar və metodistlər idarəçilik fəaliyyətində ayrı-ayrı məsələlərlə yanaşı komleks maneələrlə də rastlaşırlar. Mütəxəssislərin rastlaşdığı bu problem kitabxana resurslarından istifadə olunması,xüsusilə maliyyə vəsaitlərinin,bank əməliyyatlarının, smeta sənədlərinin mənimsənilməsi və öyrənilməsi rəhbər işçilər üçün çətinliklər yaradır. Odur ki, kitabxana müdirləri və direkorları maliyyə işlərini, bank əməliyyatlarını, onların hüquqi tənzimlənməsini öyrənməli və bilməlidir.Kitabxanaların olduqları idarələr və nazirliklər müəssisə rəhbərləri üçün vaxtaşırı xüsusi ixtisasartırma kursları təşkil etməlidirlər. Çox təəssüf ki, belə kurslar son illərdə təşkil edilmir, kitabxana işçiləri üçün təşkil olunan kurslarda isə idarəetmənin normativ hüquqi və maliyyələşdirmə məsələləri ilə bağlı problemlərə vaxt ayrılmır. Nəticədə plan, maliyyə və idarəetmə işində çox ciddi qanun pozuntuları və çatışmazlıqlar ortaya çıxır.

Yeri gəlmişkən qeyd etmək lazımdır ki, hələ SSRİ dövründə xalq təsərrüfatının bir çox sahələrində əməyin elmi təşkili ilə məşğul olan bir sıra bölmələr və srukturlar hazırda Respulikamızda demək olar ki, fəaliyyət göstərmir,bu sahədə elmi konfranslar keçirilmir. Son illərdə aparılan elmi-tədqiqat işlərindən idarəetmə məsələlərinə həsr olunmuş problemlər tədqiqata cəlb olunmur. Halbuki, kitabxanaların bugünkü fəaliyyəti mütəxəssis kadrların idarəçilik səriştəsi və bacarığından asılıdır.Bu günün kitabxana mütəxəssisləri, idarəçiliklə məşğul olan rəhbər kadrlar «Kitabxanaların idarə olunması», «Kitabxanaların sosial inkişafının planlaşdırılması», «Kitabxanalarda qabaqcıl

iş təcrübəsi» və s. öyrənilməsini ön plana çəkməli, kitabxana işçilərinin peşəkarlıq keyfiyyətləri onlara verilən tələblər və idarəetmənin müsbət cəhətləri və digər amillər bu günümüzün reallığıdır və tədqiqata cəlb olunmalıdır.

Kitabxana işinin idarə edilməsində olduqca vacib bir məsələ unudulur ki,kitabxanaların qarşısında duran çox mühüm sosial bir vəzifə ayrı-ayrı kitabxana işçiləri və kitabxanalar deyil, kitabxana kollektivləri tərəfindən həll edilir, ona görə də kollektivin idarəetmədəki fəaliyyəti geniş tədqiq olunmalıdır.

Görünür tədqiqatçılar və metodist kitabxana işçiləri ayrı-ayrı kollektivlərin işindəki fərqli və ya müsbət cəhətləri lazımi qədər tədqiqata cəlb etməkdə çətinlik çəkirlər və beləliklə, kitabxana kollektivlərinin spesifik cəhətlərini öyrənə bilmirlər. Həmçinin belə bir qənaətə gəlmək olar ki, kitabxana kollektivlərində çalışan kitabxanaçıların peşə biliklərinin çatışmamasından onlar kitabxanaların idarəetmə problemlərinin nəzəri cəhətdən əsaslandırılmış təkliflərinin hazırlanmasında çətinlik çəkirlər. Ona görə də bir çox müəlliflər öz tədqiqatlarında kitabxana kollektivlərindən deyil, ümumiyyətlə kitabxanalardan bəhs edirlər.

Kitabxana kollektivinin işinə diqqətsizlik kitabxana kollektivlərinin sosial inkişafının planlaşdırılmasının lazımi səviyyədə qiymətləndirilməməsinə gətirib çıxarır. Açıq etiraf etmək lazımdır ki,ancaq iri universal kitabxanaların bəziləri kollektivin sosial inkişaf planı əsasında öz fəaliyyətini qururlar. Ümumiyyətlə qeyd etmək lazımdır ki, kitabxana kollektivinin sosial planlaşdırmanın bu cür metodu Respublikamızda eləcə də ondan kənarda hələlik işlənilməmişdir.

Bundan başqa kitabxana kollektivlərində sosial-psixoloji mühitin tədqiq edilməsinə lazımi diqqət verilmir. Kitabxana tədqiqatlarından məlumdur ki, on mindən çox kitabxanası olan Azərbaycanda hələ də əksər kitabxana işçilərinin ali peşə təhsili olanların faizi çox aşağıdır. Respublikamızda fəaliyyət göstərən MKS-in işçilərinin təxminən 30-40 faizi, tək-tək hallarda 50 faizi yüksək ixtisaslı mütəxəssislərdir, hətta Azərbaycanın kənd yerlərində bu faiz daha aşağıdır. Bütün bunlar kitabxana fəaliyyətinə, kollektivdəki psixoloji mühitə, oxuculara daha keyfiyyətli xidmət işinə olduqca mənfi təsir göstərir. Əgər işçilərin böyük əksəriyyəti doğrudan da təsadüfi əməkdaşlardan ibarətdirsə, kitabxanaçılıq peşəsini nəzəri və praktiki cəhətdən bilmirsə, əlbəttə, burada yüksək peşəkarlıqdan və keyfiyyətli xidmətdən danışmaq olmaz.

Bizə belə gəlir ki, kitabxana kollektivinin işini dərindən və diqqətlə öyrənməyə o qədər də ehtiyac yoxdur ki, bir sıra xarakterik cəhətlər işçilər arasında şəxsi münasibətlərin qurulması, bütövlükdə kollektivin fəaliyyətinə öz təsirini və bütövlükdə kitabxanaların idarə edilməsinin ardıcıl inkişafına mənfi təsir edir.

Kitabxanaların idarəçilik funksiyasından danışarkən onu nəzərə almaq lazımdır ki, MKS-lərin idarəçilik xüsusiyyəti digər kitabxanalardan fərqli olaraq yeni metodları nəzərdə tutmalıdır. Yeni idarəçilik xüsusiyyəti, əlbəttə, mərkəzləşdirilmiş kitabxana sistemlərinin spesifik cəhətləri və bu sistemin mürəkkəbliyi onunla bağlıdır ki, sistemə daxil olan filial kitabxanaları dağınıq və pərakəndə struktur bölmələrin operativ idarəetmə işində çətinlik yaradır. MKS-lərin idarəetmə sistemləri həm də ona görə mürəkkəbdir ki, həm mərkəzi kitabxananın, həm də filial kitabxanalarının struktur bölmələrinin, yəni sistemin bütövlükdə hərtərəfli idarəçiliyə cəlb olunması vacib şərtlərdəndir. Mərkəzi kitabxana sisteminin direktoru və şöbə müdirləri eyni zamanda mərkəzi kitabxananın və bütün filial kitabxanalarının idarə edilməsində iştirak edirlər.

Baxmayaraq ki, idarəetmə funksiyasından yuxarıda geniş bəhs etdik və doğrudan da bu işə kifayət qədər əhəmiyyət verilir, lakin MKS-lərin idarə edilməsinin nəzəri və metodiki cəhətdən işlənilməsi hələlik bir problem kimi qalır. Hər şeydən əvvəl bu, kitabxana işinin planlaşdırılması ilə bağlıdır.

Kitabxana işi sahəsində xüsusilə planlaşdırmanın həm nəzəri, həm də praktiki məsələləri üzrə bir sıra tədqiqatlar aparılmış və müəyyən nailiyyətlər əldə edilmişdir. Lakin istər bütün kitabxanaların, o cümlədən MKS-lərin işinin planlaşdırılması üzrə heç bir əsaslandırılmış təklif və göstəriş hazırlanmamışdır.

Kitabxana fəaliyyətinin planlaşdırılmasına həsr olunmuş yeganə fundamental elmi-tədqiqat işi T.D.Aqenkonun «Ali məktəb kitabxanalarının fəaliyyətinin sistemli planlaşdırılması idarəetmənin əsası kimi» mövzusunda namizədlik dissertasiyası olmuşdur. Lakin kitabxana işinin həm bir sahə kimi həm də ayrıca MKS-lərin işinin planlaşdırılması kitabxana ictimaiyyəti qarşısında əsas problemlərdən biri kimi durur.

Kitabxana işinin planlaşdırılmasında əvvəllər beşillik planlardan geniş istifadə edilirdi. Lakin son illərdə əsasən illik planlara daha çox yer verilir. Kitabxana işinin proqnozlaşdırılması isə demək olar ki, nəzərdə tutulmur. Nəticədə elmi işləmələr, metodiki təkliflər, kitabxana işinin planlaşdırılmasına dair təkliflər verilmir. Halbuki, Respublika Milli kitabxanası və sahəvi mərkəzi elmi kitabxanalar kitabxana planlarının tərtibinə dair dünya təcrübəsinə əsaslanan metodiki işləmələr aparmalı və kitabxanalara konkret təkliflər verməlidirlər. Təcrübədə bu günədək istər MDB Respublikalarında həmçinin müstəqil Azərbaycan Respublikasında kitabxana fəaliyyətinin planlaşdırılması məqsədli proqram kimi, xüsusilə mərkəzləşdirilmiş kitabxana sistemlərinin fəaliyyətində öz əksini tapmışdır. Halbuki, MKS-lər öz fəaliyyətlərində bir sıra kompleks proqramlar həyata keçirir. Məsələn, vahid fondun formalaşması əhaliyə kitabxana xidməti, kitabxana məlumat aparatının yaradılması, MKS-in fəaliyyətinin metodik təminatı, kitabxana işçilərinin ixtisasının artırılması və s.

Belə proqramların kompleks xarakter daşıması onunla izah edilir ki,bunlar mərkəzləşdirilmiş kitabxana sisteminin bütün kollektivi tərəfindən həyata keçirilir, kollektivin bütün üzvləri bu tədbirdə iştirak edirlər.

Qeyd etmək lazımdır ki, bu gün respublikamızda MKS-lərin işinin idarə edilməsi və gələcək fəaliyyətlərinin strateji planlaşdırılması ilə bağlı hələ də heç bir rəsmi və metodiki sənəd tərtib edilməmiş və MKS-lərə göndərilməmişdir. Yeri gəlmişkən qeyd etməliyik ki,bu problemlərlə bağlı Rusiyada bir sıra sənədlər hazırlanmış, idarəetmənin strukturu və mexanizmləri ilə bağlı MKS-lərə konkret təkliflər verilmişdir. Bu tövsiyə xarekterli təkliflərdə əsas diqqət təşkilati- idarəetmə məsələlərinə verilir və onların tətbiq olunması nəzərdə tutulur. Hazırda demək olar ki, MKS-lərin struktur quruluşu, onun şöbələri və bölmələrinin inzibati bölgüsü, işçilərin tabeçilikləri, hüquq və vəzifələri, bütün kitabxana sistemləri üçün eyni qaydada təlimat sənədi kimi əməkdaşların diqqətinə çatdırılmalıdır. Hər bir işçi hər hansı vəzifəyə təyin olunduqda hüquqi sənədlər təlimat formasında onlara təqdim olunmalı, onlarla söhbət aparılmalı, iş sahəsi müəyyənləşdirilməli, sınaq müddətilə işə götürülməlidirlər.

Kitabxanaların idarəetmə problemləri ilə bağlı bir sıra tədqiqatlar və işləmələr mövcuddur ki, onlar ayrı-ayrı kitabxanaların işinin xarakterik cəhətləri nəzərə alınmaqla işlənilmiş, MKS-lərin işi əsas faktor kimi götürülmüşdür. Bu sənədlərdə MKS-lərin işi əsas götürülsə də onların fəaliyyətində idarəetmə strukturları, rəhbər işçilərin hüquq və vəzifələri, xüsusilə filial kitabxanalarına rəhbərlik, onların idarə edilməsi, filialların metodiki təminatı və s. məsələlər tamamilə əhatə edilməmişdir. Xüsusilə oxucu problemi qəbul olunmuş bir sıra sənədlərdə konkret olaraq öz əksini tapmamışdır. Xüsusilə kitabxanaşünas-alim T.P.Mileviç öz dissertasiyasında MKS-lərin idarəetmə strukturunu çox geniş şəkildə izah edərək ictimai şuraların eyni adamlardan ibarət olaraq ictimai işlərə cəlb olunması və nəticədə idarəetmə strukturlarında bir sıra mühüm məsələlərin həll olunmamış qalması və işçi kollektivinin idarəetmə işindən kənarlaşmasını diqqətə çatdırır. Bundan başqa Sankt-Peterburq Mədəniyyət İnstitutunun Kitabxanaşünaslıq kafedrasının kollektivinin apardığı tədqiqatlar göstərmişdir ki, ictimai əsaslarla idarəçilik işinə cəlb olunan mütəxəssislər əsaslı şəkildə idarəetmə işində özlərini lazımi səviyyədə göstərə bilməmişlər. Onlar müəssisə rəhbərlərindən tapşırıqlar almaqla gözləmə mövqeyində durmuşlar. Nəticədə idarəetmə sahəsində çalışan ştatda olan işçilər və ya kollektivin bütün üzvləri idarəetmə fəaliyyətindən faktiki olaraq kənarda qalırlar. Nəhayət, kitabxanaların idarə olunmasına dair aparılan təhlil və tədqiqatlar göstərir ki, idarəetmə sahəsində daha proqressiv tendensiyalar özünü göstərir, bu da kitabxanaların avtomatlaşdırılması sistemləri və yeni texnika və texnologiyaların tətbiq edilməsi, həmçinin struktur dəyişikliklərinin həyata keçirilməsi ilə bağlıdır.

Kitabxanaların idarə edilməsi sahəsində bəzi aspektlərin işlənib hazırlanmasında Rusiya Dövlət Kitabxanasının, Rusiya Dövlət Elmi-Texniki Kitabxanasının, Rusiya Elmlər Akademiyasının Təbiət Elmləri Kitabxanası və s. kitabxanalar yaxından iştirak etmişdir. Bu kitabxanalar əsasən idarəetmənin səmərəliliyi, avtomatlaşdırılmış idarəetmə şəraitində oxuculara kitabxana xidmətinin keyfiyyətliliyi, kitabxanaçı əməyinin keyfiyyətli idarə edilməsi, kitabxanaların texnoloji prosesinin idarə edilməsinin avtomatlaşdırılmış sistem kimi quruluşu və s. problemlər tədqiqata cəlb olunmuşdur. Təəssüflə qeyd etməliyik ki, Azərbaycan kitabxanalarında, kitabxanaların idarəetmə məsələləri tədqiqata cəlb olunmamış və demək olar ki, bu problemlə bağlı tədqiqat işləri də aparılmamışdır. Bu gün müstəqil Azərbaycanımızda eksperimental baza kitabxanada, həmçinin kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və kitabşünaslıq sahəsində aparıcı elmi-tədqiqat mərkəzi hesab edilən BDU-nun kitabxanaçılıq-informasiya fakültəsi alimləri də bu problemlə bağlı, yəni kitabxanaların idarə edilməsi ilə bağlı heç bir tədqiqat aparmırlar. Nəticədə Respublikamızın kitabxanaları və bütövlükdə kitabxana ictimaiyyəti, kitabxanaların idarə edilməsi idarəetmənin nəzəri və praktiki xüsusiyyətləri, bu sahədə istər dünya təcrübəsində, istərsə də, Respublika miqyasında yeni idarəetmə sistemlərinin öyrənilməsi və tətbiq edilməsindən kənarda qalırlar. Bizə belə gəlir ki, Respublika Milli Kitabxanası regionda eksperimental baza kitabxanası kimi belə bir statusa malikdir və bununla bağlı konkret addımlar atmalıdır. Xüsusi tədqiqatlar qrupu yaradılmalı, bu və ya digər problemlər tədqiqata cəlb olunmalıdır.

Kitabxanaçıların ixtisasartırma kurslarına cəlb olunması zamanı struktur rəhbərləri üçün xüsusi kurslar yaradılmalı və onlara tədris edilən proqramların məzmunu adi kitabxana işçilərindən əsaslı şəkildə fərqlənməlidir. İxtisasartırmaya cəlb olunan rəhbər işçilərə, idarəetmə sistemlərində çalışan təcrübəli mütəxəssislər qabaqcıl kitabxana işçiləri, menecerlər metodiki şöbənin müdirləri dərs deməlidirlər. İdarəetmə ilə bağlı aparılan ixtisasartırma və ya treninqlər qabaqcıl kitabxanaların nümunələri ilə müşaiyət olunmalı, diaqramlar, statistik cədvəllər, metodik göstərişlər, müxtəlif mövzularda slaydlar və s. əyani olaraq nümayiş etdirilməlidir.

Qeyd etmək lazımdır ki, Avtomatlaşdırılmış İdarəetmə Sistemlərinin tətbiq edilməsi zamanı daha diqqətli olmaqla bütün məsələlərə kompleks yanaşma və beləliklə kitabxanaların idarəetmə sistemlərini təkmilləşdirmək nəzərdə tutulmalıdır.

Məlum olduğu kimi, kitabxana fəaliyyətinin inkişafı ilə bağlı, istər nəzəri işləmələr, istərsə də, təcrübi olaraq onların tətbiq edilməsində çox böyük inkişaf diqqəti cəlb edir. Kitabxana işinin planlaşdırılması, kitabxana işinin proqnozlaşdırılması, perspektiv planların hazırlanması və həyata keçirilməsi

sahəsində bir sıra qabaqcıl təcrübə əldə edilmiş, kitabxana işinin inkişafının planlaşdırılması metodologiyası işlənilmiş, kitabxana şəbəkələrinin yerləşdirilməsi ilə bağlı konkret addımlar atılmışdır.

Respublikamızda kitabxana işinin inkişafı ilə bağlı, dövlət səviyyəsində tədbirlər həyata keçirilir. Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 6 oktyabr tarixli 3072 saylı sərəncamı ilə təsdiq edilmiş, «Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət proqramı» son illərdə aparılan işlərin davamı kimi qiymətləndirilməlidir. Bu mühüm dövlət sənədində Respublika əhəmiyyətli bütün kitabxanaların, o cümlədən şəhər və rayon mərkəzi kitabxanalarının qarşısında çox mühüm vəzifələr qoyulmuşdur.

Dövlət proqramının həyata keçirilməsində kitabxanaların idarə edilməsi cari və perspektiv planlar əsasında işin düzgün təşkili başlıca məsələlərdən biri olmalıdır.

## ƏDƏBİYYAT


### Azərbaycan dilində

*1. MKS-lərdə işin təşkili: Təlimatlar və uçot formaları. –Bakı: M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanası, 1988.- 176 s.*

*2. Mərkəzləşdirilmiş Kitabxana Sisteminin illik plan işlərinin və informasiya hesabatının sxemi. (Metodik tövsiyyələr). –Bakı: M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanası, 1980. -18 s.*

### Rus dilində

*3. Библиотечный менеджмент: Методическая разработка.- СПб, 1999.- 16 с*

*4. Качанова, Е.Ю.Инновации в библиотеках [Текст]: практ. пособие/ Е.Ю.Качанова.- СПб.: Профессия, 2003.- 317 с.*

*5. Новое в отечественной теории управления библиотеками// Управление библиотекой: новые идеи и практич. рекомендации.- М. 1995.- Вып. 1.- С. 20-34.*

*6. Огвоздин, В.Ю. Управление качеством: основы теории и практики [Текст]: учеб. пособие/ В.Ю.Огвоздин .- 4-е изд., испр. и доп.- М.: Дело и сервис, 2002.- 158 с.*

*7. Организация и управление библиотечным делом: Метод. разработка для стунденто 4-го курса/ Ленингр. гос. ин-т культуры им. Н.К.Крупской.- Л., 1991.- 24 с.- В соавт. с С.А.Порошиным.*

*8. Повышение квалификации и переподготовка библиотекарей.- Так же.- С. 367-370.*

*9. Управление библиотечным делом: Метод. разработка для студентов 4-го курса.- СПб, 1995.- 16 с.*

*10. Управление библиотечными технологиями.- Так же.- С. 305-324.*

*11. Фенелонов, Е.А. Централизованные библиотечные системы: проблемы эффективности [Текст]: метод. материалы/ Е.А.Фенелонов; под ред. Ю.А.Гриханова; РГБ.- М., 2001.- 120 с.*

*12. Фрумин, И.М. Библиотечное дело: орг. и управление [Текст]: учебник/ И.М.Фрумин.- М.: Книга, 1980.- 272 с.*

*13. Что такое библиотечный коллектив?// Библиотечный коллектив: формирование и управление:[Текст] Учеб. пособие.- СПб., 1996.- С. 3-15.- В соавт. с Н.И.Мошкиной.*

**ХАЛИЛ ИСМАИЛОВ**

## СОВРЕМЕННЫЕ ПРОБЛЕМЫ В ПРАВЛЕНИИ ЦБС
## РЕЗЮМЕ

*В статье говорится о Централизованных Библиотечных Системах (ЦБС), которые играют важную роль в усовершенствовании правления, библиотечного дело. Освещаются современные проблемы и существующие недостатки в правлении ЦБС и показываются пути их решения.*

**KHALIL İSMAİLOV**

## THE PRESENT PROBLEMS IN MANAGEMENT OF CLS
## SUMMARY

*In article deals with Centralized Library Systems which plays important role in management of library work. Is lightens the present problems and existence insufficiencies in management of CLS and is shows the ways of solution of them.*

**Professor X.İSMAYILOV**
**P.KAZIMİ**

## KİTABXANA İŞİNİN DEMOKRATİKLİYİ HAQQINDA

Məlumat istehlakçısının potensial sorğusunu düzgün müəyyənləşdirərək onu tam ödəyə bilmək texnologiyası özü bir incəsənətdir. Bu sənət böyük tarixi təkamül yolu keçmiş və tarixin müxtəlif dövrlərində bəşəri funksiyalarla yanaşı lokal preoritetlərə də malik olmuşdur. Bütün hallarda kitabxana mədəniyyətinin bəşəri xüsusiyyətləri həmişə üstünlük təşkil etmiş, kitabxanalar ayıran deyil, birləşdirən olmuşdur. Müasir dövrdə çox az müzakirə olunan kitabxanaların demokratikliyi probleminə diqqət çəkmək fikrindəyik.

Kitabxana fondlarının repertuarı, fondun komplektləşdirilməsi, məlumat xidmətinin təşkili və kitabxana siyasətinin həyata keçirilməsi prosesində demokratikliyin gözlənilməsi müasir mədəni cəmiyyətin vacib tələblərindəndir. Qlobal iqtisadi inkişaf və beynəlxalq ictimai inteqrasiya şəraitində bünün əhəmiyyəti ildən ilə artmaqdadır.

İslam dininin hakim olduğu böyük coğrafi əraziyə daxil olan Azərbaycanın kitab, kitabxana mədəniyyəti prof. A.A.Xələfovun tədqiqatlarında geniş təhlil olunur. Məhz bu tədqiqatlardan çıxış edərək kitabxana fəaliyyətinin demokratik ənənələrini tarixi faktlarla ifadə etməyə çalışacağıq.

XV əsrdə mərkəzi dini hakimiyyət tərəfindən dərisi soyularaq edam edilməsinə hökm verilmiş görkəmli şair Nəsimi Azərbaycan ərazisində sərbəst fəaliyyətdə idi və yalnız Ərəbistanda hökm icra olundu, hətta hökmün icrasından sonra belə Azərbaycan kitabxanalarından Nəsiminin və ya hər hansı hürufi şairlərinin (Bu dövrdə xeyli hürufi şair Azərbaycanda yaşayır və fəaliyyət Göstərirdi) kitablarının yığılması, yandırılması və ya qadağan olunmuş kitabların siyahısı haqqında heç bir məlumat verilmir.

Avropa ölkələrindən fərqli olaraq islam şərqində kitab məhsuluna dini müəssisələr tam nəzarət edə bilmirdi. Xüsusilə moğol dövründən başlayaraq kitab məhsulunun istehsalında və kitabxana işinin çoxcəhətliliyində bir liberallaşma baş verir. XIII əsrdən etibarən kitabxana fondlarının repertuarı zənginləşir, elmin bütün sahələrini əhatə edən kitabxana fondlarında qadağan edilmiş elm sahəsi və ya mövzular olmamışdı.

Görkəmli alim prof. A.A.Xələfovun kitabxana tarixi problemləri ilə əlaqədar apardığı çoxillik tədqiqatları nəticəsində müəyyən olunmuşdur ki, Azərbaycan kitabxanalarında son min ildə dil, din və digər xüsusiyyətlərə görə məhdudiyyətlər mövcud olmamışdır. Azərbaycanda yüksək oxucu qrupları Azərbaycan, Ərəb və fars dilli ədəbiyyatdan böyük bir tarixi dövrdə istifadə etmiş,XIX əsrin II yarısından başlayaraq bu dillərə rus dili də əlavə

olunmuşdur. Hal-hazırda yüksək oxucu qrupu Azərbaycan, rus və ingilis dilli ədəbiyyatdan geniş istifadə etməkdədir.

Azərbaycanın şimal hissəsinin XIX əsrin əvvəllərində Rusiya imperiyası tərəfindən işğalı Azərbaycanın ictimai həyatının bir çox sahələri kimi kitabxana mədəniyyətinə də öz təsirini göstərdi. Zəngin əlyazma kitabları müsadirə olunaraq mərkəzi şəhərlərə aparılır, yeni çap kitablarına güclü senzura nəzarəti qoyulurdu. Bütün bunlara baxmayaraq əlyazma kitabı ənənələri XIX əsrin sonlarına qədər qorunub saxlanıldı və bu proses hər hansı senzuradan kənarda baş verir, kitabxana fəaliyyəti dövlət nəzarəti və idarəetməsindən kənarda qala bilirdi.

Yalnız Sovet hakimiyyəti illərində Azərbaycanda kitab məhsulu və kitabxana xidməti dövlət nəzarətinə tam keçirildi və ideoloji işin tərkib hissəsinə çevrildi.

Azərbaycanın ilk elmi kitabxanası sayılan və Nəsirəddin Tusi tərəfindən təsis olunmuş (1259) Marağa Rəsədxanasının kitabxanasında toplanmış ədəbiyyatın repertuarı və Çin, Hindistan,Mavərənnəhrdən dəvət olunmuş mütəxəssislərin müxtəlifliyi göstərir ki, elmi kitabların böyük bir mərkəzinin yaradılması, elmi axtarışlar üçün bir ideya ətrafında toplanan mütəxəssislərin qarşısına xüsusi şərtlər, məhdudiyyətlər qoyulmamış və Azərbaycan bu «komplekslərdən» kənarda olmuşdur. Bu fikri dərinləşdirmək üçün bir tarixi faktı da diqqətə cəlb edək. 1510-cu ildə Şah İsmayıl Xətainin fərmanı ilə ilk dəfə dövlət kitabxanasına rəhbər təyin edilir və bu ənənə halını alır, geniş məzmunlu fərmanın təhlili bir daha sübut edir ki, hətta feodal dövlət quruluşu şəraitində hökmdarlar kitabxana rəhbərliyi qarşısında qadağanedici, məhdudlaşdrıcı heç bir xüsusi şərtlər qoymurdu.

Azərbaycan kitabxanaları tarixində ümümi istifadə üçün bağlı kitabxana fondlarına malik kitabxanaların olması haqqında mənbələrdə heç bir məlumat mövcud deyil. Ələmut qalasında Həsən Səbbahun davamçılarıtərəfindən XIII əsrin I yarısında Vatikan kitabxanasını xatırladan bir kitabxana yaradılmış və onun zəngin kitab fondunun, təriqət tərəfdarları tərəfindən islam dünyasının mərkəzlərindən, müxtəlif ucqarlardan kitab məhsullarını Ələmuta toplayaraq orada böyük bir kitab fondu formalaşdırmışlar. Lakin 1257-ci ildə Hülakü xan Ələmut qalasını işğal etmiş və ənənəvi tarix kitablarında bərbər, dağıdıcı və işğalçı kimi təqdim olunan Moğol xanı təriqətçiləri dağıtmış, kitabxananı Nəsirədin Tusiyə həvalə etmişdir ki, bu da Marağa rəsədxanasının elmi kitabaxanasının əsasını təşkil etdi. Əlavə edək ki, bu rəsədxana və onun nəzdindəki kitabxana gələcəkdə Uluqbəyin rəsədxana və kitabxanasının əsasını təşkil edir.

XIII əsrdən başlayaraq mənbələrin bizə verdiyi zəngin materiallar əsas verir ki, Azərbaycan kitabxanalarında dini tolerantlıq probleminin artıq həll olduğunu iddia edək. Orta əsr kitabxanalarının fondlarında Əhdi-ətiq, Əhdi-

cədid, Zəbur, tövrat və incilin çoxsaylı nüsxələri qorunub saxlanılmışdır. Azərbaycanın şimalında xəzərlərin yəhudiliyi qəbul etməsi, qərb hissəsində Albanların xristian olması, cənubluların atəşpərəstliyi, eləcə də müsəlman əhalisinin mövcud olması, böyük tarixi dövrdə kitab məhsulunun istehsalında, mühafizəsində və istifadəyə verilməsində heç bir problemlə qarşılaşmamışdır.

Müasir dünyada kitabxanaların sənədli informasiyanın komplektləşdirilməsi, saxlanılması və təqdim edilməsi formaları daha sürətlə transformasiya olunur. Bu problemi tədqiq etmiş prof. Yuri Qrixanovun bir sıra fikirləri ilə polemikaya girmək olar. Transformasiya prosesi son iki min il ərzində sistemli olaraq baş vermişdir və kitabxana sənəti bu prosesə daima uyğunlaşmış və onu idarə etməyə çalışmışdır. Kitabxana-informasiya sistemlərinin inkişaf strategiyasını müəyyənləşdirən elmi konsepsiyalara mane olan ideoloji, milli və dini komplekslər tarix boyu özünü göstərmişdi. Əgər nəzərə alsaq ki, bu gün də inkişaf etmiş ölkələrdə nəinki istifadəyə, hətta kataloqlaşmaya bağlı olan kitabxana fondları mövcuddur, informasiyanın manipulyasiya olunması cəhdləri orta əsrlərdə olduğundan daha geniş aktuallıq kəsb edir. Bu zaman məlumatın və məlumat daşıyıcısının mötəbərliyi məsələsi ön cərgəyə çıxır. Düşünürük ki, kitabxana xidmətinin demokratikliyi prinsiplərinə kitabxanaşünaslıq nəzəriyyəsində yenidən baxılmalıdır. Biliklər cəmiyyətini səciyyələndirən informasiya mühitidir. Prof. Mixail Onenkov öz məqaləsində yazır: "İnformasiya mühitinə təsir etmək – mədəniyyətə, biliklər sənayesinə və incəsənət sahəsinə təsir etməkdir". (Kitabxanalar biliklər cəmiyyətində. Bakı, 2006.- 353 səh.). Tədqiqatçının bu fikrinə siyasət anlayışını da əlavə etmək düzgün olardı. Kitabxana tarixindən əldə etdiyimiz təcrübə göstərir ki, informasiya mühitinə təsir fraqmental informasiya, informasiyanın manipulyasiyası, dezinformasiya şəklində təzahür edir. Deməli, informasiya mühitinin də keyfiyyəti vacib amildir. Bu problemin daha detallı analizə ehtiyacı var. Biliklər cəmiyyəti informasiya mühitini vaxtaşırı test etməli və demokratik, sənədli məlumat inteqrasiya mexanizmləri tətbiq etməlidir. Dünya kitabxanaları tarixində kitabxana fəaliyyətinin demokratik ənənələrini öyrənərək onlara birmənalı qiymət vermək bu istiqamətdə faydalıdır.

Ş.Ranqanatanın XX əsrin əvvəllərində müəyyənləşdirdiyi kitabxana elminin beş yeni qanunu qeyd edildiyi kimi artıq maksimaya çevrilmiş mücərrəd yanaşmadır. Məsələn, «hər oxucunun öz kitabı var» və ya «hər kitabın öz oxucusu var» maksimasını kitabxanalar hansı texnologiyalar hesabına müəyyənləşdirir. Bu gün oxucu məlumat axtarışında tam müstəqildir. Mötəbər məlumat mənbəyi və mötəbər məlumat əldə etmək istiqamətində müasir kitabxana praktikasında kifayət qədər problem var.

Demokratik olmayan dövlətlərdə (orta əsrlərə də aid edilə bilər) kitabxana xidmətinin demokratikliyindən danışmaq olarsa, demokratik üsul ilə idarə edilən bir siyasi sistemdə qeyri-demokratik kitabxana xidməti də mövcud ola

bilir. Belə halları sübut etmək üçün xeyli nümunələr mövcuddur. Kitabxanaşünas alim R.Kazımov bu problemlə əlaqədar qeyd edir ki, kitabxanaçılıq fəaliyyətində ideoloji amil həmişə mövcud olub, çünki demokratiya özü də ideologiyadır. Bununla razılaşmamaq çox çətindir.

Kitabxana tarixindən əldə olunmuş məlumatlar müəyyən edir ki, hələ çox qədim zamanlardan konkret mövzularda və ya konkret müəlliflərin kitabları toplanaraq yandırılıb və bununla da kitabxananın məlumatı zamana ötürmək funksiyası məhdudlaşdırılıb. Eləcə də konkret müəllifin və konkret mövzularda yazılmış əsərlər dəyişdirilərək zamana dezinformasiya ötürmək cəhdləri kitabxanalarda həyəta keçirilmişdir. Fikrimizi inkişaf etdirərək müasir dövrdə geniş PR texnologiyaları tətbiq edərək dünyaya dezinformasiya yaymaq ənənəsinin də mövcud olmasını qeyd edək. Kitabxanalar mövcud informasiya küyündə fondun formalaşması və xidmətin təşkilində mənbəyin və məlumatın mötəbərliyinin müəyyənləşdirilməsi problemini həll etməlidirlərmi? Yoxsa bu kitabxana siyasətinin həyata keçirilməsindəki demokratik prinsiplərə ziddir? Bir sıra kitabxanaların təcrübəsində «bizə aid həqiqətlər və ya aid olmayan həqiqətlər Anlayışları bu gün də mövcuddur.

Düşüncələrimizi ümumiləşdirərək diqqəti son 50 ildə SSRİ məkanında dövriyyəyə daxil olmuş kitabxana tarixi ilə əlaqədar tədqiqat işlərinə, xüsusilə də dərslik və tədris ədəbiyyatı kimi tövsiyə olunan mənbələrə cəlb etmək istəyirik. Bu mənbələr dünya kitabxana mədəniyyətini və ənənələrini nə qədər düzgün ifadə edə bilir? Müxtəlif xalqların, dövrlərin, hətta dini cərəyanların dünya sivilizasiyasına gətirmiş olduğu kitabxana mədəniyyətinin xarakteri, xüsusiyyəti, mahiyyəti, ənənələri nə dərəcədə real mənzərəni ifadə edir? Bəlkə də bugünkü kitabxanaşünaslıqda bir çox problemlər tarixi ənənələrə düzgün qiymət verməmək, bəzən də vermək istəməməyimizdən qarşıya çıxır. Sovet məkanında kitabxana tarixi problemlərini öyrənən, kitabxana tarixində ənənələri araşdıran və kitabxana işinin tarixi təkamülünü tədqiq edərək ilk dəfə tarix elmləri doktoru olmuş professor A.A.Xələfovun elmi irsinə diqqəti cəlb etmək istəyirik. Əsərləri ilə nüfuzlu bir məktəb yaratmış alim ilk dəfə kitabxanaların bəşəri funksiyasını qeyd etmiş və öz tədqiqatlarında coğrafi sərhədlərlə məhdudlaşmamışdı.

Tarixi təcrübəni öyrənmək tarixi faktları manipulyasiya etmək və ya tarixi mənzərəni saxtalaşdırmağa motivasiya etmək üçün deyil, ondan təkamülün növbəti mərhələsi üçün düzgün nəticələr çıxarmaq baxımdan faydalıdır. Kitabxana tarixinin bizə verdiyi geniş məlumat kütləsi bizə əsas verir ki, kitabxana təsnifatına yeni terminologiya daxil edək; Demokratik kitabxanalar və demokratik olmayan kitabxanalar və ya bu fikri ifadə edə biləcək başqa bir termin.

## ƏDƏBİYYAT.


1. *Xələfov A.A. Azərbaycanda kitabxana işinin tarixi: c 1.- Bakı, 2006.*
2. *Xələfov A.A. Azərbaycanda kitabxana işinin tarixi: c 2.- Bakı, 2007.*
3. *Kitabxanalar biliklər cəmiyyətində.-Bakı, 2006. - 360 s.*
4. *İsmayılov X.. Kitabxana menecmentinin əsasları.- Bakı, 2006.*
5. *Aslan K. Qədim və orta əsrlər dünya kitabxanaları. Bakı,- 2008.*



**ХАЛИЛ ИСМАИЛОВ**
**ПАРВИЗ КАЗЫМИ**


## О ДЕМОКРАТИЧНОСТИ БИБЛИОТЕЧНОЙ РАБОТЫ
## РЕЗЮМЕ


*Демократичность библиотечной работы является актуальной проблемой современного библиотековедения. Элементы демократичности наблюдаются и в библиотечной традиции средневековых библиотек.*



**KHALİL İSMAİLOV**
**PARVİZ KAZİMİ**


## ARENT THE DEMOCRACY OF LIBRARY WORK
## SUMMARY


*The democracy of library work is an actual problem in temporary. The determine of democratic traditions are very important to learn history of library.*

**Elçin ƏHMƏDOV**
*Dosent*
**Günel ƏHƏDOVA**
*Magistrant*

# KİTABXANALARIN HÜQUQİ TƏMİNATINDA BEYNƏLXALQ ƏMƏKDAŞLIĞIN ROLU

Hüquqi təminat bütün sahələrdə zəruri ünsür hesab olunur. Hüquqi təminat olmadan heç bir sahənin inkişafından danışmaq olmaz. Hər bir kitabxana hüququn subyekti kimi müxtəlif vəzifələrə malik olub öz fəaliyyətini qüvvədə olan hüquqi aktlar əsasında həyata keçirmək imkanlarına malikdir. Bu baxımdan kitabxana işində hüququn aliliyi başlıca rol oynayır.

Kitabxanaların hüquqi təminatında beynəlxalq təşkilatların rolu danılmazdır. Onların qəbul etdiyi manifest və proqramlar hüquqi əhəmiyyətə malikdir və kitabxanaların hüquqi təminatında mühüm rol oynayır. Bu cəhətdən beynəlxalq əməkdaşlığın inkişafına xüsusi diqqət yetirilməlidir.

Biliklər cəmiyyətində informasiya mənbələrinin geniş və sürətli mübadiləsi olmadan elmin, texnikanın, mədəniyyətin daha da tərəqqi etməsi, xalqlar və dövlətlər arasındakı inamın inkişafı mümkün deyil. Ona görə də beynəlxalq informasiya əməkdaşlığı informasiya təminatının ümumdünya və lokal beynəlxalq əlaqələr kompleksinin mühüm ünsürü olur. Bu mühüm işdə müstəqillik yollarında irəliləyən Azərbaycan Respublikası da öz yerini tutmalıdır.

Kitabxana işi sahəsində beynəlxalq əməkdaşlıq, əslində müxtəlif ölkələrin müvafiq hökumətlərarası və qeyri-dövlət beynəlxalq təşkilatların iştirakı ilə həyata keçirilir.

Kitabxana işi sahəsində ən mühüm təşkilatlardan biri YUNESKO-dur. YUNESKO (United Nations Educational, Scientific and Cultural Organization – Təhsil, Elm, Mədəniyyət Məsələləri üzrə Birləşmiş Millətlər Təşkilatı) BMT-nin 13 ixtisaslaşdırılmış idarəsindən biridir.

YUNESKO-nun başlıca məqsədi təhsil, elm və mədəniyyət sahəsində beynəlxalq əlaqələrin inkişafına, mədəniyyətin və elmi-texniki informasiyanın yayılmasına, milli mədəniyyətlərin müdafiəsinə və s. köməklik göstərmək, YUNESKO üçün müəyyən edilmiş qlobal kursda ədaləti, qanunçuluğu və insan hüquqlarına hörməti təmin etmək naminə xalqların geniş əməkdaşlığının inkişafı zəminində insanların şüurunda sülh ideyasını, ümumbəşəri dəyərləri möhkəmləndirməkdir.

Hazırda 186 ölkə BMT-nin bu iri ixtisaslaşdırılmış təşkilatının üzvüdür. O cümlədən, Azərbaycan Respublikası 1992-ci ilin iyunun 3-dən YUNESKO-nun tam hüquqlu üzvüdür.

1947-ci ildən kitabxanalar üçün YUNESKO-nun bülleteni çıxır. Əvvəlcə, bu bülleten ingilis, fransız dillərində, 1953-cü ildən ispan, 1957-ci ildən rus və 1970-ci ildən isə ərəb dilində çıxır. Təşkilat kitabxana işi üzrə monoqrafik seriyalar da nəşr edir.

1949-cu ildə YUNESKO kütləvi kitabxanalar haqqında manifest qəbul etdi. Bu manifestdə müharibədən sonrakı dövr üçün kütləvi kitabxanaların vəzifələri və fəaliyyət dairələri müəyyənləşdirilmişdir.

Beynəlxalq kitabxanaçılıq-biblioqrafiya təşkilatlarının qarşılıqlı əlaqələri müharibədən sonrakı dövrün ən xarakterik əlamətləri olmuşdur. Belə ki, 1947-ci ildə YUNESKO ilə İFLA arasında bir-birini tanımaları haqqında qarşılıqlı razılaşma imzalanmışdır.

Dünyanın ən iri peşəkar birliyi olan İFLA qeyri-hökumət təşkilatı olaraq yarandığı vaxtdan bütün növ kitabxana-informasiya xidməti səviyyəsinin yüksəldilməsinə köməklik etməkdədir. Bu məqsədlə o geniş miqyaslı iş aparır, hər il bir ölkənin paytaxtında özünün baş konfransını keçirir, xüsüsi jurnalını dərc edir, iki ildə bir dəfə İFLA-nın məlumat-kitabxana təşkilatı İFLA şurasının hesabatını dərc edir və s.

İFLA 8 şöbədən, 2 dəyirmi masadan və 35 bölmədən ibarətdir. İFLA, bütövlükdə bir çox ölkələrdə kitabxana işinin yenidən qurulmasına və inkişafına yönəldilmiş YUNESKO-nun çoxplanlı proqramları üzrə işlərin və tapşırıqların həyata keçirilməsinə başlamış və işlər sonrakı illərdə də uğurla davam etdirilmişdir.

Müharibədən sonrakı dövrdə ümumi kitabxanaların vəzifələri, fəaliyyət miqyası ümumi kitabxanalar haqqında YUNESKO-nun 1949-cu ildə qəbul etdiyi ilk manifestdə müəyyən edilmişdir.

Ona görə də, dünyanın ən iri beynəlxalq peşəkar birliyi İFLA 1994-cü ildə özünün baş konfransında (60-cı konfrans) Ümumi Kitabxanalar haqqında manifesti tam yeni redaksiyada təsdiq etmiş və həmin ilin oktyabrında manifest YUNESKO-nun şurasında təsdiq edilərək geniş ictimaiyyətə çatdırılmışdır.

Lakin ilk manifestin qəbulundan keçən 60 ildə dünya miqyasında baş verən köklü ictimai-siyasi dəyişikliklər, elmi-texniki tərəqqi, milli mədəniyyətlərin inkişafı və yaxınlaşması cəmiyyətin sosial tərəqqisi və bu prosesdə kitabxanaların mühüm rol oynaması və s. obyektiv amillər bəşəriyyətin gələcək inkişafında ümumi kitabxanaların yerinin və vəzifələrinin müasir tələblər baxımından müəyyənləşdirilməsi məsələlərini ön plana çəkmişdir.

Manifestdə ümumi kitabxanalar belə xarakterizə olunur:

"Ümumi kitabxanalar xidmət etdiyi rayon üçün istifadəçilərə, bütün bilik və informasiya mənbələrinə operativ çıxış təmin etməklə informasiya mərkəzi

rolunu oynayır. Ümumi kitabxanalarda xidmət yaşından, dilindən, cinsindən, etiqadından, milliyyətindən və ya ictimai vəziyyətindən asılı olmayaraq hamı üçün bərabər prinsiplər əsasında həyata keçirilir" [2].

Azərbaycan dilində ilk dəfə təqdim olunan bu Manifest Rusiya Federasiyasının Mədəniyyət Nazirliyi və Rusiya Milli Kitabxanası tərəfindən hazırlanan və 2001-ci ildə Moskvada "Либерия" nəşriyyatı tərəfindən nəşr edilən "Информационно-библиотечная сфера: Международные акты и рекомендации" adlı normativlər və tövsiyələr, məlumat materialları məcmuəsindən tərcümə edilmişdir.

YUNESKO yaradıldığı gündən məktəb kitabxanalarının fəaliyyətinə də xüsusi qayğı ilə yanaşmış və təhsil məsələləri üzrə sənədləşmə sahəsində müəyyən xidmət göstərmişdir.

Artıq neçə ildir ki, kitabxana elm aləmində "YUNESKO-nun kitabxanalar haqqında manifesti" fəaliyyət göstərir. Bu sənəd dünyanın 20 dilinə tərcümə edilmişdir. İFLA 2000-ci ildə İsrailin Qüds şəhərində keçirilmiş konqresdə bu sənədin yeni variantını - "Məktəb kitabxanaları haqqında manifest" qəbul etmişdir.

Manifestdə göstərilir:

"Məktəb kitabxanası təhsilin inkişafına, informasiyanın təbliğ edilməsinə, iqtisadi, sosial və mədəni inkişafa yönəlmiş hər hansı uzunmüddətli fəaliyyətin ən vacib sahəsidir. O, yerli, regional və dövlət inzibati rəhbərliyin tabeçiliyindədir və onun fəaliyyət göstərməsi hüquqi qanunvericilik aktları və siyasi proqramlar tərəfindən dəstəklənir. Məktəb kitabxanası sabit qaydada və kifayət miqdarda maliyyələşdirilməlidir ki, bu vasitə ilə yüksək peşə səviyyəli ştat saxlamaq, lazımi materiallar, texnika və avadanlıq almaq mümkün olsun. Məktəb kitabxanaları pulsuz olmalıdır" [1].

Beynəlxalq səviyyədə kitabxanaların fəaliyyətini tənzimləyən hüquqi sənədlərin qəbul edilməsi və ratifikasiyası Azərbaycan kitabxanalarının inkişaf perspektivlərinə səmərəli təsir göstərə, eyni zamanda, hüquq subyekti kimi fəaliyyətin hüquq tənzimlənməsində əhəmiyyətli rol oynaya bilər.

Bu sənədlərlə yanaşı, YUNESKO informasiya sahəsində də müxtəlif proqram və layihələrlə çıxış edir və informasiya texnologiyalarının inkişafı üçün mühüm tədbirlər həyata keçirir. Buna misal olaraq "Hamı üçün informasiya" adlı informasiya proqramını bəşəriyyətin xeyrinə atılmış böyük bir addım adlandırmaq olar. YUNESKO Proqram üzrə xüsusi Dövlətlərarası Şura yaratmışdır. Bu şuraya YUNESKO-nun üzvü olan 36 dövlətin nümayəndələri daxildir. Dinindən və dilindən, dərisinin rəngindən, biliyindən və təhsilindən, harada yaşamasından və əqidəsindən asılı olmayaraq tam hüquq bərabərliyi əsasında hazırlanmış "Hamı üçün informasiya" proqramı dünyanın qlobal informasiya mühitində böyük əhəmiyyəti olan ümumbəşəri əlaqə mənbəyi hesab edilir.

Azərbaycan Respublikası da artıq onlarca beynəlxalq təşkilatlarda və qurumlarda təmsil olunur. Belə təşkilatlarda təmsil olunmaq, nəinki respublikamızın beynəlxalq miqyasda tanınmasını təmin edir, həm də ayrı-ayrı sahələrdə qarşılıqlı, faydalı əməkdaşlığın yaradılmasına, birgə layihələrin, hazırlanmasına və reallaşdırılmasına, dünya miqyasında qabaqcıl təcrübənin respublikamıza gətirilməsinə yardım edir. Belə faydalı əlaqələrin yaradılmasında xüsusi xidməti olan təşkilatlardan biri də Azərbaycanda Kitabxana İşinin İnkişafı Assosiasiyasıdır.

Respublikamızın kitabxana işi və informasiya təminatı sahəsində fəaliyyət göstərən mütəxəssislərini və təşkilatlarını öz sıralarında birləşdirən bu təşkilat 1999-cu ildə yaranmasına baxmayaraq, az bir zaman ərzində bu sahədə ölkəmizdə aparıcı ictimai quruma çevrilmişdir.

AKİİA-nın prezidenti, tarix elmləri doktoru, professor X.İ.İsmayılov və digər üzvlər Gürcüstanın paytaxtı Tiflisdə, Rusiya Federasiyasının paytaxtı Moskvada və başqa şəhərlərdə beynəlxalq seminar və müşavirələrdə iştirak etmişlər.

Bu prosesin davamı olaraq AKİİA-nın müstəqil bir qeyri-dövlət təşkilatı kimi dünyanın 150-dən çox dövlətinin üzvü olduğunu Kitabxanaçılıq Assosiasiyalarının və İdarələrinin Beynəlxalq Federasiyasının (İFLA) üzvlüyünə qəbul edilməsini hesab etmək olar [3]. AKİİA-nın idarə heyətinin üzvü və vitse-prezidenti M.Nəzərova ACİ-nin elan etdiyi Kitabxanaçılıq proqramı üzrə layihəni işləmək və ona ayrılmış qrant əsasında İFLA-nın üzvlüyünə qəbul olunmaq üçün lazım olan vəsait əldə edilmişdir. 2000-ci il avqustun 13-19-da İsrailin paytaxtı Yerusəlim [Qüds] də dünyanın 140-dan çox ölkəsinin təmsil olunduğu İFLA-nın 66-cı Baş konfransında AKİİA bu təşkilatın üzvlüyünə qəbul edilmişdir. İlk dəfə olaraq bu konfransda AKİİA-nın 3 nəfərdən ibarət nümayəndə heyəti səlahiyyətli, hüquqi səsə malik olan üzv kimi bu mötəbər birliyin işində iştirak etməklə Azərbaycan kitabxana ictimaiyyətini geniş beynəlxalq aləmə tanıtmışdır [4].

İndi öz sıralarında 400-ə yaxın fərdi üzvü və 6 kollektiv üzvü birləşdirən AKİİA qarşısına ölkəmizdə kitabxana işinin mövcud vəziyyətini təhlil edərək onun perspektiv inkişafı barədə tövsiyələr hazırlamaq, həm yerli mütəxəssislərin bilik və bacarığını, həm də digər ölkələrin qabaqcıl təcrübəsini öyrənməklə ölkəmizdə kitabxana işi sahəsində əhəmiyyətli texniki və texnoloji irəliləyiş, bu sahədə demokratik islahatların aparılmasına, respublikamızın hər bir vətəndaşının ölkəmizin kitabxana-informasiya ehtiyatlarından səmərəli istifadə etmək imkanına nail olmaq, kitabxanaçı-biblioqraf peşəsinin nüfuzunu yüksəltmək, bu sahədə demokratik islahatların aparılmasına respublikamızın hər bir vətəndaşının ölkəmizin kitabxana-informasiya ehtiyatlarından səmərəli istifadə etmək və s. bu kimi vəzifələr qoyur.

Beynəlxalq əməkdaşlıq kitabxana işində prioritet təşkil edir. Qeyd etdiyimiz kimi, respublika kitabxanalarının beynəlxalq aləmdə təmsil olunması və onların inteqrasiyası cəhətdən də böyük əhəmiyyət kəsb edir. Bu təşkilatların kitabxana işi sahəsindəki tədbirləri kitabxana işinin hüquqi təminatına əhəmiyyətli təsir edir.

## ƏDƏBİYYAT


1. *Xələfov A.A., Əhmədov, E.Y. Məktəb kitabxanaları Azərbaycanın müstəqilliyi şəraitində // Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri və təcrübi jurnal. - 2004. - № 1. - S. 3-14.*
2. *Ümumi kitabxanalar haqqında YUNESKO-nun manifesti // Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri və təcrübi jurnal. - 2005. - №1. - S. 124-127.*
3. *Baxşəliyev Z.İ. Azərbaycanda Kitabxana İşinin İnkişafı Assosiasiyası Beynəlxalq Təşkilatın – İFLA-nın üzvüdür // Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri və təcrübi jurnal. - 2000. - №2. - S. 122-126.*
4. *İsmayılov X.İ., Məmmədov, Ə.M. Azərbaycanın kitabxana mütəxəssisləri İFLA-nın konfransında // Kitabxanaşųnaslıq və biblioqrafiya: elmi-nəzəri və təcrübi jurnal. - 2001. - №2. - S. 133-139.*



**АХМЕДОВ Е.Ю.**
**АХАДОВА Г.Т.**


## РОЛЬ МЕЖДУНАРОДНОГО СОТРУДНИЧЕСТВА В ЮРИДИЧЕСКОМ ОБЕСПЕЧЕНИИ БИБЛИОТЕЧНОГО ДЕЛА
## РЕЗЮМЕ


*В статье анализируется мероприятия по сотрудничеству проводимые международными, в том числе непровительственными организациями и исследуется тенденция их влияние на юридическое обеспечение библиотек Азербайджанской Республики.*

**AHMADOV E.Y.**
**AHADOVA G.T.**

## THE ROLE OF INTERNATIONAL COORPERATION IN LEGAL PROVISION OF THE LIBRARIES

### SUMMARY

*The article reviews the activities carried out by international coorperation, including non-governmental organizations and examines the trend of their influence on the legal provision of the libraries of Republic of Azerbaijan.*

**Mehmanəli MƏMMƏDOV**
*Pedaqoji elmlər namizədi, dosent*

## KİTABXANALARIN İDARƏ EDİLMƏSİNDƏ MARKETİNQİN ROLU

Bazar iqtisadiyyatı şəraitində MDB ölkələrində, o cümlədən respublikamızda kitabxanaların sosial-iqtisadi fəaliyyəti prinsip etibarı ilə tamamilə dəyişmişdir. Belə ki, idarəetmədə ənənəvi sistemin uğursuzluğu, konstruksiya strategiyasının inkişafına olan tələb, “Yeni paradiqm” nəzəriyyəsinin mövcudluğu kitabxanaların marketinq sisteminə keçməsinə gətirib çıxarmışdır.

Kitabxanaçılıq praktikasına marketinqin gətirilməsi, əcnəbi mütəxəssislər tərəfindən hazırlanmışdır. Artıq 1960-cı illərdə ABŞ-da, bir müddət sonra AFR-də, İsveçrədə marketinqin genişləndirilməsi metodları müzakirə olunurdu. 1970-ci illərdə əksər Amerika mütəxəssisləri gəlir gətirməyən təşkilatlarda kommersiya marketinqinin tətbiq olunması fikirlərini irəli sürürdülər.

Hal-hazırda ekspertlər marketinqin inkişafını iki əsas hissəyə bölürlər: işgüzarlıq və qeyri-kommersiya şəraitində marketinqin inkişafı. Məlum olduğu kimi kitabxanalar qeyri-kommersiya sahəsinə aiddir;

Kitabxanaların marketinqlə əlaqəsi haqqında ilk elmi məqalələr 1970-ci illərin əvvəllərinə təsadüf edir. İlk olaraq marketinq sisteminə ehtiyacı Şimali Amerikanın kütləvi kitabxanalarının əməkdaşları bildirmişlər. Əcnəbi kitabxanaların marketinq metoduna müraciəti böhran vəziyyəti ilə əlaqədar olmuşdur. Çap məhsullarının qiyməti durmadan artırdı. Kitabxanalara yeni texnologiyalar lazım idi, amma dövlət tərəfindən kitabxanaların müasir texnologiyalarla təmin etdirilməsi birdən dayandırıldı. Bu illərdə kitabxanalara lazım idi ki, özlərini doğrultsunlar və cəmiyyətə sosial informasiya mədəniyyətlərini nümayiş etdirsinlər. Bu cəhətdən marketinq strategiyasının kitabxanalarda tətbiqi labüd idi.

Kitabxana marketinqi - bu müxtəlif görünüşlü idarəetmə fəaliyyətidir ki, kitabxana məhsulunun və xidmətinin istehsalat hərəkətinə təsir edir. Kitabxana marketinqində əsas amillərdən biri sistemli yanaşmadır. Bir tərəfdən oxucunun sorğularını, maraqlarını dəqiq və hərtərəfi öyrənmək, xidməti oxucunun ünvanına çatdırmaq, digər tərəfdən mövcud maraqları formalaşdırmaqdır.

Kitabxana marketinqinin əsas məqsədi aşağıdakılardır:

1) Kitabxana xidmətində oxucunun maksimum tələbini ödəmək;
2) Kitabxana xidmətində sorğuları tam cavablandırmaq;
3) Kitabxana xidmətində fərdi və kollektiv istifadəçilərin yeni kateqoriyalarını genişləndirmək;

4) Yerli bölgələrdə və orqanlarda kitabxanaların müsbət obraz kimi (ictimai təşkilatlar və əhali arasında) saxlanılması və formalaşdırılması;

Marketinq metodu aşağıdakılarla ümumiləşir:

1) Kitabxana xidmətinin təşkilində məhdudiyyətlərin təhlili;
2) İstehlakçının potensial və real tələblərini öyrənmək;
3) Real məhsul və xidmətin yeni konsepsiyasının işlənib hazırlanması;
4) Məhsul və xidmətin genişləndirilməsi planı;
5) Reklam yolu ilə tədbirlərdə maddi marağın yaranması həvəsinin artırılması;
6) Qiymət siyasətinin təmin olunması;
7) Cəmiyyətin sosial tələblərinin öyrənilməsi.

Kitabxana xidmətindən istifadə edən oxucular əsasən: yaxın rayonlarda yaşayanlar, əhali, təşkilat sahəsində çalışan mütəxəssislər və (təhsil ocaqları) məktəblərdir.

Kitabxana marketinqi iki cür olur:

1) Qeyri-kommersiya marketinqi (pulsuz);
2) Kommersiya marketinqi (pullu).

Kütləvi kitabxanalarda əsas yeri qeyri-kommersiya marketinqi tutur. Kommersiya marketinqi tətbiq olunanda kitabxanalar oxucunun vəsaiti hesabına maliyyələşir ("Fandrayzinq"). Kitabxana marketinqi əsasən iki hissəyə bölünür: 1) marketinq xidmətinə, 2) marketinq istehsalına.

Kütləvi kitabxanalarda oxucunun müxtəlif informasiyaları pullu və pulsuz alması aparıcı rol oynayır. Belə kitabxanalarda oxucuya intellektual kitabları, metodiki materialları, biblioqrafik vəsaitlərin təqdim olunması əsas amillərdən biridir. İntellektual materiallar satış formasında əldə olunur, lakin kitabxanadan bunu pulsuz əldə etmək olar. Bu, kitabxananın fəaliyyətinin əvəzolunmaz olduğunu göstərir.

Kitabxana marketinqi iki strukturda: 1) kitab – kitabxana; 2) kitabxana – informasiya formasında olur. Kitabxana informasiya marketinqində oxucunun informasiya tələbini ödəmək, informasiya biznesini genişləndirmək ümdə məsələdir. Kitabxana marketinqinin əsas spesifik xüsusiyyətlərindən biri də odur ki, oxucunu tam mənada razı salsın. Kütləvi kitabxanalarda pullu xidmət zamanı oxucu tələb etdiyi materialı mədəni formada, sanballı şəkildə kitabxanadan ala bilir.

Şübhəsiz ki, kitabxana da bu işdə maliyyə xərcləri çəkir, amma bunun müqabilində oxucunu razı salmaq kitabxananın əsas işidir. Buna görə də, kitabxana işində marketinq xidmətinin fəaliyyəti genişlənir. Kitabxana pulsuz xidmət zamanı özünün iqtisadi ehtiyaclarını işləyib hazırlamaq yollarını tapmalıdır. Kitabxana ilkin olaraq oxucunun mənəvi maraqlarından marketinq fəaliyyətinə başlamalıdır. Bu da özündə aşağıdakıları əks etdirir:

1) əksər kitabxanalarda pulsuz xidmət göstərilməsi;

2) pullu xidmət zamanı imkansızlara (qaçqınlara, əlillərə, çoxuşaqlı ailələrə və s.) güzəştlərin olunması;

3) Pulsuz xidmətin pullu xidmətə keçirilməsinin labüdlüyü;

4) Təsərrüfat fəaliyyətli kitabxanaların hesabına pullu xidmətin pulsuz xidmətə keçməsi uğrunda mübarizə aparmaq;

5) Kitabxana xidmətindən istifadə edən oxucular və kitabxanada fəaliyyət göstərənlər tərəfindən etika qaydalarını gözləmək, mehriban münasibətlər və s. yaratmaq.

**Marketinq strategiyası** – bu səmərəli surətdə, məntiqi düzülüşlə kitabxanalara rəhbərlik edərək özünün marketinq məsələlərini həll edir. Bu elə bir strategiyadır ki, marketinqin kompleksini, məsrəf səviyyəsini özündə birləşdirərək bazara çıxır.

**Müdafiə strategiyası** – bazarda kitabxana informasiya istehsalının və xidmətinin müdafiə olunmasıdır.

**Gözləmə strategiyası** – burada kitabxana özü haqqında məlumat vermir. Çünki onun kitabxana texnologiyası hələ inkişaf etməmişdir. Başqa sözlə desək, kütləvi xarakter daşımır.

Kitabxananın müəyyən bir hissəsini ünvanlı profilləşdirilmiş şöbələr və sektorlar təşkil edir. Belə kitabxanaların rəhbərliyi oxucuları tərəfindən verilən tələbləri gözləyir.

İkinci mərhələdə kitabxanalar gözləmə strategiyasını yeni müdafiəyə bənzətmə strategiyasına dəyişir. Bu zaman "bənzədilmiş"məhsul yaranır. Burada başlıca məqsəd aşağı qiymətlərlə kitabxana məhsulları istehsal etməkdir. Hər iki halda məqsəd kitabxanaların marketinq fəaliyyətini oxucunun tələbləri üstündə qurmaqdır.

**Marketinq tədqiqatı** – burada məqsəd indiki vəziyyətdə kitabxana informasiya bazarını yoxlamaq, hüquqi və fiziki şəxslərin marağını analiz etmək, marketinq xidmətinin istehsal planlarını öyrənməkdir.

**Marketinq tədqiqatının texnologiyası** – bu beş əsas mərhələlərdə ümumiləşir:

1) problemin yaranması;
2) tədqiqatın məqsədinin formalaşması;
3) informasiya mənbəyinin seçilməsi;
4) informasiyanın toplanması;
5) alınmış nəticənin göstərilməsi.

Birinci mərhələdə tədqiqatçılar problemi dəqiq öyrənməli, məqsədi aydınlaşdırmalıdırlar. Marketinq tədqiqatının mənbəyi problemin yaranmasında başlayır. Bu məqsədə çatmaq üçün tədqiqatçılar problemi öyrənir və həlli yollarını axtarırlar. İkinci mərhələdə informasiyanın toplanması metodları axtarılmalıdır. Kəmiyyətli və keyfiyyətli tədqiqatlar aparılmalıdır.

**Kəmiyyətli metodlar** – marketinq tədqiqatçıları tərəfindən informasiyanın alınması, qanun ölçüləri çərçivəsində inkişafı, tələbin müəyyənləşdirilməsi və məsuliyyətin dərk olunmasıdır.

Kəmiyyətli tədqiqatlar zamanı informasiya müxtəlif üsullarla alınır: telefon müsahibələrinin köməyi ilə; yaşayış yerlərindən anket doldurma yolu ilə (iş yerindən, təhsil müəssisələrindən və s.); Burada əsas amil anket götürülür.

**Keyfiyyətli tədqiqatlar** – bu və ya digər informasiyanı yüksək dərəcədə göstərmək və həlli yollarını tapmaqdır. Keyfiyyətli tədqiqatın ən məhsuldar metodlarından biri "Fokus – qrup"un işləridir. Qrupun işi öz-özünə meydana gələn qeyri strukturlaşdırılmış xarakterli münaqişəli problemi müəyyən mənada həll etməkdir. "Fokus – qrup"un işi prosesində 8 – 10 hörmətli şəxs rəhbərliyin nəzarəti altında disskusiyalı söhbət aparır. Belə bir söhbət yalnız kitabxana tədbirləri çərçivəsində (dəyirmi stol arxasında, oxu zalında və s.) aparıla bilər. Söhbətlər əsnasında "Fokus – qrup" ənənəvi metodlarla oxucunun tələbini, fikrini öyrənir, kitabxana işində informasiyanın düzgün, dolğun geniş aspektli alınmasına əmin olur. Oxucunun nə dərəcədə razı qaldığının şahidi olur.

Marketinq tədqiqatı konkret olaraq problemli vəziyyəti analiz edir. Onlar kəmiyyətli və keyfiyyətli, iqtisadi-sosial amilləri analiz edərək kitabxana xidmətində məhsulun və informasiyanın strateji həllini tapırlar. Belə tədqiqatlar kitabxananın fəaliyyətini strateji planlarını reallaşdırır. Oxucunun razı salınması tələbləri ödənilir.

**Marketinq kommunikasiyası (əlaqələri)** – təqdim olunan marketinq sistemi müasir kitabxanaların iş fəaliyyətində əlaqələri genişləndirir. Marketinq əlaqələrinə daha bir çətin sistem – "Pablik Rileyşnz" sistemi daxil olur. "Pablik Rileyşnz" – "Pablikçilər" kitabxana fəaliyyətinin cəmiyyətdə təbliğatını həyata keçirir. Əksər müəlliflər marketinq sisteminin nə olduğunu anlamaq istəyirlər.

Kommunikasiya kanalları klassik marketinq nəzəriyyəsini istehsalatın iştirakçılarına tələb edən tərəfə bu işdə məhsulun effektli olduğunu anladır.

"Pablik Rileyşnz" – ("P R" ingilis sözü olub "Public relations" – ictimai rəy təşkilatı) bu elə bir idarəetmə funksiyasıdır ki, müəssisələrlə əlaqələr və qarşılıqlı münasibətlər yaradır. "Public relations" – "Pablik Rileyşnz" sistemi xüsusi idarəetmə sistemi kimi başa düşülür.

**İlkin tapşırıq -** təşkilatın məhsul xidmətinin tələb olunan tərəfdən etibarını qazanmaq. Əgər marketinq müasir fəaliyyətli "Public relations" – "Pablik Rileyşnz" sisteminə keçirsə, onda əsas element taktikası bundan ibarətdir. Bu oxucu kütləsi ilə kitabxana arasındakı əməkdaşlıq işinə ilk addımlardır.

Kitabxana fəaliyyətini gücləndirərək "Public relations" – "Pablik Rileyşnz" kitabxana marketinq kompleksində aparıcı rolu daşıyır. Bu sistemdə kitabxana öz imicini, yüksək reytinqini qoruyub saxlayır. Əlbəttə, "Public relations" – "Pablik Rileyşnz" sisteminin köməyi ilə. "Public relations" – buraya yalnız

kitabxana oxucuları daxil olmur. “Public relations” – sistemi əsasən aşağıdakılara diqqət edir:

1) Potensial qüvvəyə malik olan oxucular kitabxana işindən və xidmətindən razı qalıblarsa, daimi oxucuya çevrilə bilərlər;
2) Yüksək administrasiyalar və maliyyə orqanlarının kitabxana xidməti və fəaliyyəti haqqında təsəvvürləri olmalıdır, əhali arasında həmin kitabxanalar tanınmalıdır;
3) Uşaqlar ən fəal perspektivli auditoriya kimi böyüyəndə kitabxana ilə əlaqələri davam etdirə bilərlər;
4) Milli azlıqlara kitabxanalar maksimum diqqət yetirməlidirlər.

Kitabxananı tanıtmaq, onu xalqa, cəmiyyətə, müəssisələrə və s. təbliğ etmək “Public relations” in əsas, vacib işidir. “Public relations”ın başlıca kateqoriyası mətbuatda kitabxana haqqında pozitiv və neqotiv məqalələr çap etdirməkdir. Kitabxana bu istiqamətdə tələbkar olmalıdır. Mətbuatda cəmiyyətə kitabxananın işi, fəaliyyəti, keçirdiyi tədbirlər haqqında və hətta işçiləri haqqında da məlumat verməlidirlər. “Public relations” – sisteminin inkişafı yeni istifadə texnologiyası “Fandrayzinq”in yaranmasına kömək edir.

**“Fandrayzinq”** – müxtəlif mənbələrdən kitabxanalara maliyyə vəsaitlərinin toplanmasını təmin etməkdir.

Müasir kitabxanalarda geniş vüsət alan yollardan biri kitabxanalara qrant verilməsi, sərmayə qoyulması, sponsorluq, oxucu məsləhəti və s. “Fandreyzinq”in işi kitabxana tədbirlərinə köməklik göstərən sponsorları, xeyirxah iş görənləri informasiya ilə məlumatlandırmaq və həmçinin onlara təşəkkür məktubu ilə cavab verməkdir. Bugünkü gün kitabxana reklamına böyük diqqət verilir. Məhsulun formalaşması, xidmət, kommersiya informasiyasının köməyilə tələb edilən tərəfə təqdim edilir və müxtəlif formalarda (kataloqlar, elanlar, xüsusi mülahizələr və.s. qəzetlərdə, radio və televiziyada işıqlanır) reallaşır. Effektli reklam marketinqin daxili hissəsi olub, məhsulun bazara çıxarılmasında vacib rol oynayır. Marketinqin çətin sistemində reklam müxtəlif funksiyalar daşıyır, yeni iş metodlarını tanıdır. Reklam kitabxanaların imicini konkret formalaşdırır. Reklamdan öncə qarşıya ümdə vəzifə qoyulur ki, bu da informasiyanı çartdırmaq, əmin olmaq və xatırlatmaq kimi əsas hissələrə bölünür.

**İnformasiyanın reklamı** – yeni məhsulun yaranmasına çox maraq olduğu zaman gələn təkliflərin köməyilə informasiya reklamı meydana çıxır. İnformasiya reklamının tapşırıqları:

- xidmətin yeni dəyişiklikləri haqqında məlumat vermək;
- qiymətin yeni dəyişiklikləri haqqında məlumat vermək;
- fəaliyyətin prinsiplərini izah etmək;
- xidməti təsvir etmək;
- müştərinin düzgün olmayan təsəvvürlərini dəyişmək;

• imicin formalaşmasını təmin etmək.

**Əminləşdirmək reklamı** – fəaliyyətin genişləndirilməsi mərhələsində, seçilmiş sorğuların formalaşdırmaq tapşırığı zərurətindən əmələ gəlir. Artıq bu mərhələdə müştəriyə edilmiş dəyişiklikləri çatdırmaq gərəklidir. Məsələn, kitabxana təkcə lazımlı jurnallar təqdim etmir, müxtəlif materialların üzündən köçürülməsini də həyata keçirir. Əmin edir ki, "Təkcə bu kitabxanaya müraciət edin, sonraya saxlamayın, ən yaxşı xidmət buradadır".

**Xatırlatma reklamı** – ona görə vacibdir ki, bütün diqqəti məhsulun və xidmətin üzərinə yönəltsin. Tələb edən müştərini tam əmin etməlidir ki, o öz seçimində yanılmayıb. Xatırlatma reklamı müştəriyə xadırladır ki, siz bu xidmətdən yaxın gələcəkdə də istifadə edə bilərsiniz və hansı saatda istəsəniz müraciət edin.

Reklam tapşırıqlarının məqsədlərindən sonra yeni yaradıcılıq konsepsiyası meydana gəlir. Bu da, üç mərhələni özündə birləşdirir:

1) hakim ideyasının formalaşması;
2) metodun seçimi və qiymətləndirilməsi;
3) icraetmə.

Hakim ideyanın formalaşmasına reklamın iki nəzəriyyəsi rəhbərlik edir:

I – nəzəriyyə "Markanın obrazı" – (Brendinq). Bu nəzəriyyə belə fərz edir ki, reklam müştərinin dərk edə bilmədiyi tərəfləri tam mənada izah etməlidir.

II – nəzəriyyə "Empatiya" – burada o reklamı daha düzgün sayırlar ki, yaradıcılar özlərini müştərinin yerinə qoyurlar, onların şəxsi, deyilməmiş arzu və təkliflərini qəbul edirlər.

Hakim ideyanın formalaşmasından sonra reklamın qiymətləndirilməsi metodları gəlir. F.Kotlerin terminologiyasına əsasən reklam gərək müştəriyə maraqlı, arzuolunan xidmətlər barədə məlumatlar versin. Reklam özünün düzgünlüyünü və həqiqiliyini sübut etməlidir.

Kitabxana marketinqin ən çətin tərəflərindən biri də kitabxana istehsalatının xidmətində qiymət tədavülüdür. Bu ancaq qiymətlə bağlı olub pullu xidmətə aiddir.

Maliyyələşdirilmiş büdcə vəsaitinin öz dəyəri vardır. Pulsuz xidmətlərdən istifadə edən oxucular bu vəsaitdən maliyyələşdirilirlər, amma ən əsas qiymət tədavülü kitabxanaların pullu xidmətində ümumiləşdirilir.

**Qiymət marketinqi -** ixtisaslaşmış sistem kimi idarəetmə tədavüllü uyğunlaşdırılması zamanı məhsula qiymət qoymaqdır. Xidmətlərin ayrı-ayrı bölmələrinə qiymət qoyulması üç amillə bağlıdır: 1) təsərrüfat hesablı; 2) bazar; 3) sosial marketinq.

Kitabxana pullu xidmətdə xidmətin xərclərini konpensasiya etməlidir, amma qiyməti çox artırmaq da, kitabxananın reytinqinin aşağı düşməsinə səbəb ola bilər. Oxucuların diqqətini, marağını yayındırmaq kitabxananın xeyrinə deyil.

**Kitabxanalarda imicin formalaşması** – imic məqsədə yönəlmiş, formalaşmış obrazdır. Müsbət imic kitabxanalarda xidmətin səviyyəli və keyfiyyətli surətdə fəaliyyətidir. İmic kitabxana məhsullarının bazara çıxarılmasında xidmətin təzahürüdür. Gündəlik təcrübələrdə kitabxana başqa sosial təşkilatlar kimi üç müxtəlif obrazlarla paralel üzləşir.

- İdeal;
- Real;
- Şəffaf.

İdeal imic – Kitabxana bu imicə çatmağa can atır, tələsir və bu imicə çatmaq üçün qarşıda çətin tapşırıqlar durur.

Şəffaf imic – burada əməkdaşların, kitabxanaların cəlbedici olması, oxucuların rəyləri, dövlət strukturlarının və əhalinin fikirləri əsasdır.

Real imic – vətəndaşların kitabxanaya həqiqi münasibətlərini xarakterizə edir. Kitabxananın cəmiyyət üçün nə qədər böyük əhəmiyyət kəsb etməsini anladır. Əlbəttə, şəffaf və real obrazlar bir-birinə təsadüf etməsə də, onlar ideal imicə yaxındırlar.

Aparılan tədqiqatlar, keçirilən monitorinqlər kitabxanaların nə qədər imicli olduğunu göstərir. Oxucularla kitabxanaçıların maksimum münasibətlərinin yaxınlaşması oxucuların fikirlərini öyrənir. İmic kitabxanaların məsuliyyətli işini öz üzərinə götürür. Məhz, menecerlər kitabxanaların hansı imicli olduğunu müəyyənləşdirirlər. Buna əmin olaraq orta və ali kateqoriyalı kitabxanalarda əməkdaşların davranışı, nizam-intizamları bilinir. Kitabxananın fəaliyyəti, işçilərin arasındakı münasibət müdiriyyətlə bağlı olur. İdarəetmə psixologiyasında sübut olunub ki, direktorun emosional, stabil xarakterə malik olması əməkdaşların iş fəaliyyətinə təsir göstərir.

Kitabxanalarda ideal obraz rəhbərliyin və əməkdaşların vəziyyətləri ilə nəzərə çarpır.

İmic – kitabxana haqqında ümumi təsəvvürdür, kitabxananın gündəlik işini göstərir və illərlə qazanılır.

Kitabxananın dəyərli olmasını mütəxəssislər, rəssamlar, dizaynerlər, öz elmlərinə güvənib başqa kitabxanalardan ayıra bilərlər. Kitabxananın güclü reklamı üçün internet səhifələrində yer ayırmaq lazımdır. Kitabxana haqqında materiallar kitabxananın müsbət imicə malik olmasını bildirir. Kitabxananın tarixinin, müasir vəziyyətinin xidmətləri haqqında məlumatları çatdırmaqdır. Kitabxananın uğurları gündəlik xidmətlə, real vəziyyəti ilə müəyyənləşir. Kitabxananın prestijli olması nəinki kitabxananın taleyinə, hətta hər bir işçisinin həyatına təsir edir. Nə qədər ruhlandırıcı, insanları həvəsə gətirən atmosfer olsa, bir o qədər də kitabxanalara diqqət artacaq.

## ƏDƏBİYYAT

1. *Kazımov R.Ə. Kitabxana işinin iqtisadiyyatı. –B., 2004.- 87 s.*
2. *Герасимова Л.Н. Маркетинг в библиотеке: Учеб. пособия. –М., 1993. -95 с.*
3. *Матлина С.Г. Библиотечный маркетинг. –Перт. -1992. -720 с.*
4. *Качанов Е. Инновации в библитеках. –М., 2003*

**М. .МАМЕДОВ**

## РОЛЬ МАРКЕТИНГА В УПРАВЛЕНИИ БИБЛИОТЕКИ
## РЕЗЮМЕ

*В научной статье изучены вопросы маркетинга в управлении библиотекой. Рассмотрено цели, методы, виды и стратегия библиотечного маркетинга. В статье также обяснены вопросы провидения маркетинговых технологий, маркетинга цен и другие вопросы.*

**M . MAMMADOV**

## THE ROLE OF MARKETING ON LIBRARY MANAGEMENT
## SUMMARY

*In this scientific article described questions of library management, the goals of library marketing, methods of this activity, informing about users and so related.*

**Knyaz ASLAN**
*pedaqoji elmlər namizədi, dosent*

# NƏSİRƏDDİN TUSİ İRSİNDƏ KİTAB VƏ MÜTALİƏ MƏSƏLƏLƏRİ

***XIII əsr Azərbaycan elmini çox yüksək zirvələrə qaldırmış böyük alim, filosof və şair Nəsirəddin Tusinin (1201-1275) fəlsəfi və ədəbi-bədii yaradıcılığında bu günün idealları ilə səsləşən, müasir dövrün şərtlərinə tamamilə uyğun gələn qırılmaz əlaqələr vardır. Onları araşdırmaq müxtəlif elm sahələrinin təxirəsalınmaz vəzifələrindəndir.***

***Tusinin elmi-ədəbi irsi olduqca böyükdür. O, dövrünün ən görkəmli alimi hesab edilmiş, «əllamə», «mühəqqiq», «həkim», «xacə», «ustad», «əsrin yeganəsi», «son filosof» və s. ləqəblərlə şöhrət qazanmış, müxtəlif məxəzlərdə 100-dən çox əsərinin adı çəkilmişdir. Nəsirəddin Tusi riyaziyyat, nücum, kosmologiya, minerologiya, triqonometriya, coğrafiya, tarix, hüquq, təbabət, əxlaq, məntiq, ilahiyyat, poetika, kalliqrafiya və s. elm sahələrində tədqiqatlar aparmışdır. Azərbaycan elminə dünya şöhrəti gətirmiş bu məşhur alim təbiət elmləri ilə məşğul olmaqla yanaşı, həm də humanitar və siyasi elmləri yaxşı bilən, dövrün təhsil və tərbiyə prosesinə ciddi təsir göstərən görkəmli şəxsiyyət kimi məşhurlaşmışdır. O, həm də gözəl şair, mahir şeir nəzəriyyəçisi, poetika alimi olmuşdur.***

***Böyük mütəfəkkirin öz elmi və ədəbi irsində tərbiyə və mütaliə ilə bağlı söylədiyi dəyərli kəlamların və ibrətli fikirlərin, həmçinin onun başçılıq etdiyi Marağa rəsədxanası kitabxanasının fəaliyyətinin araşdırılması maraqlı ola bilər.***

Nəsirəddin Tusi (Əbu Cəfər Məhəmməd ibn Həsən Nəsirəddin) 1201-ci il fevralın 18-də Həmədan (bəzi mənbələrdə Tus) şəhərində anadan olmuşdur.

İlk təhsilini atasından alan Nəsirəddin sonralar dövrünün ən şöhrətli müəllim və müdərrisi hesab edilən, şəriət, yunan fəlsəfəsi, hind hikməti, fars mədəniyyəti, Azərbaycan incəsənəti ilə dərindən tanış olan Fəridəddin Damadın yanında oxumağa başlamışdır. Yeniyetməlik çağlarından ağsaqqallar məclislərində əyləşən, dini və fəlsəfi mübahisələrin şahidi olan balaca Məhəmməd Quran ayələrinin ziddiyyətli təfsiri, hikmət məsələlərinin bir-birini inkar edən şərhini görür və xəyalında gələcək üçün orijinal yaradıcılıq planları cızırdı. Maraqlıdır ki, Tusi sonralar ona dünya şöhrəti qazandırmış «Əxlaqi-Nasiri» əsərində yaddaşında əbədi iz salan həmin məclisləri fərəhlə xatırlayır,

belə görüşlərin uşaqlara necə böyük təsir bağışladığından dərin bir rəğbətlə söz açır.

Tarixi mənbələrin verdiyi məlumata görə, İsmaili hökmdarı Nasir Möhtəşəmin yanına Qohestana (Kuhistana) gələn Tusi ilk dövrlərdə ismaililərin yanında yaşayıb-yaradır. Möhtəşəm onun bilik, istedad və bacarığına heyran qalır, fikirləri ilə hesablaşır, məsləhətlərinə qulaq asır. Tusi isə məşhur «Əxlaqi-Nasiri» əsərini yazır və onu məhz hökmdarın şərəfinə belə adlandırır. Amma müəyyən zaman keçdikcə onların arasındakı münasibətlər pozulmağa başlayır. Bir qədər sonra isə Tusi həbs olunaraq Ələmut qalasına salınır. Tusi burada toplanmış zəngin kitabxanada, lakin ağır bir şərait mənəvi məhdudiyyət və inamsızlıq şəraitində işləyib yaradır. O özünün məşhur:`

**Öz dövrəmə baxıb elə görürəm ki,**

**Bəla bir üzük, mənsə üzük qaşıyam, -**

beytini də məhz bu illərdə yazmışdır.

Tarixdən məlum olduğu kimi, Əlaəddin yatarkən öz hacibi tərəfindən öldürülür, onun yerinə oğlu Rüknəddin Xurşah keçir. Bundan sonra Tusinin vəziyyəti xeyli yaxşılaşır. Rüknəddin atasından fərqli olaraq münəccimlərin qabaqcadan verdiyi xəbərlərə inandığına görə bütün məsələlərdə Tusi ilə məsləhətləşir, onun dediklərini nəzərə alırdı. Maraqlıdır ki, monqollar Ələmut qalasına hücum edərkən ismaililərin son hökmdarı Rüknəddinin ilk məsləhətçisi də məhz Tusi olmuşdu. Tusi Hülaku xana müqavimətsiz təslim olmağı Rüknəddinə məsləhət görür və o da razılaşır. Heç bir müqavimətə rast gəlmədən Ələmut qalasını ələ keçirən Hülaku buna görə Tusini layiqincə qiymətləndirir, şəxsi müşaviri təyin edir. Abbasilər xilafətinə son qoyulması ilə bağlı məsləhətləri Tusinin hörmətini daha da artırır. Nəhayət, Tusi çoxdan arzuladığı Marağa rəsədxanasının tikilməsinə lazım olan vəsaiti Hülakudan almağa nail olur.

1274-cü ildə Tusi rəsədxanadakı işləri başa çatdırmaq üçün Abaqa xanla birlikdə Bağdada gedir. Lakin orada xəstələnir və vəfat edir. Böyük alim Bağdadın məşhur Came məscidində dəfn edilir. Sonralar onun qəbri ziyarətgaha çevrilir (8).

Tarixi mənbələrdən məlum olduğu kimi, XIII əsr Azərbaycan xalqının ictimai-iqtisadi və siyasi həyatında ağır sınaq və imtahanlar dövrü olmuşdur. Bu dövrdə monqolların işğalına məruz qalmış Azərbaycan iqtisadi və siyasi əlaqələri zəif olan ayrı-ayrı feodal dövlətlərdən ibarət idi. Monqol işğalçılarının hərbi yürüşü Azərbaycanın iqtisadi və mədəni yüksəlişini dayandırdı.

Monqol əsarəti ölkəni bərbad vəziyyətə salmış, iqtisadiyyatı tənəzzülə uğratmış, milli mədəniyyətə böyük zərbə vurmuşdu. Məktəblər, mədrəsələr, kitabxanalar yerlə yeksan edilir, kitablar vəhşicəsinə yandırılırdı.

Monqollar Azərbaycanda möhkəmləndikdən sonra yeni zəbt etdikləri ərazilər hesabına Hülakilər (Elxanilər) dövlətini yaratdılar. Azərbaycan həmin dövlətin siyasi-inzibati mərkəzinə, Təbriz şəhəri isə paytaxtına çevrilmişdi. Bu da Azərbaycanın gələcək iqtisadi və mədəni inkişafı üçün zəmin yaradırdı.

Tarixçi alimlər yazır ki, monqol işğalı Azərbaycan mədəniyyətinin inkişafını ləngitsə də, onu tamamilə dayandıra bilmədi. Zaman keçdikcə mədəni səviyyəsi etibarilə Azərbaycan əhalisindən çox aşağı olan monqolların özləri Azərbaycan mədəniyyətinin təsiri altına düşmüş, yerli mədəniyyəti istər-istəməz qəbul etməli olmuşdular. Bu dövrdə Azərbaycanda elm və mədəniyyətin, kitab nəşrinin inkişafı öz növbəsində xalqın yaddaşı olan kitabı toplayıb saxlayan, onu yenidən xalqın ixtiyarına verən, kitabxana işinin inkişafına, yeni kitabxanaların yaranmasına müsbət təsir göstərmişdi. Azərbaycanın böyük şəhərlərində zəngin kitab fonduna malik olan kitabxanalar meydana gəlmişdi. Marağada, Təbrizdə, Ərdəbildə, Gəncədə, Şamaxıda və digər böyük şəhərlərdə yeni-yeni kitabxanalar fəaliyyətə başlayırdı. Təhsil sisteminin genişlənməsi, yeni məktəblərin və mədrəsələrin yaranması ilə əlaqədar təhsil kitabxanası şəbəkəsi meydana gəlib formalaşmışdı.

Monqollar islamı qəbul etdikdən sonra dini kitabxanalarla yanaşı, məscid və dini məktəblərin (mollaxanaların) kitabxanalarına və onların yeni ədəbiyyatla komplektləşdirilməsinə də diqqət artmışdı. Kitabçılığın inkişafı, kitab repertuarının genişlənməsi, şəxsi kitabxanaların təşkili üçün də əlverişli şərait yaratmışdı. Demək olar ki, bütün görkəmli alimlərin, şair və yazıçıların, mədəniyyət xadimlərinin zəngin kitab fonduna malik olan şəxsi kitabxanaları var idi. Şəxsi kitabxanaların sayının artması ictimai və elmi kitabxanaların yaranmasına da müsbət təsir göstərirdi.

XIII əsrdə Azərbaycanda Şərqdə tayı-bərabəri olmayan, öz fondunun nadirliyinə və zənginliyinə görə dünyanın ən böyük kitabxanaları ilə yarışa girə bilən Marağa Rəsədxanasının Elmi Kitabxanası fəaliyyətə başlamışdı. Bu kitabxana Azərbaycanda kitabxana işinin tarixində öz məqsədi, vəzifələri və yaranma tarixi dəqiq məlum olan ilk elmi kitabxanadır. O dövrdə bütün Şərqdə məşhur olan bu elm məbədinin əsasını ensiklopedik biliyə malik görkəmli alim Nəsirəddin Tusi qomuşdur.

Nəsirəddin Tusinin yaratdığı Marağa Rəsədxanası və bu böyük elm məbəd-gahının dünya elminə verdiyi yeni elmi tədqiqatlar onun ən böyük elmi nailiyyəti sayılır.

Şərq mədəniyyətinin əzəmətli abidəsi olan rəsədxananın bünövrəsi 1258-ci ildə qoyulmuş, 1261-ci ildə tikilib başa çatdırılmışdır. Bəzi mənbələrdə isə

göstərilir ki, Hülaku xan 1259-cu ilin mayında rəsədxananın inşasına başlanılması barədə göstəriş vermiş, binanın tam tikintisi 1273-cü ildə başa çatdırılmışdır. Bizcə, bu fikir həqiqətə daha yaxındır. Hülakü xan rəsədxana ilə yanaşı «Elm və müdriklik evinin (Dar əl-ilm və hikmə)» – kitabxananın tikilməsinə də böyük miqdarda pul ayırmışdı. Rəsədxananın layihəsini Tusinin özü vermiş, memarı Fəxrəddin Əhməd ibn Osman Marağayi olmuşdur. Dövrünün ən görkəmli astronom alimlərini toplayıb Nizamülmülkün Bağdadda yaratdığı Nizamiyyə akademiyasından geri qalmayan Marağa akademiyasını yaradan Tusi ciddi elmi işlər aparmaqla yanaşı, həm də rəsədxana üçün dəqiq cihazların ixtirası və quraşdırılması, maddi-texniki bazanın möhkəmləndirilməsi, yüksək ixtisaslı kadrların hazırlanması işlərinə də başçılıq edirdi (7).

Nəsirəddin Tusinin ən böyük elmi nailiyyəti onun yaratdığı Marağa Rəsədxanası və bu böyük elm məbədgahının dünya elminə verdiyi yeni elmi tədqiqatlar olmuşdur. Bu elm mərkəzi Nəsirəddin Tusinin rəhbərliyi ilə tikilmişdi. Bütün Şərq mədəniyyətində əzəmətli bir abidə olan rəsədxananın bünövrəsi 1258-ci ildə qoyulmuş, 1261-ci ildə isə tikilib başa çatdırılmışdı. Tusi Marağada ciddi elmi iş aparmaqla yanaşı, rəsədxananın layihəsini vermiş, bir sıra dəqiq cihazlar ixtira etmiş, quraşdırmış, onun maddi-texniki bazasının möhkəmləndirilməsi kimi ən ağır işi öz üzərinə götürmüşdü.Rəsədxananı inşa etmək, onu lazımi texniki vasitələrlə təchiz etmək böyük məbləğdə vəsait tələb edirdi. O, bu vəsaiti əldə etmək üçün o zaman münasibətləri yaxşı olan Hülaku xana müraciət etmişdi. Hülaku xan nə qədər vəsait tələb edildiyini soruşmuşdur. Tusi vəsaitin miqdarı barədə Hülaku xana dedikdə o, təəccüblənmiş və soruşmuşdur: «Yəni ulduzlar haqqında elm o qədər xeyirlidir ki, rəsədxana üçün bu qədər məbləğ sərf edilsin?». Cavab olaraq Nəsirəddin Tusi demişdi: «İcazə verin, tam məxfi şəraitdə bir nəfər bu dağa qalxsın və oradan böyük bir teşti dığırlayıb gətirsin, ancaq bu barədə heç kimin məlumatı olmasın» (6).Belə də edirlər. Teşt dağın zirvəsindən endirilən zaman böyük səs-küy qalxır. Bu, Hülakü xanın qoşunları arasında böyük vahiməyə səbəb olur. Nəsirəddin Tusi ilə Hülaku xan birlikdə bu səs-küyü sakit halda müşaiyət edirlər. Bu zaman Nəsirəddin Tusi Hülaku xana müraciətlə deyir: «Biz bu səs-küyün səbəbini bilirik, ancaq ordu bilmir, ona görə də biz sakitik, ordu isə həyəcanlıdır. Biz göy cisimlərinin sirlərini bilsək, yer üzərində sakit olacağıq». Bu əhvalat Hülaku xana təsir göstərir və o, rəsədxananın tikilməsi üçün 20.000 dinar məbləğində vəsait ayrılmasına razılıq verir.

**Rəsədxana üçün vəsait ayrıldıqdan sonra tezliklə onun tikintisinə başlanmış, rəsədxananın memarı Fəxrəddin Əhməd ibn Osman Marağayi olmuşdur.**

Marağa Rəsədxanası təqribən 50 il fəaliyyət göstərmiş, dünya astronomiya elminə çox qiymətli kəşflər və elmi əsərlər bəxş etmişdir. Mütəxəssislərin

fikrincə, rəsədxanada aparılan elmi tədqiqatlar Avropa elminin inkişafına böyük təsir göstərmişdir. Tusinin burada yazdığı «Zic Elxani» («Elxani cədvəlləri»), «Şəkil-ül Qita», «Kəsişmələr şəkli», «Əxlaqi-Nasiri», «Cavahirnamə», «Risaleyi-fəlsəfi» «Qəvaidi elmi tibb» və s. kimi qiymətli əsərləri Azərbaycan elmini zənginləşdirmişdir. Görkəmli alim maliyyə məsələlərinə, musiqiyə və s. sahələrə dair də sanballı əsərlər yazmışdır. O dövrdə onun nücum elminə və həndəsəyə dair tərtib etdiyi kitablar tədris vəsaiti kimi böyük əhəmiyyət kəsb edirdi. Alimin həndəsi üsulları uzun müddət tədris vəsaiti kimi kitabxanada istifadə olunmuşdur (4).

Marağa Rəsədxanasında kadr hazırlamaq üçün xüsusi mədrəsə təsis edilmişdi. Müxtəlif yerlərdən ən qabiliyyətli tələbələr seçilib burada təhsil almağa göndərilirdi. Onların arasında əcnəbilər də vardı. Mədrəsənin işinə bilavasitə rəhbərlik edən Nəsirəddin Tusinin özü də dərs deyirdi. Mədrəsədə dərs demək və rəsədxanada işləmək üçün həm ölkədən, həm də xaricdən görkəmli alimlər dəvət edilmişdi. Burada qiymətli xarici kitabların tərcüməsi işinə də xüsusi diqqət yetirilirdi. Belə ki, Tusinin başçılığı ilə bir çox nadir kitablar yunan dilindən ərəb və fars dillərinə tərcümə olunmuşdur.

Tusinin başçılığı ilə 100 nəfərdən artıq tanınmış alim elmi-tədqiqat işi ilə məşğul olurdu. Tədqiqatçı N.Məmmədbəyli bu alimlərdən 20 nəfərinin kimliyini müəyyənləşdirmişdir.

Marağa Rəsədxanasının fəaliyyətinin öyrənilməsinə öz tədqiqatlarında geniş yer verən, bir sıra qiymətli faktları üzə çıxaran akademik Ziya Bünyadov «Nəsirəddin Tusi və XIII əsrdə Azərbaycanda elmin inkişafı» adlı məqaləsində yazır ki, Nəsirəddin Tusinin təklifi ilə Hülaku xan o zaman Elxanilərin paytaxtı olan Marağaya Fəxrəddin Marağayi, Fəxrəddin Hülaku, Müəyyəddin Verdi, Nəcməddin Qəzvini görkəmli alimləri dəvət etdi. Onlar Nəsirəddin Tusinin başçılığı altında Marağa Rəsədxanasının layihəsini hazırlayıb, tikintisini sona yetirməli olan baş alimlər şurası təşkil etdilər.

Rəsədxananın Elmi Kitabxananın yaranması da Nəsirəddin Tusinin adı ilə bağlıdır. Ömrünün çox hissəsini kitabxanalarda, kitablar arasında keçirmiş, yüzlərlə kitab oxumuş alim böyük mütaliəçi kimi kitabı çox yüksək qiymətləndirirdi. O, hələ gənc yaşlarında Ələmut qalasında «Seyyidanə» kitabxanasının müdiri olmuş, bütün günlərini bu kitabxanada keçirmişdi. Kitabxana işini, onun təşkili məsələlərini dərindən bilən Tusi rəsədxananın yanında böyük bir kitabxana yaratmağı nəzərdə tutmuş, Hülakü xandan aldığı vəsaitin 20 min dinarını kitabxananın təşkilinə xərcləmişdi (4).

Tusinin Şərq ölkələrinin böyük kitabxanaları ilə və görkəmli alimlərlə olan geniş əlaqələri kitabxananın təşkilinə kömək edir, yeni-yeni qiymətli kitabların alınmasına şərait yaradırdı. Alim Şərqin bir çox böyük elm və mədəniyyət

mərkəzlərinə getmiş, kitabxana quruculuğu ilə tanış olmuşdu. Xüsusilə Bağdadda «Nizamiyyə» akademiyasının kitabxanası və xəlifənin «Xəzünətül kütüb» (Kitabların xəzinəsi) adı ilə məşhur olan kitabxanasının elmi qaydaları ilə yaxından tanışlığı rəsədxana kitabxanasının elmi əsaslar üzərində qurulmasına müsbət təsir göstərmişdi. Nəsirəddin Tusi yaxşı bilirdi ki, heç bir elmi tədqiqat müəssisəsi kitabxana olmadan uğur qazana bilməz. Məhz buna görə də onun səyi nəticəsində Şərqdə əsaslı elmi kitabxana kimi məşhur olan və o dövr üçün çox fonda – təxminən 400 min kitaba (əlyazmasına) malik bir kitabxana təşkil edilmişdi. 330 kvadrat metrlik sahəni tutan bu kitabxana rəsədxananın yaxınlığında tikilmiş gözəl bir binada yerləşirdi. Bu ərazidə aparılan qazıntılar zamanı müəyyən edilmişdir ki, kitab fondunun bir hissəsi rəsədxana binasında saxlanılmışdır.

Tarixi mənbələrdəki məlumatlara görə, Tusinin çox zəngin şəxsi kitabxanası olmuş və o, uzun illər boyu topladığı həmin kitabları da rəsədxana kitabxanasına bağışlamışdı. Kitabxananın fondu keyfiyyətcə də çox zəngin və qiymətli idi. Qədim dünyanın və orta əsrlərin qiymətli kitablarının toplanıldığı, qorunduğu, saxlanıldığı Bağdad şəhərindəki kitabxanalardan nadir əlyazmaların bir çoxunun üzünün köçürülüb Marağa Rəsədxanasının kitabxanasına gətirilməsi onun fondunu zəmanənin «qızıl fond»una çevirmişdi. Rəsədxana kitabxanasına İran, Suriya, Orta Asiya və dünyanın digər dövlətlərindən də əlyazma kitablar gətirilmişdi.

Bu kitabxananın ən böyük nailiyyətlərindən biri də Azərbaycan kitab mədəniyyətinin xəzinəsinə çevrilməsi olmuşdur. Akademik Ziya Bünyadovun yazdığına görə, Marağa Rəsədxanasındakı əlyazmaları arasında azərbaycanlı müəlliflərdən Əbu Əli Əhməd ibn Məhəmməd Bərdəinin «Tarix», Şəmsəddin Məhəmməd ibn Osman Sərıvəllinin «Sicili Fətan əl fityan» (Cavanmərdlərə nəsihətlər toplusu), Mühtəsəddin Əbülxeyrin «Tarixi Azərbaycan» (Azərbaycan tarixi), Qazi Əfrələddin Təbrizinin «Sirət Nüsrət əd-Din Piskin əs-Sani» (II Nusrətəddin Rişkinin ömür yolu) və başqa əsərlər də saxlanılırmış. İbn Həcər isə yazır ki, Marağa kitabxanasındakı əlyazmalarının arasında «Marağa tarixi», «Arran tarixi» kimi tarixi əsərlər də var imiş (4).

Marağa kitabxanasına Nəsirəddin Tusinin özü başçılıq edirdi. Kitabxanada çox görkəmli alimlər işləyirdilər. Tədqiqatçılar rəsədxananın kitabxanasında fəaliyyət göstərən katiblərdən (kitabxanaçılardan) Kəmaləddin Məsud ibn-Məhəmməd Tiflisinin, Nəcməddin Bağdadının, Kəmalədövlə əbu əli ibn əbu Fərəcin adlarını göstərirlər.

Akademik Ziya Bünyadov göstərir ki, 1252-ci ildə monqollar Bağdadı alarkən Abbasilər xilafətinin paytaxtının fəthini məhz Nəsirəddin Tusi əsaslandırmışdı və hökmdarı bu işə məhz o təşviq etmişdi. Hülakü xan Nəsirəddin Tusinin fikrini soruşanda o demişdi ki, Bağdadın alınması Hülakü

üçün heç bir təhlükə törədə bilməz. Ağıllı məsləhətinə görə bu dəfə də Nəsirəddinin mükafatı Bağdad kitabxanalarında saxlanılan külli miqdarda kitabların xilas edilməsi oldu. Hülakü xan 1258-ci ildə Bağdad şəhərini tutduqdan sonra Nəsirəddin Tusinin xahişi ilə Xilafət kitabxanasında saxlanılan kitabları Marağa şəhərinə köçürtdü. Nəsirəddin Tusi «Zici Elxani» əsərində yazır: «Hülakü xan rəsədxana üçün Bağdad, Şam və Mosuldan kitablar gətirilməsinə əmr verdi».

Dünya kitabxanalarının tarixindən məlum olduğu kimi, Şərq ölkələrində qədim dünyanın və orta əsrlərin yüz illər boyu kitabı toplayıb, qoruyub saxlayan ən zəngin kitabxanaları Bağdad şəhərində olmuşdu. Bu kitabxanalarda dünyanın ən qiymətli, nadir əlyazmaları saxlanılırdı. Burada saxlanılan kitabların Marağa Rəsədxanasının kitabxanasına gətirilməsi onun fondunu zəmanənin qızıl fonduna çevirmişdi. Bağdaddan gətirilən kitablarla yanaşı, rəsədxana kitabxanasına İrandan, Suriyadan, Orta Asiyadan və dünyanın digər dövlətlərindən kitablar daxil edilmişdir.

Marağa kitabxanasında 400 min nüsxə kitabın toplanması kitabxana işinin elmi əsaslar üzərində qurulduğundan xəbər verir. Kitabxanada kitabları saxlamaq üçün xüsusi kitabxana elmi təsnifatından, xüsusi kitabxanaçılıq texnikasından istifadə edilirdi. Tədqiqatlar göstərir ki, Nəsirəddin Tusi Xəlifə Müttəsimin Bağdaddakı «Xəzinətül kitab» (Kitablar xəzinəsi) adı ilə məşhur olan kitabxanasının müdiri Kəmaləddin Əbdülrəzzaq ibn Əhməd Bağdadi ilə sıx münasibət saxlamış, həmin kitabxananın quruluşu, elmi təsnifatı, kitabxana texnologiyası, kitabxanada tətbiq edilən digər elmi qaydalar, kitabxananın məlumat sistemi ilə tanış olmuş və yeri gəldikcə bu zəngin təcrübədən rəsədxana kitabxanasında istifadə etmişdir. Kitabxanada kitabların düzülüşü zamanı elmi təsnifatdan istifadə edilməsi, hər bir kitaba ayrıca şifrə verilməsi, təsvir qaydalarından istifadə olunması, kitab siyahılarının (kataloqların) tərtibi hələ orta əsrlərdə Azərbaycan kitabxanaşünaslığının elmi əsaslarının rüşeym halında yaranmasından xəbər verir. O dövrdə bu kitabxanada hazırlanmış biblioqrafik məlumat tipli, ensiklopedik xarakterli əsərlər də diqqəti cəlb edir. Bu baxımdan kitabxananın baş kitabxanaçısı – görkəmli tədqiqatçı-alim əl-Füvatın kitabxanada saxlanılan kitablar əsasında yazdığı «Şərqin məşhurları» adlı əsəri diqqəti xüsusilə cəlb edir. 53 cilddən ibarət olan bu qiymətli ensiklopedik əsər Şərqin tanınmış alimlərinin həyat və fəaliyyətinin öyrənilməsi sahəsində mühüm elmi əhəmiyyət kəsb edir. Şübhəsiz ki, belə əsərlərin izinə düşmək, dünyanın böyük kitabxanalarında onları axtarıb tapmaq müasir tədqiqatçılarımızın vəzifələrindən olmalıdır.

Akademik Ziya Bünyadovun araşdırmalarına görə, Tusinin vəfatından sonra rəsədxanaya və kitabxanaya kiçik oğlu Fəxrəddin Əbülqasım Əhməd Marağayi Mükəmməl rəhbərlik etmişdir. Riyazi elmlərlə məşğul olmağa üstünlük verən Əhməd Marağayi həm də həkim, astronomiya alimi, mahir natiq və elm

təşkilatçısı kimi tanınırdı. O, 1301-cü ildə ölür. Marağa Rəsədxanasına Nəsirəddinin ikinci oğlu Sədrəddin Əbülhəsən Əli, sonra isə üçüncü oğlu Əsiləddin Həsən başğılıq edirlər.

Marağa Rəsədxanasının kitabxanası 1335-ci ilə qədər, yəni Elxani Sultan Səid Bahadur xanın ölümünə qədər qalmış, Elxanilər dövlətində baş verən parçalanma rəsədxananın və kitabxananın baxımsızlıq üzündən dağılmasına səbəb olmuşdur (4).

Kitabşünas-tədqiqatçı M.H.Müsəddiq yazır ki, Cəlairi, Teymurilər və Ağqoyunlular bir-birinin ardınca Azərbaycana gəldikdən sonra Marağada rəsədxana və kitabxana dağılmış, kitabxananın bir hissəsi Sultan Əhməd Cəlairin və Səmərqənddə olan Uluq bəyin kitabxanasına göndərilmişdir. Rəsədxana kitabxanasının bugünümüzə qədər gəlib çatan nüsxələrinə vurulmuş möhürlərdən onların sonrakı ünvanlarını müəyyənləşdirmək mümkündür. Məsələn, hazırda Azərbaycan MEA-nın Elmi Kitabxanasında qorunub saxlanılan «Sürvərül Kəvakib» adlı kitabın üzərində Sultan Əhməd, Uluq bəy və türk sultanı II Bayazidin möhürləri vardır. Təəssüf ki, kitabxananın fondu, oxuculara xidmət işinin təşkili, məlumat-biblioqrafiya işi və digər fəaliyyəti haqqında geniş məlumat yoxdur. Gələcək elmi tədqiqatlar, şübhəsiz ki, kitabxananın fəaliyyətinin hərtərəfli öyrənilməsinə imkan verəcəkdir.

Professor A.Xələfovun fikrincə, mövcud tarixi faktlar, dəlillər və elmi mənbələr belə bir fikir söyləməyə imkan verir ki, elmin inkişafına əsaslı təkan vermiş, bir çox mühüm elmi kəşflər etmiş Nəsirəddin Tusi tərəfindən yaradılan Marağa Rəsədxanasının kitabxanası Azərbaycanda tarixi dəqiq məlum olan ilk elmi kitabxanadır. Öz fondunun zənginliyinə, oxuculara xidmət işinin təşkilində tətbiq olunan yeni forma və üsullarının müxtəlifliyinə və səviyyəsinə görə bu kitabxana Şərqdə ən böyük kitabxanalardan biri olmuşdur. Kitabxanada kitabların saxlanılması, elmi təsnifatı, düzülüşü, kitabxanada məlumat işinin tətbiqi haqqında mövcud olan elmi üsullar və qaydalar orta əsrlərdə Azərbaycanda kitabxana işinin yüksək elmi səviyyəyə qalxmasına əsaslı dəlildir. Marağa Rəsədxanasının kitabxanası öz fondunun zənginliyinə və nadirliyinə görə bəşəri əhəmiyyət kəsb edən, rəsədxananın alimləri ilə yanaşı digər oxucuların da üzünə açıq olan ilk kitabxanalardan biri kimi şərəfli yer tutur, dünyanın kitabxana incilərindən biri kimi qiymətləndirilir.

Nəsirəddin Tusinin Marağa rəsədxanasındakı kitabxanaya sıx bağlılığı, uzun müddət bu kitabxanada çalışması da onu böyük bir kitab təbliğatçısı kimi dəyərləndirməyə imkan verir (4).

Alim öz didaktik-fəlsəfi əsərlərində, xüsusilə «Əxlaqi-Nasiri» kitabında həm insanın ən yaxşı əxlaqi xüsusiyyətlərini sadalayır və oxuculara bu cür müsbət keyfiyyətlər aşılamağa çalışır, həm də insanı qiymətdən salan pis cəhətləri göstərir və oxucuları belə mənfiliklərdən uzaq olmağa səsləyir. O, yüksək

ideallar uğrunda çarpışan, cəmiyyətdə haqq-ədalətin bərpasına çalışan, humanizm və başqa mütərəqqi ideyalarla yaşayan şəxsiyyətləri nümunə göstərir, oxucuları həyatda onlara bənzəməyə çağırır, bəşəriyyətin xoşbəxt gələcəyini insanların mənəvi saflığında görürdü.

Nəsirəddin Tusin əsərlərindən məlum olur ki, o, hələ gənclik çağlarından elmə, təhsilə həvəs göstərmiş, öz istedadı və çalışqanlığı sayəsində yunan alimlərinin əsərlərini, türk və islam dünyasının mütəfəkkir filosoflarını dərindən öyrənmişdir. Zəngin biliyə, iti hafizəyə malik olan alim elmin müxtəlif sahələri üzrə onlarla əsər yazmışdır. Tusi irsinin ilk tədqiqatçılarından olan fizika-riyaziyyat elmləri doktoru H.Məmmədbəyli «Marağa rəsədxanasının banisi Nəsirəddin Tusi» (Bakı, 1961) kitabında onun 76-ya qədər əsər yazdığını göstərir. Bunların içərisində onun riyaziyyat və nücum elmlərinə həsr etdiyi «Zici Exlani» («Elxanın cədvəlləri») və fəlsəfə, əxlaq, siyasət, təhsil və tərbiyə, iqdisadiyyat və idarəetmə məsələlərini əhatə edən «Əxlaqi-Nasiri» əsəri öz müəllifini Şərqdə və dünyada daha çox şöhrətləndirmişdir (6).

Tusinin məşhur «Əxlaqi-Nasiri» əsəri üç məqalədən və otuz fəsildən ibarətdir. O, bu əsərində dini, əxlaqi, elmi-fəlsəfi, siyasi, iqtisadi görüşlərini xüsusi bir üsul və ustalıqla son dərəcə aydın, yığcam və konkret şəkildə ifadə etmişdir. İnsanın ictimai, əxlaqi, mənəvi davranışı Tusi «Qurani-Kərim»də insan, onun yeri və funksiyaları haqqındakı hökmləri əsas tutaraq göstərilən əsərinin bir çox fəsillərini insanın təlim və tərbiyəsinə, onun bir ictimai varlıq olaraq əməl və istehsal fəaliyyətinə, insan, ailə və dövlət arasında yaranan münasibətlərə həsr etmişdir.

O, «Əxlaqı şaflaşdırma sənətinin ən şərəfli sənət olması haqqında» fəsillərlə diqqəti cəlb edir. «Ailə dolandırmaq və evdarlıq qaydaları haqqında», «Övlad saxlamaq və tərbiyə etmək qaydaları haqqında» qoyduğu çox saylı problemlər və onların elmi-nəzəri təhlili Tusinin böyük humanist və insanpərvər bir mütəfəkkir olduğunu göstərir. Tusi həmin əsərində yazır: «Bu dünyada mövcudatın ən şərəflisi olan insanı kamilliyə çatdırmaq məqsədi gündən sənət (elm, təhsil) dünya sənətlərinin ən şərəflisidir». Tusi elmin, təhsilin, sənətin cəmiyyətin inkişafındakı rolunu, onların insanın maddi və mənəvi həyatına təsirini yüksək qiymətləndirir. O, «İnsanın öz təbiəti etibarilə ictimai bir varlıq olduğunu» söyləyir, bu səbəbdən onun başqa canlılardan köklü fərqini və üstünlüyünü göstərir. Tusi yazır ki, insanı başqa varlıqlardan fərqləndirən başlıca cəhət onun şüurlu və məqsədli fəaliyyətidir. O, istehsal prosesini, əmək fəaliyyətini insanın yaşamasının, həyat sürməsinin zəruri şərti hesab edir. Tusi yazır: «İnsanın yaşamaq üçün yeməyə möhtacdır, insanın yeməyi isə başqa heyvanlardakı kimi ələf və sudan ibarət deyil və təbiət tərəfindən hazır-hazır verilmir». Bütün bunları o, öz düşüncəsi və bacarığı sayəsində əldə etməlidir.

«Sənət və peşə olmadan, məsələn, əkmək, biçmək, təmizləmək, üyütmək, yoğurmaq və bişirmək mümkün deyildir» (8).

Bununla bağlı Tusi insanın kamilləşməsinə təsir göstərən vasitələri və ictimai-siyasi mühiti araşdırır və konkret tövsiyələrlə çıxış edir. Onun kitab, mütaliə, elm, təhsil və tərbiyə məsələləri haqqındakı çoxsaylı və zəngin fikir mülahizələrə də insana, onun özünü, yaşadığı mühiti dərk etməsinə, faydalı bilik və sənətlərə yiyələnməsinə həsr olunmuşdur.

Bu baxımdan Tusinin elm, onun təsnifatı, obyekti və metodları haqqındakı fikirləri nəzəri və əməli əhəmiyyət kəsb edən və öz aktuallığını itirməyən məsələlərdəndir. O, elmin başlıca funksiyasını mövcud varlıqların mahiyyətinin dərk edilməsində və şərhində görür. Tusi yalnız insan və cəmiyyətin tərəqqisinə, maddi və mənəvi yüksəlişinə xidmət göstərən elmləri faydalı hesab edir. Onun fikrincə bu dünyada hər işi görən, yaradan və quran insanıdır. Buna görə də hamının özünü dərk etməsinə, tərbiyəsinə və kamilləşməsinə xidmət edən elm, təhsil ən şərəfli fəaliyyət dairəsidir. O, özünü elmə, təhsilə həsr etmiş insanların əməyinə də yüksək qiymət verir. Tusi yazır: «Əsl elm adamlarının (alimlərin) ruhu və rahatlığı da elmdir».

Tusi «Əxlaqi-Nasiri» əsərinin 1-ci fəslini və ona yazdığı ilk qeydləri elmin öyrəndiyi obyektə, onun mövzularına, əsaslarına və növlərinə həsr etmişdir. O, burada «varlıqlar haqqında olan elmi» iki hissəyə-nəzəri və əməli hissələrə bölür. Birincisini nəzəri hikmət, ikincisini isə hikmət adlandırır. O, dövrünün elm sisteminə uyğun olaraq fəlsəfə, ilahiyyat, riyaziyyat, astronomiya, tibb, əxlaq, məntiq kimi bilik sahələrini nəzəri elmlər sırasına daxil edir. Əməli (praktiki) elm və əməli hikmət dedikdə isə o, idarəetmə, evdarlıq, şəhərsalma, maliyyə, mühasiblik, huquq və s. elm və sənət sahələrini nəzərdə tutur. Ümumiyyətlə, Tusi nəzəriyyəsində elm ilə təcrübənin vəhdəti, birinin digərini tamamlaması əsas götürülmüşdür. O yazır: «Fəzilətlərə yiyələnmək hələ kafi deyildir, əsl məsələ onları əməldə (işdə) həyata keçirməkdir» (8).

Onun fikrincə, nə qədər ki, elm-nəzəriyyə reallaşmayıb, o, bir qüvvə və məqsəd olaraq qalır. Bu qüvvənin reallaşması onun maddi şəklə çevrilməsində, insanın maddi və mənəvi yüksəlişində özünü göstərir. Məsələn, nə qədər ki, ev hələ tikilməyib, insanın təsəvvüründədir, o məqsəddir, elə ki tikildi qurtardı, maddi şəklə düşdü maddi marağa çevrilir. Buna görə də Tusi bu gün də aktuallığını saxlayan belə bir fikri irəli sürür: «Elm əməlsiz, əməl isə elmsiz mümkün deyildir».

Tusi hər bir elmin öyrəndiyi obyektin, hadisə və proseslərin müəyyən edilməsinə xüsusi əhəmiyyət verir. O göstərir ki, elmin obyektini bilmədən onun məqsəd və vəzifələrini də təyin etmək olmaz. Bu baxımdan o, öz dövründə geniş yayılan bir çox elmlərin predmetini və öyrəndikləri hadisələr dairəsini müəyyənləşdirməyə çalışır. O, burada ən çox Platonun və Aristotelin nəzəri fikir və anlayışlarından, xüsusilə Ibn Sinanın «Məntiq» və «Metafizika»

əsərlərindən geniş istifadə etdiyini də göstərir. Bu, onun tibb, həndəsə, fəlsəfə, məntiq, iqtisadiyyat, idarəetmə, evdarlıq kimi elm və bilik sahələrinə verdiyi məna və təriflərdə öz əksinə tapmışdır. Tusiyə görə, fəlsəfə varlıqların ümumi inkişafını, «vəziyyət və hallarına», «təki, ümumini, zəruriyyəti, imkanı, təzahürü, təkamülü və sairəni öyrənən elmdir». Məntiq elmi isə «əsl mənada təlim elmidir, başqa elmləri öyrənmək üçün bir alət və açardır». O, «Əxlaqi-Nasiri» əsərinin «Evdarlıq elmi haqqında» və «Ölkə idarəetmə qaydaları haqqında» bölmələrində həmin elmlərin mövzusunu, funksiyalarını və rolunu təhlil edir. O, burada evdarlıq adlandırdığı elmin mövzusunu və məqsədini ev, ailə, onun idarəedilməsi, tərbiyəsi, ailə və onun cəmiyyətə qarşılıqlı əlaqəsini öyrənməkdə görür (8).

Tusi elmdə təsvirçiliyi, təqlidçiliyi və əzbərçiliyi qəbul etmir. Tusi bunu əsas tutur ki, «Təcrübənin inkişafına səbəb olmayan elmlərə həvəs göstərmək, həqiqi elm əvəzinə boşboğazlıq ilə məşğul olmaq və ya murdar məqsədlər üçün falçılıq,… əlkimyaçılıq» kimi aldadıcı əməllərə uymaq cəmiyyət üçün faydasız işlərdir».

Tusinin qəbul etdiyi elmi idrak metodu və ya üsulu öyrəndiyi hadisə və proseslərin mahiyyətini, səbəb və nəticələrini aşkara çıxarır. O, elmə məlum olan analiz və sintez, abstrakt metodlarından bacarıqla istifadə etmişdir. Onun fikrincə, hadisələrin ayrı-ayrı təhlili nəticəsində ümumiləşdirilmə aparılmalı və buradan da elmi nəticələr çıxarılmalıdır. Tusi təbiət və cəmiyyət bir sistem kimi öyrənmək və dərk etmək üçün elmi ümumiləşdirməyə, abstrakt təfəkkürə, analiz və sintez üsullarına xüsusi əhəmiyyət verir. Bununla yanaşı elmi fəaliyyət məşğul olanlarda bəzi xüsusiyyətlərin olmasını da zəruri hesab edir. O göstərir ki, bunun üçün insanda iti zəka, hafizə, zehin aydınlığı və müşahidəetmə qabiliyyətləri olmalıdır. O, xatırladır ki, elmi üsullarla və dərin zəka ilə tədqiqat apara bilməyənlər elmdə təsvirçilik, təqlidçilik və hekayəçilik yolunu tuturlar. Bu isə elmdə təsadüfi, keçici və aldadıcı fikir və mülahizələrə səbəb olur. Tusi dəfələrlə qeyd edir ki, bütün elmi biliklərin və təhsilin son məqsədi insana və insanlığa xidmət göstərməkdən ibarət olmalıdır. Bir yeri, göyü insanların daha rahat yaşaması üçün öyrənirik. Çünki «göylərdə və yerdə, onların arasında və torpağın altında nə varsa» onların hamısı Allah yaratmış və insanları bəxş etmişdir.

Kitaba və mütaliəyə böyük dəyər verən dahi mütəfəkkir «Əxlaqi-Nasiri» əsərinin əvvəlində – «Bu kitabın yazılmasının səbəbi haqqında» adlı fəsildə əslində ümumiyyətlə kitabla bağlı fikirlərini qeyd etmişdir. O yazır: «Həyatıma and içirəm ki, bu kitab bütün fəzilətləri özündə toplamışdır. Xalqda olan yaxşılıqları kamala çatdırmaq üçün o bir zəmanətdir».

Göründüyü kimi, alim bütün müsbət cəhətləri, üstün keyfiyyətləri özündə birləşdirən, doğma xalqın minillər boyu sınaqdan keçirib cilaladığı gözəl

mənəvi dəyərləri toplayan və kamil insanlara çatdıran kitabı əvəzsiz bir zəmanət kimi qiymətləndirir.

Dahi mütəfəkkir qeyd edir ki: «Onun müəllifi xoş bir niyyətlə gizli və qapalı olan həqiqətləri açıb göstərmişdir».

Deməli, alimin məntiqi belədir ki, hər bir kitabın müəllifi hər hansı bir əsəri qələmə alarkən öz qarşısına mütləq xoş bir niyyət, xoş bir arzu, xoş bir məqsəd qoymalı, oxucularına indiyə qədər sirli qalan, üstünə kölgə salınan məsələlər haqqında obyektiv və doğru-düzgün məlumat verməlidir. Bu, onun mənəvi və tarixi borcudur.

Tusi kitab müəllifinin «həqiqətən mənaları düz şərh etməsini, heç bir şeyi uydurmamasını, ciddi səy göstərməklə Allah xatirinə böyük bir iş görməsini» vacib sayır, bu tələblərə və şərtlərə əməl etməyən kitabın oxucuların rəğbətini qazana bilməyəcəyi barədə ciddi xəbərdarlıq edir. O, bu qənaətlərini görkəmli filosof-alim Əbu Əli Əhməd ibn Məhəmməd ibn Yəqub ibn Misgəveh Xazin Razinin əxlaqın saflaşdırılması haqqında yazdığı «Ət-təharə» kitabından bəhs edərkən də təsdiqləyir. Alim yaxşı kitabların «insanlara nəsihət verməkdə heç nəyi əsirgəməməsini» də gərəkli hesab edir və beləliklə, kitabın və mütaliənin tərbiyə işində çox dəyərli olması barədə qiymətli fikir yürüdür.

Maraqlıdır ki, Tusi kitab tərcüməsi barədə də öz qiymətli mülahizələrini irəli sürür. Məsələn, «Ət-təharə» kitabının tərcümə təklifi ilə bağlı yazır: «Bu sətirlərin müəllifinə (yəni mənə) buyurdular: «Bu gözəl kitabı istilahlarını dəyişdirməklə, ərəb dilindən pars (fars) dilinə tərcümə etmək lazımdır: bu zamanın adamlarının çoxu ərəb libasından məhrumdurlar, cavahir kimi mənası olan belə qiymətli bir geyim onların fəzilətini zinətləndirsə, çox böyük savab olar» (8).

Bu sətirlərin müəllifi haman işarəni əmr kimi qəbul edərək bir az fikirləşdi, sonra özü-özü ilə məsləhətləşdi. Xəyalən belə dedi: «Bu qədər gözəl mənaları çevirmək, onların qəşəng libaslarını soyundurub birovuz paltar geyindirmək adamı meymun şəklinə salıb eybəcərləşdirməyə oxşar, hər zövq sahibi bunu gördükdə özünü qeybət və məzəmmətdən saxlaya bilməz…Yeni bir əsər yazılsaydı, əvvələn kitabın tərcüməsi üçün edilə biləcək məzəmmətdən yaxa qurtarmaq olardı, ikincisi, təqlid deyil, orijinal, yığcam, əksəriyyətin başa düşə biləcəyi şəkildə… təzə bir kitab yaradılmış olardı».

…Bu kitabın yazılması onun əmri və təşviqi ilə olduğundan adı «Əxlaqi-Nasiri» qoyuldu. Alicənab adamlardan gözlənilən ən böyük kəramət, lütf və mərhəmət ondan ibarətdir ki, bu kitabı nəzərdən keçirdikdə bir səhv, ya anlaşılmazlığa rast gəlsələr, zəhmət çəkib onu düzəltsinlər, əvvəlcədən bizim üzr və təşəkkürümüzü qəbul etsinlər. Allah qoysa, belə də olar».

Bu sözlər əslində böyük alimin dərin mütaliə qabiliyyətinə malik olan yüksək zəka sahibi olmasını təsdiq edir. Onun sadəliyi və təvazökarlığı, mütəxəssislər və digər oxucular qarşısında müəllif məsuliyyəti müasir müəlliflərə də ibrət dərsi kimi dəyərləndirilməyə layiqdir.

Tusinin fikrincə, «Elm əməlsiz məhv olar, əməl isə elmsiz mümkün deyildir. Deməli, elm başlanğıc, əməl son, elm səbəb, əməl nəticədir». Alim yazır: «…hikmət iki yerə bölünməlidir: biri elm, o biri əməl (iş) ».

Elm – varlıqların həqiqətən necə olduqlarını düzgün təsəvvür etmək, insanın yaradıcı ağlı (nəfse-əmr) və sağlam düşünsəsi dairəsində onun xüsusiyyət və keyfiyyətlərini kəşf etməkdir.

Əməl – gizli qüvvələri ortaya çıxarmaq, müxtəlif sənət və peşələrdən fayda götürmək, müxtəlif iş vərdişləri əldə etmək üçün göstərilən fəaliyyətə deyilir, bu şərtlə ki, o, bəşəriyyətin qüdrətinin artmasına, onun təkmilləşməsinə səbəb olsun.

Kimdə bu iki fəzilətin hər ikisi varsa, o, ən müdrik insan, ən kamil alim hesab edilir, onun yeri bəşər övladının tuta biləcəyi ən yüksək mövqeyin fövqündə olar. Necə ki buyurublar: «Kimi istəyirsə, ona hikmət verir, kimə hikmət verirsə, ona böyük nemət bəxş edir».

Tusi fəzilət cinslərinin növləri haqqında mülahizələrində yazır: «Hikmət» cinsinə daxil olan növlərin miqdarı yeddidir: birinci – zəka, ikinci – dərk sürəti, üçüncü – zehn aydınlığı, dördüncü – öyrənmə asılılığı (diqqət), beşinci – ağıl gözəlliyi, altınca – hafizə, yeddinci – hazırcavablıq» (8).

Bu növlərin hər birini ayrı-ayrılıqda geniş izah edən alim nəticə etibarilə insanın əxlaqi-mənəvi cəhətdən saflaşmasında mütaliənin əvəzsiz rolunu qeyd edir.

Tusinin fikrincə, təbiətdə insanın yaşayıb həyat sürməsi üçün hər cür imkan, torpaq, su, mədən, bitki, heyvanat və s. vasitələr mövcuddur. Bu imkan və vasitələrdən ağıl və bacarıqla istifadə etmək və onları qoruyub saxlamaq insanın başlıca vəzifəsidir. Çünki təbiət, onun maddələri və əşyaları insanın şüurlu əmək fəaliyyətinin zəruri şərtidir. Bunun üçün insanların bircə fəaliyyəti, bir-biri ilə qarşılıqlı ünsiyyətdə olması vacibdir. Tusi yazır ki, cəmiyyətdə «Bir-birinə xidmət edən, bütün insanları vahid bir bədən timsalında birləşdirən bir quruluşun yaranması zərurəti meydana çıxır. İnsan öz təbiəti etibarı ilə inkişafa meyl edən bir varlıq kimi yaradıldığından, təbii olaraq belə bir birləşməyə möhtacdır».

Onun fikrincə, insanın fitri istedadını, peşə seçmək qabiliyyətini elə ailədə, uşaq yaşlarında müəyyən etmək və onların bacardığı işə həvəsini artırmaq lazımdır. Bunun üçün «İlk növbədə uşağın təbiətinə, nəyə qabil olduğuna nəzər

yetirmək, ağıl, fərasətinə fikir vermək, müşahidə nəticəsində onun fitrətinə hansı sənətə və elmə çox meyl olunduğunu müəyyənləşdirmək, sonra isə həmin işlə məşğul etdirmək vacibdir».

Tusi göstərir ki, bu tərbiyə işini eyni ilə təhsildə də davam etdirmək lazımdır. Təhsildə elə üsullar işlədilməlidir ki, onlar insanın fitri istedadının inkişafına, zövqünün artırılmasına və müəyyən peşə əldə etməsinə kömək etsin. O, uşaqlara «sənətin nəzəri əsasların və incəliklərin», «işlər idarə etmək ustalığına yiyələnməyi» təhsilin başlıca məqsədi hesab edir.

Tusinin fikrincə, insanların əxlaqına təsir yollarını axtarıb tapmaq, onların qəlbində zülm, zorakılıq, əliəyrilik, yalançılıq və tənbəllik kimi çirkin əməllərə qarşı nifrət hissi alovlandırmaq, rəhm, insaf, düzgünlük, çalışqanlıq, mehribanlıq və qardaşlıq hisslərini təbliğ etməklə insanların mənəviyyatının yüksəlişinə çalışmaq, insana xas olan eşq və məhəbbətin qalibiyyətli gücünü tərənnüm etmək hər bir sənətkarın çətin və müqəddəs borcudur. Alim deyir ki, insan ədalətli, zəhmətkeş, bilikli, ağıllı, tərbiyəli, dünyagörüşlü olmalı, yaxşı yoldaş və sədaqətli dost üçün təkcə var-dövlətindən deyil, hətta canından belə keçməyi bacarmalıdır.

Tusi yazır ki, təbiətdə insanın yaşayıb həyat sürməsi üçün hər cür imkan, torpaq, su, mədən, bitki, heyvanat və s. vasitələr mövcuddur. Bu imkan və vasitələrdən ağıl və bacarıqla istifadə etmək və onları qoruyub saxlamaq insanın başlıca vəzifəsidir. Çünki təbiət, onun maddələri və əşyaları insanın şüurlu əmək fəaliyyətinin zəruri şərtidir. Bunun üçün insanların bircə fəaliyyəti, bir-biri ilə qarşılıqlı ünsiyyətdə olması vacibdir. Buna görə də cəmiyyətdə «Bir-birinə xidmət edən, bütün insanları vahid bir bədən timsalında birləşdirən bir quruluşun yaranması zərurəti meydana çıxır. İnsan öz təbiəti etibarı ilə inkişafa meyl edən bir varlıq kimi yaradıldığından, təbii olaraq belə bir birləşməyə möhtacdır».

Tusi onu da göstərir ki, insan cəmiyyətin ictimai, iqtisadi sistemində öz yerini tapmalı, öz bacarığına, istedadına və peşəsinə uyğun fəaliyyət göstərməlidir. İnsan ilk bəsit əmək alətlərindən və peşələrdən tədricən yüksək sənət növlərinə doğru bir yüksəliş yolu keçmişdir. O, anadangəlmə dülgər, zərgər, dəmirçi, katib və ya başqa ixtisas sahibi kimi doğulmur. Bütün bunlar uzun sürən təcrübə və qazanılan biliklər sayəsində əldə edilir. Alim təbiəti müəllim və ustada, sənət və sənətkar isə şagirdə bənzədərək göstərir ki, təbiət həmişə insanı düşünməyə, birləşməyə, axtarışa, özünüdərkə və dəyişməyə vadar edən bir varlıq kimi çıxış etmişdir. Buna baxmayaraq cəmiyyət, dövlət və ailə insanın daim təhsil və tərbiyəsinə, əxlaqi, mənəvi keyfiyyətlərinin yüksəlməsinə qayğı göstərməlidirlər.

Tusi tənbəlliyi, özgələrin hesabına yeyib atmağı, sənət və peşəsi olmayanları, heyvan kimi davrananları məzəmmət edir və insana uşaq vaxtından başlayaraq

var-dövlət qazanmağın yollarını aşılamağı tövsiyə edir. O, «Əxlaqi-Nasiri» əsərinin ailə dolandırmaq və övlad tərbiyə etmək qaydalarına həsr etdiyi fəslində yazır: «Dövlətli uşaqlarının əksəriyyəti dövlətə arxayın olduqlarından sənət və mərifətdən məhrum olarlar, dünya dəyişdikdə yoxsullaşar, əziyyətə məruz qalarlar». Buna yol verməmək üçün gənclərə elə bir təlim və tərbiyə aşılamaq lazımdır ki, onlar «Sənətlərin nəzəri əsaslarına, incəliklərinə» bələd olsunlar, işləmək və yaşamaq qaydalarına, pul yollarına və işləri idarəetmə üsullarına yiyələnə bilsinlər».

Tusi xatırladır ki, zəhmət çəkib pul qazanmağı bacarmayanlar onu xərcləməyin yerini də bilməzlər. Bununla bağlı o, Şərqdən deyilən belə bir müdrik fikri də yada salır: «Pul qazanmaq çətinliklə ağır daşı dağın başına çıxarmaq, xərcləmək isə asanlıqla həmin daşı üzü aşağı dığırlamaq kimi bir şeydir» (8).

Tusi insanlar arasında peşə bölgüsünə, qadın, kişi, gənc və yaşlı adamların öz peşəsinə və vəziyyətinə görə işlə təmin edilməsinə çox böyük üstünlük verir. O, bütün səviyyələrdə fəaliyyət göstərən işçilərin, hətta kölələrin də öz peşəsinə, bacarığına görə işlə təmin edilməsinin ədalət prinsipinə uyğun olduğunu göstərir. Onu xatırladır ki, işçi və xidmətçiləri işlətməyin bir ədaləti prinsipi də ondan ibarətdir ki, onlar «məcburiyyətə, qorxuya görə deyil, ünsiyyətə, həvəsə görə işləsinlər».

Bu da hələ Tusiyə görə məsələnin tam həlli deyildir. Burada başlıca məsələ görülən işin müqabilində əməyin ödənilməsidir. Tusi bu fikri əsas tutur ki, «Əmələ haqq arasında ədalət bərpa edilməyincə insanlar arasında dostluq münasibətlərini nizama salmaq olmaz». Buna görə də cəmiyyətdə elə şərait yaradılmalıdır ki: «Hərə öz imkanı və bacarığı daxilində, zaman və məkanın tələblərindən asılı olaraq ədalətlə öz borcunu yerinə yetirsin, hərənin haqqı özünə çatsın» (8).

Tusi əsərinin başqa bir yerində bu məsələni yenidən nəzərdən keçirir və göstərir ki, «Ümumi gəlirdə hər adamın müəyyən payı vardır, bundan artıq və əskik vermək zülmə aparıb çıxarır…burada ən ədalətli prinsip hərənin öz payına düşəni özünə verməyə səy göstərilməli, haqqa və xidmətə fikir verilməlidir». Əgər bu prinsip pozularsa, «bir yerdə azlığa, başqa yerdə çoxluğa yol verilərsə, ədalət pozular, insanlar içərisində fitnə-fəsad törəyər, ölkədə zəiflik və zorakılıq meydana gələr, nizam-intizam yox olar, yerini onun əksi olan hərc-mərclik tutar» (8).

Tusi insanların fitri istedadı, bacarığı, bilik səviyyəsi, sənətkarlıq dərəcəsi arasında mühüm fərqlər olduğunu göstərir, bunların nəzərə alınmasını da tövsiyə edir. O, dəfələrlə alimin, mühəndisin, bənnanın, ustanın, şəgirdin, idarə edənlərin, bir sözlə, ixtisaslı və ixtisassız fəaliyyət növlərinin fərqləndirilməsi və onlara lazımı qiymət verilməsindən danışır. Göründüyü kimi, Tusi fəlsəfəsində insanın əxlaqi, mənəvi dəyərlərə malik olması, onun təlim və

tərbiyəsi bilavasitə insanın ictimai, faydalı əmək fəaliyyəti, onun maddi və mənəvi tələbatlarının ödənilməsi dərəcəsi məsələləri əsasında təhlil və şərh edilir. O, dəfələrlə qeyd edir ki, mal-dövlət toplamaq pul qazanmaq özlüyündə bir məqsəd olsa da, onların hansı yollarla əldə edilməsi və hansı məqsədlər üçün şərf edilməsi əsas məsələdir.

Tusi yazır: «İnsan üçün xoş güzərandan daha gözəl bir şey ola bilməz, bunun ən şərəfli vasitəsi isə ədalətli, iffətli, mürvətli, insaflı, namuslu əmək və sənətdir. Bu isə öz növbəsində tamahkarlıq, səhlənkarlıq, tənbəllik və ya bu kimi nalayiq işlərdən əl çəkmədən mümkün deyil» (8).

Tusi göstərir ki, bu tərbiyə işini eyni ilə təhsildə də davam etdirmək lazımdır. Təhsildə elə üsullar işlədilməlidir ki, onlar insanın fitri istedadının inkişafına, zövqünün artırılmasına və müəyyən peşə əldə etməsinə kömək etsin. O, uşaqlara «sənətin nəzəri əsasların və incəliklərin», «işlər idarə etmək ustalığına yiyələnməyi» təhsilin başlıca məqsədi hesab edir.

Tusi şəxsiyyəti yetkin, hərtərəfli, kamil görmək istəyir, davranışına və digər əməllərinə görə öz yerini bilən insanı yüksək qiymətləndirir, yüngüllüyü, boşboğazlığı naqislik hesab edir. Böyük sənətkar haqlı olaraq insanlara tövsiyə edir ki, ağır gəlmək üçün qarnı doldurmaq yox, əqli, idrakı zənginləşdirmək lazımdır. O, ağlı, kamalı şəxsiyyətin ucalığı sayır. Mütəfəkkir insanı sərraf olmağa, hər şeyin öz qiymətini verməyə səsləyir. Onun haqlı qənaətinə görə, bəşəriyyətin xoşbəxtliyi, xeyrin şər üzərində qələbəsi əsl şəxsiyyətlərin yetişdirilməsindən asılıdır.

Tusinin fikrincə, mənəvi zənginliyi, əxlaqi saflığı və fiziki kamilliyi özündə ahəngdar şəkildə birləşdirən kamil şəxsiyyətin formalaşmasına təsir göstərən amillər sırasında kitabın, kitabxananın və mütaliənin müstəsna yeri vardır.

Beləliklə, Tusinin XIII əsrdə irəli sürdüyü fəlsəfi-əxlaqi fikirlər bu gün də öz aktuallığını itirməmişdir. Bütün bunlar bu gün gə ailənin, məktəbin, kitabxananın və cəmiyyətin qarşısında duran məsələlərdir. Elə Tusinin də müdrikliyi bundadır ki, onun zəngin elmi, nəzəri irsi özündən dövrlər üçün öz aktuallığını qoruyub saxlaya bilmişdir. Buna görə də Azərbaycan dövlətinin və xalqımızın Tusi yaradıcılığına sayğı və qayğı ilə yanaşması təqdirəlayiq hal kimi qiymətləndirilməlidir.

## ƏDƏBİYYAT

*1.Azərbaycan Respublikası Prezidentinin fərmanı. Nəsirəddin Tusinin anadan olmasının 800 illiyi haqqında // Azərbaycan.-2000.-14 iyun.*

*2.Göyüşova Z. Əxlaqi fikirlər xəzinəsi (N.Tusinin «Elm» nəşriyyatında çapdan çıxmış «Əxlaqi-Nasiri» əsəri.-Azərbaycan.-1981.-№4.-S.148-157.*

*3.Həsənova Ş. Nəsirəddin Tusinin əsərlərində elm, təhsil və tərbiyə məsələləri // Xəzər Xəbər. – 2005. №155. –S.32-33; №156. –S.32-33.*

*4.Xələfov A. Azərbaycanda kitabxana işinin tarixi: Dərslik. I hissə. –B.: Bakı Universiteti Nəşriyyatı, 2004.-S.184-185.*

*5.İbrahimov A. «Əxlaqi-Nasiri» dərin fikirlər xəzinəsidir//Azərbaycan müəllimi.-1981.-25 noyabr.*

*6.Məmmədzadə Z. Nəsirəddin Tusinin əsərlərində tərbiyə məsələləri//Azərbaycan məktəbi.-1985.-№6.-S.55-59.*

*7.Rzayev A. Nəsirəddin Tusi. Həyatı, elmi dünyagörüşü.-B.,1996.-266 s.*

*8.Tusi Xacə Nəsirəddin. Əxlaqi-Nasiri.-B. Elm, 1989.-256 s.*

*9.Yolçuyeva A. Dahi mütəfəkkirin tərbiyə prosesinə baxışları bu gün də aktualdır//Azərbaycan.-2001.-4 aprel.*

*10. Zeynalov R., Ətayi Ə. Nəsirəddin Tusi və Marağa rəsədxanası // Respublika.-2000.-3 sentyabr.*

**КНЯЗЬ АСЛАН,**
**кандидат педагогических наук, доцент**

## КНИГА И ЧТЕНИЕ В НАСЛЕДИИ НАСИРАДДИНА ТУСИ
## РЕЗЮМЕ

*Благодаря великому ученному, философу и поэту XIII века Насираддину Туси (1201-1275) азербайджанская наука достигла больших высот. В его философической и художественно-научной деятельности существуют прочные связи, отвечающие потребностям современного периода. Одним из должностей различных сфер наук является исследованием этих связей.*

*Насираддин Туси провел многочисленные исследования в области математики, минерологии, тригонометрии, географии, истории, юридических наук, медицины, этики, логики, религии, поэтики, каллиграфии и в др. областях наук. Этот известный ученный , принесший в Азербайджанскую науку мировую славу также прославился знатоком гуманитарных и социальных наук и в тоже время как личностью сыгравшей серьезную роль в процессе воспитания и образования того периода.*

*По сей день актуальны ценные слова и образцовые идеи великого ученного связанные с книгой и чтением в литературном наследии.*

*Будет также интересно изучить деятельность ученного в период его правления библиотекой Марагинской обсервотории.*

*В этой статье глубого рассмотренны эти вопросы.*

**KNYAZ ASLAN**
**Candidate of Pedaqoqical Sciences (PhD),**
**Associate Professor**

## THE BOOK AND READING ISSUES IN THE LEGACY OF NASIRADDIN TUSI

### SUMMARY

*Due to the great scientist, philosopher and poet of 13-th century Nasiraddin Tusi (1201-1275) Azerbaijani science reached the top. There are strong connections in his philosophical and literary-artistic activity corresponding to the needs of modern period. One of the tasks of different scientific areas is to investigate them.*

*Nasiraddin Tusi had different researches in the spheres of mathematics, cosmology, mineralogy, trigonometry, geography, history, law, medicine, ethics, logic, religion, poetry, calligraphy and etc. This great scientist who brought world fame to Azerbaijani science is famous as one who had good knowledge in humanities and social sciences and could seriously influence on education of that period.*

*Valuable sayings and ideas of the great scientist about book and reading are still urgent.*

*It would be interesting to investigate the scientist's activity of that period when he was the head of Maragha observatory library.*

*All these issues are widely investigated in this article.*

**Akif CƏFƏROV**
*Baş müəllim*

# AZƏRBAYCAN KƏND TƏSƏRRÜFATI AKADEMİYA KİTABXANASINDA PROFESSOR-MÜƏLLİM HEYƏTİNƏ KİTABXANA XİDMƏTİNİN TƏŞKİLİ

Müasir elmi-texniki tərəqqinin əsas vəzifələrindən biri də budur ki, o yalnız istehsalata deyil, insanların şüuruna və formalaşmasına əsaslı təsir göstərir. Buna görə də insan amilinin rolunu gücləndirilməsi qarşısında qoyulan vəzifələrin həyata keçirilməsinin başlıca vasitələrindən biri kimi qiymətləndirilir.

Müstəqil Azərbaycan dövlətinin həyata keçirdiyi mühüm sosial iqtisadi vəzifələr respublikada mütəxəssis hazırlığı səviyyəsinin yüksəldilməsini də ön plana çəkir. Başqa sözlə, ölkənin sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair proqram vəzifənin yerinə yetirilməsi mütəxəssislərin peşə hazırlığını kökündən yaxşılaşdırmağı tələb edir. Bu həmçinin Azərbaycan Respublikasında dövlət təhsil siyasəti milli təhsilin dünya standartlarına uyğun, milli zəmin və ümumbəşəri dəyərlər, demokratika, hümanist prinsiplər üzrə qurulmasına xidmət edir(1). Kadrların ixtisası, səriştəliyi və onların yüksək vətəndaşlıq məsuliyyəti və elmi-texniki tərəqqinin, xalq təsərrüfatının intensivləşdirməsinin miqyasını və sürətini xeyli dərəcədə müəyyən edir.

Ulu öndərimiz H.Əliyev Azərbaycan Respublikasında təhsil problemləri ilə bağlı çıxışı zamanı demişdir: “Savadlı, iradəli, bilikli, bacarıqlı, dəyanətli, mərd gəncləri olmayan bir ölkənin gələcəyi də ola bilməz. Təhsil millətin gələcəyidir”(2).

Azərbaycan Respublikasının Prezidenti İ.Əliyev cənabları isə təhsillə bağlı belə demişdir: “Biz maddi dəyərlərimizi, iqtisadi potensialımızı insan kapitalına çevirməliyik. Çünki insanın savadı, biliyi onun gələcək həyatını müəyyən edir, ölkənin hər tərəfli inkişafına xidmət edir və beləliklə, ölkənin intellektual potensialı da möhkəmlənir”(5).

Məlumdur ki, mütəxəssis hazırlığında başlıca yeri ali və orta ixtisas təhsili müəssisələri tutur. Ali və orta ixtisas təhsili sisteminin hazırlığı mütəxəssis kadrları dövlət quruculuğu, ölkənin güclü müasir iqtisadi, elmi-texniki və müdafiə potensialını yaratmaq sahəsində ən mürəkkəb vəzifələri yerinə yetirməyə imkan vermişdir. Respublikamızda ali və orta ixtisas məktəblərinin şaxəli şəbəkəsi fəaliyyət göstərir.

Hazırda ali məktəblər nəinki xalq təsərrüfatının ixtisaslı kadrlarla təmin edilməsinin mənbəyi, həm də ölkənin elmi-tədqiqat kompleksinin mühüm tərkib hissəsi kimi çıxış edir. Müasir dövrün alimləri və mühəndis texniki işçiləri elmin bir sıra yeni istiqamətlərinin inkişafında, texnika və

texnologiyalarının bir çox növlərinin yaradılmasında, ictimai inkişafın aktual problemlərinin işlənib hazırlanmasında mühüm rol oynayırlar.

Azərbaycan Respublika Təhsil Nazirliyinin məlumatına görə ölkəmizdə 47 ali təhsil müəssisəsi, o cümlədən 27 dövlət, 5 xüsusi təyinatlı, 15 özəl təhsil müəssisəsi fəaliyyət göstərir. Həmin müəssisələrdə 120 min tələbə təhsil alır, onların təhsili ilə 12 min nəfər professor müəllim heyəti məşğul olur (2).

Azərbaycan Respublikası Təhsil qanununun 19 və 20-ci maddələrinə uyğun olaraq dövlət ali müəssisələrində çox pilləli sistem üzrə kadr hazırlığına keçməklə əlaqədar olaraq təhsil naziri 7 may 1993-cü il tarixli 399 nömrəli əmr vermişdir. Bu əmrə əsasən ali təhsil müəssisələrinin kadr potensialı, maddi-texniki bazası və ixtisasın xüsusiyyətlərindən asılı olaraq 3 pilləli (bakalavr, magistr, doktorantura) sistemi üzrə kadr hazırlığına başalmışdır. 1996-1997-ci tədris illərində bakalavr pilləsinin tədris planları ilə müəyyən edilmiş təlim müddəti başa çatmış, 1997-ci ildən magistr hazırlığına başlanmışdır(2). Akademiyada istər yüksək ixtisaslı mütəxəssis hazırlanması səviyyəsinin yüksəldilməsi, istər ali məktəb elminin inkişaf etdirilməsi, istər elmi-pedoqoji və elmi kadrların keyfiyyət tərkibinin yaxşılaşdırılması, istərsə də ali məktəbin öz işində dəyişiklik etməsi ilə əlaqədar olan digər vəzifələrin həyata keçirilməsi mütləq müvafiq məlumat və sənəd bazası tələb edir. Ali məktəb kitabxanası isə məhz belə bir bazadır.

Kitabxana xidmətinin vəzifəsi kitabxana sərvətlərinin, dünya ədəbiyyatı nümunələrinin etibarlı şəkildə toplanması, qorunması və gələcək nəsillərə çatdırılmasından, onların əhali arasında təbliğindən, bəşəri dəyərlərə yiyələnmək, müstəqil və yaradıcı düşünən vətəndaş yetişdirilməsinə fəal yardım göstərməkdən ibarətdir (4).

Əvvəldə qeyd etdiyimiz kimi heç bir elmi tədris müəsissəsi öz qarşısında duran vəzifələri müvafiq məlumat və sənəd bazası olmadan həyata keçirilə bilməz. Məhz buna görə də ali təhsil müəssisəsinin tədris-köməkçi, elmi, məlumat, ideoloji və mədəniyyət bölməsi olan ali məktəb kitabxanalarının işinin müvafiq tələblər səviyyəsində təkmilləşdirilməsi, onun ali təhsil sisteminin inkişafı ilə bilavasitə əlaqədardır.

Respublikamızın ali məktəbləri içərisində özünəməxsus yeri olan Azərbaycan Kənd Təsərrüfatı Akademiyasının kitabxanası respublika ali məktəb kitabxanaları arasında ən qabaqcıl yerlərdən birini tutur. Bu kitabxananın fəaliyyəti akademiyanın fəaliyyəti ilə sıx sürətdə bağlı olduğuna görə akademiya haqqında qısa məlumat vermək məqsədə uyğun olardı.

1920-ci il dekabr ayının 14-də Politexnik institutunun nəzdnində kənd təsərrüfatı fakültəsi təşkil edildi. Azərbaycan Xalq Komissarlar Sovetinin xüsusi qərarı ilə kənd təsərrüfatı fakültəsi 1929-cu ildə müstəqil instituta çevrildi. Bu onun nəzdində 4 fakültə; bitgiçilik, heyvandarlıq, pambıqçılıq və balıqcılıq təsərrüfatı fakültələri vardı.

1930-cu ildə Pambıqçılıq fakültəsi Zaqfqaziya Pambıqçılıq İnstitutuna çevrilir və onun tərkibində kənd təsərrüfatının mexanikləşdirilməsi fakültəsi yaradılır.

1931-ci ildə Azərbaycanın Kənd Təsərrüfatı Akademiyası və Zaqafqaziya Pambıqçılıq İnstitutu Bakıdan Gəncəyə köçürülür. Azərbaycan Kənd Təsərrüfatı Akademiyasının heyvandarlıq fakültəsi isə Azərbaycan Baytarlıq İnstitutuna çevrilir. Həmin il, yəni 1931-ci ildə Tiblisi şəhərindən mühəndis Meliorasiya institutu Gəncə şəhərinə köçürülür. Nəhayət 1933-cü ildə bütün 4 institut Azərbaycan Kənd Təsərrüfatı Akademiyasının nəzdində birləşdirilir və 6 fakültəsi yaradılır. Bunlar aşağıdakılardır: 1) Tarlaçılıq. 2) Meyvə tərəvəzçilik. 3) Zootexnika. 4) Baytarlıq. 5) Kənd Təsərrüfatının mexanikləşdirilməsi. 6) Hidromeliorasiya (7).

Qeyd etmək lazımdır ki, sonrakı illərdə də Akademiyanın strukturunda dəyişiklik edilir. 1944-cü ildə isə akademiyanın 7-ci fakültəsi – Meşə Təsərrüfatı fakültəsi yaradılır, üzümçülük və şərabçılıq şöbəsi, orta və kiçik su-elektrik stansiyalarının tikintisi üzrə şöbədə təşkil edilir.

Azərbaycan Kənd Təsərrüfatı Akademiyası 1967-ci ildən 1996-cı ilə qədər S.Ağamalı oğlunun adını daşıyır.

Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun apardığı elmi-tətqiqat işlərinin səviyyəsinə, yüksək ixtisaslı kadr hazırlığına və potensial imkanlarına görə 1991-ci ildən Akademiya statusu verilmişdir.

Azərbaycan Kənd Təsərrüfatı Akademiyası ən böyük ali təhsil müəssisələrindən biridir. Akademiyada yüksək ixtisaslı kadr hazırlayan 8 fakültə fəaliyyət göstərir. Fəaliyyət göstərdiyi müddətdən bəri akademiya 30 mindən yuxarı yüksək ixtisaslı mütəxəssis hazırlamışdır.

Akademiya kitabxanasının fondunda hal-hazırda 974.834 nüsxə ədəbiyyat var və vahid oxucu biletinə görə kitabxana 7552 oxucuya xidmət göstərir. (8, 2005, s. 4-5)

“Oxuculara xidmətin təşkili kitabxana işinin inkişafının bütün mərhələlərində öz təbiəti və struktur quruluşu etbarı ilə mürəkkəb, çoxcəhətli və geniş məzmunlu anlayış olub, həmişə kitabxananın əsas vəzifələrini və bütövlükdə kitabxana işinin mahiyyətini ifadə etmişdir. Cəmiyyətdə kitabxanaların rolu və əhəmiyyəti həmişə oxuculara kitabxana xidmətinin təşkili səviyyəsi, onun keyfiyyəti və əhatə dairəsi ilə ölçülmüşdür”(3).

Ali və orta ixtisas məktəblərinin qarşısında duran təlim-tərbiyyə və elmi tətqiqat işlərinin həyata keçirilməsində ali məktəblərin mühüm quruluş bölməsi və tərkib hissəsi olan kitabxanaların çox böyük əhəmiyyəti vardır. Qeyd etmək lazımdır ki, bu kitabxanalarda Respublika Təhsil Nazirliyinin bilavasitə rəhbərliyi altında fəaliyyət göstərirlər. Onu da qeyd etməliyik ki, ali təhsil müəssisələrinin kitabxanalarının işinin təşkilində spesifik xüsusiyyətlər vardır ki, bunlar da hər şeydən əvvəl bu kitabxanaların xidmət etdikləri oxucu

kateqoriyasının xüsusiyyətləri ilə izah olunur. Ali məktəb kitabxanalarının başlıca vəzifəsi müəllim və tələbələrin elmi dünyagörüşünü və ixtisas biliklərini genişləndirmək, həmçinin kitab üzərində müstəqil, dərindən işləmək vərdişləri aşılamaq üçün müəllim və tələbələrin elmi ədəbiyyata olan tələblərini artırmaqdan ibarətdir. Ali məktəb kitabxanaları fəaliyyət göstərdikləri tədris ocağının əsas profili üzrə, onun həyata keçirdiyi elmi-tədqiqat işlərinin mövzuları üzrə elmi ədəbiyyatın daha tam fondunu cəmləşdirir, bütün kafedra, laboratoriya və bütün elmi kollektiv üçün ən yeni ədəbiyyat haqqında məlumat verilməsini təşkil edir, habelə xüsusi biblioqrafik arayışlar tərtib edirlər. Bu xüsusiyyətlər ali məktəb kitabxanalarında professor müəllim heyətinə, habelə tələblərə kitabxana və məlumat-biblioqrafiya xidmətinin təşkili və həyata keçirilməsində özünü parlaq şəkildə büruzə verir.

Bütün bunları nəzərə alaraq Azərbaycan Kənd Təsərrüfatı Akademiyası kitabxanasında professor-müəllim heyətinə kitabxana və məlumat-biblioqrafiya xidmətinin təşkili vəziyyətini, bu işin başlıca istiqamətlərini, bu sahədəki nöqsanları fakt və rəqəmlər şəklində izah etməyə çalışaq. Bu zaman kitabxananın 2001-2005-ci illərdəki fəaliyyətini xarakterizə edən fakt və rəqəmlərə istinad etmək məqsədəuyğun hesab edilmişdir.

Azərbaycan Kənd Təsərrüfatı Akademiyası kitabxanasında oxuculara, daha doğrusu professor-müəllim heyətinə kitabxana xidmətini izah etmək üçün aşağıdakı ardıcıllığa riayət ediləcəkdir.

a) abonement şöbəsinin işi;
b) qiraət zalında xidmət işi;
c) məlumat-biblioqrafiya işi;
d) KAA vasitəsilə xidmət işi;

Məlum olduğu kimi istənilən tip və növdən olan kitabxanaların funksiyalarının yerinə yetirilməsinin başlıca amili və əsas şərti kitabxana fondunun formalaşmasıdır. Buna görə də AKTA-nın kitabxanasında professor-müəllim heyətinə xidmət işinin təşkili səviyyəsini izah etməzdən əvvəl kitabxananın fondu onun tərkibi və quruluşu, ümumiyyətlə ali məktəb kitabxanası kimi kitabxananın funksiyaları haqqında qısaca məlumat vermək lazımdır.

Azərbaycan Kənd Təsərrüfatı Akademiyası kitabxanasının fondunun quruluşu “Ali təhsil müəssisələri kitabxanalarının fondlarının formalaşması haqqında əsasnamə”yə uyğundur. Əsasnamədə ali məktəb kitabxanaları fondunun nümunəvi quruluşu aşağıdakı kimi göstərilmişdir.

1.Əsas fond-vahid fondun tərkib hissəsi olmaqla vətən və xarici nəşrlərin daha tam toplusundan ibarətdir.

2.Yardımçı fond-vahid fondun tərkib hissəsidir və oxucular tərəfindən daha tez-tez soruşulan ədəbiyyatı əhatə edir. Bu fond oxu zallarında, abonementdə, soraq-biblioqrafiya və metodiki şöbədə, digər şöbələrdə yaradılır.

3.Tədris fondu-yardımçı fondun bir növüdür. Burada tədris prosesinin təşkili üçün lazım olan bütün tip növdən olan nəşrlər əhatə olunur. Tədris fondunun formalaşması ali məktəbin tədris planına və tədris fənlərinin kitab təminatı normasına müvafiq olaraq həyata keçirilir.

4.Mübadilə fondu-nəşrlərlə mübadilə və ya onları əvəzsiz olaraq başqa kitabxanalara vermək məqsədiylə yaradılmış fonddur (6).

Qeyd etmək lazımdır ki, 2001-2005-ci illərdə AKTA-nın professor-müəllim və işçi heyəti göstərilən xidmət istiqamətlərinin hamısı ilə əhatə edilmişdir. Akademiyada 46 kafedra fəaliyyət göstərir. Bundan əlavə zeytunçuluq üzrə bir problem laboratoriya, mineral və üzvü gübrələrin və baytarlıqda Naftalan neftinin tətbiqi üzrə iki sahəvi elmi-tətqiqat laboratoriyası fəaliyyət göstərir. Akademiyanın tədris təcrübə təsərrüfatı vardır ki, burada da tələbələr tədris təcrübəsi keçirilir, alimlər isə müxtəlif təcrübi tətqiqatlar yerinə yetirirlər. Təbiidir ki, bütün bu işlərin yerinə yetirilməsi səmərəliliyi, həm də əsaslı kitabxananın fəaliyyətindən onun bu işləri məlumatla nə dərəcədə təmin etməsindən asılıdır.

2001-ci ildə əsaslı kitabxananın vahid oxucu bileti əsasında 7012 nəfər oxucu olmuşdur. Onlardan: a) professor-müəllim heyəti-132 nəfər; b) aspirantlar və elmi işçilər-378 nəfər; c) kənd təsərrüfatı mütəxəssisləri-213 nəfər (8, 2001.- s. 3-4).

Göründüyü kimi, kitabxananın oxucularının çox az bir miqdarını, cəmisi 732 nəfərini Akademiyanın professor-müəllim və işçi heyəti təşkil edir. Bir cəhəti də qeyd etmək lazımdır ki, əsaslı kitabxananın fondundan şəhərin şəhərin digər kənd təsərrüfatı mütəxəssisləri də istifadə edirlər. 2001-ci ildə akademiyanın professor-müəllim heyətinə kafedra və kabinetlərdə 48.587, abonementdə 12.675, oxu zalında isə 24.612 nüsxə elmi və tədris ədəbiyyatı verilmişdir. Göründüyü kimi kitab verilişinin əsas ağırlığı kafedra və kabinetlərin üzərinə düşmüşdür.

2001-ci ildə kitabxananın abonement şöbəsinin 1860 professor-müəllim, 2470 aspirant və magistr gəlişi olmuşdur. Oxu zalı üçün bu rəqəmlər müvafiq olaraq 1500 və 2000 olmuşdur (8, 2001.- s. 5).

2001-ci ildə akademiyanın professor-müəllim heyətinə və elmi işçilərə 1071 mövzu arayışı verilmişdir ki, onlardanda 836-sı ünvan biblioqrafik, 1092-si isə faktoqrafik arayışlar olmuşdur.

Kitabxananın bu oxucu qrupuna verdiyi yazılı arayışlar içərisində “Kənd təsərrüfatı iqtisadiyyatının müasir problemləri”, “Şərabçılığın texnologiyası” kimi arayışlarla 15-ə yaxın ən yeni elmi-tədris ədəbiyyatı, jurnal məqalələri əhatə edilmişdir. Bu ildə professor-müəllim və işçi heyəti üçün 8 məlumat, habelə 4 kafedra günü keçirilmişdir. Məlumat günlərində 264 adda ədəbiyyat nümayiş etdirilmiş, 193-ü oxumaq üçün götürülmüşdür (8, 2001.- s. 7).

Kitabxananın KAA şöbəsi bu il 30 abonentə xidmət göstərmiş, 64 adda sənəd göndərmiş, 25 nüsxə sənəd almışdır. (8, 2002.- s. 8)

2002-ci ildə kitabxananın 7126 nəfər oxucusu olmuşdur. Onlardan: a) professor-müəllim heyəti-176 nəfər; b) aspirantlar və elmi işçilər-502 nəfər; c) kənd təsırrüfatı mütəxəssisləri-210 nəfər təşkil edir.

Hesabat ilində kitabxanalar bu oxuculara 321.892 nüsxə ədəbiyyat vermişdir ki, bunların da 2.132 nüsxəsi ictimai-siyasi, 204.896 nüsxəsi tədris, 4600 nüsxəsi isə xarici dildə elmi ədəbiyyat olmuşdur (8).

Təqdiredici haldır ki, kitabxanada elmi ədəbiyyat verilişinin istər Azərbaycan, istərsə də xarici dillərdə xüsusi çəkisi xeyli artmışdır.

Bu ildə məlumat-biblioqrafiya şöbəsi məlumat günü keçirmişdir ki, burada da nümayiş etdirilən 231 ədəbiyyatın 170-i oxuculara verilmişdir. Bundan başqa şöbə 3 kafedra günü də keçirmişdir. 2002-ci ildə şöbə 24 adda məlumat vərəqi hazırlamış və kafedralara göndərilmişdir. Bundan əlavə şöbə Gəncə şəhər Elmi İnformasiya İnstitutunun göndərdiyi məlumat vərəqlərini də kafedraların profilinə müvafiq olaraq paylaşdırır.

Əvvəldə qeyd etdiyimiz kimi akademiyanın professor-müəllim və elmi işçilərin ən aktual ictimai-siyasi və elmi məlumatla operativ şəkildə təmin edilməsində kitabxananın oxu zalı əvəzedilməz rol oynayır. Əsaslı kitabxana oxu zallarının işi barədə ən qabaqcıl iş təcrübəsinə əsaslanaraq dissertasiya avtoreferatlarını, referativ jurnalları, qəzetləri və digər məlumat nəşrlərini professor-müəllim heyəti üçün oxu zalında açıq nümayiş etdirir. Bundan başqa kitabxanaya daxil olan ən yeni elmi və tədris ədəbiyyatı kitabxana qaydası ilə işləməzdən əvvəl məhz bu oxu zalında nümayiş etdirilir. Oxu zalında "Əlamətdar günlər" adlı daimi mövzu sərgisi də fəaliyyət göstərir. Bütün bunların nəticəsidir ki, oxu zalına gəliş və buradan ədəbiyyat verilişinin miqdarı və keyfiyyəti ildən-ilə artır.

Ümumiyyətlə, ədəbiyyat verilişinin miqdarına görə kitabxananın oxu demək olar ki, həmişə birinci yerdə gedir.

Bəhs olunan dövrdə akademiyanın professor-müəllim heyətinə və elmi işçilərə kitabxana xidmətinin təşkili sahəsində xarici ədəbiyyat və KAA şöbəsinin də fəaliyyəti genişlənmişdir. Bu ildə şöbə oxuculara 3400 nüsxə elmi ədəbiyyat verilmişdir. 2002-ci ildə KAA-nın 35 daimi oxucusu və abonenti olmuş, şöbə 76 nüsxə ədəbiyyat sifariş etmiş və 35 adda kənd təsərrüfatı ədəbiyyatı göndərmişdir (8, 2002.- s. 7).

2003-cü ildə AKTA-nın kitabxanasında vahid oxucu biletinə görə oxucuların miqdarı 7382 nəfər olmuşdur. Onlardan: a) professor-müəllim heyəti-194 nəfər; b) Elmi işçilər- 539 nəfər; c) kənd təsərrüfatı mütəxəssisləri-211 nəfər olmuşdur .

Bu ildə kitabxana öz oxucularına 322.558 nüsxə ədəbiyyat verilmişdir ki, bunlardan da 200705 nüsxə kənd təsərrüfatına aid ədəbiyyat və bilavasitə tədris

ədəbiyyatı 66328 nüsxə ictimai-siyasi, 3816 nüsxə bəddi, 2326 nüsxə xarici elmi ədəbiyyat, qalanları isə başqa elm sahələrinə aid ədəbiyyat olmuşdur (8, 2003.- s 4). Bu ildə KAA-nın daimi oxucularının miqdarı 37 nəfər olmuş, 4 kənar şəhər təşkilatlarına xidmət göstərilmişdir. 54 adda sənəd alınmış, 28 adda sənəd isə kitabxananın fondundan göndərilmişdir (8, 2002.- s 4).

Hər il olduğu kimi 2003-cü ildə də kitabxananın ixtisaslaşmış oxu zalının fəaliyyəti diqqətəlayiq olmuşdur.

2004-cü ildə əsaslı kitabxananın oxucularının sayı 7523 nəfər olmuş, onlara 325.578 nüsxə ədəbiyyat verilmişdir (8, 2004.- s 3). Kitabxananın müxtəlif şöbələrində professor-müəllim heyətinə kitabxana və məlumat-biblioqrafiya xidməti işinin səviyyəsi xeyli yaxşılaşmışdır.

2005-ci ildə AKTA kitabxanasında oxucuların cəmi vahid oxucu biletinə görə 7552 nəfər olmuşdur (8, 2003.- s 3). Kitabxananın müxtəlif şöbələrində professor-müəllim heyətinə kitabxana xidməti nəzərə çarpacaq dərəcədə yaxşılaşmışdır. Amma çox təəssüf ki, kitabxananın bu ildəki iş göstəriciləri ümumiləşdirilib elmi dövriyyəyə daxil edilməmişdir. Buna baxmayaraq ayrı-ayrı şöbələrin hesabatları əsasında demək olar ki, 2005-ci il üçün kitabxananın işi ilə tam tanış olmaq olar. Belə ki, həmin il oxuculardan; a) professor-müəllim heyəti-201 nəfər; b) Elmi işçilər- 539 nəfər; c) kənd təsərrüfatı mütəxəssisləri-215 nəfər olmuşdur. Onlara 331.462 nüsxə ədəbiyyat verilmişdir (8, 2005.- s 4).

Ali məktəblərdə demokratik prinsiplər əsasında müəyyən dəyişikliklər edilməsi, təhsildə də yeni sistemə keçirilməsi qarşısında duran ən başlıca vəzifələrdən biridir. Məlumdur ki, ali məktəblərin tədris-tərbiyə və elmi-tətqiqat işlərinin təşkilində, bu tətqiqatların nəticələrinin istehsalata tətbiq edilməsində ali məktəb kitabxanalarının da rolu vardır. Məhz buna görə də ali məktəblərin işinin dəyişdirilməsi ali məkətb kitabxanalarının da fəaliyyətinin dəyişdirilməsini tələb edir. Əks təqdirdə kitabxanalar ali məktəblərin artıq, lüzumsuz struktur bölməsinə çevrilər və beləliklə də qaşıda duran mühüm vəzifələrin öhdəsindən layiqincə gələ bilməz.

Qeyd edək ki, kitabxananın oxucularının miqdarı 2001-ci illə müqayisədə 2005-ci ildə nisbətən az artsa da kitabxanada oxuculara xidmət işinin səmərəliliyi artmışdır. 2005-ci ildə kitabxananın bütün oxucu kateqoriyalarının əhatə edilmə faizi 96,4% olmuşdur ki, bunu da qənaətbəxş hesab etmək olar.

AKTA-nın əsaslı kitabxanasında müxtəlif oxucu qruplarına xidmət işinin daha səmərəli təşkili üçün kitabxana və məlumat-biblioqrafiya xidmətinin bütün üsullarından geniş şəkildə istifadə edilir. Professor-müəllim heyəti üçün ayrıca fəaliyyət göstərən oxu zalı onlara fərqli xidməti həyata keçirməyə imkan verir. Ümumiyyətlə, əsaslı kitabxanada ümumi kitab verilişinin əsas hissəsi oxu zallarının payına düşür.

Əsaslı kitabxana oxuculara xidmət işinin təşkili səviyyəsini, oxuculara ədəbiyyat verilişinin səmərəliliyini və operativliyini yüksəltmək üçün məlumat və soraq-biblioqrafiya xidmətlərindən də bacarıqla istifadə edir. Müxtəlif tip və növlərdən olan kitabxanalarda məlumat xidmətinin təşkilinin spesifik xüsusiyyətləri vardır. Lakin, bununla bərabər bu xidmət növünün bütün kitabxanalar üçün ümumi cəhətləri də vardır.

Respublikamızın ali məktəb kitabxanalarının coxunda olduğu kimi AKTA-nın əsaslı kitabxanasında məlumat xidmətinin "kütləvi" və "qrup" xidməti növlərindən istifadə edilir.

Kütləvi məlumat xidməti müəyyən edilmiş oxucu qrupları üçün deyil. Bu zaman onların konkret tələbatları nəzərə alınır. Kitabxanada bu xidmətin məlumat bülletenləri, yeni daxil olan ədəbiyyatın icmalı, məlumat və kafedra günləri, ədəbiyyata açıq baxışlar və s. kimi formalardan istifadə edilir.

Qrup və ya fərqli məlumat xidməti isə ayrı-ayrı oxucuların və ya müəyyən qrup alim-mütəxəssislərin daimi sorğularına müvafiq olaraq həyata keçirilir.

Əsaslı kitabxanada professor-müəllim heyətinə məlumat xidmətinin təşkili zamanı aşağıdakı iş prinsiplərinə və ardıcıllığa riayət edilir:

- məlumatın tələbatçılara çatdırılması;
- kitabxananın soraq-məlumat fondunun lazımi məlumat materialları ilə zənginləşdirilməsi;
- yeni kitabların və məlumat materiallarının sərgilərinin təşkil edilməsi;
- xarici dillərdə yeni daxil olmuş ədəbiyyatın məlumat bülletenlərinin hazırlanması (8, 2005.- s. 6).

Əvvəldə qeyd etdiyimiz kimi kitabxanalarda məlumat xidmətinin təşkili zamanı ayrı-ayrı oxucuların və ya oxucu qruplarının daimi məlumat tələbatları əsas götürülür. Buna görə də əsaslı kitabxanada məlumat xidmətinin təşkili zamanı akademiyanın ayrı-ayrı kafedralarının həyata keçirəcəyi elmi-tədqiqat işlərinin əsas istiqamətləri hərtərəfli şəkildə öyrənilir. Bu kütləvi məlumat xidmətinin əsas formalarından məlumat bülletenlərinin hazırlanması və yayılması zamanı da əsas amil nəzərə alınır.

Ümumiyyətlə, əsaslı kitabxanada məlumat xidmətinin kitab sərgiləri və ədəbiyyata açıq baxışlar formasından daha uğurla istifadə edilir. Bu baxımdan kitabxananın professor-müəllim heyəti üçün ixtisaslaşmış oxu zalının fəaliyyətini xüsusilə qeyd etmək lazımdır. Bu oxu zalında acıq rəf üsulu tətbiq edilir ki, bu da oxuculara xidmət işinin səmərəliliyini əhəmiyyətli dərəcədə artırır. Belə ki, oxu zalında yeni dövlət sənədləri, ensiklopediyalar, lüğətlər, referativ jurnallar, akademiyanın profilinə uyğun olan müxtəlif dövri mətbuat oxucuların açıq istifadəsinə verilmişdir.

Əsaslı kitabxana akademiyanın təşkil edib keçirdiyi bütün tədbirlərdə də fəal iştirak edir. Bu tədbirlər zamanı kitabxanada mövzuya müvafiq olaraq

ədəbiyyata açıq baxışlar, sərgilər təşkil edilir, biblioqrafiq məlumat siyahıları tərtib edilir tədbir iştirakçılarına paylanır.

2005-ci ildə əsaslı kitabxana akademiyanın ayrı-ayrı fakültələrin keçirdiyi tədbirlərdə iştirak etməklə bərabər kitabxana özü də bir neçə belə tədbir keçirmişdir. Bunlardan Böyük Vətən müharibəsində faşizm üzərində qələbənin 60 illiyinə həsr olunmuş tədbiri göstərmək olar.

Respublikamızın bir çox kitabxanalarında məlumat xidmətinin təşkili məqsədilə kütləvi məlumat kanallarından da istifadə edilir. Kitabxanada Akademiya oxucularına kitabxanaya yeni daxil olan ədəbiyyat haqqında məlumat vermək üçün akademiya qəzetindən istifadə edir. Lakin qəzetin imkanlarından istifadə daimi xarakter daşımır.

Əsaslı kitabxana məlumat xidmətinin "Məlumat günləri" və "Kafedra günləri" formalarından da istifadə edir. Məlum olduğu kimi bu xidmət formasının təşkil edilmə xarakteri kitabxanaya daxil olan yeni ədəbiyyatın miqdarından asılıdır.

Göründüyü kimi kitabxana oxuculara xidmət işinin təşkili sahəsindəki fəaliyyətini düzgün qura bilmişdir.

Lakin, xidmət işini dövrün tələblərinə uyğun tələblərinə uyğun olaraq daha da genişləndirmək, qabaqcıl iş təcrübəsini öyrənib kitabxanada tətbiq etmək lazımdır. Bununla əlaqədar bir neçə tövsiyənin həyata keçirilməsi kitabxananın işində olan bəzi nöqsanları aradan qaldırmağa imkan verərdi.

Məlum olduğu kimi, oxuculara xidmət işinin səviyyəsi 1-ci növbədə kitabxana fondunun tərkibindən, onun oxucu tələbatlarına uyğunluq dərəcəsindən asılıdır. Buna görə də yaxşı olardı ki, kitabxana fondunu komplektləşdirərək akademiya fakültələrinin və kafedralarının sorğularını daha dolğun şəkildə nəzərə alsın.

Kitabxana oxuculara fərqli xidmət işini daha da gücləndirmək üçün ixtisaslaşmış oxu zallarının, tələbə yataqxanalarının, qiraətxanalarının gücündən daha səmərəli şəkildə istifadə etməlidir.

Kitabxanaya daxil olan ədəbiyyat haqqında daha operativ məlumatın təşkili üçün məlumat xidmətinin "məlumat bülletenləri", "məlumat və kafedra günləri" formalarında daha geniş şəkildə istifadə edilsin.

Məlumat xidmətinin mütərəqqi formalarının istifadəsi genişləndirilsin. Bu xidmət formalarının Gəncə Elmi İnformasiya İnstitutunun EHM bazası əsasında avtomatlaşdırılmasına çalışılsın.

Qeyd etmək lazımdır ki, irəli sürülmüş bu tövsiyyələrin həyata keçirilməsi üçün AKTA kitabxanasının böyük imkanları var.

**ƏDƏBİYYAT**

1. *Ağayev Ə. Pedaqoji fikrimiz, dünənimiz, bugünümüz.- B.: Elm, 2000.- s. 3*
2. *Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutu.-75.-B., 2006.- s. 3*
3. *Xələfov A. Kitabxanaşünaslığa giriş: Dərslik, III hissə Kitabxana işi haqqında təlim.- B., 2003.- s. 179*
4. *Kitabxana işi haqqında Azərbaycan Respublikasının qanunu: Maddə 20 // Kitabxanaşünaslıq və biblioqrafiya.- 1999. № 1.- s. 11-12*
5. *Mehrabov A.O. Azərbaycan Təhsilinin Müasir problemləri .- B.: Mürtəcim, 2007.- s. 5*
6. *Положение о формировании библиотек высших и средних учебных заведений (Бюллетен МВИССОССР.-1982.- № 9.-с.31-32 )*
7. *Azərbaycan Kənd Təsərrüfatı Nazirliyinin arxivi.- 1-14 s.*
8. *AKTA hesabatları. 2001-2005.*

**АКИФ ДЖАФАРОВ**

## ОРГАНИЗАЦИЯ БИБЛИОТЕЧНОГО ОБСЛУЖИВАНИЯ ПРОФЕССОРСКО-ПРЕПОДОВАТЕЛЬСКИХ СОСТАВОВ В СЕЛЬСКОХОЗЯЙСТВЕННОЙ АКАДЕМИИ АЗЕРБАЙДЖАНА

**Р Е З Ю М Е**

*В статье рассматривается деятельность СХБА за последние пять лет, осущестляющиях библиотечного обслуживание профессорско и преподовательского состава Академии.*

*В заключении дан ряд научно обоснованных рекомендации по усовершенствованию деятельности СХБА, в области прфессорского-преподовательского контингента Академии.*

**AKİF JAFAROV**

## THE ORGANİZATİON OF LİBRARY SERVİCE FOR PROFESSOR AND TEACHERS STAFF AT THE AZERBAİJAN REPUBLİC ACADEMY OF AGRİCULTURE

### SUMMARY

*İn the article the main duties of the library service for the professor and teachers staff for the last 5 years in the library of ARAA has been analyzed according to concrete facts and figures. İn the articlle some scientific advice is given to the professor and teachers ataff for the improvement of library service as well*

**Adilə ABDULLAYEVA**
*AMEA-nın aspirantı*

# MİLLİ KİTABXANA GƏNCLƏRİN İNFORMASİYA MƏDƏNİYYƏTİNİN FORMALAŞMASI SİSTEMİNDƏ

Məlumdur ki, yaşadığımız dövr elmin, texnikanın və yeni texnologiyaların misli görünməmiş inkişafı ilə səciyyələnir. Bu dövrdə hər bir ölkənin tərəqqisi vətəndaşların, xüsusilə gənclərin yüksək səviyyədə təhsil almalarından, elmin və texnikanın əsaslarına dərindən yiyələnmələrindən birbaşa asılıdır. Hazırda bütün ölkələrdə hər bir şəxsin, qrupun, kollektivin təşkilatın inkişafı getdikcə daha çox məlumatlı, bilikli olmaqdan, mövcud informasiyaları axtarmaq və istifadə etmək bacarığından, müasir texnikanın əsaslarına dərindən yiyələnmələrindən birbaşa asılıdır. Bu cəhətlər şagirddən tutmuş alimə, fəhlədən, qulluqçudan tutmuş nazirə kimi, bütün insanlara həm gündəlik, cari, həm də perspektiv fəaliyyətini səmərəli və məqsədyönlü qurmaq üçün lazımdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənabları "BAKUTEL-2006" XII Beynəlxalq telekommunikasiya və informasiya texnologiyaları sərgi-konfransının açılış mərasimindəki çıxışında da bu məsələyə xüsusi diqqət yetirdiyini bildirərək demişdir: "...Biz çox istəyirik ki, yetişən gənc nəsil bilikli olsun, savadlı olsun. Dünyada olan ən qabaqcıl texnologiyaları mənimsəyə və Azərbaycanda tətbiq edə bilsin. ...Məhz bilik, məhz savad, yeni texnologiyalar - bunlar ölkəyə uğur, rifah gətirir, inkişaf, müasirlik gətirir" (2, S. 449.).

Bu gün gənclərlə bağlı müəyyən işlər həyata keçirmək üçün konkret hüquqi bazanın yaradılması vacibdir. Sevindirici haldır ki, gənclər siyasətinin həyata keçirilməsi üçün ölkəmizdə gənclərlə iş sahəsində, gənclərin sosial-iqtisadi inkişafına yönəldilmiş mükəmməl qanunvericilik bazası formalaşıb. Son illər bilavasitə gənclərlə bağlı 20-yə yaxın normativ sənədin qəbul edilməsi dövlətimizin, prezident İlham Əliyev cənablarının gənc nəslə xüsusi diqqət və qayğısının ifadəsidir. «Gənclər siyasəti haqqında» Azərbaycan Respublikasının Qanunu, «Azərbaycan Gəncliyi Dövlət Proqramı» (2005-2009-cu illər), Azərbaycan Respublikası Prezidentinin «Azərbaycanın gənc istedadlarına dövlət qayğısı haqqında» fərmanı, «Gənc istedadlar üçün xüsusi təqaüdlər təsis edilməsi haqqında» sərəncamı, «Dövlət gənclər siyasəti haqqında» fərmanı, «Gənc ailə» Proqramı, «Gənclərdə vətənpərvərlik və vətəndaşlıq hisslərinin yüksəldilməsi» proqramı, «İstedadlı yeniyetmələrin və yaradıcı gənclərin sosial, iqtisadi və s. problemlərinin həllinə yönəlmiş, onların öz qabiliyyətlərini inkişaf etdirmələrinə kömək edən dövlət proqramı», «Ordudan tərxis olunmuş gənclərin məşğulluğu» proqramı və s. kimi qanunvericilik aktları və dövlət

proqramlarının qəbul olunması gənclərin sosial-iqtisadi inkişafını təmin etməyə imkan vermiş, gənclərin təhsili, tərbiyəsi, sağlamlığı, intellektual və mənəvi inkişafı, asudə vaxtının təşkili, problemlərinin həlli, hüquqlarının müdafiəsi, respublikanın ictimai-siyasi və mədəni həyatında iştirakı ilə bağlı məsələləri və s. əhatə edilmişdir.

Gənclər siyasətinin həyata keçirilməsi, müharibə şəraitində yaşayan bir ölkədə gənc nəsildə torpağa, vətənə məhəbbət hisslərinin aşılanması, milli ruhun formalaşması, milli sərvətlərimizin qorunması, eləcə də gənclərin biliklərinin artırılması, informasiya və kommunikasiya texnologiyalarından istifadə vərdişlərinin aşılanması ilə bağlı işlərin həyata keçirilməsi ölkədə kitabxanaların qarşısında mühüm vəzifə kimi durur. Qloballaşma dövründə informasiya-kommunikasiya texnologiyalarının kitabxana işinə tətbiqi mühüm əhəmiyyət kəsb etdiyi üçün möhtərəm Prezident İlham Əliyev cənablarının «Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə» Dövlət proqramında Azərbaycan kitabxanalarında bu istiqamətdə görülən işlərdən danışılır (1). Proqramın əsas məqsədi «Kitabxana işi haqqında» Azərbaycan Respublikası Qanununda nəzərdə tutulan müddəalara uyğun olaraq kitabxana işi sahəsində dövlət siyasətinin həyata keçirilməsini, ölkədə mədəni sərvətlərin toplanmasını, mühafizəsini və onlardan istifadə imkanlarının artırılmasını təmin etməkdən ibarətdir. Bundan başqa kitabxana-informasiya sahəsində yeni texnologiyaların tətbiqi və istifadəsi nəticəsində müasir kitabxana-informasiya infrastrukturunun yaradılması, istifadəçilərə göstərilən kitabxana-informasiya xidmətinin dünya standartları səviyyəsinə çatdırılması, habelə əhalinin fasiləsiz təhsilinin təmin edilməsi üçün şəraitin yaradılmasından ibarətdir (5). Müasir dövrdə hər bir şəxs, tələbatçı ehtiyac duyduğu informasiyanı mənimsəmək üçün müəyyən səviyyədə mədəniyyətə malik olmalıdır. Bu tələbatdan da "informasiya mədəniyyəti" anlayışı meydana gəlmişdir.

İnformasiya mədəniyyəti-ümumi mədəniyyətin tərkib hissəsi kimi informasiya fəaliyyəti sahəsində bilik, bacarıq və vərdişlərin məcmusu olub, informasiya tələbatçılarına informasiya məkanında sərbəst istiqamətlənməyə, ona lazım olan məlumatları (sənədləri) yerindən asılı olmayaraq asan əldə etməyə və istifadə etməyə şərait yaradan mühüm amildir. İnformasiya təminatını yerinə yetirən, öz fəaliyyətini cəmiyyətin informasiya tələbatının ödənilməsinə yönəldən, insanların informasiya hüquqlarını təmin edən müəssisələrdən kitabxanaları, elmi-texniki informasiya müəssisələrini, arxivləri, muzeyləri, statistika idarələrini, nəşriyyatları, kitab yayım mərkəzlərini və başqalarını qeyd etmək olar (3, S. 72). Bu sahədə respublikanın qabaqcıl kitabxanalarından biri kimi 85 ildən artıq xalqın xidmətində duran M.F.Axundov adına Milli Kitabxananın fəaliyyətinə nəzər salaq.

İlk növbədə onu qeyd etmək istərdim ki, artıq 2006-cı ildən etibarən Milli Kitabxananın saytının (www.anl.az) fəaliyyəti bərpa olunmuş, oxucuların istifadəsinə verilmişdir. Saytda mövcud olan "elektron kataloq", "elektron kitabxana" bölmələri oxucularımız, xüsusilə də gənclərimiz tərəfindən çox geniş istifadə olunur. Belə ki, 2008-ci ildə saytdan istifadə edənlərin sayı 98447, elektron kataloqdan istifadə edənlərin sayı isə 43458 olmuşdur. 2008-ci ilin mart ayından etibarən kitabxananın saytında "virtual sifariş" bölməsi yaradılmışdır ki, ötən il bu xidmət növündən 260 oxucu yararlanmışdır. Saytda Elektron kitabxana sahəsində "Elektron versiyası hazırlanmaqda olan kitablar" başlıqlı bölmə yerləşdirilib. Azərbaycan Respublikasının ümummilli lideri Heydər Əliyev cənablarının 85 illik yubileyi ərəfəsində onun bütün çıxışları, nitqləri, bəyanatları, fərman və sərəncamları, məktub və müsahibələri daxil edilmiş "Müstəqilliyimiz əbədidir"adlı 24 cildlik kitabların elektron versiyası da daxil olmaqla "Heydər Əliyev irsi", Mir Cəlal Paşayevin əsərləri, onun haqqında yazılan əsərlər də daxil olmaqla "Mir Cəlal Paşayev irsi" adlı materialların elektron versiyalarını və CD variantlarını, klassiklərimiz silsiləsindən Azərbaycanın dahi şairi Nizami Gəncəvinin "Xəmsə"si, qəzəlləri və onun haqqında müasirlərimizin yazdıqları, şairin əsərlərində işlənən atalar sözləri və s. daxil olmaqla "Nizami Gəncəvi irsi", Məhəmməd Füzulinin 6 cildlik seçilmiş əsərlərindən ibarət olan "Füzuli irsi", görkəmli Azərbaycan şairi, yazıçısı və dramaturqu Hüseyn Cavidin 5 cildlik əsərlərindən ibarət "Hüseyn Cavid irsi", V.Andriyanov və H.Mirələmovun birgə yazdıqları "Görkəmli şəxslərin həyatı" silsiləsindən "Heydər Əliyev" və "İlham Əliyev: bioqrafiya davam edir" kitablarının elektron versiyaları və CD variantı hazırlanıb Elektron kitabxananın oxucularının istifadəsinə təqdim edilmişdir. Bu ənənə davam etdirilərək oxucularımızı daha çox maraqlandıran və daha geniş oxucu kütləsi tərəfindən soruşulan aktual mövzularda kitabların və digər materialların elektron versiyalarının hazırlanması da planlaşdırılır (4, S. 8.). Həmçinin saytda kitabxanada keçiriləcək kütləvi tədbirlər haqqında əvvəlcədən anons verilir ki, maraqlanan oxucular bu tədbirlərdə yaxından iştirak edirlər. Sonra isə həmin tədbir haqqında ətraflı məlumat çatdırılır. Saytımızda "metodik xidmət" bölməsi yaradılmışdır ki, kitabxana işçiləri, oxucular bizim elektron poçt ünvanımıza (**metodanl@yahoo.com**) onları maraqlandıran suallarla müraciət edir, ötən il ərzində 500-ə yaxın məktub kitabxanamızın əməkdaşı tərəfindən cavablandırılmışdır. Saytımızda olan "Kitabxananın nəşrləri" bölməsində isə oxucular Milli Kitabxanada nəşr olunan hər bir metodik və biblioqrafik vəsaitlə yaxından tanış ola bilirlər. Milli Kitabxananın saytında edilən hər bir yenilik oxucularımızın, eləcə də gənc nəslin informasiyaya olan tələbatının ödənilməsi, onların sorğularının operativ cavablandırılmasına yönəldilmişdir. İstər axtarış zamanı, istər kompüterdən

istifadə prosesində, istərsə də məlumatların əldə edilməsində əməkdaşlar gənclərə yaxından kömək edir, dəyərli məsləhətlər verirlər.

Kitabxanamızın oxucularına gəldikdə isə, 2008-ci ildə 37185 yeni oxucu yazılmışdır ki, bunlardan 24093-ü gənclərdir, kitabxanaya gəliş isə 175969 nəfər təşkil etmişdir (4, S. 6). Təbii ki, sevindirici haldır ki, gənclərimiz elmə, təhsilə böyük maraq göstərir və Milli Kitabxana da onlara xidmət işində imkanlarını əsirgəmir. 2008-ci ilin sentyabr ayında kitabxanamız oxucularını növbəti dəfə sevindirdi. Belə ki, kitabxanada Rusiya Dövlət Kitabxanasının elektron dissertasiya fondunun virtual oxu zalının açılışı olmuşdur ki, bununla da oxucular Rusiyada müdafiə olunmuş dissertasiyaların elektron versiyası ilə tanış olub, ondan istifadə etmək imkanı əldə edirlər. Bu böyük bir nailiyyətdir. Belə ki, gənc tədqiqatçılarımız artıq təkcə Azərbaycanda deyil, Rusiyada da müdafiə olunmuş dissertasiyalarla tanış olur, gələcək fəaliyyətlərində dünya təcrübəsindən istifadə etməyə nail olurlar. Beləliklə gənclərimizin elmi və təcrübi biliklərinin artmasına, dünya standartlarına uyğun mütəxəssislər kimi yetişməsinə zəmin yaranır. Hazırda Azərbaycanda müdafiə olunmuş dissertasiyaların elektron variantının yaradılması işi həyata keçirilir. Digər tərəfdən kitabxana 2009-cu ilin fevral ayından “Açıq Cəmiyyət İnstitutu” və EBSCO Publishing kompaniyasının müştərək layihəsi olan “EIFL Direkt” layihəsinə qoşularaq müxtəlif elm sahələrinə aid ingilis dilində jurnal, qəzet və xəbərlər toplusunun 7000-ə qədər tammətnli variantını İnternet vasitəsilə on-layn rejimində əldə etmək imkanına malik olmuşdur ki, bu da oxucularımıza xidmət işində böyük bir nailiyyətdir.

Məlum olduğu kimi, mənəvi həyatımızın tarixi ən qədim dövrlərdən başlayaraq kitabla sıx bağlı olmuş və məhz onun ehtiyacları müqabilində kitab yeni-yeni formalara düşərək təkmilləşmiş, formalaşmışdır. Müasir informasiya cəmiyyətində onun rolu daha da artmış, kitab kommunikasiya üsullarından biri kimi çıxış etmişdir. Son illər kitab oxuyanların sayı xeyli azalıb. Ekspertlər kitaba marağın sönməsinin səbəbini ilk növbədə İnternet şəbəkəsinin genişlənməsində, insanların yeni texnologiyalara olan marağının artmasında, əhalinin alıcılıq qabiliyyətinin aşağı düşməsində və s. görürlər. 2008-ci ildə kitabxanaya 11548 adda kitab, 159 adda jurnal, 321 adda qəzet, 85 adda elmi əsər daxil olmuşdur, ümumi fondumuz isə 4 508 626 nüsxə təşkil edir. Artmaqda olan informasiya mənbələrindən asan istifadəni təmin etmək məqsədilə kitabxanada 13 oxu zalı fəaliyyət göstərir (4, S. 7). Oxucularımız həm kitabxananın zəngin kataloq və kartotekasından, həm də kitabxanada yerləşən kompüterlər vasitəsilə elektron kataloq və elektron kitabxanadan istifadə edirlər. Bu işdə onlara növbətçi biblioqraflarımız kömək edir. Oxucuların sorğuları həm ənənəvi şəkildə, həm də kompüter vasitəsilə axtarılaraq əldə olunan nəticələr onlara çatdırılır, kompyuterdən istifadə

qaydaları, qlobal şəbəkədə, elektron kataloqda axtarış aparmaq qaydaları oxuculara öyrədilir.

Qlobal şəbəkənin inkişaf etdiyi bir zamanda oxucular arasında kitaba məhəbbət oyatmaq, kitabı onlara sevdirmək, kitabın nüfuzunu qaldırmaq üçün kütləvi tədbirlərin müxtəlif formalarından istifadə etmək vacibdir. Bu məqsədlə Milli Kitabxananın fəaliyyətində həyata keçirilən kütləvi tədbirlərin əhəmiyyəti xüsusilə diqqətəlayiqdir. Belə ki, respublikamızda baş verən əlamətdar və tarixi günlərlə əlaqədar olaraq- anım (xatirə) günləri, sərgilər, guşələr, kitabların təqdimat mərasimləri, kitab bayramı və başqa təbliğat xarakterli rəngarəng tədbirlər təşkil olunur. Ötən il Milli Kitabxanada 60-dan çox belə tədbir keçirilmişdir (4, S.10).

Anım günləri xalqımızın yaddaşına həkk olunmuş, qanlı günlərlə, hadisələrlə əlaqədar təşkil olunur. Bu məqsədlə (anım gününün mövzusuna uyğun olaraq) şəhidlərin xatirəsinə fotostendlər, sərgilər hazırlanır, sənədli filmlər göstərilir, həvəskar gənclərin əl işlərindən ibarət sərgi düzəldilir, tanınmış şəxslər, görkəmli elm və mədəniyyət xadimləri, şəhidlərin ailə üzvlərindən, yaxınlarından, döyüş yoldaşlarından bir neçə şəxs dəvət olunur. Bu tədbir zamanı gənclərimizin həm dünyagörüşü artır, həm də mənəvi aləmi zənginləşir, yeni informasiya əldə edir.

Sərgilərin təşkili əyani təbliğat formasının ən geniş yayılmış üsuludur. Yeni kitabların sərgisi kitabxanaya yeni daxil olmuş nəşrlər haqqında müntəzəm məlumat vermək məqsədi daşıyır. Həm də bu zaman Azərbaycan elminə, mədəniyyətinə, iqtisadiyyatına və digər sahələrinə dair nəşr olunmuş kitablar haqqında oxucularımız məlumat alır. Qeyd edək ki, kitabxanalarda təşkil edilən sərgilərdə kitablarla yanaşı, müxtəlif qəzet və jurnal nömrələri əks etdirilir ki, bu da həmin sərginin əhəmiyyətini xeyli artırır.

Guşələr sərgiyə nisbətən daha geniş və əhatəli olur. Belə ki, guşədə əlavə olaraq kartoteka, qəzet, jurnal materialları, tövsiyə ədəbiyyat siyahıları, mövzuya uyğun bir sıra sənədlər və şəkillər də öz əksini tapmalıdır. Guşələr uzunmüddətli olur. Milli Kitabxanada gənclərimizi maraqlandıran “Azərbaycanın tacı Qarabağ”, “Azərbaycanda turizm” “Hüquq guşəsi” kimi daimi guşələr hazırlanmışdır.

Kitabxanada kitabların təqdimat mərasimlərinin keçirilməsinə də xüsusi əhəmiyyət verilir. Milli Kitabxana əsasən Ümummilli liderimiz Heydər Əliyevin ölməz həyat yolunu əks etdirən, bu siyasətin layiqli davamçısı olan prezident İlham Əliyevin fəaliyyətini işıqlandıran kitabların, milli mənəvi dəyərlərimizin və vətənpərvərlik tərbiyəsinin təbliği ilə bağlı ədəbiyyatın, yeni nəsil istedadlı gənclərin yaradıcılığının təbliği, cəmiyyətə tanıdılması məqsədilə onların çap olunmuş əsərlərinin, xalqımızın tarixi, mədəniyyəti ilə bağlı dəyərli kitabların təqdimat mərasiminin keçirilməsinə üstünlük verir. Bu zaman texniki vasitələrdən də istifadə olunur.

Oxucuların marağına səbəb olan tədbirlərdən biri də kitab bayramıdır. Bu tədbir ildə bir dəfə keçirilsə də geniş oxucu kütləsinin iştirakı ilə müşahidə olunur. Azərbaycanda fəaliyyət göstərən aparıcı nəşriyyatların və müəlliflərin birbaşa iştirakıyla yeni kitabların sərgisi keçirilir. Bəzi nəşriyyatlar yeni çap olunmuş kitabları oxuculara hədiyyə edirlər.

Göründüyü kimi, Milli Kitabxana bütün səyləri ilə bütün oxucuların, xüsusilə də gənc nəslin günbəgün artmaqda olan tələbatlarını ödəməyə çalışır. Təcrübələr göstərir ki, geniş oxucu kütləsi belə tədbirlərə xüsusi maraq göstərir və həvəslə bu tədbirlərdə iştirak edirlər. Təbii ki, hazırda ictimai həyatın bütün sahələrinə yeni texniki vasitələrin tətbiqi ilə əlaqədar kitabxanada da bir sıra proseslərin avtomatlaşdırılması həyata keçirilir. Hazırda elm, mədəniyyət, informasiya, təhsil və tərbiyə müəssisəsi kimi kitabxananın qarşısında duran əsas vəzifə cəmiyyət üzvlərinin, xüsusilə gələcəyimiz olan gənclərin həm bir şəxsiyyət kimi formalaşmasında cəmiyyətə, vətənə layiqli, bilikli, hərtərəfli inkişaf etmiş vətəndaş kimi böyüməsində yaxından iştirak etmək, cəmiyyətə layiqli xidmət göstərmək, əhalini qısa zaman kəsiyində informasiya resursları ilə operativ şəkildə təmin etmək və mükəmməl elektron kitabxana yaratmaqdır. Bu gün 500-ə yaxın kitabın, 200-dən çox qəzet və jurnalın, 4000-ə yaxın məqalənin elektron versiyası yaradılmışdır. Təbii ki, bu prosesin tam həyata keçirilməsi üçün müəyyən zaman lazımdır. Ümid edirik ki, qısa bir zamanda artıq hər bir istifadəçi, istənilən məkanda kompüterlərinin qarşısında oturub, kitabxananın saytına girməklə elektron kitabxanadan onlara lazım olan informasiyanı, kitabı, qəzeti və jurnalı, digər sənəd növlərini elektron versiyada əldə edəcəkdir.

## ƏDƏBİYYAT


1. *Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramının təsdiq edilməsi barədə: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 6 oktyabr 2008 //Azərbaycan.- 2008.- 7 oktyabr.- S. 1.*

2. *Kitabxanalar biliklər cəmiyyətində (ikidilli Azərbaycan-Rusiya layihəsi) /layihənin rəh. Ə.Qarayev, tərt. S.Məmmədəliyeva.-B.:Nurlar, 2006.- 520 s.*
3. *Xələfov A. İnformasiya xidməti //Kitabxanalar biliklər cəmiyyətində (ikidilli Azərbaycan-Rusiya layihəsi) /layihənin rəh. Ə.Qarayev, tərt. S.Məmmədəliyeva.-B.:Nurlar, 2006.- S. 64-74.*
4. *M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının 2008-ci il hesabatı.- 63 s.*

5. *Tahirov K. Kitabxana işinə dair yeni Dövlət Proqramı mədəni dəyərlərimizə qayğının təzahürüdür //Xalq qəzeti.- 2008.- 15 oktyabr.- S. 5.*

**АДИЛЯ АБДУЛЛАЕВА,**
**Аспирант Азербайджанской Национальной Академии Наук**

## НАЦИОНАЛЬНАЯ БИБЛИОТЕКА В СИСТЕМЕ В ФОРМИРОВАНИИ ИНФОРМАЦИОННОЙ КУЛЬТУРЫ МОЛОДЕЖИ

### Р Е З Ю М Е

*В статье говорится о внедрении новых технологических средств в основные рабочие процессы библиотеки, создании электронных библиотек, организации нового информационного обслуживания населения в информационном обществе.*

*А также широко освещается деятельность библиотек, особенно Национальной Библиотеки, в проведении в стране молодежной политики, в повышении знаний и развития молодежи, формировании ее информационной культуры, в привитии молодежи навыков в использовании информационных и коммуникационных технологий.*

**ADİLA ABDULLAEVA**
**The post-graduated student of**
**Azerbaijan National Academy of Sciences**

## NATIONAL LIBRARY İN THE SİSTEM OF OF YOUTHS' INFORMATION CULTURE

### SUMMARY

*Article is about the application of new technical means in information society in the main work processes realized at the library, the foundation of electronic libraries, the organization of new information services to the people.*

*It was also lightened the activities of libraries, the mainly, National Library at the realization of youths' knowledge, tanning the using habits of information and communication technologies to them and the formation of information culture in the country.*

# BİBLİOQRAFİYAŞÜNASLIQ

**ZÖHRAB ƏLİYEV**
*Biblioqrafiyaşünaslıq kafedrasının professoru*

## MÜASİR BİBLİOQRAFİK FƏALİYYƏTİN TƏŞKİLİ, İNKİŞAFI VƏ TƏTBİQİ MƏSƏLƏLƏRİ

Müstəqillik illərində Azərbaycan Milli biblioqrafiyanın inkişafı məsələlərindən bəhs olunarkən birinci növbədə ölkənin sosial-iqtisadi həyatında baş verən dəyişikliklər və bunun ümumilikdə sənəd-kommunikasiyaları sistemində vasitəçi olan sosial institutlara,o cümlədən biblioqrafik fəaliyyətə təsirini müəyyənləşdirmək lazım gəlir. Elmi-tədqiqat işində qarşıya qoyulan əsas məqsəd də bununla bağlıdır. Məlumdur ki, biblioqrafik fəaliyyətin xüsusi təşkilati mənsubiyyəti və ona görə də sənəd kommunikasiyaları sistemində vasitəçi olan başqa sosial institutlarla bir sırada durmur, lakin onların nəzdində özünə köməkçi hesab edilən biblioqrafik funksiyasını həyata keçirir. Beləliklə sənəd kommunikasiyaları sistemində vasitəçilik funksiyasını yerinə yetirən bütün əsas sosial institutlarda aşağıda qeyd olunan iki səviyyəni fərqləndirmək olar: birinci bilavasitə sənədlə bağlı səviyyədir və bu səviyyədə sənədlər mühafizə olunur, istifadəçilərə çatdırılır. İkincisi isə birinci ilə müqayisədə köməkçi, yəni biblioqrafik səviyyədir. Bu səviyyədə sənədlər, mühafizə olunur və istifadəçilərə çatdırılır.

Bu köməkçi səviyyə və ya kontur sənəd kommunikasiyaları sistemində ictimai təcrübənin biblioqrafik fəaliyyət deyilən geniş fəaliyyət sahəsini yaradır. Biblioqrafik fəaliyyətin təşkilində, inkişafında və yayılmasında mühüm əhəmiyyət kəsb edən mərkəzlərdən biri kitabxanalardır. Bibloqrafik informasiya mənbələrinin yaradılmasında, yayılmasında və bir sistem kimi formalaşmasında məhz kitabxanalarımız mühüm yer tutur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin «Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında» 20 aprel 2007-ci il tarixli sərəncamında Milli kitabxanalarımızın nailiyyətləri haqqında bəhs olunaraq deyilir: «Müasir Azərbaycan cəmiyyətinin informasiya təminatının həyata keçirilməsində ölkə kitabxanalarının tutduğu mühüm yer mədəniyyətin bu sahəsində informasiya cəmiyyətinin tələblərinə uyğun olaraq müasir texnologiyanın tətbiqini zəruri edir». Kitabxanalarımızın fəaliyyətində səmərəliliyin artırılmasında biblioqrafik informasiyanın əhəmiyyəti isə

danılmazdır. Ona görə də elmi-tədqiqat işinin həyata keçirilməsində əsas obyekt kimi kitabxanaların biblioqrafik nailiyyətləri nəzərə alınmışdır.

Cəmiyyətimizin həyatının bütün sahələrində kitabxana bir informasiya ocağı kimi mühüm rol oynayır. Ölkənin sosial-iqtisadi, mədəni inkişafında kitabxanaların, onların biblioqrafik fəaliyyətlərinin əhəmiyyəti getdikcə artır.İndi ölkəmizdə böyüklüyündən, kiçikliyindən asılı olmayaraq elə kitabxana yoxdur ki, orada biblioqrafik iş aparılmasın və ya biblioqrafiyadan istifadə olunmasın. Kitabxanalarımız sözün əsl mənasında biblioqrafik fəaliyyətin təşkilati mərkəzlərindəndir, həm də biblioqrafik informasiyanın yayılması kanallarından biridir.1976-cı ildən rayon kitabxanalarının mərkəzləşdirilməsi onların biblioqrafik fəaliyyəti üçün yaxşı şərait yaratmışdır.Mərkəzləşdirilmiş kitabxana sistemində biblioqrafik fəaliyyət ikipilləli xarakter daşıyır.Belə ki, Mərkəzi kitabxananın biblioqrafik fəaliyyətinin həcmi ilə filialların biblioqrafik işlərinin həcmi arasında xeyli fərq var.Məhz buna görə keçmiş sovet məkanında kitabxanalarda biblioqrafik işin təşkilini və gedişini nizamlayan rəsmi sənədə zərurət yaratmışdır.Qeyd etmək lazımdır ki, keçmiş ittifaqda biblioqrafik işin əsas istiqamətlərini müəyyənləşdirən sənədin yaradılması haqqında qərar ilk dəfə 1980-ci ildə biblioqrafiya üzrə keçirilən ümumittifaq müşavirəsində qəbul edilmişdir.Lakin belə bir əsasnamənin yaradılması ilə əlaqədar qəti addım keçmiş SSRİ Ali Soveti Rəyasət heyətinin «SSRİ-də kitabxana işi haqqında əsasnamə»nin təsdiqindən sonra atılmışdır (13 mart 1964-cü il). 1987-ci il may ayının 18-də keçmiş SSRİ Mədəniyyət Nazirliyi yanında Dövlət İdarələrarası Kitabxana komissiyası tərəfindən «SSRİ-də kitabxanaların biblioqrafik işi haqqında əsasnamə» təsdiq olundu.Təbiidir ki, bu əsasnamənin layihəsi Sovet məkanının ən mühüm kitabxanaları tərəfindən işlənmişdir(2).Əsasnamə əsas hissədən və dörd əlavədən ibarət idi. Əsas hissə «Ümumi qaydalar» və «Biblioqrafik işin təşkili» adlanan iki bölmədən ibarət idi.Birinci bölmədən aydın olur ki, həmin sənəd kitabxana işi haqqında yuxarıda qeyd olunan «Əsasnamə» ilə əlaqədar işlənmişdir və kitabxana-biblioqrafiya təcrübəsinin əsas nailiyyətləri nəzərə alınmışdır.Daha sonra isə biblioqrafik işin biblioqrafiyalaşdırma və biblioqrafik xidmət kimi proseslərinin əsas məqsədlərinin şərhi verilir, kitabxana biblioqrafiyasının səciyyəvi xüsusiyyətləri aydınlaşdırılır. «Biblioqrafik işin təşkili» adlanan ikinci bölmədə isə müxtəlif səviyyəli kitabxanaların biblioqrafik işlərinin, biblioqrafik fəaliyyətlərinin vahid sisteminin formalaşmasının təşkilati əsaslarının ümumiləşdirilməsi əks olunur.Biblioqrafik iş müxtəlif növ kitabxanaların əsas fəaliyyət sahələrindəndir və kitabxanaların xidmət etdiyi ərazinin sosial-iqtisadi problemlərilə əlaqədar tələbatlara uyğun gəlməlidir.

Haqqında bəhs olunan bölmədə diqqəti cəlb edən əsas məsələlərdən biri də təşkilati məsələ ilə əlaqədardır və bununla biblioqrafik fəaliyyətin kitabxanaya

görə əsas istiqamətləri konkretləşdirilir.Bu bölmənin əsas hesab edilən 2-ci, 3-cü maddələrində kitabxana işi haqqında əsasnamənin 4,5,10,14-cü maddələri nəzərə alınmışdır.Qeyd olunan maddələrdə o dövrdə kitabxana işinin təşkilati prinsipləri, kitabxana işinə rəhbərlik, vahid kitabxana sistemi, bu sistemin təşkili, inkişafı və fəaliyyətinin əsasları və s.təsbit olunur. 2,3-cü maddədə kitabxanaların biblioqrafik fəaliyyətlərində 4 istiqaməti fərqləndirilmişdir.

Birinci istiqamət biblioqrafik işin planlaşdırılması ilə əlaqədardır.Burada göstərilir ki, planlaşdırmanın əsasında yerli şərait durmalıdır, yəni yerli istifadəçilərin ehtiyaclarına əsaslanılmalıdır.

Biblioqrafik fəaliyyətin planlı inkişafı ölkəmizdə kitabxana işinin inkişafının əsas istiqamətlərinə də uyğun gəlməlidir.Keçmiş Dövlət Elmi-Texniki Məlumat sistemində kitabxanaların planı həmin komitənin tərəfindən müvafiq qaydada razılaşdırılırdı:Kitabxanaların biblioqrafik işlərinin uçotu Dövlət Statistika Komitəsinin uçot forması, dövlət standartları.

İkinci istiqamət biblioqrafik işin mərkəzləşmiş qaydada idarə olunması ilə bağlı idi.Mərkəzləşdirilmiş idarəetmə və metodiki mərkəz rolunu oynayan kitabxanaları fəaliyyət sahələrinə görə konkretləşdirilməklə onların funksiyaları müəyyənləşdirilir.

Kitabxanaların biblioqrafik fəaliyyətinə rəhbərliyi və idarələrarası əlaqələndirilməsinə Dövlət İdarələrarası Kitabxana Komissiyası nəzarət edirdi. Qeyd etmək lazımdır ki, Azərbaycanda da mövcud olan İdarələrarası Kitabxana Komissiyası və onun nəzdində mövcud olan daimi biblioqrafiya bölməsi fəaliyyət göstərirdi.

Əsasnamədə yerli mədəniyyət orqanlarının bilioqrafik fəaliyyətin vəziyyətinə görə müstəqillikləri ilə bərabər məsuliyyətləri də artırılmışdır Metodiki mərkəz olan kitabxanaların biblioqrafik fəaliyyətə rəhbərlik sahəsində funksiyalarının genişlənməsi həmin kitabxanaların qarşısında duran vəzifələrin, onların iş formalarının dəyişdirilməsini nəzərdə tutur.

Əsasnamənin IV əlavəsində metodiki mərkəz əhəmiyyətli kitabxanaların biblioqrafik işə rəhbərlik sahəsində funksiyalarının genişlənməsi həmin kitabxanaların qarşısında duran vəzifələrin, onların iş formalarının dəyişdirilməsini nəzərdə tutur.Məsələn, Respublika, diyar və vilayət universal elmi kitabxanaları yerlərdə biblioqrafik vəsaitlərin hazırlanması və biblioqrafik xidmət planlarının idarələrarası əlaqələndirilməsinə və yerinə yetirilməsinə nəzarət etməli, kitabxanaların biblioqrafik fəaliyyətlərinin əsas istiqamətləri üzrə ümumi və idarələrarası xarakterli proqnozlaşdırıcı, normativ və hüquqi sənədlərin hazırlanmasına nəzarət edir.

Azərbaycanda biblioqrafik fəaliyyətin əsas mərkəzlərindən bəhs edilərkən biblioqrafiyanın dövrünə görə və sosial istiqamətinə görə fərqləndirilməsini nəzərə almaq lazımdır. Məlumdur ki, bu baxımdan biblioqrafiya ümumi və xüsusi sahələrə ayrılır.Beləliklə respublikamızda XX əsrin 80-90-cı ilərində

biblioqrafik fəaliyyətin formalaşmış təşkilati vəziyətini aşağıda qeyd olunduğu kimi təsəvvür etmək olar.

Ümumi biblioqrafiyanın mühüm mərkəzləri silsiləsinə Respublika Dövlət Kitab Palatası, M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası, Naxçıvan MR Respublika Kitabxanasını daxil etmək olar. Bakı şəhər mərkəzi kitabxanası, Sabir adına Bakı şəhər kitabxanasını, Həmçinin Gəncə, Sumqayıt, Mingəçevir mərkəzi şəhər kitabxanaları da bu qəbildən olan kitabxanalardır.Ərazi əlamətinə görə Kitab Palatası və M.F.Axundov adına Azərbaycan Respublika Dövlət kitabxanası(İndi Milli ) respublika miqyaslı, başqa adları çəkilən kitabxanalar isə məhəlli səviyyəli altsistemlərdir.

AMEA-nın Mərkəzi Elmi Kitabxanası da ümumi mərkəzlərdən hesab oluna bilər.Belə ki, bu kitabxana ümumiləşdirici və yekunlaşdırıcı əhəmiyyətli retrospektiv biblioqrafik informasiya mənbələri hazırlayır və ictimaiyyətin istifadəsinə təqdim edir, lakin heç də çap əsərlərinin bütün tiplərini və nəşr növlərini birdəfəlik əhatə etmir. Bir qayda olaraq bu biblioqrafik informasiya mənbələrində elmi ədəbiyyatı, bir müəssisənin nəşrlərini əks etdirir, elmi tədqiqatçılar və mütəxəssislər üçün nəzərdə tutulurlar, beləliklə də, xüsusi biblioqrafik informasiya mənbəyi əhəmiyyətini kəsb edirlər.Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanası, ali məktəb kitabxanaları, F.B.Köçərli adına Respublika Uşaq Kitabxanası, C.Cabbarlı adına Respublika Gənclər kitabxanası respublika səviyyəli çoxsahəli altsistemlərin mühüm tərkib hissəsidir. Buraya təbiidir ki, 1958-ci ildən fəaliyyət göstərən Azərbaycan Elmi Tədqiqat, Elmi Texniki Məlumat və Texniki İqtisadi Tədqiqat İnstitutunu da daxil etmək lazımdır.

Respublika səviyyəli sahəvi altsəviyyəli müəssisələrə ilk növbədə Respublika Elmi Texniki Kitabxanasını, Respublika Elmi Tibb Kitabxanasını, Respublika Elmi Kənd Təsərrüfatı Kitabxanası, Respublika Elmi Pedaqoji Kitabxanasını aid etmək lazımdır.

Respublikanın Mərkəzləşmiş kitabxana sistemləri, necə deyərlər, aşağı səviyyəli altsistemlər qrupunu təşkil edirlər və onlar əsasən özlərindən yuxarıda duran sistemlər tərəfindən yaradılan biblioqrafik informasiya mənbələrini istifadəçilərə çatdırmaqla məşğul olurlar.

Ümumi biblioqrafiya mərkəzlərindən əsası olan Respublika Dövlət Kitab Palatası funksional-məqsəd və xronoloji əlamətə görə iki istiqamətli biblioqrafik mənbələr yaradır.Bunlardan birincisi və ən əsası cari, ikincisi isə qismən də olsa retrospektiv biblioqrafik informasiya mənbələridir.Belə ki, palata respublika ərazisində yeni çıxan çap əsərlərinin müxtəlif növlərinin, o cümlədən kitabların, dövri mətbuat materiallarının qeydini aparır, həm də özünün müxtəlif nəşrləri-dövlət biblioqrafiyası orqanları («Azərbaycan mətbuat salnaməsi», «Birillik Azərbaycan kitabiyyatı» və çap kartoçkaları) vasitəsilə cari biblioqrafik informasiyanı həyata keçirir və yeri gəldikcə keçmiş

nəşrləri meydana çıxarmaqla və onların retrospektiv axtarışında əhəmiyyətli olan biblioqrafik nəşrlərin buraxılışında bilavasitə iştirak edir.Onun cari nəşrləri əks etdirdikləri ədəbiyyatı nəşrlərinə görə differensasiyalaşdırmalarına, məzmun universallıqlarına, həm də statistik məlumat vermələrinə görə fərqlənirlər.Palatanın nəşr etdirdiyi retrospektiv göstəricilər biblioqrafiyalaşdırmanın bilavasitə obyektlərinin məzmun əlamətləri nəzərə alınmaqla iki qrupda ümumiləşdirilə bilər.Universal çoxcildli («Azərbaycan kitabı») və ədəbiyyatşünaslıq materiallarına, bədii ədəbiyyata həsr olunmuş sahəvi vəsaitlər.

M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanası(İndi Milli Kitabxana)da ümumi biblioqrafik informasiya mənbələrinin yaradılmasında və nəşrində iştirak edir.Məsələn, «Azərbaycan kitabı» adlı repertuar tipli göstəricinin 1-ci cildi kitabxananın qocaman əməkdaşı Ə.Əliyev tərəfindən tərtib olunmuşdur.Kitabxana 1968-ci ildə Respublika Elmi Texniki Kitabxanası ilə şərikli respublika kitabxanalarına daxil olan xarici mətbuatın toplu kataloqunu illik şəklində çap etdirir.Azərbaycan EA-nın Mərkəzi Elmi Kitabxanası da ümumi biblioqrafik informasiya mənbələrinin yaradılmasına və nəşrinə təşəbbüs edir. «Azərbaycan dövri mətbuatı(1920-1970)» onun yaradıcılığının məhsuludur.

M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının biblioqrafik fəaliyyətini tarixən nəzərdən keçirsək onun biblioqrafik fəaliyyəti çoxsahəliliyinə görə fərqlənir.O, respublikamızda tövsiyə biblioqrafiyasının həm əməli, həm də metodiki mərkəzidir.Mədəniyyət və incəsənət sahələri üzrə cari biblioqrafik informasiyanı həyata keçirir.Respublika Elmi-Kənd Təsərrüfatı kitabxanası ilə şərikli, həm də müstəqil olaraq kənd təsərrüfatına dair yeni ədəbiyyatın operativ biblioqrafik informasiyanı həyata keçirir.Elmi-köməkçi xarakterli retrospektiv mənbələr də hazırlayıb çapdan buraxır.

F.B.Köçərli adına Respublika Uşaq Kitabxanası, C.Cabbarlı adına Respublika Gənclər Kitabxanası müvafiq olaraq uşaq və gənclərin maraqlarına uyğun olan, onların ümumi peşə və şəxsi təhsillərinə, Milli-mənəvi və əmək tərbiyəsinə təsir etmək məqsədi güdən biblioqrafik informasiya mənbələri sistemini formalaşdırmağa ciddi səy göstərir.

Respublika Elmi Pedaqoji Kitabxanası öz profilinə uyğun müxtəlif mövzularda biblioqrafik informasiya nəşrini planlaşdırır və həyata keçirir.

Azərbaycan Elmi Tədqiqat, Elmi-Texniki Məlumat və Texniki İqtisadi Tədqiqat institutu da respublikamızda biblioqrafik fəaliyyətin inkişafında özünəməxsus yer tutur və bu proseslərdə EHM-dən istifadənin ilk təşəbbüskarlarındandır. Mübaliğəsiz qeyd etmək olar ki, respublikanın xüsusi elmi kitabxanalarının elmin, mədəniyyətin və istehsalın ayrı-ayrı sahələrinin biblioqrafik informasiya təminatına xüsusi təsir göstərirlər.

Müasir elmin və texnikanın inkişafına xas differensiasiya və inteqrasiya prosesləri biblioqrafik fəaliyyətə də öz təsirini göstərir.Elmin daha dar sahələrə ayrılması, idarəetmə, istehsalat və xidmət sahələrinin ixtisaslaşması biblioqrafik fəaliyyətin ayrı-ayrı istiqamətlərinin formalaşmasında da hiss olunur.

Azərbaycan Respublikasının 1991-ci ilin oktyabr ayında yenidən öz müstəqilliyini əldə etməsi ölkədə kitabxana işinin və biblioqrafik fəaliyyətin təşkilində, inkişafında da yeni mərhələnin başlanmasına da səbəb oldu.İctimai quruluşun dəyişməsi, Milli ənənələrimizə qayıdış sənəd-informasiya sistemində məzmun dəyişikliyinə, sənəd fondunda keyfiyyət dəyişikliyinin aparılmasını, fondun yeni milli və dünya mənəvi dəyərlərini obyektiv, real faktlarla işıqlandıran sənədlərlə zənginləşdirilməsini zəruriləşdirdi.Müstəqil Azərbaycan Respublikasının açıq bazar iqtisadiyyatı yolunu seçməsi cəmiyyət üzvlərinin şüurunda da böyük dəyişiklik yaratdı və bununla onların informasiya tələbatlarında yeni istiqamətlərin baş verməsinə və formalaşmasına səbəb oldu.Təbiidir ki, bütün bunlar biblioqrafik fəaliyyətin qarşısında yeni daha mürəkkəb vəzifələr qoyur.Birinci ümumi vəzifə sənəd informasiyasının təşkilinə və həyata keçirilməsinə tamamilə yeni mövqedən yanaşmaq, xalqımızın beynəlxalq standartlara cavab verəcək səviyyədə informasiyalaşdırılmasına təsir göstərə bilən mütərəqqi yolları müəyyənləşdirmək, yeni informasiya texnologiyasından hərtərəfli istifadəyə nail olmaq lazımdır.

Azərbaycan Respublikasının müstəqillik əldə etməsindən sonra Milli biblioqrafik fəaliyyətin təşkilati mənsubiyyətində və inkişafında bəzi yeni xüsusiyyətlər və istiqamətlər nəzərə çarpır.Bəzi obyektiv və subyektiv səbəblər üzündən keçid dövrünü yaşayan respublikamızda biblioqrafik fəaliyyətin milli və bəşəri-mənəvi dəyərlərə əsaslanan müsbət nəticələrlə yanaşı, çox ciddi çatışmazlıqlar da özünü göstərməkdədir.Bu başlıca beynəlxalq elmimizin inkişafı üçün lazım olan biblioqrafik informasiya əlaqələrinin zəifləməsi ilə əlaqədardır.Məsələn Keçmiş Ümumittifaq Elmi və Texniki İnformasiya İnstitutunun 130 ölkənin 66 dildə çap olunan elmi ədəbiyyatını əhatə edən(1,S.162) referativ jurnalları xeyli müddət mühüm kitabxanaları və başqa informasiya orqanları tərəfindən alınmaması elmi tədqiqatçıları və mütəxəssisləri biblioqrafik informasiya təminatı baxımından çətin vəziyyətdə qoymuşdur.Keçid dövrü cari biblioqrafik informasiyanın mütəşəkkilliyinə də mənfi təsir göstərmişdir.Bu, Respublika Dövlət Kitab Palatasının 1991-ci ildə cari biblioqrafik informasiya üçün əhəmiyyətli olan «Azərbaycan Mətbuat Salnaməsi», «Birillik Azərbaycan kitabiyyatı», «Çap kartoçkaları» kimi nəşrlərinin dayandırılması ilə bağlıdır. Bununla Azərbaycan Respublikasının ərazisində meydana gələn kitabların və digər mətbu nəşrlərin qeydə alınması və onların haqqında ardıcıl, sistemli və etibarlı biblioqrafik informasiya verilməsi

acınacaqlı vəziyyətə düşür.Belə bir vəziyyət biblioqrafik informasiya sahəsində beynəlxalq əməkdaşlığımıza da mənfi təsir göstərir.

Kiatb Palatasının səlahiyyətləri M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasına verilmişdir. Kitabxananın palataya məxsus funksiyalarının müvəffəqiyyətlə həyata keçirilməsi üçün əsas şərtlərdən biri məcburi nüsxə sistemi ilə bağlıdır və bu məsələ dövlət səviyyəsində həll olunmalıdır.Əks halda Azərbaycan çap əsərlərinin səpələnməsində pərakəndəlik hökm sürəcək, kitabxanalara düşməyəcək, heç yerdə qeydə alınmayacaq və gələcək üçün izi qalmayan itkiyə çevriləcək.

Ümumi retrospektiv biblioqrafiya sahəsində uğursuzluq davam edir. «Azərbaycan kitabı» kimi çox faydalı repertuar tipli göstəricinin nəşri yarımçıq qalmaqda davam edir.

AMEA-nın Mərkəzi Elmi Kitabxanasını bu mühüm elmi müəssisənin nəşrlərini əks etdirən biblioqrafik göstəricinin nəşrində də ardıcıllıq pozulmuşdur, illiklərin nəşri xüsusilə gecikdirilir.Məsələn 1982-ci ilin nəşrlərini əhatə edən illik 1990-cı, 1986-cı ilin nəşrlərini əhatə edən illik 1991-ci ildə işıq üzü görmüşdür.

Azərbaycan Respublikasının prezidenti İlham Əliyev «Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında» 20 aprel 2007-ci il tarixli sərəncamında Milli kitabxanalarımızın nailiyyətləri haqqında söylənilən fikirlər kitabxanaların cəmiyyətimizin informasiyalaşdırılmasında nə qədər böyük əhəmiyyət kəsb etdiyini təsdiqləyir.Sərəncamda deyilir: «Müasir Azərbaycan cəmiyyətinin informasiya təminatının həyata keçirilməsində ölkə kitabxanalarının tutduğu mühüm yer mədəniyyətin bu sahəsində informasiya cəmiyyətinin tələblərinə uyğun olaraq müasir texnologiyaların tətbiqini zəruri edir»(3,S.1).

Ölkənin bütün kitabxana şəbəkələri bunu nəzərə almalı, ümumi, sahəvi və bələdiyyə kitabxanaları öz profillərinə uyğun sənədləri əks etdirən, xidmət etdikləri informasiya istifadəçiləri üçün maraqlı olan biblioqrafik informasiya nəşrlərini və elektron biblioqrafik məlumat bazalarını yaratmalıdırlar.

Biblioqrafik fəaliyyəti həyata keçirən müəssisələrin, o cümlədən kitabxanaların qarşısında bu sahədə duran vəzifələri, əsasən, belə ümumiləşdirmək olar:

1.Ölkə ictimaiyyətinin informasiya ehtiyaclarını hərtərəfli öyrənmək, onların kompleks biblioqrafik təminatını gücləndirmək və onu müstəqilliyimizin tələblərinə uyğun beynəlxalq standartlar səviyyəsinə qaldırmaq.

2. Bütün səviyyələrdə(ümumi, xüsusi, universal, sahəvi, ölkə, məhəlli) səmərəli biblioqrafik informasiya xidmətinin həyata keçirilməsinə nail olunmasında biblioqrafik proseslərin kompüterləşdirilməsinin əsas amil

olduğunu nəzərə alaraq kitabxanaların və başqa müasir müəssisələrin kompüter təchizatı.

3.Biblioqrafik fəaliyyətin ayrı-ayrı istiqamətlərində məqsədyönlülük.

## ƏDƏBİYYAT:


*1. Коршунов О.П. Библиографоведение. Общий курс: Учебник. - М.: Издательство, «Книжная палата», 1990.*

*2. Для науки и практики// Сов. библиогр.-1987.-№6.-С.27.*

*3.«Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında» Azərbaycan Respublikası prezidentinin sərəncamı//Azərbaycan qəzeti.-2007.-21 aprel.*



**З.Г.АЛИЕВ**


## ОРГАНИЗАЦИЯ, РАЗВИТИЯ, ПРЕКЛАДНЫЕ ВОПРОСЫ СОВРЕМЕННОЙ БИБЛИОГРАФИЧЕСКОЙ ДЕЯТЕЛЬНОСТИ

### РЕЗЮМЕ


*В статье освещаются отдельные вопросы, связанные с развитием азербайджанской национальной библиографии в годы независимости. Здесь обосновывается значение библиографической информации в деятельности наших библиотек.*



**Z.H.ALİEV**


## ORGANIZATION, DEVELOPMENT AND APPLAIED QUESTIONS OF BIBLIOGRAPHIC ACTIVITY

### SUMMARY


*In the article were described particular questions on development of Azerbaijan national bibliography during independence. There was also argued importance bibliographic information for library activity.*

**Prof. X.İ.İSMAYILOV**
**Dos. N.İ.İSMAYILOV**
**Müəl. İ.Z.BAYRAMOVA**

## AZƏRBAYCAN RESPUBLİKASININ REGİONLARININ KİTABXANA-İNFORMASİYA RESURSLARININ İNKİŞAFININ BƏZİ MƏSƏLƏLƏRİ.( GƏNCƏ-QAZAX İQTİSADİ RAYONUNUN NÜMUNƏSİNDƏ)

Respublikamızda kitabxana-informasiya resursları zəngin tarixi ənənələrə malikdir. Bu biblioqrafik ehtiyat cəmiyyətin informasiya təminatında mühüm rol oynayır.

Son illər Azərbaycanda informasiya cəmiyyətinin qurulması istiqamətində görülən işlər sırasında kitabxana işinin təşkili, idarə edilməsi, oxuculara informasiya xidmətində ənənəvi iş üsulları ilə yanaşı, müasir texnologiyaların tətbiqinə başlanılması dövlətimizin kitabxana işi sahəsindəki siyasətinin prioritet istiqamətinə çevrilmişdir (6.S.318-320).

Artıq müasir informasiya cəmiyyətində kitabxanaların kommunikasiya sistemində rolu və əhəmiyyəti o qədər artmışdır ki, kitabxanalarsız cəmiyyətin informasiya tələbatını ödəmək mümkün deyildir.

Kitabxanalar cəmiyyətdə elmin və mədəniyyətin inkişafında, təhsil və tərbiyənin yüksəldilməsində, həmçinin insanların informasiya təminatında mühüm sosial institut kimi iştirak etməklə, ən çox istifadə olunan müəssisəyə çevrilmişdir (5.S.10).

Azərbaycan Respublikası yenidən öz müstəqilliyini bərpa etdikdən sonra ölkədə kitabxana işinin və biblioqrafik fəaliyyətin inkişafına, gənc nəslin təlim tərbiyəsində mühüm rol oynayan milli və mənəvi dəyərlərimizin işıqlandırılmasına, beynəlxalq standartlara cavab verə biləcək yeni informasiya texnologiyalarından hərtərəfli istifadə olunmasına çox böyük önəm verməyə başladı və bütövlükdə kitabxana-informasiya sahəsinin hüquqi bazası formalaşdı.

Bu baxımdan 1998-ci ildə qəbul edilmiş “Kitabxana işi haqqında” Azərbaycan Respublikasının Qanunu kitabxanaların inkişafında mühüm rol oynamışdır.

“Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında” Azərbaycan Respublikasının Prezidentinin 20 aprel 2007-ci il sərəncamında göstərildiyi kimi “... Bəşər mədəniyyətinin qazandığı nailiyyətlərin nəsildən-nəslə çatdırılmasında və cəmiyyətimizin intellektual-mənəvi potensialının artırılmasında kitabxanalarımız əvəzsiz rol oynayır”(4).

Respublikanın bütün regionlarının iqtisadi və sosial inkişafını daha da yüksəltmək və hər bir iqtisadi rayonun potensialından istifadəni sürətləndirmək

üçün, Respublikanın Prezidenti cənab İlham Əliyev 11 fevral 2004-cü ildə "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının (2004-2008-ci illər) təsdiq edilməsi haqqında" fərman imzalamışdır (2).

Azərbaycan Respublikasının ayrı-ayrı regionlarının sosial-iqtisadi inkişafına, ümumilikdə, ölkənin vahid sosial inkişafı strategiyasının ayrılmaz tərkib hissəsi kimi baxmaq lazımdır.

Regionların sosial-iqtisadi inkişafı dedikdə, sosial-mədəni infrastrukturun inkişafı, əhalinin həyat və yaşayış səviyyəsinin yaxşılaşdırılması, təhsil və mədəni səviyyəsinin, dünyagörüşünün formalaşdırılması, dünyəvi biliklərə yiyələnməsi və s. nəzərdə tutulur.

Son illərin statistik məlumatlarına görə, Avropa İttifaqının üzvü olan indiki dövlətlərin ərazisində 90.000 kitabxana(11,s.125), ümumilikdə isə, YUNESKO-nun məlumatına görə dünyada yarım milyondan artıq kitabxana fəaliyyət göstərir (10,s.3). Azərbaycan Respublikasında isə 12 mindən çox kitabxana cəmiyyətin informasiya təminatını həyata keçirir. Bu da dünya kitabxanalarının 2,4%-i deməkdir. Bütün dünyada, o cümlədən Azərbaycanda regional kitabxanalar ümumi kitabxana şəbəkələri içərisində mühüm yer tutur. Ona görə də, bu, kitabxana-informasiya orqanlarının əsas missiyası, yerləşməsi xüsusiyyətləri, onların informasiya ehtiyatları və bu ehtiyatlardan yerli əhalinin səmərəli istifadəsinin təşkili problemlərinin araşdırılması, kitabxanaşünaslıq və biblioqrafiyaşünaslığın yaranmasına gətirib çıxarmışdır.

Bir sıra əlamətlər: müəyyən ərazinin mənafeyinə tabelik, rayon ərazisində və onun haqqında nəşr olunmuş sənədlərin toplanması, saxlanması və ictimai istifadəyə verilməsinə görə məsuliyyət, diyarşünaslıq üzrə biblioqrafik informasiya resurslarının yaradılması və ondan dünyanın istənilən nöqtəsində istifadə imkanlarının təmin edilməsi və s. regional kitabxanaların əsas əlamətlərini formalaşdırır. Regional kitabxanalar yerli mədəniyyətin bənzərsizliyini, özəlliklərini öyrənən, onu mühafizə edən, yayan, ümumilikdə elm, təhsil və mədəniyyət sahəsində dünya prosesləri haqqında informasiyanı təbliğ edən ən böyük informasiya kanalı kimi oxucularda doğma diyara məhəbbət, tarixi keçmişə hörmət və qürur hissi tərbiyə edir.

Professor Z.S.Məmmədovun "Regionların iqtisadi inkişaf problemləri" kitabında qeyd etdiyi kimi, Azərbaycan Respublikasında 10 iqtisadi rayon var: Abşeron, Gəncə-Qazax, Şəki-Zaqatala, Lənkəran, Quba – Xaçmaz, Aran, Yuxarı Qarabağ, Kəlbəcər- Laçın, Dağlıq Şirvan, Naxçıvan Muxtar Respublikası (7).

Gəncə-Qazax iqtisadi rayonu respublikamızın ikinci ən böyük iqtisadi rayonudur. Bu iqtisadi rayon çox əlverişli coğrafi relyefdə yerləşməsi, əhalinin həm dağlıq, həm də dağətəyi zonada məskunlaşması, sənaye və kənd təsərrüfatının potensial inkişafını sürətləndirmək baxımından diqqəti cəlb edir.

İqtisadi rayonun ərazisi 12,5 min kv. km. olub, respublikamızın ərazisinin 14,5%-ni əhatə edir.

Gəncə-Qazax iqtisadi rayonunun əlverişli iqtisadi şəraitinin yeraltı və yerüstü təbii sərvətinin zənginliyi, istehsalın çoxsahəli inkişafına müsbət təsir göstərir (7.S.156).

Bu iqtisadi rayonda əhalinin sayı 1,076775 nəfərdir. Bu isə respublikamızın əhalisinin təqribən 14-15% -ni təşkil edir.

Gəncə-Qazax iqtisadi rayonuna Qazax, Ağstafa, Tovuz, Gədəbəy, Şəmkir, Daşkəsən, Göy-göl, Samux, Goranboy inzibati rayonları və Gəncə şəhəri daxildir.

İqtisadi rayonda məhsuldar qüvvələrin inkişafında, ixtisaslı kadrların hazırlanmasında əhalinin təhsil bölgüsünün müəyyənləşdirilməsi xüsusi əhəmiyyət kəsb edir.

Gəncə-Qazax iqtisadi rayonunun iqlim şəraiti, filiz və qeyri-filiz yataqlarının zənginliyi, ayrı-ayrı iqtisadi sahələrin inkişafı, yeni istehsal müəssisələrinin yaradılmasına təkan verir. Ona görə də iqtisadi sahələrdə yaranan dirçəliş iqtisadi rayonların makro və mikro iqtisadi inkişafına güclü təsir göstərir (7).

Əhalinin təhsil bölgüsünə görə Gəncə şəhəri mühüm yer tutur. Təhsil alanlar Gəncədə 26,7 min nəfər, Goranboyda 75,8 min nəfər, Qazaxda 71,7 min nəfər, Ağstafada 65,2 min nəfər, Tovuzda 124,6 min nəfər, Gədəbəydə 75,7 min nəfər, Şəmkirdə 152,4 min nəfər, Daşkəsəndə 26,9 min nəfər, Göy-göldə 46,8 min nəfər, Samuxda 43,8 min nəfərdir (7.S.59).

Əhalinin elm, təhsil, mədəni səviyyəsinin yüksəldilməsində iqtisadi rayon daxilində fəaliyyət göstərən kitabxanalar mühüm əhəmiyyət kəsb edir.

Bu kitabxanalar sistemi mürəkkəb quruluşa malikdir və bu sistemdə mərkəzləşdirilmiş kitabxana sistemləri mühüm yer tutur.

Belə ki, Gəncə-Qazax iqtisadi rayonunun Mərkəzləşdirilmiş Kitabxana Sistemləri (MKS) aşağıdakılardır: Qazax rayon MKS, Ağstafa rayon MKS, Tovuz rayon MKS, Gədəbəy rayon MKS, Şəmkir rayon MKS, Daşkəsən rayon MKS, Göy-göl rayon MKS, Samux rayon MKS, Goranboy rayon MKS və Gəncə şəhər MKS (1). (Bax: Cəd. 1).

Mərkəzləşdirilmiş Kitabxana Sistemlərinin yaradıldığı il, əhalinin sayı, oxucuların sayı, kitabxanaların fondu, filialların sayı, kitabxanada işləyən ali və orta ixtisaslı işçilərin sayı, orta təhsillilər, texniki işçilər cədvəldə ardıcıllıqla öz əksini tapmışdır.

İqtisadi rayonda gündüz ümumtəhsil məktəblərinin sayı və onlarda təhsil alan şagirdlərin sayı əhalinin artım səviyyəsi ilə əlaqədar olaraq ildən ilə artır (7. S.67) (Bax: Cəd. 2)

Gəncə-Qazax iqtisadi rayonu üzrə sosial infrastrukturun digər sahələrindən olan kütləvi kitabxanalar və onlarda olan kitabların sayı, insanların istirahətini təmin edən klub müəssisələrinin sayı mühüm əhəmiyyət kəsb edir (7.S.68).

İqtisadi rayon üzrə kütləvi kitabxanaların sayı 1995-ci ildə 714, 1998-ci ildə 672, 2001-ci ildə 665 olmuşdur. Həmin kitabxanalarda olan kitab fondu 1995-ci ildə 4822,5 min, 1998-ci ildə 472,52 min, 2001-ci ildə 4674,5 min nüsxə olmuşdur. (7.S.69) (Bax: Cəd. 2)

Cədvəldə göstərildiyi kimi, Gəncə-Qazax iqtisadi rayonunda kütləvi kitabxanalar 1995-ci ildən başlayaraq həm oxucuların sayına, həm kitab fondunun həcminə görə nəzəri cəlb edir (7.S.69).

Belə ki, 1990-cı illərdən sonra həm kütləvi kitabxanaların , həm də onların oxucularının sayı azalmağa başlamışdır. Bunu nə ilə izah etmək olar?

80-ci illərin sonu və 90-cı illərin əvvəlində Azərbaycan Respublikasının bədxah qonşularımızın işğalına məruz qalması, ölkədə baş verən ictimai-siyasi hadisələrin mənfi təsiri, kitabxanaların və oxucuların sayının nəzərə çarpacaq dərəcədə azalmasına səbəb olmuşdur. Kitabxanaların maddi-texniki bazasının zəifləməsi, bəzi kitabxanaların tamamilə bağlanmasına, bəzilərinin isə oxucu tələbatını ödəyə bilməməsi üzündən bağlanmaq təhlükəsi ilə üz-üzə qalmasında da özünü göstərmişdir.

Gəncə-Qazax iqtisadi rayonunda 2004-2005-ci illərdə Mərkəzləşdirilmiş Kitabxana Sistemləri, ayrı-ayrı rayonlar üzrə, kitabxanaların ümumi göstəriciləri aşağıdakı şəkildə olmuşdur (1) (Bax: Cəd. 1).

Belə ki, Qazax rayon MKS 1980-ci ildə yaradılmış, fondu 541,100 nüsxədir. Qazax rayonunun əhalisi 81015 nəfər olmaqla oxucuların sayı 39,700 nəfərdir. Filialların sayı 52, kitabxanada işləyənlərin sayı 128 nəfərdir. İşçilərin ancaq 22 nəfəri ali ixtisas təhsilli, 15 nəfəri ali qeyri-ixtisas təhsillidir. Orta təhsilli işçilərin sayı 58 nəfər, orta qeyri-ixtisas təhsillilərin sayı 18 nəfər, orta təhsillilərin sayı 18 nəfər, texniki işçilər 15 nəfərdir.

Ağstafa MKS, 1990-ci ildə yaradılmış, kitabxana fondu 391007, əhalisi 73944, oxucuların sayı 35998 nəfərdir. MKS-in 49 filialı var, kitabxanada 117 nəfər çalışır ki,onların içərisində ali ixtisas təhsillilər 21 nəfər, orta ixtisas təhsillilər 44 nəfərdir. Ali qeyri-ixtisas təhsillilər 3 nəfər, orta təhsillilər 40 nəfər, texniki işçilər 9 nəfərdir.

Tovuz rayon MKS, 1925-ci ildə yaradılmış, əhalisi 142854 nəfər, kitabxana fondu 652802 nüsxə, oxucuların sayı 50159 nəfərdir. Kitabxananın 77 filialı, 201 nəfər işçisi var ki,onlardan 14 nəfəri ali ixtisas təhsillilər, 1 nəfər orta ixtisas təhsilli, 56 nəfər orta qeyri-ixtisas təhsilli, 46 nəfər orta təhsilli, 82 nəfər texniki işçilərdir.

Gədəbəy rayon MKS 1932-ci ildə yaradılmışdır, əhalisi 86193 nəfər, kitabxana fondu 509.300 nüsxə, oxucuların sayı 29800 nəfərdir. MKS – nin 109 filialı var, kitabxanalarda işləyənlərin sayı 221 nəfər olmaqla, onlardan 2 nəfəri ali ixtisas təhsilli, 6 nəfəri ali qeyri-ixtisas təhsilli, 25 nəfəri orta-ixtisas təhsilli, 80 nəfəri orta təhsilli işçilərdir. Kitabxanada 108 nəfər texniki işçi işləyir.

Şəmkir rayon MKS 1932-ci ildə yaradılmışdır. Əhalisinin sayı 173401 nəfər, kitabxana fondu 55784 nüsxə, oxucuların sayı 71050 nəfər, filialların sayı 95-dir. Kitabxanalarda işləyənlərin sayı 171 nəfər olmaqla, ali ixtisas təhsillilər 12 nəfər, orta ixtisas təhsillilər 46 nəfər, orta təhsillilər 71 nəfər, texniki işçilər 44 nəfərdir.

Daşkəsən rayon MKS, 1982-ci ildə yaradılmış, əhalisi 30418 nəfər, kitabxana fondu 450000 nüsxədir, oxucuların sayı 1300 nəfər, filialların sayı 59, kitabxanalarda işləyənlərin sayı 142 nəfər olmaqla, onlardan 2 nəfəri ali ixtisas təhsilli, 1 nəfər orta ixtisas təhsilli, 80 nəfəri isə orta təhsillilərdir. Kitabxanalarda 59 nəfər texniki işçi işləyir.

Göygöl rayon MKS, 1962-ci ildə yaradılıb, əhalisi 53266 nəfərdir. Kitabxana fondu 321815 nüsxədir. Oxucuların sayı 24900 nəfər, filialların sayı 48, kitabxanalarda işləyənlərin sayı 122 nəfərdir ki, onlardan 4 nəfəri ali ixtisas təhsilli, 4 nəfər ali qeyri- ixtisas təhsilli, 24 nəfəri orta qeyri - ixtisas təhsilli, 34 nəfəri orta təhsilli, 54 nəfəri isə texniki işçilərdir.

Samux rayon MKS, 1992-ci ildə yaradılmış, əhalisinin sayı 49697 nəfər, kitabxana fondu 242439 nüsxə, oxucuların sayı 17379 nəfərdir, kitabxananın 32 filialı, 98 nəfər işçisi var ki, onlardan 1 nəfər ali ixtisas təhsilli, 5 nəfər ali qeyri - ixtisas təhsilli, 3 nəfər orta qeyri - ixtisas təhsilli, 48 nəfər orta təhsilli, 41 nəfər isə texniki işçilərdir.

Goranboy rayon MKS, 1978-ci ildə yaradılmışdır. Rayonun 86645 nəfər əhalisi var, kitabxananın fondu 557215 nüsxə, oxucuların sayı 29850 nəfərdir. Kitabxananın 96 filialı var.Kitabxanalarda 225 nəfər işləyir ki, onlardan 9 nəfər ali ixtisas təhsilli, 4 nəfər ali qeyri - ixtisas təhsilli, 21 nəfər orta ixtisas təhsilli, 5 nəfər orta qeyri –ixtisas təhsilli, 86 nəfər orta təhsilli, 100 nəfər isə texniki işçilərdir.

Gəncə şəhər MKS, 1976-cı ildə yaradılmışdır. Əhalisi 299342 nəfər, kitabxana fondu 500000 nüsxə, oxucuların sayı 60437 nəfərdir. Kitabxananın 27 filialı, 139 nəfər işçisi var. Ali ixtisas təhsillilərin sayı 11 nəfər, ali qeyri - ixtisas təhsillilərin sayı 35 nəfərdir. Kitabxanada 14 nəfər orta ixtisas təhsilli, 25 nəfər orta təhsilli işçi çalışır. Kitabxananın 39 nəfər texniki işçisi var. İnternetdən istifadə edən oxucuların sayı10 nəfərdir.

Gəncə-Qazax iqtisadi rayonundan danışanda, bu zonadakı MKS-lərin ümumi kitabxana fondunu, oxucularının sayını, kadrların işlə necə təmin olunmasını, əhalisinin sayını və s. nəzərə almaq lazımdır. Belə ki, ümumiyyətlə, bu iqtisadi zonada əhalinin sayı ilə yanaşı, oradakı oxucuların da ümumi sayını nəzərə almaq lazımdır.

Gəncə-Qazax iqtisadi rayonunda kitabxananın ümumi informasiya resursları 4723518 nüsxədir. Oxucuların ümumi sayı cəmi 372273 nəfər, filialların sayı 644, kitabxanalarda işləyənlərin sayı 1564 nəfər, ali ixtisas təhsillilərin sayı 98 nəfər, ali qeyri-ixtisas təhsillilərin sayı 72 nəfər, orta ixtisas təhsillilər 210

nəfər, orta qeyri-ixtisas təhsillilər 120 nəfər, orta təhsillilər 528 nəfər, texniki işçilər isə 551 nəfərdir.

Gəncə şəhəri istisna olmaqla, iqtisadi zonanın digər rayonlarında internetdən istifadə edənlər yoxdur. Buradan belə nəticəyə gəlmək olar ki, Gəncə zonanın ən inkişaf etmiş şəhəridir. Buradakı ali və orta ixtisas təhsili müəssisələrində, inkişaf etmiş sənaye və infrastrukturun digər sahələrində çalışanlar inkişaf etmiş cəmiyyətin elmi, texniki inkişafından geri qalmırlar. Gəncə böyük sənaye mərkəzlərindən biri kimi, eyni zamanda qədim İpək Yolunun bərpa olunması ilə əlaqədar, Bakı - Tbilisi - Ceyhan neft kəmərinin bu iqtisadi zonadan keçməsi ilə əlaqədar önəmli yerlərdən birini tutur.

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2001-ci ildə çap etdirdiyi "Müstəqil Azərbaycan 10 il" rəsmi nəşrindən göründüyü kimi, Respublikamızda 2000-ci illərdə kütləvi kitabxanaların sayı Gəncə şəhərində 27 olmaqla, onlarda olan kitab fondu 491000 nüsxə, Qazax rayonunda 55 kütləvi kitabxana, 520400 nüsxə, Ağstafa rayonunda 49 kütləvi kitabxana, 388100 nüsxə, Gədəbəy rayonunda 109 kütləvi kitabxana, 515000 nüsxə, Daşkəsən rayonunda 58 kütləvi kitabxana, 436300 nüsxə, Samux rayonunda 34 kütləvi kitabxana, 227500 nüsxə, Göy-göl rayonunda 50 kütləvi kitabxana, 330900 nüsxə, Şəmkir rayonunda 96 kütləvi kitabxana, 588600 nüsxə kitab fondu olmuşdur (9.S.176-177).

Təsadüfi deyildir ki, gənc nəslin təlim-tərbiyəsi, elmi biliklərə yiyələnməsi üçün ümumtəhsil müəssisələrinin üzərinə çox böyük məsuliyyət düşür. Belə ki, məhz, məktəb illərindən başlayaraq, gənc nəslin yönəldilməsi, onların gələcək oxucu potensialını formalaşdırmaqla yanaşı, elmi biliklərə yiyələnmələrinə, cəmiyyət quruculuğunda fəal iştirak etmələrinə təkan verir.

2000-2001-ci illərin statistik məlumatına əsasən Gəncədə 48 ümumtəhsil müəssisəsi olmuşdur. Onlarda 48958 nəfər şagird təhsil alır. Digər rayonlardan Ağstafada cəmi 39 məktəb var, onlardan 35-i kənd məktəbidir. Şagirdlərin sayı 29059 nəfərdir. Daşkəsəndə 49 məktəbdən 39 – u kəndlərdə yerləşir. Onlarda cəmi 10462 nəfər şagird təhsil alır. Goranboyda 77 ümumtəhsil məktəbinin, 68-i kəndlərdə yerləşməklə, cəmi 34167 nəfər şagird təhsil alır. Gədəbəydə 85 məktəbdən 81-i kəndlərdə yerləşməklə, təhsil alanların sayı 32584 nəfərdir. Qazax rayonundakı 47 ümumtəhsil məktəbin, 40-ı kəndlərdə yerləşməklə, 29942 nəfər şagird, Samux rayonunda 33 ümumtəhsil məktəbin 28-i kəndlərdə yerləşməklə, şagirdlərin sayı 17192 nəfər, Şəmkir rayonunda 84 ümumtəhsil məktəbinin 66-ı kəndlərdə yerləşməklə 65080 nəfər şagird, Tovuz rayonunda 85 ümumtəhsil məktəbinin 76-ı kəndlərdə yerləşməklə 54695 nəfər şagird təhsil alır (9.S.150-151) (Bax: Cəd. 2).

Biz bu şəkildə Gəncə-Qazax iqtisadi rayonuna daxil olan hər bir rayon üzrə orta təhsil müəssisələrində oxuyanların sayını bilməklə, məktəblərdə yerləşən məktəb kitabxanalarında da, müəllim və şagirdlərdən ibarət böyük oxucu

qruplarının olduğunu görə bilərik. Belə kitabxanaların maddi-texniki bazalarını inkişaf etdirməklə, elmin və texnikanın nailiyyətlərindən istifadə edərək kitabxanaların fondunu daha da zənginləşdirib oxucu auditoriyasını genişləndirmək olar.

Ölkə iqtisadiyyatının kadr potensialının səmərəli inkişafı ölkənin insan resurslarının keyfiyyətini gücləndirmək üçün, dövlətimiz tərəfindən regionların sosial-iqtisadi inkişafına böyük diqqət göstərilməklə, bir çox işlər görülmüş, iqtisadiyyatın, sənayenin, kənd təsərrüfatının, eləcə də, cəmiyyətin inkişaf edib formalaşmasında "insan faktoruna" xüsusi önəm verilmişdir.

Prof. Ş.Muradov "İnsan potensialı: əsas meyllər, reallıqlar, problemlər"kitabında yazır: "Elmin inkişafının əsas şərtlərindən biri də elmi-texniki fəaliyyətin resurslarla (maliyyə, cihaz və avadanlıqlar, informasiya) təmin olunmasından və müasir tələblərə uyğun infrastrukturun yaradılmasından ibarətdir.Onu da nəzərə almaq lazımdır ki, elmi biliklərin istehsalı və mənimsənilməsi bilavasitə insan amili ilə bağlıdır və burada kadrların hazırlanması, onların kəmiyyət-keyfiyyət tərkibinin daim inkişaf etdirilib təkmilləşməsinə böyük ehtiyac vardır" (8. S.488).

Elmi kadrlar elmin inkişafında, sivilizasiyalı cəmiyyətlərin formalaşmasında, cəmiyyətin maddi, mənəvi dəyərlərinin artırılmasına təsir edən ən mühüm amillərdən biridir. Bu mənada Gəncə, Qazax və digər rayonlarda fəaliyyət göstərən ali və orta ixtisas məktəblərinin alim və işçilərinin informasiya təminatında mühüm rol oynayan təhsil kitabxanalarının xüsusi rol oynadığını qeyd etmək lazımdır.

Dövlətimizin kitabxanaların inkişafına göstərdiyi qayğı baxımından "Azərbaycan kitabxanaları XXI əsrin informasiya məkanında" (I və II cild) kitabını çox yüksək qiymətləndirmək lazımdır.Çünki, Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin məhz birbaşa xüsusi əməyi ilə işıq üzü görmüş, dövlətimizin regionların inkişafına xüsusi fikir verməsinin təzahürü olan bu kitabda, həm yüksək ixtisaslı kitabxanaçı- biblioqraflar üçün, həm tələbələr üçün, həm də müxtəlif sahələrin mütəxəssisləri üçün çox qiymətli məlumatlar var. Biz 2004-cü ildən başlayaraq, eləcə də 2000-ci illərin əvvəllərindən Azərbaycan Respublikasında kitabxana-informasiya resurslarının inkişafını izləməklə, dövlətin də qayğısının şahidi ola bilərik.

Ümumiyyətlə, Gəncə -Qazax İqtisadi rayonu üzrə aparılan təhlildən belə nəticəyə gəlmək olar ki, təbii və əmək resursları baxımından bu iqtisadi rayon böyük imkanlara malikdir.

MKS-lərin ümumi mənzərəsi bizdə belə bir fikir yaradır ki, ixtisaslı kadrların hələ də kifayət qədər olmadığı, ali qeyri-ixtisas təhsillilərin, eləcə də orta təhsillilərin isə ixtisaslı kadrlar qədər elmi biliyə yiyələnməsi bir çox çətinliklər törədir.

Ölkədə ictimai istehsal proseslərinin əsasını və subyektini təşkil edən əhalinin fiziki və zehni cəhətdən inkişaf etmiş hissəsi çoxdursa, həmin ölkə daha çox məhsuldar insan resurslarına malikdir. İnsanlar sosial idarəetmənin ən mürəkkəb obyektidir.

Gəncə -Qazax İqtisadi zonasında yerləşən MKS-lərin işçiləri üçün, Gəncədə, yaxşı olardı ki, ixtisasartırma kursları və ya metodiki mərkəz yaradılsın. Bu həm maliyyə resurslarına qənaət baxımından, həm də işçilərin peşə biliklərinə yiyələnməsinin sistemli xarakter alması baxımından əlverişli ola bilər.

Peşə - ixtisas səviyyəsinin yüksəldilməsi milli iqtisadiyyatın kadr (peşə) potensialının quruluşu və keyfiyyətinə dövlətin təsirinin artırılması, insan resurslarının ümumi və regional kompleks proqramlarının işlənməsi və həyata keçirilməsi, həmin resurslardan dolğun və səmərəli istifadə olunmasını təmin etməkdən ibarətdir (8. S.472-475).

Respublikamızda aparılan islahatların başlıca amilini ölkənin vətəndaş, intellektual və peşə potensialı təşkil edir.

Azərbaycan regionlarının sosial-iqtisadi inkişafı proqramının birinci mərhələsi bu yaxınlarda başa çatmışdır. Belə ki, dövlətin qarşıya qoyduğu məsələlərin bir çoxunda köklü dəyişikliklər yaradılmış, regionların inkişafının sürətləndirilməsi, yeni sənaye obyektlərinin, yeni iş yerlərinin açılması, kitabxana – informasiya tələbatının inkişaf etdirilməsi və cəmiyyətin tələblərinə cavab verməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

“Azərbaycan Respublikasında kitabxana – informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı”nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 6 oktyabr 2008-ci il tarixli sərəncamı bir daha göstərdi ki, informasiyalaşmış cəmiyyətdə kitabxanaların rolu danılmazdır. Bu işdə dövlət qayğısı kitabxana-informasiya fəaliyyətinin daha da inkişaf etdirilməsi, cəmiyyətin informasiya təminatının artırılması, Azərbaycan kitabxanalarının dünyanın inkişaf etmiş qabaqcıl ölkə kitabxanaları ilə bir səviyyədə durmasını təmin etmək üçün hər bir mütəxəssisin qarşısına mühüm vəzifələr qoyur.

Gəncə - Qazax İqtisadi rayonunda ali təhsilli kadrların sənayenin, kənd təsərrüfatının, eləcə də, kitabxanaların inkişaf etdirilməsində çox böyük rolu vardır. İxtisaslı kadrların yetişdirilməsi, onların elmi potensialından istifadə edilməsində özünü büruzə verir. Belə nəticəyə gəlmək olar ki, Gəncə -Qazax İqtisadi rayonundakı Mərkəzləşdirilmiş Kitabxana Sistemlərində hələ də kifayət qədər ali və orta ixtisas təhsilli kadrlar azlıq təşkil edir. Belə ki, orta hesabla 299,342 min nəfər olan Gəncə əhalisinin, təqribən 60,437 nəfəri kütləvi kitabxana oxucusudur ki, buraya məktəb kitabxanalarının da oxucu sayını əlavə etsək, 108,528 nəfər edir. Bu da əhalinin ümumi sayının təqribən 27 %-ni təşkil edir. Belə bir oxucu kütləsinə cəmi 25 nəfər ali və orta ixtisaslı kitabxanaçı – biblioqraf xidmət göstərir, həmçinin ali və orta qeyri-ixtisas

təhsilli 49 nəfər kitabxanaçını da bura daxil etmək lazımdır. Belə ki, 4,341 nəfər oxucuya 1 ixtisaslı kitabxanaçı-biblioqraf xidmət edir. Biz belə misalların sayını artıra da bilərik. Ancaq regionun ən inkişaf etmiş, iri sənaye şəhəri olan Gəncənin, timsalında belə bir məsələni qabartmaqla, onu bildirmək istəyirəm ki, regionun digər rayonlarında belə faktlarla yenə qarşılaşacağıq. Əgər Gəncə kimi inkişaf etmiş sənaye və kənd təsərrüfatı şəhərində, belə bir vəziyyət varsa, deməli ixtisaslı kadr potensialına çox böyük ehtiyac var. Elə ona görə də, gələcəkdə BDU-nun Kitabxanaçılıq-informasiya fakültəsində təhsil alan tələbələrin sayını artırmaqla, eləcə də orta ixtisas təhsili müəssisələrində də ixtisaslı kadrların hazırlanmasına önəm vermək lazımdır.

Bu iqtisadi rayon üzrə 1.076775 nəfər əhalinin təqribən 587.771 nəfəri kitabxana oxucularıdır ki, bu da təqribən ümumi əhalinin 30%-ni təşkil edir. Buradan aydın olur ki, iqtisadi rayon üzrə belə göstəricini qənaətbəxş hesab etmək olar. Lakin onların informasiya tələbatını ödəmək, inkişaf etmiş informasiya məkanında, elmi potensiallarını daha da gücləndirmək üçün, dövlətimizin göstərdiyi xidmətləri də xüsusi qeyd etmək lazımdır. Belə ki, "Azərbaycan Respublikasında kitabxana –informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"nda da göstərildiyi kimi dövlətimiz növbəti 5 ildə qarşıya həlli vacib olan bir çox məsələlər qoymuşdur. Bunlardan müasir tələblərə cavab verməyən kitabxanaların təmirini, yenilərinin tikilməsini, kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılmasını, kitabxana fondlarının mühafizəsi və bərpasını, latın qrafikası ilə buraxılan nəşrlərin elektron daşıyıcılarına köçürülməsini, kitabxanaların beynəlxalq əlaqələr sahəsindəki fəaliyyətini, daim genişlənən informasiya axınında oxucu kontingentinin itirilməməsini, əhalinin mütaliəyə marağının artırılmasını, kitabxanaların maddi-texniki bazalarının möhkəmləndirilməsini, kadrların peşə hazırlığının səviyyəsinin qaldırılmasını və s. göstərmək olar.

Dövlət Proqramından göründüyü kimi, dövlətimizin əsas məqsədi kitabxana –informasiya xidmətinin dünya standartları səviyyəsinə qaldırılmasına, əhalinin intellektual potensialının və bilik səviyyəsinin yüksəldilməsinə kömək məqsədilə, kitabxanaların modernləşdirilməsinə, kitabxana – informasiya resurslarının dünya məkanına inteqrasiyasına, kitabxana – informasiya sahəsində elmi araşdırmaların genişləndirilməsinə və s. dövlət qayğısının artırılmasıdır.

Dövlət planının həyata keçirilməsi üçün, Tədbirlər Planında Mərkəzi kitabxanaların nəzdində, əhalinin bütün təbəqələrinə pulsuz xidmət göstərən müasir informasiya texnologiyaları ilə təmin olunmuş hüquqi-informasiya mərkəzlərinin yaradılması (kitabxanaların mövcud ştat vahidləri çərçivəsində, ictimai əsaslarla), "Kitabxana fondları regionların inkişafının əsas informasiya resursu kimi" mövzusunda dəyirmi masaların keçirilməsi, regionlardakı kitabxanalar arasında "Ən yaxşı ictimai internet mərkəzi", "Ən maraqlı veb-

sayt" mövzusunda respublika müsabiqəsinin keçirilməsi, regionlarda mərkəzləşdirilmiş kitabxana sistemlərinin bazasında kitabxanaların mövcud ştat vahidləri çərçivəsində və ictimai əsaslarla informasiya mərkəzlərinin yaradılması, tabeliyindən asılı olmayaraq, ("İlin nümunəvi MKS", "Ən yaxşı kitabxanaçı" və s.) keçirilməsi Mərkəzi kitabxanaların avtomatlaşdırılmış kitabxana-informasiya sistemi (AKİS) ilə təchiz edilməsi və s. göstərilmişdir (6.S.16-29).

Göründüyü kimi, qarşıya qoyulan problemlərin, onların həlli yollarının, dövlətin qayğısı ilə həyata keçirilməsi üçün təxirəsalınmaz tədbirlər planı hazırlanmışdır.

Gəncə - Qazax İqtisadi rayonunun kitabxana-informasiya təminatının təhlili göstərdi ki, bu iqtisadi rayon öz genişliyinə, ərazisinə görə, istərsə də elmi kadr potensialına, sənayenin və kənd təsərrüfatının inkişafına görə daim diqqət mərkəzindədir.

Əhalinin intellektual – mədəni səviyyəsinin yüksəldilməsində, kitabxanaların danılmaz rolunu qeyd etməklə yanaşı, regiondakı ixtisaslı kadrların elmi potensialının artırılması üçün, bilik səviyyəsinin daha da genişləndirilməsi üçün, yaxşı olardı ki, mühüm elmi-mədəni, sənaye mərkəzi rolunu oynayan Gəncə şəhəri MKS-sində, iqtisadi zona kitabxanalarının informasiya və metodiki mərkəzi yaradılsın. Bu mərkəzin yaradılması həm də ona görə məqsədəuyğundur ki, iqtisadi zonadan paytaxta gəlib getməklə vaxt itkisinin qarşısı alınmaqla, bu iqtisadi rayonda yerləşən MKS-lərin işçiləri bir-biri ilə təcrübə mübadiləsi edə bilsinlər. Qabaqcıl təcrübədən istifadə etməklə iqtisadi rayonun, həm elmi mədəni səviyyəsinin inkişafına, həm də regionun dünyanın inkişaf etmiş kitabxanaları ilə birbaşa əlaqəsinin yaranmasına nail olmaq olar.

Kitabxana-informasiya keyfiyyətinin yaxşılaşdırılmasında, qlobal miqyasda informasiyanın genişliyini və daim inkişaf edərək yeniləşdiyini nəzərə alsaq, Azərbaycanda da yaxın gələcəkdə dünya standartlarına cavab verə biləcək kitabxanaların yaranmasından və inkişaf etməsindən danışa biləcəyik. Bu da Müstəqil Azərbaycan dövlətinin kitabxana-informasiya fəaliyyətinə dair siyasətinin ardıcıl olaraq davam etməsi yolu ilə mümkündür.

CƏDVƏL 1

## GƏNCƏ - QAZAX İQTISADİ RAYONUNDAKI KÜTLƏVİ KİTABXANALAR, MƏKTƏBLƏR, ONLARDA OXUYAN ŞAGİRDLƏRİN SAYI

| İnzibati rayonlar | Kütləvi kitabxanaların sayı (ədədlə) | | | Onlarda olan kitab fondu (min nüsxə ilə) | | | Gündüz ümumtəhsil məktəbləri | | | Onlarda oxuyan şagirdlərin sayı | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | 1995 | 1998 | 2001 | 1995 | 1998 | 2001 | 1995 | 1998 | 2001 | 1995 | 1998 | 2001 |
| **Qazax** | 62 | 60 | 55 | 545,2 | 549,0 | 521,5 | 47 | 47 | 47 | 15601 | 16817 | 17239 |
| **Ağstafa** | 50 | 49 | 49 | 393,3 | 388,3 | 386,5 | 39 | 39 | 39 | 14423 | 15452 | 15592 |
| **Tovuz** | 88 | 79 | 79 | 681,0 | 661,3 | 646,5 | 84 | 85 | 85 | 27565 | 29681 | 30543 |
| **Gədəbəy** | 110 | 110 | 109 | 500,2 | 515,0 | 515,0 | 85 | 85 | 85 | 15858 | 16838 | 16736 |
| **Şəmkir** | 99 | 97 | 96 | 587,8 | 588,6 | 588,7 | 87 | 83 | 84 | 34553 | 38094 | 39126 |
| **Daşkəsən** | 59 | 58 | 58 | 437,9 | 436,6 | 436,5 | 48 | 49 | 49 | 6299 | 6414 | 6290 |
| **Göygöl** | 50 | 50 | 50 | 337,0 | 332,2 | 330,9 | 49 | 50 | 49 | 10718 | 11519 | 11248 |
| **Samux** | 33 | 34 | 34 | 225,8 | 226,8 | 227,1 | 32 | 32 | 34 | 9450 | 10164 | 10886 |
| **Goranboy** | 136 | 108 | 108 | 628,0 | 539,9 | 529,3 | 76 | 76 | 77 | 17945 | 19155 | 19747 |
| **Gəncə** | 27 | 27 | 27 | 486,3 | 488,2 | 492,5 | 48 | 48 | 48 | 48766 | 49324 | 48091 |
| **Cəmi** | 714 | 672 | 665 | 4822,5 | 4725,2 | 4674,5 | 595 | 594 | 597 | 201178 | 213458 | 215498 |

CƏDVƏL 2

## GƏNCƏ - QAZAX İQTISADİ RAYONUNUN MƏRKƏZLƏŞDİRİLMİŞ KİTABXANA SİSTEMLƏRİ VƏ KİTABXANALARI

| № | MKS-lər | Yarandığı il | Kitabxana fondu | Əhalisi | Oxucuların sayı | İnternetdən istifadə edənlər | Filialların sayı | Kitabxanalarda işləyənlərin sayı | Ali ixtisas təhsilli işçilər | Ali qeyri-ixtisas təhsilli işçilər | Orta ixtisas təhsilli işçilər | Orta qeyr iixtisas təhsilli işçilər | Orta təhsilli işçilər | Texniki işçilər |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | Qazax rayon MKS | 1980 -cı il | 541.100 | 81015 | 39700 | - | 52 | 128 | 22 | 15 | 58 | 18 | 18 | 15 |
| 2 | Ağstafa rayon MKS | 1990 -cı il | 391007 | 73944 | 35498 | - | 49 | 117 | 21 | 3 | 44 | - | 40 | 9 |
| 3 | Tovuz rayon MKS | 1925 -ci il | 652802 | 142854 | 501590 | - | 77 | 201 | 14 | - | 1 | 56 | 46 | 82 |
| 4 | Gədəbəy rayon MKS | 1932 -ci il | 509300 | 86193 | 298000 | - | 109 | 221 | 2 | 6 | 25 | - | 80 | 108 |
| 5 | Şəmkir rayon MKS | 1932 -ci il | 557840 | 173401 | 710500 | - | 95 | 171 | 12 | - | 46 | - | 71 | 44 |
| 6 | Daşkəsən rayon MKS | 1982 -ci il | 450000 | 30418 | 13000 | - | 59 | 142 | 2 | - | 1 | - | 80 | 59 |
| 7 | Göygöl rayon MKS | 1962 -ci il | 321815 | 53266 | 249000 | - | 48 | 122 | 4 | 4 | - | 24 | 34 | 54 |
| 8 | Samux rayon MKS | 1992 -ci il | 242439 | 49697 | 173790 | - | 32 | 98 | 1 | 5 | - | 3 | 48 | 41 |
| 9 | Goranboy rayon MKS | 1978 -ci il | 557215 | 86645 | 298500 | - | 96 | 225 | 9 | 4 | 21 | 5 | 86 | 100 |
| 10 | Gəncə şəhər MKS | 1976 -cı il | 500000 | 299342 | 604370 | 10 | 27 | 139 | 11 | 35 | 14 | 14 | 25 | 39 |
| 11 | Cəmi | - | 47,232518 | 1,076775 | 372,273 | 10 | 644 | 1564 | 98 | 72 | 210 | 120 | 528 | 551 |

*1. Azərbaycan kitabxanaları XXI əsrin informasiya məkanında. I və II c.-Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi.- Bakı: Nurlar, 2007.- 820 s.*

*2. "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı" (2004-2008-ci illər)// Azərbaycan.- 2004.- 11 fevral.*

*3. "Azərbaycan Respublikasında kitabxana informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət proqramı" // Kitabxanaşünaslıq və biblioqrafiya: elmi- nəzəri, metodiki və təcrübi jurnal.- 2008.- №2.- S.6-29*

*4. Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı // Azərbaycan.- 2007.- 21 aprel.*

*5. Xələfov A.A. İnformasiya cəmiyyətinin formalaşmasında kitabxanaların vəzifələri // Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri, metodiki və təcrübi jurnal.- 2005.- №2.- S.10.*

*6. İsmayılov X.İ., İsmayılov N.İ. "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın biblioqrafik informasiya təminatı // Humanitar elmlərin öyrənilməsinin aktual problemləri:ali məktəblərarası elmi məqalələr məcmuəsi.-Bur.7.-Bakı: Mütərcim, 2007.- S. 318-320.*

*7.Məmmədov. Z.S. Regionlarının iqtisadi inkişaf problemləri. – B.:Elm, 2007.- 465s.*

*8. Muradov Ş. M. İnsan potensialı: əsas meyllər, reallıqlar, problemlər.-B.: Elm, 2004.-660s.*

*9. Müstəqil Azərbaycan 10 il.-B.:Səda, 2001.-698 s.*

*10. Шиммон. Р. Роль и предназначение библиотек//Библиотечная столица.-2004.-№12 (26).-С.3*

*11.Всемирный саммит по информационному обществу. СПБ,2004.-С.125*

**Х. И.ИСМАИЛОВ**
**Н. И.ИСМАИЛОВ**
**И.З.БАЙРАМОВА**

## НЕКОТОРЫЕ ЗАМЕТКИ РАЗВИТИЕ БИБЛИОТЕЧНО-ИНФОРМАЦИОННЫХ РЕСУРСОВ В РЕГИОНАХ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ (В ПРИМЕРЕ ЭКОНОМИЧЕСКОГО РАЙОНА ГЯНДЖА-КАЗАХ)

### РЕЗЮМЕ

*В статье говориться о развитии Централизированной Библиотечной Системы (ЦБС) во втором большом регионе Азербайджанской Республики – в экономическом районе Гянджа-Казах, проявление заботы государства в этой области, о роли обеспечения в повышение интеллектуально-культурного развития населения*

**Kh.İ.İSMAİLOV**
**N.İ. İSMAİLOV**
**İ.Z.BAYRAMOVA**

## SOME PROBLEMS OF DEVELOPMENT OF LIBRARY-INFORMATION RESOURCES OF REGIONS OF AZERBAIJAN REPUBLIC (ON A MODEL OF GANJA-KAZAKH ECONOMIC REGION)

### SUMMARY

*This Article deals with development of Centralized Library Systems (CLS) of Ganja-Gazakh Economical region – the second largest region of Azerbaijan Republic, consern for this field provided by our government and the role of library – information supply in increasing intellectual and cultural level of population.*

**Raifə VƏZİROVA**
*Bibilioqrafiyaşünaslıq kafedrasının baş müəllimi*

# MƏRKƏZLƏŞDİRİLMİŞ KİTABXANA SİSTEMLƏRİNDƏ BİBLİOQRAFİK FƏALİYYƏTİN TƏŞKİLİ MƏSƏLƏLƏRİ

Respublikamızda biblioqrafik fəaliyyət sahəsində mühüm həlledici yeri olan Mərkəzləşdirilmiş Kitabxana Sistemləri (MKS) zəngin universal kitab fonduna malik olan ən böyük şəbəkədir. MKS-ləri artıq otuz ildən çoxdur ki, oxuculara kitabxana-biblioqrafiya xidməti sahəsində əsaslı uğurlara nail olmuş, biblioqrafiya işi sahəsində dövlət siyasətinin həyata keçirilməsinin mühüm vasitələrindən biri kimi fəaliyyət göstərir.

MKS-lərdə biblioqrafik fəaliyyətin inkişafını daha yaxşı izləmək üçün onu şərti olaraq bir neçə mərhələyə bölmək olar.

Birinci mərhələ-1974-1980-cı illəri əhatə edir. Bu dövr MKS-lərin yaradılması və təşkili dövrüdür.

1974-cü il məlum qərardan sonra 1974-1980-cı illərdə dövlət kütləvi kitabxanalarının mərkəzləşdirilməsi əsasən həyata keçirildi. Respublikamızda dövlət kütləvi kitabxanaların mərkəzləşdirilməsi kitabxana işinin inkişafında yeni bir mərhələ idi.

Məhz bu mərhələdə kitabxana işi sahəsində baş verən çox dərin dəyişikliklər biblioqrafik işin əsaslı şəkildə yenidən qurulmasını tələb edirdi. Bu dəyişikliklər bir çox mürəkkəb problemlərin həll edilməsinə imkan verdi. Belə ki, hər bir şəhərdə və rayonda filial sisteminə malik olan, əvvəllər müstəqil fəaliyyət göstərən kitabxanalardan müqayisə edilməz dərəcədə böyük üstünlüklərə və imkanlara malik olan vahid və böyük kitabxana müəssisələri yaradılırdı. Vahid kitabxana sisteminin yaranması kəmiyyət və keyfiyyətcə böyük və güclü universal kitab fondlarının yaranmasına səbəb olmuşdur. Mərkəzləşdirmənin həyata keçirilməsi ilə əlaqədar olaraq onların funksiyaları daha da genişlənmişdir. MKS-də biblioqrafiya işinin təşkilinin özünəməxsus xüsusiyyətləri vardır. Bu səciyyəvi xüsusiyyətlər aşağıdakı məsələlərdə özünü daha çox göstərir.

1. Bir rayon ərazisində mərkəzi kitabxana ilə filial-kitabxanalar arasında məsafə uzaqlığı;
2. Bir MKS-in başqasından mahiyyət etibarilə məhəlli profilinə, filialların sayına, oxucularının tərkibinə həm də kitabxana əhatəliliyinə görə fərqlənməsi;
3. Bir çox MKS-nin quruluşunda (tərkibində) uşaq-kitabxana filialların mövcudluğu;

4. Mərkəzi Kitabxananın kitab fondlarının universal olması müxtəlif oxucu kateqoriyalarının ümumtəhsil və ixtisas sorğularının ödənilməsi üçün əlverişli olması.

Qeyd edilənlərdən aydın olur ki, MKS-də biblioqrafik işin təşkili qarşısında duran bu ümumi məsələlərlə yanaşı onları biri-birindən fərqləndirən cəhətlər də vardır. Ona görə ki, onların biblioqrafik fəaliyyətlərinin məzmunu və xidmət dairəsi müxtəlifdir.

Bütün bunlarla yanaşı biblioqrafik fəaliyyətin təşkilində MKS-lər üçün eyni olan bir sıra faktorlar vardır. Onlar aşağıdakılardır:

a) Bütün sistem üzrə biblioqrafik fəaliyyətə rəhbərlik edən MK-nın təşkiledici rolu.

b) Ayrı-ayrı biblioqrafik proseslərin mərkəzləşdirilmiş şəkildə yerinə yetirilməsi

c) Sistemin yarımbölmələrinin ixtisaslaşdırılmış fəaliyyəti

Mərkəzləşmə kitabxanalara informasiya işini daha operativ və keyfiyyətli təşkil etmək, əhaliyə biblioqrafik xidmət prosesini yeni mərhələyə qaldırmaq imkanı verdi. Mərkəzləşmə kitabxana işinin idarə olunmasına, kitabxanalarda əməyin düzgün təşkilinə, işçilər arasında ixtisaslaşmalar aparılmasına, metodiki işin yaxşılaşdırılmasına əlverişli şərait yaratdı. Mərkəzləşmiş sistemlərdə kitabxana kataloqlarının yenidən qurulması, kartotekaların yaranması, məlumat fondlarının təşkili, filiallara köməklik göstərmək, əhaliyə biblioqrafik xidmətin forma və metodlarını daha da yaxşılaşdırmaq üçün bir çox yeni şöbələr təşkil edildi.Onların metodika-biblioqrafiya şöbəsini xüsusilə qeyd etmək lazımdır. Filial kitabxanalara metodiki rəhbərlik biblioqrafik iş proseslərinin daha səmərəli və keyfiyyətli yerinə yetirilməsində Mərkəzi Kitabxanada yaradılan bu şöbə xüsusi əhəmiyyətə malik olmuşdur.

MKS-in yeni yarandığı bir dövrdə şöbə filial-kitabxanaların biblioqrafik fəaliyyətini tənzimləyir, yerlərdə kataloq və kartotekaların yaradılmasına, soraq və biblioqrafik nəşrlər fondunun təşkilinə nəzarət edirdi.

MKS-nin fəaliyyət sahəsindəki inkişafının ikinci dövrü 1980-1985-ci illəri əhatə edir ki, bu dövr MKS-in təkmilləşdirilməsi və dinamik inkişaf dövrü adlandırmaq olar. Çünki məhz bu dövrdə istər biblioqrafiyalaşdırma, istərsə də biblioqrafik xidmət sahəsində demək olar ki, respublikamızın bütün rayon MKS-ində böyük nailiyyətlər əldə edilmişdir. Dövlət qayğısı ilə əhatə olunmuş MKS-lər üçün ayrılan vəsait ildən-ilə artırıldı. Ona görə də Mərkəzləşmiş Kitabxana Sisteminin maddi-texniki bazası gündən-günə möhkəmlənir, yeni kitabxana binaları tikilir, hər ay alınan kitablar əsasında vahid fondun formalaşması həyata keçirilir, bunun nəticəsində isə kitabxananın informasiya fəaliyyəti ümumiyyətlə biblioqrafik xidməti də geniş miqyas almağa başlayır. Bu dövrdə Mərkəzləşmiş Kitabxanalarda fəaliyyət göstərən elmi-metodiki şöbə filiallara metodiki rəhbərlik edir, onların biblioqrafik

fəaliyyətlərini düzgün istiqamətləndirir, yeni tövsiyyələr elmi məsləhətlər verir. Bu şöbə həmçinin mərkəzləşdirilmiş sistemin elmi tədqiqat işlərinin yaxşılaşdırılmasında fəal iştirak edir, qabaqcıl iş təcrübəsini tətbiq edir. Mərkəzi kitabxana filial-kitabxanaların plan və hesabatlarının tərtibində və göstəricilərin təhlilində fəal iştirak edir. Göstərilən bütün bu vəzifələrin həyata keçirilməsində yüksək ixtisaslı metodistlərin olması da vacibdir.

Bu dövrdə elmi-metodika şöbəsinin fəaliyyət dairəsi daha da genişlənmiş və zənginləşmişdir. Belə ki, şöbə soraq-bibliorafiya, eləcə də biblioqrafik informasiya xidmətinin səmərələşdirilməsinə, filial-kitabxanaların biblioqrafik fəaliyyətinin planlaşdırılması, hesabatların hazırlanması və ümumiləşdirilməsinə öz müsbət təsirini göstərirdi.

Beləliklə məlum olur ki, MKS-də metodiki işin düzgün təşkili sistemin ümumi fəaliyyətinin səmərələşdirir, xidmət işini sürətləndirir, zənginləşdirir və yeni nailiyyətlər üçün perspektivlər yaradır. Heç də təsadüfi deyildir ki, bu illərdə (1980-1985-ci illər) respublikada hər il orta hesabla 5-10 yeni kitabxana binası tikilir, 258 kitabxana təmir edilirdi. Mədəniyyət Nazirliyi tərəfindən kütləvi dövlət kitabxanalarına hər il orta hesabla 1 milyon 300 min manat vəsait ayrılırdı, onlara həmin vəsait hesabına ildə təqribən 2 milyon 200 min nüsxə yeni nəşrlər daxil olurdu. (4).

Üçüncü dövr 1985-1990-cı illəri əhatə edir. Bu dövrdə cəmiyyətimizdə baş verən sosial-iqtisadi, siyasi dəyişikliklər Mərkəzləşdirilmiş Kitabxana Sistemlərinə də öz mənfi təsirini göstərdi.Bazar iqtisadiyyatına keçid dövrü ilə əlaqədar olaraq kitabxanalara dövlət nəzarəti zəiflədi. Rayonlarda bir çox kənd filial kitabxanaları müvafiq binanın olmaması və maliyyə problemi ilə əlaqədar olaraq ləğv edilirdi. Ayda bir neçə dəfə kitab alan mərkəzləşdirilmiş kitabxana sistemlərində ildə bir-iki dəfə çox az miqdarda kitab alırdı. Belə bir vəziyyətisə mərkəzləşdirilmiş kitabxana sistemlərinin bütün biblioqrafik fəaliyyətini iflic vəziyyətinə salırdı. Əmək haqqının az olmasına görə kitabxanalarda kadr itkisi yaranırdı.

Vaxtilə respublikamızın biblioqrafik fəaliyyətinə çox böyük töhfələr bəxş etmiş Mərkəzləşdirilmiş Kitabxana Sistemləri maddi-texniki bazanın olmaması və onlara ayrılan dövlət vəsaitinin çox cüzi olması üzündən müasir texnologiyadan istifadə etməyə, oxuculara daha səmərəli operativ xidmət göstərməyə imkan vermirdi.

Cəmiyyətimizin bütün sahələrində baş verən belə çətinliklər bu yolu keçmiş ölkələrin hamısı üçün xarakterik olan ümumi problemlərdir. Kitabxanaların fəaliyyətində böhran yaradan iqtisadi vəziyyət müstəqilliyə qədəm qoymuş Azərbaycan Respublikası dövlətinin elm və mədəniyyət sahəsindəki yeritdiyi düzgün siyasətin nəticəsində aradan qaldırıldı.

Artıq son 20 ilə yaxındır ki, bütün tip kitabxanalarda olduğu kimi mərkəzləşdirilmiş kitabxana sistemlərinin biblioqrafik fəaliyyətində də yeni

bir dirçəliş hiss olunur. Buna səbəb kitabxana işinə dair bir çox qərar, qanun, təlimatların qəbulu və kitabxana işçilərinin əmək haqqlarının artırılması idi. Ümumiyyətlə, hər bir Mərkəzləşdirilmiş Kitabxana Sisteminin təşkili və fəaliyyəti aşağıdakı dövlət sənədlər ilə tənzimlənir:

1. Dövlət kütləvi kitabxanalarının mərkəzləşdirilməsi haqqında Əsasnamə;
2. Mədəniyyət orqanlarının əmr və sərəncamları;
3. Metodiki mərkəzlərin tövsiyələri;
4. MK, MUK və kitabxana-filiallar haqqında Əsasnamə;
5. MKS işçilərinin vəzifə təlimatları;
6. Kitabxanadan istifadə qaydaları;
7. Daxili əmək intizamı qaydaları;
8. Əsas texnoloji proseslərin təşkili üzrə təlimatlar.

Məhz bu dövrdə Mərkəzləşdirilmiş Kitabxana Sistemində biblioqrafik informasiya xidməti daha geniş miqyasda həyata keçirilirdi. Hər bir mərkəzi kitabxana vahid fonda daxil olan yeni ədəbiyyatın bülletenlərini nəşr edir, öz ərazisində yerləşən idarə və müəssisələrə, filial-kitabxanalara göndərirdi. Bu illərdə Xətai rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin S.Vurğun adına mərkəzi kitabxanası hər ay vahid fonda daxil olan ədəbiyyatın məlumat bülletenlərini nəşr etdirib müvafiq idarə, müəssisə məktəb və filial kitabxanalara göndərirdi. Bu proses 1988-ci ilə qədər davam etmişdir (9).

MKS-lərdə biblioqrafik fəaliyyətin inkişafı müstəqillik illərində daha intensiv olmuşdur. Belə ki, bu dövrdə MKS-də yeni informasiya texnologiyalarının tətbiqi onların bazasında elektron-informasiya mərkəzlərinin yaradılması işinə başlanmışdır.

1998-ci ildə Milli Məclis ölkəmizin tarixində ilk dəfə olaraq «Kitabxana işi haqqında» Azərbaycan Respublikasının Qanununu qəbul etdi (5). Bu qanun ölkəmizdə kitabxana işi sahəsində dövlət siyasətinin əsasıdır. Professor A.Xələfovun yazdığı kimi, «Bu qanun Azərbaycanda kitabxana işinə dövlət münasibətinin, dövlət qayğısının və dövlət siyasətinin əsası, onun məhək daşıdır kitabxana işinin qorunub saxlanılması və inkişafının hüquqi bazasıdır» (3).

Bu qanundan sonra MKS-lər də öz inkişafının yeni mərhələsinə qədəm qoymuşdur.

Müasir dövrdə MKS-lərin əsas vəzifələrindən biri onlarda informasiya texnologiyalarının inkişafı tutur. Çünki, müasir informasiya texnologiyasının biblioqrafik proseslərə tətbiqi olmadan cəmiyyətin informasiyalaşdırılmasından danışmaq qeyri-mümkündür. MKS-lər cəmiyyətin informasiya təminatında iştirak etməklə dövlətimizin bütün sahələrdə apardığı siyasətin müvəffəqiyyətlə yerinə yetirilməsində əsas müəssisələrdən biridir.

Məlumdur ki, biblioqrafiya insanlar arasındakı informasiya münasibətlərini tənzimləyən əlaqə vasitəsidir. Bu mənada cəmiyyətimizin informasialaşdırılmasında kitabxanalarda aparılan bibiloqrafik xidmətin əhəmiyyəti əvəzolunmazdır. Çünki, informasiya tələbatçılarının biblioqrafik təminatı məhz kitabxanada aparılan biblioqrafik informasiya və soraq-biblioqrafiya xidməti zamanı ödənilir. Hər bir MKS-də biblioqrafik informasiya xidməti elə təşkil edilməlidir ki, tələbatçı ona lazım olan informasiyanı tam və dolğun əldə edə bilsin. Bunun üçün isə ənənəvi bibiloqrafik xidmət vasitələrindən əlavə müasir texnologiyadan da istifadə etmək lazımdır.

Ölkəmizdə kənd təsərrüfatı və sənaye müəssisələrinin çoxu elmi və elmi-texniki kitabxanalar yerləşən mərkəzdən, ərazi məlumat orqanlarından uzaq olduqları bir vaxtda adları çəkilən müəssisələrin biblioqrafik təminatında MKS-lərin rolu və əhəmiyyəti inkaredilməzdir. Aydındır ki, MKS-lər ancaq öz fondlarına əsaslanaraq yüksək ixtisaslı mütəxəssislərin biblioqrafik təminatını ödəmək iqtidarında deyillər. Ona görə də MKS-lər mütəxəssislərin biblioqrafik informasiya tələbatlarının ödənilməsində yüksək səviyyəli kitabxanaların informasiya ehtiyatlarından, ərazi məlumat orqanlarının xidmətlərindən geniş şəkildə istifadə edirlər. Beləliklə də, ərazi və sahəvi məlumat orqanlarının olmasına baxmayaraq xalq təsərrüfatı mütəxəssisləri MKS-in iştirakı olmadan kitabxana-biblioqrafiya xidməti ilə əhatə oluna bilməz. Artıq bu gün MKS-lər ayrılıqda deyil, bir-biri ilə əlaqədar, bir-birini tamamlayan vahid sistem kimi fəaliyyət göstərir.

Kompüter texnologiyasının biblioqrafik proseslərə tətbiqi, İnternet əlaqələrinin genişlənməsi, elektron informasiya daşıyıcılarının ildən-ilə artması MKS-lərdə də bu işlə məşğul olacaq xüsusi şöbənin açılması zərurətini yaradır. Bunun üçün isə birinci növbədə maddi-texniki baza və həmin texnologiya ilə işləməyi bacaran mütəxəssislər olmalıdır. Onu da qeyd etmək lazımdır ki, artıq bu gün bir çox rayon MKS-də Regional İnformasiya Mərkəzləri yaradılmışdır. Nümunə olaraq Xaçmaz rayon MKS-də 2005-ci ildən fəaliyyət göstərən Regional Kitabxana. Məlumat Mərkəzini göstərmək olar. Bu şöbədə 5 ədəd kompüter, 1 printer və İnternetə çıxış var. Son 2 il ərzində Mərkəzdən 1170 nəfər istifadə etmişdir. (8).

Təəssüflə qeyd etmək lazımdır ki, bunu bütün kitabxana sistemləri haqqında demək olmaz.

Bütün tip kitabxanalarda olduğu kimi MKS-lərdə də soraq biblioqrafiya aparatı (SBA) biblioqrafik fəaliyyətin əsas bazası hesab edilir. SBA-nın əsas məqsədi kitabxana fondunu tam əks etdirməkdən ibarətdir. Onun ayrı-ayrı tərkib hissələri qarşılıqlı əlaqədə olmalı və bir-birini tamamlamalıdırlar. SBA-nın tərkib və məzmununa kitabxananın xidmət göstərdiyi rayonun profili və onun oxucu kontingentinə təsir göstərir. SBA-nın optimal təşkili, onun elmi

idarə olunmasını tələb edir ki, SBA elementlərinin təkmilləşdirilməsi də onun xüsusiyyətləri sistem halında nəzərə alınaraq tərtib edilsin. Bununla əlaqədar olaraq MKS-nin xüsusiyyətlərinə və onun mürəkkəbliyinə diqqət yetirmək lazımdır.

SBA-nın bugünkü tərkibi uzun illər davam edən tarixi inkişafın nəticəsidir. Əvəllər SBA ancaq kitabxana fondunun tərkibini açan kataloqlardan ibarət idi. Daha sonralar SBA-nın tərkibinə müxtəlif məlumat nəşrləri, biblioqrafik nəşrlər, eləcə də kitabxanada tərtib olunan kartotekalar və əvvəllər yerinə yetirilmiş yazılı arayışlar da daxil edilir. Bu onu göstərir ki, SBA yarandığı gündən bu günə kimi onun tərkibi daima dəyişmiş və təkmilləşmişdir. Bu proses bu gün də davam edir. Belə ki, müasir texnologiyanın, xüsusilə kompüter texnologiyasının biblioqrafik proseslərə tətbiqi MKS-nin soraq biblioqrafiya aparatını daha da zənginləşdirir.

MKS-də SBA-nın funksiyaları çox müxtəlifdir və biblioqrafik fəaliyyətin bütün istiqamətlərində ondan istifadə olunur. Biblioqrafik proseslərə yeni texnologiyaların tətbiq edilməsi MKS-lərdə ənənəvi kataloq və kartotekaların elektron formaya keçirilməsinə imkan yaradır. Bu məsələnin həlli Mərkəzləşdirilmiş Kitabxana Sistemləri üçün bu gün ən vacib problemlərdən biridir. Çünki onlarla filial kitabxanaları özündə birləşdirən Mərkəzi Kitabxana fəaliyyət göstərdiyi regionun metodiki mərkəz funksiyasını yerinə yetirir.

İnformasiyalı cəmiyyətə keçdiyimiz bir dövrdə MKS-lərin əsas vəzifəsi informasiya ehtiyatlarını yaratmaq və formalaşdırmaqdan ibarətdir. Mərkəzləşdirilmiş kitabxana sistemlərində aparılan biblioqrafik fəaliyyəti daha düzgün və səmərəli təşkil etmək üçün müasir texnologiyadan və ixtisaslı kadrlardan istifadə etmək vacibdir.Bu məsələyə əhəmiyyət verməyən kitabxanalar öz işində müvəffəqiyyət qazana bilməz.

## ƏDƏBİYYAT


*1. Xələfov A.A. Azərbaycanda kitabxana işinin mərkəzləşdirilməsinin bəzi yekunları və təkmilləşdirilməsi məsələləri (Tematik məcmuə).- B., 1986. 5.3-24*

*2. Xələfov A.A.İnformasiyalaşdırılmış cəmiyyətin xüsusiyyətləri və problemləri// Respublika.- 2002.- 17 aprel.- S. 4.*

*3. Xələfov A. XXI əsrin əvvəllərində Azərbaycanda kitabxana işinin əsas inkişaf istiqamətləri (mülahizələr, təkliflər və proqnozlar).- B., 2006.- 106 s.*

*4. Xələfova S.A. Azərbaycanda Dövlət kütləvi kitabxanalar şəbəkəsinin inkişafı (1970-1990).- B., 2007.-160 s.*

*5. Kitabxana işi haqqında Azərbaycan Respublikasının Qanunu// Kitabxanaşünaslıq və biblioqrafiya. 1999.- № 1.- S. 3-16.*

*6. Koqotkov D.Ə. Spravoçno-biblioqrafiçeskiy aparat biblioteki. M., 1998.- 60 s.*
*7. Mərkəzləşdirilmiş kitabxana sistemlərində işin təşkili. B., 1988.- 176 s.*
*8. Xaçmaz rayon MKS-in 2007-ci il hesabatı.*
*9. Xətai rayon MKS-in 2000-ci il hesabatı.*

**Р.А ВЕЗИРОВА**

## ОСОБЕННОСТИ ОРГАНИЗАЦИИ БИБЛИОГРАФИЧЕСКОЙ ДЕЯТЕЛЬНОСТИ В ЦБС

### РЕЗЮМЕ

*В статье анализируется развития библиографической деятельности в ЦБС по этапам. Подробно изучены особенности организации СБА и библиографического обслуживания потребителей информации. А так же в статье изучено методы использование информационно коммуникативных технологий в библиографических процессах.*

**R.A .VAZİROVA**

## THE FEATURES OF ORGANIZING OF BIBLIOGRAPHIC ACTIVITY IN CLS

### SUMMARY

*In article, is analyzed the development of bibliographic activity in CLS in stages. Cjmprehensively learned the features of organization CLS and the bibliographic service to information users. Also in article are learned methods of using of information communication technologies in bibliographic process.*

**Qəmzə HACIYEVA**
***Biblioqrafiyaşünaslıq kafedrasının baş müəllimi***

## ƏN-NƏDİMİNİN «FİHRİST» ƏSƏRİ BİBLİOQRAFİYA MƏNBƏYİ KİMİ

Hər bir xalq özünün tarixi inkişaf mərhələsində iqtisadi, siyasi mədəni, tarixi, etnik, təbii-coğrafi vəziyyəti ilə şərtlənən biblioqrafik informasiya mənbələri yaradır və onlardan istifadə edir. Bunun nəticəsində millətin bütün biblioqrafik fəaliyyəti və onun ayrı-ayrı komponentləri fərqli spesifik xüsusiyyətlərə malik olurlar.

Biblioqrafiyanın milli xüsusiyyətləri obyektiv mövcud olub, bilavasitə millətin maddi və mənəvi mədəniyyəti ilə sıx bağlıdır. Milli biblioqrafiya bir tərəfdən millətin mədəni nailiyyətlərini əks etdirirsə, digər tərəfdən onun inkişafına təsir göstərir.

Keçmiş sovet biblioqrafiyaşünaslığında milli bibliorqafiyanı uzun müddət xarici termin hesab edərək, onu biblioqrafiya terminləri haqqında dövlət standartlarına daxil etməmişlər. 1977-ci il standartında (QOST 7.0-77) isə onun mahiyyəti dövlət biblioqrafiyası ilə eyniləşdirilir.

Dövlət biblioqrafiyası ilə milli biblioqrafiyanın eyniləşdirilməsi düzgün deyil. Milli biblioqrafiyanın əsasını nəşr yerinə, dilinə görə müəyyən xalqa aid olan sənədlər və yerli müəlliflər, onların əsərləri haqqında biblioqrafik informasiya təşkil edir. Belə ki, dünyanın bir çox xalqlarının öz dövləti yoxdur. Dövlət biblioqrafiyası yalnız birinci qrup sənədləri əhatə edir və bunun üçün dövlət məcburi nüsxə haqqında qanun tətbiq edir, vəsait xərcləyir və s.

Milli biblioqrafiya terminləri ədəbiyyatın mövcud, müxtəlif real uçot formaları birləşdirir:

1) Ərazi əlamətinə görə uçot (müəyyən ölkə daxilində bütün dillərdə nəşr olunmuş ədəbiyyat əks olunur).

2) Dil əlaməti üzrə uçot (nəşr yerindən asılı olmayaraq müəyyən dildə olan ədəbiyyat əks olunur).

3) Müəyyən ölkə ilə ərazi, dil, müəllif və məzmunca bağlı olan bütün materialların uçotu. Onu kompleks prinsip adlandırmaq daha məqsədəuyğundur. Çünki o, həm ərazi, həm dil əlamətləri, həm yerli xadimlərin xarici nəşrlərini, həm də ölkə haqqında hər hansı bir ədəbiyyatın qeydini özündə birləşdirir.

Ən qədim milli biblioqrafiya nümunələrindən biri Ən-Nədiminin «Fihrist» əsəridir. Bu əsər biblioqrafik abidə olmaqla yanaşı, ərəb dilinin

tədqiqatçılarına da yaxşı tanışdır və bir çox elmi və elmi-kütləvi nəşrlərdə onun haqqında ətraflı məlumat verilir. Biblioqrafik məlumat mənbəyi kimi «Fihrist» əsəri az öyrənilmiş, yalnız B.Semenovkerin məqaləsində (2, s. 86-89) daha ətraflı tədqiq edilib araşdırılmışdır. Məqalə müəllifi bu yazılı abidəni öyrənərkən onun mətninin iki nəşrindən istifadə etmişdir. Onlardan ərəb dilindəki Q.Flüqelə, ingilis dilində olan isə B.Dodja məxsusdur. B.Dodjin nəşri «Fihrist»in daha dolğun və tam olan müasir variantıdır. Həmin variant indiyədək məlum olan əlyazmalar əsasında yaradılmışdır. Belə əlyazmalardan bəzilərini Q.Flüqel XIX əsrdə əldə edə bilməmişdir. Qeyd edək ki, Q.Flüqel bu əsəri 2 cilddə 1871-1872-ci illərdə ərəb dilində, 1970-ci ildə isə B.Dodj ingilis dilində çap etdirmişdir.

Ən-Nədimi haqqında məlumat çox azdır. Onun əsl Adı Əbül Fərəc Mühəmməd ibn İshaq ibn Mühəmməd ibn İshaqdır. Amma onu sadəcə olaraq Ən-Nədim, yəni yüksək vəzifəli şəxslərin həmsöhbəti adlandırırdılar. Nədimin vəzifəsi himayədarlarını mənalı söhbətləri ilə əyləndirmək idi.

«Fihrist»in ən qədim əlyazmasında müəllif Ən-Nədim adlandırılmışdır. Sonralar bəzi müəlliflər onu İbn Ən-Nədimi (Nədimin oğlu), yaxud Əl-Varraq (kitab taciri) adlandırmışlar.

«Fihrist»də olan məlumata görə Ən-Nədimiin təqribən 935-ci ildə anadan olmuşdur. Atasının kitab dükanı olduğundan o, uşaq yaşlarından kitab ticarəti və kitabların üzünün köçürülməsi ilə məşğul olmuşdur. Bu məşğuliyyət onda biblioqrafik işə və kitabşünaslığa maraq oyatmışdır. Belə güman edirlər ki, o, 990-cı ildə «Fihrist» əsərini bitirdikdən sonra vəfat etmişdir.

X əsrdə yaradılmış Ən-Nədimin «Fihrist» əsəri dövrümüzə tam şəkildə gəlib çıxmış ən qədim mədəniyyət abidələrindəndir. «Fihrist» ərəbcə «göstərici» və ya «məlumat kitabı» deməkdir. «Biblioqrafiya» sözü ilə eyni məna kəsb edən və müasir ərəb dilində biblioqrafik fəaliyyət mənasını verən «fihrisiyə» sözü də bu deməkdir.

Əsərin ümumi səciyyəsi onun giriş hissəsində verilmişdir. Bu, bütün xalqların, ərəblərin, qeyri-ərəblərin ərəb dilində yazılmış kitabları, elmi əsərləri, müəllifləri, onların mənsub olduqları təbəqələr, doğulduğu tarix, həyatı, ölüm tarixi, yaşadıqları şəhərin yeri, üstünlükləri və çatışmayan cəhətləri, hicrətdən sonrakı 377-ci (987/988-ci illər) ilədək olan hadisələrin göstəricisidir. Beləliklə, «Fihrist» bibliloqrafik abidə kimi 987-ci ildən erkən yaranmışdır. Minilliyi tamam olmuş bu biblioqrafik soraq kitabının əsasını dil prinsipi təşkil edir. Bu prinsip Milli biblioqrafiya nəşrlərində ədəbiyyatın əsas uçot prinsiplərindən biridir.

Ən-Nədiminin atası kitab taciri olmuşdur. Müəllifin ömrünün çox hissəsini Bağdadda keçirməsi və oranın kitab bazarı ilə tanış olması «Fihrist»in coğrafi əhatəsini müəyyənləşdirir. Əsərdə Çinin, Hindistanın, Fransanın, rusların və b. yazı nümunələrindən bəhs olunur. «Fihrist»in tədqiqatçısı

Y.Funkin finkrincə, çox güman ki, bu əsərə Bağdad kitab bazarına gəlib çıxan kitablar haqqında məlumat daxil edilmişdir.

«Fihrist»in həcmi barəcə danışarkən burada sadalanan adların sayı heyrət doğurmaya bilməz. Təkcə II fəsildə 238 müəllif və 1116 əsər haqqında məlumat verilmişdir. Ümumiyyətlə, 3428 müəllifin adı çəkilmişdir. Bunların içərisində ərəb, yunan, roma və d. hökmdarların, rəsmi simaların, hərbçilərin, hüquqşünasların, hətta kitab cildləyənlərin adlarına rast gəlmək olar. Əsərin əsas xüsusiyyəti onun elmi, tarixi-ədəbi xarakter daşımasıdır. Təkcə bu ilk nəhəng biblioqrafik əsərin yaranması faktı ərəb kitab mədəniyyətinin o dövrdə yüksək təşəkkül tapmasına sübutdur. «Fihrist» universal biblioqrafik göstəricidir. O, müxtəlif elm sahələrinin müəllifləri və əlyazma əsərləri haqqında məlumatı əks etdirir. Burada material müəllifin özü tərəfindən yaradılmış təsnifat əsasında sistemli qaydada qruplaşdırılmışdır. Bütünlükdə «Fihrist» 10 fəsil və 34 bölmədən ibarətdir. Fəsillər aşağıdakılardır:

1. İslamaqədərki elmlər və Quran, o cümlədən müxtəlif xalqların yazı sistemləri və kitab mədəniyyəti haqqında
2. Filologiya, ərazi məktəbləri üzrə bölgü ilə.
3. Tarix (islam tarixi).
4. İslamaqədərki və islam poeziyası.
5. Müsəlman ilahiyyatı, təriqətlər üzrə bölgü əsasında.
6. Müsəlman hüququ, məktəblər üzrə bölgü əsasında.
7. Fəlsəfə, riyaziyyat, astronomiya, təbabət.
8. Əyləncəli ədəbiyyat, o cümlədən qeyri-müsəlman xalqların tarixi.
9. Qeyri-müsəlman xalqların dini təlimləri.
10. Kimyagərlik.

«Fihrist»in təsnifat sxemi üçün bütün elmlərin iki qismə (ərəb və yadelli) bölünməsi xarakterik cəhətdir. Bu bölgüdə o dövrdə ərəb mədəniyyətinə xas olan cəhət-dini və fəlsəfi biliklərin qarşılaşdırılması öz əksini tapmışdır.

Əsərin ərəb fəsilləri də öz növbəsində iki qismə ayrılır: dini (1-4) və tətbiqi (5-6). Burada fəsillər X əsrdə elmlərin nüfuzuna görə yerləşdirilmişdir. Filologiya onların arasında birinci yeri tutur. Çünki Quranın şərhi və ərəb dilinin təmizliyinin saxlanması üçün bu çox vacibdir. Müsəlman tarixşünaslığı filologiya əsasında yarandığı üçün ikinci yeri tutur. Onun ardınca poeziya, xüsusilə islamaqədərki poeziya haqqında olan fəsil gəlir. Nəhayət, yalnız X əsrdə hüquq ilahiyyatdan ayrıldığı və mənəvi deyil, əməli elm olduğu üçün islam bilikləri sırasında sonuncu yeri tutur. Fəsillərdəki bölmələrin ardıcıllığında isə elmi məktəblər və elmi təlimlərin əhəmiyyəti əsas götürülmüşdür.

Bölmələrdəki bioqrafik və biblioqrafik materiallar məzmunundan asılı olaraq müxtəlif səviyyələrdə qruplaşdırılır. Burada həm xronoloji ardıcıllıq, həm müəlliflər arasındakı əlaqə, həm müəllim-şagird münasibəti nəzərə

alınmışdır. Müəllif haqqında bioqrafik məlumatdan sonra, onun əsərləri haqqında məlumat əks olunmuş, bir çox kitabların məzmunu açılmış, bəzən onlardan şeirlər, kəlamlar verilmişdir. Ən-Nədim kitabın müxtəlif variantları, ölçüsü, səhifələrin miqdarı, sətirlərin sayı haqqında məlumat verməklə yanaşı, bəzi hallarla illüstrasiyalar haqqında da məlumatı əks etdirir. «Fihrist» də kitabların qiyməti nadir hallarda göstərilir, hansı kitablara daha böyük tələbat olduğu qeyd olunur.

I. Bioqrafik məlumatların həcmi «Fihrist»in müəllifinin hansı faktlar əldə etdiyindən çox asılı idi. Bəzi məqalələr dolğunluğu ilə seçilsə də, bəzilərində müəyyən bioqrafik faktlara təsadüf edilmir. Tərtibçi bu halda qeyd edir ki, müəllifin həyatı barədə məlumat yoxdur və onun kitablarının adlarını sadalamaqla kifayətlənir. Bəzi müəlliflər haqqında isə o, aşağıdakı qeydləri verir: «Onun heç bir kitabı da məlum deyil. Lakin sözlərini, kəlamlarını hələ də xatırlayırlar».

Ayrı-ayrı ədiblərin əsərlərinin siyahısı göstərildiyi halda, bəzilərinin yalnız kitablarının sayı qeyd olunur. Müəyyən qisim müəllifləri ehtiram əlaməti olaraq onların əsərləri mövzular üzrə qruplaşdırılmışdır. Məsələn, fəlsəfə, məntiq, hesab və s.

Əgər hər hansı bir əsərin iki variantı (tam və qısa) mövcuddursa, əvvəlcə birincisi göstərilir. Bu onunla izah olunur ki, bəzən ixtisar olunmuş variant digərinə nisbətən daha geniş yayılmışdır. Yunan, fars və digər dillərdən tərcümə edilmiş əsərlərin siyahıları da böyük üstünlük təşkil edir. Bu zaman tərcüməçinin daha hansı əsərləri tərcümə etdiyi və sifarişçinin kim olduğu da göstərilir. Eyni zamanda şərikli müəlliflər haqqında da məlumat verilmiş, yaxud hansı müəllifin əsəri başlaması, hansının isə sona çatdırılması qeyd olunmuşdur. Bəzən belə faktlara da təsadüf olunur ki, kitab müəyyən müəllifin adı ilə bağlı olsa da, onun yaradıcısı tamamilə başqa adamdır.

Məşhur kitablar haqqında məlumatlar xüsusi əhəmiyyət kəsb edir. Belə əsərlərin təsviri, məzmunu, quruluş prinsipi, əhəmiyyəti, tərcümələri haqqında məlumat, şərh və təkliflər göstərilmiş, kimin üçün yazılması qeyd olunmuşdur.

«Fihrist» müəllifi kitabların məzmununu açmaq müxtəlif metodlardan istifadə etmişdir. Daha məşhur kitablar fəsil-fəsil təsvir olunmuş, onlardan mətnlər, şeirlər, kəlamlar verilmiş, əsərin əhəmiyyəti ön plana çəkilmişdir.

«Fihrist» ərəb kitab mədəniyyətinin öyrənilməsində tükənməz məlumat mənbəyidir.

Müəllif məlumatın əldə edilməsinin üç əsas üsulunu tətbiq etmişdir: kitablarla bilavasitə tanışlıq, şifahi məlumatlar və mənbələrdən iqtibaslar. «Fihrist»də Ən-Nədiminin istifadə etdiyi biorafik və biblioqrafik əsərlər barədə də geniş məlumat vardır. Bioqrafik əsərlərin çoxu sahəvi xarakter

daşıyır. Burada Platonun, Aristotelin, Qalenin və başqalarının ərəb dilinə tərcümə olunmuş biobiblioqrafik əsərlərindən geniş istifadə olunmuşdur.

Ən-Nədiminin bu əsəri şəxsi təşəbbüs əsasında yaranmış və sözsüz ki, nöqsansız da deyildir. Müəllif özü də bəzən məhdud məlumata malik olduğunu etiraf edir.

Ən-Nədiminin əlyazması yarandıqdan təqribən 200 il sonra, yalnız XIII əsrdə ərəb alimləri tərəfindən aşkara çıxarılmış və uzun müddət əlyazması şəklində üzü köçürülərək yayılmışdır. Sonrakı surətlərdə mətnə əlavələr və dəyişikliklərin edilməsi onun əhəmiyyətini daha da artırmışdır.

XIII əsrdən başlayaraq bu günə qədər «Fihrist» mütəxəssislər tərəfindən yüksək qiymətləndirilmiş və o, ərəbşünaslar üçün ən qədim deyil, həm də ən mükəmməl informasiya mənbəyidir. O, milli biblioqrafiyanın ilk tam külliyatı idi.

## ƏDƏBİYYAT

*1. Гудовщикова И.В., Лютова К.В. Общая иностранная библиография.- М.: Книга, 1978- 224 с.*

*2. Семеновкер Б.А. Тысячелетие «Фихриста» Ан-Надима// Сов. Библиография.- 1987.- № 2.- С. 86-89*

**Г.С. ГАДЖИЕВА**

## ПРОИЗВЕДЕНИЕ АН-НАДИМА «ФИХРИСТ» КАК БИБЛИОГРАФИЧЕСКИЙ ИСТОЧНИК

### РЕЗЮМЕ

*В статье характеризуется произведение Ан-Надима «Фихрист» который был создан в X веке. Это произведение имеет больщое значение и изучение арабской книжной культуры. Он не только древний, но и важнейщий источник информации.*

**G.S. HAJİYEVA**

## PIECE «FIHRIST» OF AN-NADIM AS THE BIBLIOGRAPHIC SOURCE

### SUMMARY

*The article examines the tenth century's piece of «Fihrist» An-Nadim. This piece is of great importance for the study of the Arabic book culture. It is not only ancient but also an important source of information.*

**Solmaz SADIQOVA**
*Biblioqrafiyaşünaslıq kafedrasının baş müəllimi*

# AZƏRBAYCAN KİTABINA HƏSR OLUNMUŞ BİBLİOQRAFİK İNFORMASİYA MƏNBƏLƏRİ

XX əsrin sonlarında yenidən öz dövlət müstəqilliyini qazanmış ölkəmizdə milli dövlət ideyalarının və ənənələrinin möhkəmlənməsində, demokratik dəyərlərin bərqərar olmasında, beynəlxalq aləmdə Azərbaycanın rolunun və nüfuzunun güclənməsində mətbuatımızın xidmətləri xüsusi qeyd edilməlidir.

Azərbaycan Respublikası Prezidentinin Azərbaycan elmində islahatların aparılması ilə bağlı Dövlət Komissiyasının yaradılması haqqında Sərəncamında deyilir: «Azərbaycanda elmi araşdırmaların həyata keçirilməsinin zəngin ənənələri vardır. Yüzillər boyu mütəfəkkir sənətşünaslarımız tərəfindən yaradılan və bədii-estetik düşüncə tariximizin incilərinə çevrilən əsərlərdə elmi-fəlsəfi fikirlər parlaq təcəssümünü tapmışdır. Dünya elmi fikir tarixinə görkəmli şəxsiyyətlər bəxş edən Azərbaycanda bütün bu dövrlərdə elm özünün yüksək səviyyəsi ilə seçilmişdi» (1).

Kitab mədəni irsin, xalqın mənəvi sərvətinin qiymətli bir hissəsi, siyasi-ideoloji mübarizənin qüdrətli vasitəsidir. Kitablar bizim müdrik babalarımızın yadigarı, tarixin canlı şahidləridir. Yazı və dilin, ədəbiyyat və incəsənətin, elm və texnikanın inkişafı ilə bağlı olan kitabların mənşəyi tarixin çox qədim dövrlərinə gedib çıxır. Müasir çap kitabının ən qədim sələfləri daş, ağac, gil və kaşı qablar, bürünc, sümük və s. materiallar üzərində yazılmış müxtəlif mətnlərdir. Əlbəttə, kitab sənətinin müasir səviyyəyə çatanadək keçdiyi yolu bütün ölkələr eyni vaxtda qət etməmişdir. Orta və Yaxın Şərq xalqları öz qədim yaxın mədəniyyətlərini əlyazma kitabları vasitəsi ilə inkişaf etdirərək, ağır və keşməkeşli bir yol keçdikdən sonra kitab çapına başlaya bilmişdir.

Milli mədəniyyətimizin zəngin xəzinəsi olan «Azərbaycan kitabı» ən dəyərli sərvətlərimizdən hesab olunur. Azərbaycanın müstəqil bir dövlət kimi inkişafında elm, təhsil və mədəniyyətin inkişaf etdirilməsində kitabın rolu əvəzolunmazdır. Milli Azərbaycan kitabının ümumi retrospektiv biblioqrafik repertuarının yaradılması probleminin həlli iki elmi və təcrübi əhəmiyyətli iş üçün çox böyük kömək ola bilər. Bunlardan birincisi, Azərbaycanda kitab nəşrinin inkişafında əldə edilmiş nailiyyətlərin biblioqrafik baxımdan ümumiləşdirilməsi və onlar haqqında ən dolğun informasiya əldə edilməsi ilə əlaqədardır. İkincisi isə, milli kitablarımızın həm zaman, həm də məkan etibarilə retrospektiv axtarışının müvəffəqiyyətlə təmin edilməsi ilə bağlıdır.

Bu problemin müvəffəqiyyətli və müasir dövrün tələbləri səviyyəsində həlli iki istiqamətli tədqiqat aparılmasını tələb edir. Birincisi, indiyə qədər «Azərbaycan kitabı» göstəricisinin çap olunmuş I cildinin və II cildin I

kitabının əhatəlik dolğunluğunu və dəqiqliyini öyrənməkdən və tədqiq etməkdən ibarətdir. İkinci istiqamət isə növbəti cildlərin xronoloji ardıcıllıq prinsiplərini bir daha nəzərdən keçirmək, əsaslandırmaq və bununla həmin problemin həlli ilə məşğul olmaqdan ibarətdir.

1959-cu ildə Azərbaycan SSR Mədəniyyət Nazirliyi «Azərbaycan kitabı» göstəricisi haqqında əsasnamə təsdiq edir və bu əsasnaməyə görə Azərbaycan kitabının ümumi retrospektiv göstəricisi 3 cilddə nəzərdə tutulur. Birinci cildə 1920-ci ilə qədər nəşr olunan kitablar daxil edilməli, ikinci cild 1920-1940-cı illəri, üçüncü cild isə 1940-1960-cı illəri əhatə etməli idi. Sonra isə hər beşillik üçün yerli çap məhsullarının qeydini əks etdirən əlavə buraxılışların çap olunması nəzərdə tutulurdu. 1963-cü ildə Ə.Y.Əliyev tərəfindən tərtib olunmuş «Azərbaycan kitabı»nın birinci cildi çapdan çıxdı (1) və bu göstəriciyə müqəddiməni professor Ə.Mirəhmədov yazmışdır. Repertuar tipli milli retrospektiv göstəricilərin keyfiyyət meyarından biri onların dolğunluğudur.

Biblioqrafik göstəricidən məlum olur ki, ilk Azərbaycan kitabı belə adlanır: Məzidi-izzət və müqəddəs cənablu mübaliğə ilə hökmdari padşahi-əzəmi-imperatoriçə Yekaterina saniyə həzrətlərinin cəmi Rusiyyə imperiyasında əyalətlərin nizam və tərtibi üçün icad və imla olunmuş qanuni-cədiddir. Peterburq, 1780. 204 səh. 28x21sm.

Bu biblioqrafik göstərici çapdan çıxandan sonra mətbuatda yüksək qiymətləndirilmişdir. 1780-1920-ci illərdə çap olunmuş 1329 adda kitab haqqında məlumat verən bu göstəricinin tərtibində iki meyar əsas götürülmüşdür:

1. Azərbaycanlı müəlliflərin əsərləri. Bu halda onların yaşadıqları yerdən, hansı dildə yazdıqlarından və harada nəşr olunmasından asılı olmayaraq bütün əsərləri göstəriciyə daxil edilmişdir. 2. Dil əlaməti, yəni müəlliflərin milliyətindən, əsərlərinin nəşr yerindən asılı olmayaraq, Azərbaycan dilində olan bütün kitablar.

Gərgin zəhmət və axtarış, xüsusi tədqiqat tələb edən bu göstəricinin tərtibi prosesində respublikanın və ölkənin 20-dən çox iri kitabxanasının fondu nəzərdən keçirilmişdir. Göstəriciyə Əziz Mirəhmədov tərəfindən Azərbaycan kitabının tarixi icmalını əks etdirən geniş müqəddimə verilmişdir. Bundan sonra vəsaitə daxil edilmiş materialların biblioqrafik təsvirləri xronoloji qaydada düzülmüş, nəşr ili məlum olmayan əsərlər isə ayrıca qruplaşdırılmışdır. Belə düzülüş Azərbaycan kitabının nəşr tarixini, onun keçdiyi inkişaf yolunu izləməyə imkan verir.

Vəsaitin ən diqqətəlayiq cəhətlərindən biri ona zəngin yardımçı göstəricilərin tərtib olunmasıdır. Bu göstəricilər vasitəsilə inqilabdan əvvəl kitabların mövzu dairəsini, müəyyən müəllifin əsərlərinin nəşrini, bir əsərin müxtəlif nəşrlərini, mütərcim və təbdil edənləri, naşirləri, Azərbaycan kitabının dil və coğrafi sərhədlərini, onların hansı kitabxanalarda yerləşdiyini və digər məlumatları

asanlıqla müəyyənləşdirmək olar. Bunlar vəsaitin axtarış imkanlarını genişləndirmiş, onun səmərəliliyini yüksəltmişdir.

Belə qiymətli bir göstəricinin nəşrindən artıq 45 ildən çox müddət keçmiş və bu vəsait kitabxanalarda nadir nüsxəyə çevrilmişdir. Vəsaitin tərtibi zamanı «Milli kitab» məfhumunun dəqiq müəyyənləşdirilməməsi nəticəsində Azərbaycanda başqa dillərdə çıxan kitabların buraya daxil edilməməsi, Azərbaycan müəlliflərinin xarici nəşrlərinin tam verilməməsi, təkrar nəşrlərin həmişə göstərilməməsi, orijinal və tərcümə nəşrlərinin bir yerdə verilməsi, biblioqrafik təsvirdə vahid qaydalara riayət olunmaması və s. çatışmazlıqlar da onun elmi dəyərinə və informasiya potensialına mənfi təsir göstərməyə bilməz. Bundan başqa göstəricinin çap olunduğu vaxtdan sonrakı müddət ərzində araşdırılmalar aparılmış, bir sıra məlum olmayan kitablar müəyyənləşdirilmişdir ki, bu da «Azərbaycan kitabı» göstəricisinin daha da zənginləşməsinə imkan verərdi. «Azərbaycan kitabı» biblioqrafik vəsaitinin ən üstün cəhətlərindən biri burada mükəmməl yardımçı göstəricilərin verilməsidir. Ümumiyyətlə, Azərbaycanda çap olunan biblioqrafik vəsaitlər içərisində ən mükəmməl köməkçi göstəricilər bu kitabda tərtib olunmuşdur.

«Azərbaycan kitabı»nın I cildində 10 adda köməkçi göstərici tərtib olunmuşdur:

Bunların da hər birinin axtarış üçün xüsusi əhəmiyyəti vardır. Axtardığı əsəri daha tez tapmaq üçün oxucu onların vasitəsi ilə bu prosesi asanlaşdıra bilir. Yardımçı göstəricilərin vasitəsi ilə bütün kitabların nəşr olunduğu yeri, dili, saxlandığı kitabxana haqqında məlumatları əldə etmək olar.

İkinci belə biblioqrafik göstərici 1982-ci ildə çapdan çıxmışdır (3). Biblioqrafik göstəricidə 1920-1940-cı illərdə çapdan çıxmış Azərbaycan kitabları daxil edilmişdir. Hələ də bu biblioqrafik göstərici bir kitabdan ibarətdir. I kitabda ancaq humanitar elmlərə aid kitablar öz əksini tapmışdır.

Yuxarıda qeyd etdiyimiz kimi, Azərbaycan kitabının II cildinin I kitabı 1982-ci ildə çapdan çıxmışdır. Bu biblioqrafik göstəricidə 1920-1940-cı illərdə Azərbaycanda və keçmiş SSRİ respublikasında Azərbaycan dilində çıxmış humanitar profilli ədəbiyyat əks olunmuşdur. Retrospektiv göstəricidə sosial-siyasi mövzunu kitablar, ədəbi əsərlər və həmçinin tarix, pedaqogika, maarif, dilçilik, ədəbiyyatşünaslıq, incəsənət idman, mətbuat, kitabxanaçılıq və biblioqrafiya sahələrinə aid kitabların biblioqrafik təsviri verilmişdir.

Göstəricinin oxucu dairəsini genişləndirmək məqsədilə təsvirlərdə əlavə olaraq kitabın müəllifinin və sərlövhəsinin rus dilinə də tərcümə edilməsi vəsaitin müsbət keyfiyyətlərindəndir.

1920-1940-cı illəri əhatə edən «Azərbaycan kitabı»nın ümumi retrospektiv göstəricisi» 3 hissədən ibarətdir–müqəddimə, sənədlərin biblioqrafik göstəricisi və yardımçı göstəricilər. «Azərbaycan kitabı»nın II cildinin I kitabı dövlət

biblioqrafiya orqanlarında tətbiq edilən təsnifat prinsipi əsasında təsnifləşdirilmişdir.

Qeyd etdiyimiz kimi 1920-1940-cı illərin kitablarını əks etdirən Azərbaycan kitabının II cildinin birinci kitabında sistemli qruplaşma əsas götürülmüşdür və bu da onun əhəmiyyətli cəhəti kimi qeyd olunmalıdır.

1920-1940-cı illəri əhatə edən Azərbaycan kitabının ümumi retrospektiv göstəricisində ədəbiyyatın ayrı-ayrı elmlər üzrə qruplaşdırılması bu biblioqrafik göstəricidən istifadəni xeyli asanlaşdırır. Lakin bu biblioqrafik göstəricidə səhvlərdən uzaq deyildir. Biblioqrafik göstəricidə ən nöqsanlı cəhətlərdən biri burada bütün ədəbiyyatın biblioqrafik təsvirinin verilməməsidir.

Ümumiyyətlə, köməkçi göstərici dedikdə biblioqrafik vəsaitin çap əsərləri haqqında ayrı-ayrı məlumatları müvafiq biblioqrafik yazılara isnad etməklə vəsaitin əsas mətndəkindən fərqli aspektdə əks etdirən hissəsi kimi başa düşülür. 1920-1940-cı illəri əhatə edən Azərbaycan kitabının ümumi retrospektiv göstəricisində köməkçi göstəricilərin 2 növü verilmişdir:

1.Fərdi müəlliflərin əlifba göstəricisi.

2. Müəllifsiz kitabların əlifba göstəricisi.

«Azərbaycan kitabı» göstəricisinin 2-ci cildinin bu kitabı da biblioqrafik informasiyanın kommunikativ funksiyasının yerinə yetirilməsinin konkret vasitələrindən biridir. Bununla belə axtarış funksiyası imkanlarına da malikdir. Bu «Fərdi müəlliflərin əlifba göstəricisi», «Müəllifsiz kitabların əlifba göstəricisi» vasitəsilə əldə edilir. Lakin, bu yalnız göstəricinin əsas mətni üzrə axtarışa yardım edir.

Təəssüflə qeyd etmək lazımdır ki, milli kitabımız haqqında repertuar tipli çox cildli biblioqrafik informasiya mənbələrinin nəşri bu kitabdan sonra dayandırılıb. Nə ikinci kitabın, nə də 1941-ci ildən sonrakı nəşrlərlə əlaqədar cildlərin taleyi məlum deyil. Bu problem öz həllini gözləməkdədir. Bu məsələ M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının da diqqət mərkəzində olmalıdır.

Cənubi Azərbaycanda da Azərbaycan dilində olan və yayılan kitablar haqqında biblioqrafik əsər çap olunmuşdur. «İranda mövcud olan və çap edilmiş Azərbaycan türkcəsindəki sənədlərin biblioqrafiyası / Tərt. ed. Nuşin Musəvi. – Tehran, 1994.–248s.» adlanır. Biblioqrafik göstərici İran İslam Respublikası kitabxanası tərəfindən hazırlanmışdır (4). Cənubi Azərbaycanda çap olunmuş bu biblioqrafik vəsait «Atama və vətənimin ədəbsevər igidlərinə ithaf edirəm» adlı kəlamla başlayır. Bibiloqrafik götəricidə materiallar aşağıdakı ardıcıllıqla qruplaşdırılmışdır.

Haqqında bəhs etdiyimiz biblioqrafik vəsait ümumi biblioqrafiyanın bir nümunəsi kimi tərtib olunarkən Azərbaycan türk dilində ərəb əlifbası ilə İranda nəşr olunması və yayılması məqsədi qarşıya qoyulmuşdur.

Tədqiqat nəticəsində məlum olmuşdur ki, bu vəsaitin özünəməxsus cəhətləri vardır. Belə ki, burada başqa biblioqrafik göstəricidən fərqli olaraq bütün növ çap məhsulu bir yerdə bir göstəricidə verilmişdir.

Bu biblioqrafik əsər Azərbaycanın iqtisadiyyatı, siyasəti, tarixi və mədəniyyəti haqqında informasiya əldə etmək istəyən araşdırmaçılar, tədqiqatçılar üçün yol göstəricidir. Biblioqrafik göstəricidə 934 mənbə vardır ki, burada da kitablar (892 adda), qəzetlər, jurnallar, dövlət müəssisələrinin nəşriyyatları tərəfindən Azərbaycan haqqında və Azərbaycan türkcəsində buraxılan əsərlər öz əksini tapmışdır. Həmin mənbələrdə Azərbaycanın məşhur coğrafiyası, tarixi, mədəniyyəti, dili, adət və ənənələri və digər xüsusiyyətləri haqqında geniş məlumat əldə etmək olar.

Biblioqrafik əsərdə biblioqrafik göstəricilərin tərtibi metodikasına tam əməl olunmasa da nəzərdə tutulan dövrdə İran Azərbaycanında dərc olunmuş kitablar, dövri nəşrlər haqqında informasiya əldə etməyə imkan verir. Bu həm də Azərbaycan kitablarının coğrafiyasından xəbər verməklə mütəxəssislərin informasiya təminatına kömək etmiş olur.

Tədqiqatlar göstərir ki, Azərbaycan mədəniyyətinin böyük qolunu təşkil edən Azərbaycan kitabının biblioqrafik göstəricisinin hazırlanmasının da çox böyük əhəmiyyəti vardır. Xalqın milli özünüdərki, milli ənənələrin yenidən həyata qayıtması milli biblioqrafik fəaliyyətin müasir inkişaf xüsusiyyətlərinə öz təsirini göstərir və onun qarşısında yeni istiqamətli vəzifələr qoyur. Bu vacib məsələlərdən biri «Azərbaycan kitabı»nın əsaslı biblioqrafik repertuarının yaradılıb başa çatdırılması problemidir.

## ƏDƏBİYYAT


*1. Azərbaycan elmində islahatların aparılması ilə bağlı Dövlət Komissiyasının yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı // Azərbaycan. – 2008. – 11 aprel.*

*2. Azərbaycan kitabı: Biblioqrafiya. 3 cilddə: C. 1. B., 1963. – 220s.*

*3. Azərbaycan kitabı: Biblioqrafiya (1920 - 1940) 3 cilddə. C. 2. kit. 1. – B.; Yazıçı, 1982. – 752s.*

*4. İranda mövcud olan və çap edilmiş Azərbaycan türkcəsindəki sənədlərin biblioqrafiyası / Tərt. ed.: Nuşin Musəvi. – Tehran, 1994. – 248s. (fars dilində)*

*5. Məmmədov Q. Azərbaycan kitabı // Azərbaycan müəllimi. – 1964. -1 mart.*

*6. Nəcəfova M.Y., Müsəddiq M. Azərbaycan kitabı // «Azərbaycan məktəbi».- 1964.- № 5. – S. 79- 81.*

*7. Веревкина А.М. и Керимова З.А. Библиография до революционной Азербайджанской книги, (1780 - 1920) // Сов. библиогр. – 1966. - № 2. – С.90-97.*
*8. Джаббарлы Т.Д. Создание библиографии «Азербайджанская книга» // Сов. библиогр. – 1961. - № 1. – С. 20-22.*
*9. Казимов Р.А. Первая библиография Азербайджанской книги // Бак. рабочий. – 1964. – 23 июлья.*
*10. Мирзоева В.Д. Опыт составления библиографии «Азербайджанская книга» // Сов. библиогр. – 1966. - № 1. – С. 19-23.*
*11. Халафов А.А. и Казимов Р.А. Богатство мудрости и добра // Бак. рабочий. – 1983. – 8 феврал.*
*12. Эфендиев В. История Азербайджанской книги // Дружба народов. – 1964. - №3. - С.293.*

**СОЛМАЗ САДЫГОВА**

## БИБЛИОГРАФИЧЕСКИЕ ИНФОРМАЦИОННЫЕ ИСТОЧНИКИ, ПОСВЯЩЕННЫЕ АЗЕРБАЙДЖАНСКИМ КНИГАМ

### РЕЗЮМЕ

*В статье рассказывается о библиографических источниках, посвященных Азербайджанским книгам, которые являются богатым кладом национальной культуры, и считаются нашим самым ценным богатством. Также, показываются библографиечские анализы и проблемы в этой области.*

**SOLMAZ SADIGOVA**

## BIBLIOGRAPHIC SOURCES WHICH WERE DEVOTED TO AZERBAIJANI BOOK

### SUMMARY

*In article is talking about bibliographic sources which were devoted to Azerbaijani Book which is the rich treasury of our national culture. There has given the bibliographic analysis of them and has shown the problems on this area.*

**Sima İSMAYILOVA**
*Biblioqrafiyaşünaslıq kafedrasının baş müəllimi*

## MÜSTƏQİLLİK İLLƏRİNDƏ FOLKLORŞÜNASLIQ BİBLİOQRAFİK MƏNBƏLƏRDƏ

Xalqın yaratdığı şifahi yaradıcılıq nümunələri geniş və çoxcəhətlidir. Bu bədii yaradıcılıqda xalq həyatının, mənəviyyatının müxtəlif cəhətləri bədii şəkildə əks olunmuşdur. Ağızda yaranan, kollektivin köməyi ilə cilalanan variantlarda yayılan nəğmə, nağıl, dastanlarımızla yanaşı, bədii təfəkkürün erkən mərhələləri ilə bağlı törəyən inanc, fal, alqış, öyüd, təsəlli, məsəl və b. nümunələr də çox əski çağlardan mövcud olmuşdur. Bədii təfəkkürün bütün bu hikmət dünyası-ağız ədəbiyyatı, xalq yaradıcılığı və yaxud folklor adlandırılmışdır.

Yazıya qədərki bu ədəbiyyatın yaranmasından, onun növ, janr və forma xüsusiyyətlərindən, nəzəri qayda və qanunlarından bəhs edən elm sahəsinə folklorşünaslıq deyilir.

Folklorşünaslıq nisbətən cavan elm sahəsidir. Onun meydana gəlməsi XIX əsrin ortalarına təsadüf edir. Hər bir xalq milli folklorunu araşdırmaqla özlərinə məxsus milli mədəniyyət tarixini, soy kökünü, yaranmasını, başqa xalqların mədəniyyəti içərisində özünəməxsusluğunu müəyyənləşdirməyi qarşıya məqsəd qoymuşdur.

Ayrı-ayrı tədqiqatlarda XIX əsrdə yarandığı göstərilən Azərbaycan folklorşünaslıq məktəbi əslində XX əsrin əvvəllərində formalaşmışdır. XX əsrə qədərki mərhələ isə milli folklorşünaslığın toplanma və nəşrinin başlanğıc mərhələsi olmuşdur. Xalqımızın uzun əsrlər boyu yaratdığı, yaddaşlarda yaşayıb zaman-zaman müxtəlif variantlara saldığı, yaşadıqca cilalanıb gözəlləşən və yüksək mənəvi- əxlaqi dəyərlərə malik zəngin şifahi sərvəti vardır. Bu sərvət qədim dövrlərdən yaranmağa başlamış, müxtəlif ictimai formasiyalara yoldaş olmuş, ayrı-ayrı dünyagörüş və təriqətlərlə təmasda olub bu günümüzə gəlib çatmışdır.

1991-ci ildə Azərbaycan müstəqillik əldə etdikdən sonra, ədəbiyyatşünaslığın digər sahələri kimi Azərbaycan folklorşünaslıq elmi yenidən tədqiq olunmağa başlandı.

Müstəqilliyin daimi və əbədi olduğunu elan edən Azərbaycan xalqı bu yolla əzəmətli addımlarla addımladığı kimi, öz milli mədəniyyətini, ədəbiyyat və incəsənətini özünün erkən milli mənəvi dəyərlərini daha ardıcıl olaraq dünya elmi, ictimai fikrinə təqdim edir. XX əsrin sonunda belə böyük tədbirlərdən biri məhz «Kitabi-Dədə Qorqud»la bağlı oldu.

1997-ci ilin aprelin 20-də «Kitabi-Dədə Qorqud»un 1300 illik yubileyinin keçirilməsi barədə sərəncam imzalandı. Bu sərəncam «Kitabi-Dədə Qorqud»un və eləcə də milli şifahi sərvətimizin öyrənilməsi sahəsində mühüm tarixi sənəd oldu. «Kitabi-Dədə Qorqud»un dünya miqyasında tanınmasında 2000-ci il aprelin 1-də keçirilən yubileyin türk xalqlarının böyük ənənəvi bayramına çevrilməsində eposla bağlı YUNESKO xətti ilə tədbirlərin həyata keçirilməsində bu sərəncamın böyük rolu oldu.

Yubiley ərəfəsində «Kitabi-Dədə Qorqud»la bağlı onlarla dəyərli əsərlər nəşr edildi. Tanınmış Qorqudşünaslardan Şamil Cəmşidovun, Flora Əlimirzəyevanın, Nizami Cəfərovun, Kamal Abdullanın, Oruc Əliyevin, Bəhlul Abdullanın, Xalid Əlimirzəyevin monoqrafiyaları işıq üzü gördü. «Kitabi-Dədə Qorqud»un Universitetdə tədqiqi» adlı biblioqrafik göstərici tərtib olunmuşdur ( Tərtib edənlər: Ş.Tahirqızı, S.Sadıqova).

XX əsrin sonu folklorşünaslığın yeni mərhələyə yüksəlişi folklor tədqiqatçılarının daha aktual problemlərin ön plana çəkilməsi, yeni folklor mərkəzlərinin, elmi-tədqiqat laboratoriyalarının yaranması, milli kökə güclü qayıdışla bağlı olmuşdur. 1989-cu ildə BDU-da Folklor kafedrası yaradıldı. Folklorşünaslığın inkişafında, gənc kadrların yetişməsində, yeni-yeni toplama və tədqiqat işlərinin aparılmasında Folklor kafedrası mühüm rol oynayır.

Azərbaycan Dövlət Pedaqoji Universitetində açılması, ədəbiyyatşünas alim, AMEA-nın müxbir üzvü Y.Qarayevin təşəbbüsü ilə Nizami adına Ədəbiyyat İnstitutu nəzdində Folklor mərkəzinin fəaliyyətə başlaması respublikada folklor və folklorşünaslıq məsələlərinin öyrənilməsinə diqqətin artırılmasına səbəb oldu. AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunda «Şifahi xalq ədəbiyyatına dair tədqiqlər», BDU-nun Folklor kafedrasında çap olunan «Folklorşünaslıq məsələləri» məcmuələri folklor irsinin öyrənilməsinə mühüm kömək oldu. Folklor işinə kömək göstərən radioda «Bulaq» verilişlərinin genişlənməsi, burada xüsusi şöbənin açılması, respublika televiziyasında «Xalq yaradıcılığı» baş redaksiyasının (1999) yaradılması bu sahədə mühüm hadisələr idi.

Müasir Azərbaycan filoloji fikrinin tanınmış nümayəndələrindən olan Nizami Xudiyevin milli folklorumuzun toplanma və təbliğinə, qızıl fondlara salınıb gələcək nəsillər üçün qorunub saxlanılmasında çox böyük xidməti oldu. O, Azərbaycan şifahi dili, onun müxtəlif dövrlərdəki inkişaf xüsusiyyətləri, mif, nağıl, epos düşüncəsi, onların qarşılıqlı əlaqəsi, türkün tarixi taleyi, bu gün yaşadığı ərazidə məskunlaşma məsələləri kimi mühüm problemləri son illərdə araşdırmalara cəlb etmişdir.

Azərbaycan folklorşünaslarının yeni nəslinə mənsub olan Ramazan Qafarlı son illərdə elmi- pedaqoji fəaliyyətini nəzəri və təcrübi aspektdə davam etdirir. O, ən az işlənmiş sahə olan uşaq folkloru, mifologiya, nağıl, əfsanə,

lətifə, atalar sözü, xalq dramı, mərasim və müsiqi folkloru üzərində tədqiqat aparır. R.Qafarlı «Mif və nağıl» monoqrafiyasını xalq şairi B.Vahabzadə «Kökümüzə gedən yolu tikanlardan təmizləyən» tədqiqat işi adlandırmışdır.

Son illərdə milli özünəqayıdışla bağlı folklorun öyrənilməsinə diqqət artmışdır.

Aşıq poeziyasının, xüsusən Mola Cümə irsinin toplanmasına böyük əmək sərf edən, şifahi yaradıcılığın ən aktual məsələlərini nəzəri tədqiqatlara cəlb edən peşəkar folklor nəzəriyyəçisi Paşa Əfəndiyevdir. Onun «Azərbaycan folklorşünaslığı tarixi» əsəri mühüm tədqiqat əsəridir. «S.Vurğun və xalq ədəbiyyatı», «C.Cabbarlı və xalq ədəbiyyatı», «Koroğlu dastanının ilk qaynaqları» barədəki dəyərli mülahizələr məhz ona məxsusdur. Bundan başqa professor Paşa Əfəndiyevin «Xalqın söz xəzinəsi», «Azərbaycan şifahi xalq ədəbiyyatı» və həmin dərsliyin yeni nəşri 1992-ci ildə çapdan çıxmışdır.

Folklorşünaslıq sahəsində dərin elmi məntiqə, geniş dünyagörüşə malik, publisistika sahəsində bir sıra dəyərli əsərlərin müəllifi professor Azad Nəbiyevin xidmətləri böyükdür. «Azərbaycan xalq ədəbiyyatı» (2002) əsəri onun uzun tədqiqat fəaliyyətinin davamıdır. A.Nəbiyevin müxtəlif illərdə çap etdirdiyi «Novruz bayramı», «İlaxır çərşənbələr», «İlin əziz günləri», «Qatır Məmməd», «Azərbaycan uşaq folkloru» (2000) və b. kitabları nəşr olunmuşdur.

Azad Nəbiyevin «Turan» nəşrlər evində 2002-ci ildə 678 səhifədən ibarət çap olunmuş «Azərbaycan xalq ədəbiyyatı: Ali məktəblər üçün dərslik: I hissə» kitabı xüsusi əhəmiyyət kəsb edir. Müstəqillik illərində Azərbaycan folklorşünaslığı daha da inkişaf edir və bu sahədə nəşr olunmuş əsərlərin sayı durmadan artır. Şifahi xalq ədəbiyyatı nümunələri dövri mətbuat səhifələrində də dərc olunur. Təqdirəlayiq haldır ki, çağdaş Azərbaycan ağız ədəbiyyatı sistem şəklində toplanıb, tədqiq və çap edilməkdədir. Bir sözlə Azərbaycan folklor xəzinəsi günü-gündən zənginləşməkdədir. Bu xəzinəyə müraciət edənlər və ondan istifadə edənlərin, bəhrələnənlərin sayı durmadan artır. Odur ki, mütəxəssislərin, alimlərin, aspirantların və digər informasiya istifadəçilərinin folklor və folklorşünaslıq ədəbiyyatından səmərəli istifadə etmələri üçün biblioqrafik informasiya mənbələrinin rolu böyükdür.

Bir sıra universal xarakterli göstəricilərdə folklor və folklorşünaslıq ədəbiyyatı qismən əks olunmuşdur. Məsələn, 1780-1920-ci illəri əhatə edən «Azərbaycan kitabı»nın birinci cildində toplanan 1329 adda mənbədən 92-si folklor ədəbiyyatıdır (3). 1920-1940-cı illərdə çap olunan və humanitar mənbələri əks etdirən «Azərbaycan kitabı»nın 2-ci cildinin I kitabında da 65 adda folklor və folklorşünaslıq ədəbiyyatı haqqında məlumat verilmişdir (4). Bundan başqa folklor və folklorşünaslıq ədəbiyyatı «Azərbaycan

jurnalının biblioqrafiyası» (1920-1972) biblioqrafik vəsaitində «Azərbaycan ədəbiyyatı» bölməsində «Folklor, şifahi xalq ədəbiyyatı nümunələri» yarım bölməsində 8 mənbə, «Aşıq şeirləri» yarım bölməsində isə 85 mənbə haqqında biblioqrafik informasiya verilir (2).

Azərbaycanda folklorşünaslığın inkişafı, problemlərin öyrənilməsi və həlli kitabsız və kitabxanasız mümkün deyildir. Biblioqrafiyanın vasitəçilik funksiyasını yerinə yetirməyə kömək edən ən mühüm vasitə biblioqrafik informasiyadır. Yalnız biblioqrafik informasiya sənəd kütləsini hərtərəfli araşdırır, onların daha mühüm nümunələrindən istifadə olunmasına kömək edir. Bu işdə informasiya orqanları kimi kitabxanaların rolu əvəz edilməzdir. Professor A.Xələfov yazır ki, «Müasir cəmiyyətdə hər cür informasiyanı cəmiyyət üzvləri arasında yaymağa qarşısına məqsəd qoyan, informasiya resurslarını toplayıb saxlayan, onu əsrdən-əsrə, nəsildən-nəslə ötürən informasiya daşıyıcısı kimi fəaliyyət göstərən informasiya mütəxəssislərinin ən mühüm vəzifəsi kitabxana sistemləridir» (7).

Müasir informasiyalaşmış cəmiyyətdə, Azərbaycan Respublikasının tam müstəqillik əldə etdiyi bir şəraitdə kitabxanaların informasiya vermək funksiyası daha böyük əhəmiyyət kəsb edir və bu «Kitabxana işi haqqında» Azərbaycan Respublikasının Qanununda da öz real ifadəsini tapmışdır: «Kitabxana-elm, informasiya, mədəniyyət, təhsil və tərbiyə müəssisəsi kimi çap əsərlərini və digər informasiya daşıyıcılarını toplayıb mühafizə edən, onların sistemli ictimai istifadəsini təşkil edən, cəmiyyətin intellektual və mənəvi potensialının inkişafına xidmət göstərən sosial institutdur» (1).

Zəngin Azərbaycan folklorşünaslığı məzmunlu ilkin mənbələr haqqında biblioqrafik informasiya olmadan, həmin mənbələrdən informasiya istifadəçilərinin səmərəli istifadə etmələri mümkün deyil.

Folklorşünaslıq üzrə biblioqrafik informasiyanın formalaşdırılması və ehtiyacı olanlara çatdırılması vasitələri onun təsbit olunduğu mənbələrdir.

Biblioqrafik mənbələr müxtəlif əlamətlərə görə təsnifləşdirilir- funksiya istiqamətinə və xronoloji əlamətə, oxucu və məqsəd istiqamətinə, biblioqrafiyalaşdırma obyektinin məzmununa görə.

Məlumdur ki, folklorşünaslığa dair materiallar ümumi xarakterli retrospektiv və cari xarakterli mənbələrdə öz əksini tapmışdır. Çox təəssüf ki, müstəqillik illərində folklorşünaslığa dair çox saylı sənəd kütləsi mövcud olsa da biblioqrafik informasiya mənbələri olduqca azdır.

Respublikamızda milli çap əsərlərinin qeydə alınmasında və onların haqqında dolğun, dəqiq və operativ cari biblioqrafik informasiya verilməsində, milli cari biblioqrafiyanın təşkilində və inkişafında Azərbaycan Dövlət Kitab Palatası ümumi biblioqrafiyanın mərkəzi olmuşdur.

1980-cı illərin sonlarından Kitab Palatasının fəaliyyəti xeyli məhdudlaşdığından və 1999-cu ildə Milli Məclis tərəfindən qəbul edilən «Kitabxana işi haqqında» Azərbaycan Respublikasının Qanunu ilə ölkə ərazisində dərc olunan çap məhsullarının dövlət uçotunu aparmaq və arxiv fondunu yaratmaq Milli Kitabxanaya həvalə olunduğundan bu iş dayandırılmışdır.

2004-cü ildə M.F.Axundov adına Dövlət Kitabxanasına «Milli Kitabxana» statusu verildikdən sonra milli biblioqrafiya vəsaitlərinin nəşri bərpa olundu və 1990-cu ilə aid ilk buraxılış 2005-ci ildə işıq üzü gördü.

«Birillik Azərbaycan Kitabiyyatı»nın 2003-cü ilə aid buraxılışı 2007-ci ildə çap edilmişdir. Biblioqrafik vəsaitdə materiallar elm sahələri üzrə dövlət biblioqrafiyası orqanlarında tətbiq edilən dövlət təsnifat sistemi əsasında təsnifləşdirilmişdir.

Bölmələr daxilində əvvəlcə Azərbaycan dilində olan, sonra isə rus dilində olan materiallar qruplaşdırılmışdır. Hər bir bölmə və yarım bölmə daxilində əlifba prinsipi gözlənilmişdir.

Folklor və folklorşünaslığa dair materiallar vəsaitin «Ədəbiyyatşünaslıq» və «Azərbaycan ədəbiyyatı» bölməsində verilmişdir.

Paşayev Q. Kərkük folklorunun janrları.- B.: Elm, 2003.- 315 s.

və ya «Azərbaycan ədəbiyyatı» bölməsində: Azərbaycan folkloru antologiyası: Ağbaba folkloru/ AMEA, Dədə Qorqud ad. Folklor elmi-mədəni mərkəzi.- B.: Səda, 2003.- VII kitab.- 476 s. Biblioqrafik vəsaitin sonunda tələbatçıların ondan istifadəsini asanlaşdırmaq məqsədilə köməkçi aparat- həm Azərbaycan və həm də rus dillərində müəlliflərin əlifba göstəricisi və vəsaitdə sərlövhə üzrə təsvir olunmuş əsərlərin sərlövhəsinin əlifba göstəricisi verilmişdir (6).

Müstəqillik illərində nəşr edilmiş biblioqrafik mənbələr içərisində M.F.Axundov adına Milli Kitabxana tərəfindən 2006-cı ildən çap edilən «Yeni kitablar» (11) adlı annotasiyalı biblioqrafik göstəricidir. Biblioqrafik informasiya vəsaitini hazırlamaqda məqsəd tələbatçıları Milli Kitabxanaya daxil olan yeni ədəbiyyatla tanış etməkdir.

Annotasiyalı biblioqrafik göstəricidə 2006-cı ildə Milli kitabxanaya daxil olmuş 1042 adda ədəbiyyatın 37-si folklor və folklorşünaslığa aiddir. Göstəricidə əks olunan bölmələr daxilində əvvəlcə Azərbaycan dilində, sonra rus və xarici dillərdə materiallar əlifba sırası ilə düzülmüşdür.

Biblioqrafik göstəricidə Azərbaycan folklorşünaslığına həsr edilmiş nümunələrə nəzər yetirək:

Azərbaycan dastanları: 5 clddə / tərt. ed. Ə.Axundov, M.H.Təhmasib; Red. H.Araslı; AMEA Folklor İnstitutu.- B.: Çıraq, 2005.- 424 s.

Azərbaycan şifahi xalq ədəbiyyatının ən maraqlı və rəngarəng mövzularla zəngin janrlarından olan dastanlarda elin həyat və mübarizəsi, xalqın duyğu

və düşüncələri, istək və arzuları əlvan çalarlarıyla öz tərənnümünü tapmışdır. və ya: Azərbaycan folkloru antologiyası: İrəvan çuxuru folkloru/ Topl. tərt. ed., ön sözün, qeyd və izahların müəl. H.İsmayılov, Ə.Ələkbərli; Red. İ.Abbaslı; Rəy. T.Bünyadov, Q.Namazov; AMEA Folklor İnstitutu.- B.: Səda, 2004.- 471 s.

Biblioqrafik vəsaitdən istifadəni asanlaşdırmaq məqsədilə Azərbaycan, rus, türk və xarici dillərdə müəlliflərin və sərlövhələrin əlifba göstəricisi verilmişdir.

Müasir mərhələdə biblioqrafiya sosial-iqtisadi inkişafın ən mühüm cəhətlərini əks etdirir və bununla da elmin, mədəniyyətin və istehsalın bütün sahələrinin biblioqrafik informasiya ilə təminatına şərait yaradır.

Azərbaycan Milli EA Mərkəzi Elmi Kitabxanasının çap etdirdiyi cari biblioqrafik vəsaitləri fonda daxil olan yeni ədəbiyyat haqqında məlumat vermək məqsədi güdür. Ölkə kitablarını əks etdirən biblioqrafik siyahılarda məzmuna görə bölgü prinsipi əsas götürülür. Bu da tələbatçıya imkan verir ki, istifadə etdiyi bu vəsaitdə maraqlandığı sahə üzrə ədəbiyyat haqqında tezliklə informasiya ala bilsin.

Filologiya elmləri başlığı altında ədəbiyyatşünaslığın digər sahələri kimi folklor və folklorşünaslığa aid olan materiallar müəlliflərin əlifba sırası ilə qruplaşdırılmışdır. Cari biblioqrafik informasiya vermək funksiyasını yerinə yetirən bu vəsaitdə folklorşünaslığın müxtəlif məsələlərinə həsr edilmiş materiallar əhatə edilmişdir. Məsələn:

Aşıq Ələsgər: Şerilər, dastan-rəvayətlər, xatirələr/ tərt. ed.: İ.Ələsgər.- Bakı: Çinar-Çap. 2003.- 496 s. və ya: Azərbaycan folkloru antologiyası. VI kitab: Şəki folkloru. II cild/ Nizami adına Ədəbiyyat İnstitutu: Red.: Y.Qarayev.- Bakı: Səda, 2002.- 491 s.

Biblioqrafik vəsaitdə folklorşünaslığa dair materiallar içərisində «Kitabi-Dədə Qorqud»la bağlı ədəbiyyat üstünlük təşkil edir:

Bəhlul Abdulla «Kitabi-Dədə Qorqud»un poetikası.- Bakı: Elm, 1999.- 228 s.

Ümumilikdə bu bölmə daxilində biblioqrafik təsviri verilmiş 252 ədəbiyyatdan folklorşünaslıq məsələlərinə həsr edilən 16 ədəbiyyatın təsviri verilmişdir (9).

Biblioqrafik informasiya bülletenində materiallar kitabxana-biblioqrafiya təsnifatı əsasında elmlər və daxili əlifba üzrə, Şərq dillərində isə ölkələr üzrə qruplaşdırılmışdır.

Cari xarakterli biblioqrafik informasiya mənbələri kimi, ümumi yekunlaşdırıcı retrospektiv biblioqrafik informasiya mənbələri silsiləsində Azərbaycan dövrü mətbuatına dair biblioqrafik göstəricilər də mühüm yer tutur.

Retrospektiv elmi-köməkçi xarakterli vəsaitlərdən də dövri və ardı davam edən nəşrlərin tərkib və məzmununu açan biblioqrafik göstəricilərdir.

Müstəqillik illərində tərtib edilən ən zəngin vəsaitlərdən biri «Azərbaycan-80» adlı biblioqrafik göstəricidir. 80 illik bir dövrü əhatə edən (1923-2003) bu biblioqrafik vəsait «Azərbaycan» jurnalının 80 illik yubileyi ilə əlaqədar olaraq tərtib olunub, 2004-cü ildə «Çinar-çap» nəşriyyatında çap olunmuşdur (5).

«Azərbaycan-80» adlı biblioqrafik göstərici çox zəngin bir dövrü əhatə etməklə ayrı-ayrı məqalələrin məzmununu müxtəlif istiqamətlərdən açır, məqalələrin analitik təsvirini verməklə biblioqrafik axtarışı asanlaşdırır. Universal məzmuna malik bu biblioqrafik göstəricinin 18 bölməsindən 5 bölməsi Azərbaycan ədəbiyyatı, folklorşünaslıq və ədəbi-tənqidi materiallara həsr edilmişdir.

Biblioqrafik göstəricinin:

II Azərbaycan ədəbiyyatı haqqında bölməsinin-

1. Folklorşünaslıq yarımbölməsində-əvvəlcə ümumi xarakterli materiallar, daha sonra əlifba qaydası ilə ayrı-ayrı müəlliflər və onların əsərləri daxili xronologiya ilə qruplaşdırılmışdır. Məsələn:

Folklor: problemlər. Mülahizələr. (Müzakirədə iştirak etdi: Vaqif Vəliyev, Azad Nəbiyev, Arif Məmmədov) // 1990.- № 9.- s. 182-189.

və ya Ölməz abidə (Kitabi-Dədə Qorqud-1300) // 1999.- s. 3-4.

Biblioqrafik vəsaitdə ümumi xarakterli materiallardan sonra, görkəmli folklorşünasların, ayrı-ayrı müəlliflərin folklora, şifahi xalq ədəbiyyatına, aşıq ədəbiyyatına və aşıq yaradıcılığına dair materiallar müəlliflərin əlifba qaydası ilə daxildə isə məqalələrin xronologiyası üzrə sistemləşdirilmişdir.

Materialları əhatə etməsinə görə universal xarakterli olan bu biblioqrafik göstərici bütün tədqiqatçılar üçün, xüsusilə ədəbiyyatşünaslıq materialları ilə maraqlanan tələbatçılar üçün qiymətli bir mənbədir.

Müstəqillik illərində nəşr edilən və folklorşünaslığa dair, xüsusilə folklor ədəbiyyat içərisində öz zənginliyi ilə fərqlənən, mənəvi sərvətimiz olan «Kitabi-Dədə Qorqud»a həsr edilən biblioqrafik göstəricidir. Göstərici MEA-nın Əlyazmalar İnstitutu tərəfindən 2000-ci ildə tarix elmləri namizədi Aydın Xəlilovun tərtibi ilə işıq üzü görmüşdür (7).

Azərbaycan xalqının zəngin tarix və mədəniyyət xəzinəsi olan «Kitabi-Dədə Qorqud»un mətninin nəşrləri və onun haqqında mövcud materiallar tam şəkildə təsvir edilərək biblioqrafiyaya daxil edilmişdir. Biblioqrafik göstəriciyə daxil edilmiş mənbələr dil əlamətinə görə bölmələrə ayrılmışdır. Hər bölmə daxilində «Kitabi-Dədə Qorqud»un nəşrləri» , «Kitabi-Dədə Qorqud haqqında ədəbiyyat» və «Kitabi-Dədə Qorqud bədii ədəbiyyatda» adlı yarımbölmələr əhatə edilmişdir. Hər yarımbölmə daxilində materiallar müəlliflərin əlifbası ilə qruplaşdırılmışdır.

«Kitabi-Dədə Qorqud» dastanının 1300 illik yubileyi ilə əlaqədar olan bu biblioqrafik göstəricidə çox zəngin materialların əks olunmasına

baxmayaraq hər bir mənbənin sıralanmaması və köməkçi aparatla təchiz edilməməsi təəssüf hissi doğurur. Buna baxmayaraq Azərbaycan, türk və türk xalqlarının dillərində, rus dilində, digər xarici ölkə dillərində olan materialları əhatə etdiyinə görə bu qiymətli informasiya mənbəyi dəyərli bir vəsait kimi folklorşünaslığın informasiya təminatında mühüm əhəmiyyət kəsb edir.

Müstəqillik dövründə Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrinə, elm xadimlərinə, şair və yazıçılarına həsr edilən şəxsi biblioqrafik informasiya mənbələrində folklorşünaslıq məsələlərinə dair materiallar işıqlandırılmışdır. Bu qəbildən olan vəsaitlər içərisində 2004-cü ildə Şəhla Tahirqızı tərəfindən tərtib edilmiş «Nizami Cəfərov» biblioqrafik məlumat kitabı diqqəti cəlb edir (10). Biblioqrafik məlumat kitabında Əməkdar elm xadimi, professor Nizami Cəfərovun Ədəbiyyatşünaslığın və dilçiliyin məsələləri ilə əlaqədar 477 adda mənbənin biblioqrafik təsviri verilmişdir.

Bu mənbələr içərisində folklor və folklorşünaslıq məsələlərinə həsr edilmiş kitabları, məqalələri, məruzələri öz əksini tapmışdır. Məsələn:

Eposdan kitaba (monoqrafiya) Ön söz: Azad Nəbiyev.- B.: Maarif, 1999.- 220 s. Kitabın içindəkilər: Giriş; I fəsil: Qədim türk eposundan qədim türk yazılı abidələrinə; II fəsil: «Dədə Qorqud» eposundan «Kitabi-Dədə Qorqud»a; III fəsil: «Koroğlu»dan xalq kitabına; Nəticə.

və yaxud: «Kitabi-Dədə Qoruqud»da islama keçidin poetikası. B.: Elm, 1999.- 544 s.

Azərbaycan ədəbiyyatşünaslığının mühüm bir istiqamətini təşkil edən folklor və folklorşünaslığın biblioqrafik informasiya mənbələri müstəqil tədqiqat obyekti olmadığından folklor ədəbiyyatını özündə əks etdirən sahəvi biblioqrafik vəsaitin olmaması təəssüf doğurur. Ümid edirik ki, Azərbaycan ədəbiyyatı tarixini, şifahi xalq ədəbiyyatını, ümumilikdə folklorşünaslıq məsələlərini işıqlandıran biblioqrafik informasiya mənbələri yaradılacaqdır.

## ƏDƏBİYYAT

*1. «Kitabxana işi haqqında» Azərbaycan Respublikasının Qanunu// Kitabxanaşünaslıq və Biblioqrafiya: elmi-nəzəri və təcrübi jurnal.- 1999.- № 1.- s. 3-16.*

*2. «Azərbaycan» jurnalının biblioqrafik göstəricisi. (1920-1972)/ Tərt. ed.: R.Tağıyev. B.: Elm, 1973.- 600 s.*

*3. Azərbaycan kitabı: 3 cilddə. I c. (1780-1920)/ tərt. ed.: Ə.Əliyev. B., 1963.- 219 s.*

4. *Azərbaycan kitabı (Biblioqrafiya)/ 3 cilddə, c.2, kit. 1.. 1920-1940 Bakı.: Yazıçı, 1982.- 744 s.*
5. *«Azərbaycan-80»: Biblioqrafik göstərici/ Tərt. ed.: Ə.Əfəndiyev; elmi red.: B.Nəbiyev.- B.: Çinar-çap, 2004.- 544 s.*
6. *Birillik Azərbaycan Kitabiyyatı. 2003-cü il:/ Tərt. ed.: L.Talıbova, N.Rzaquliyeva, baş red.: K.Tahirov. B., 2007.- 323 s.*
7. *Xələfov A.A. İnformasiyalaşdırılmış cəmiyyətin xüsusiyyətləri və problemləri// Respublika.- 2002.- 17 aprel.*
8. *«Kitabi-Dədə Qorqud»un biblioqrafiyası./ tərt. ed.: A.C.Xəlilov.- Bakı.: Örnək, 2000.- 258 s.*
9. *Mərkəzi Elmi Kitabxanaya daxil olan yeni ədəbiyyat./ 2003. III-IV buraxılış. Bakı., 2004.- 132 s.*
10. *Nizami Cəfərov/ tərt. ed.: Ş.Tahirqızı. B.: BUN, 2004.- 125 s.*
11. *Yeni kitablar: Annotasiyalı göstərici/ M.F.Axundov adına Milli Kitabxana. B., 2007.- 308 s.*

**С.П.ИСМАЙЛОВА**

## ТЕМАТИКА ФОЛЬКЛОРНО-БИБЛИОГРАФИЧЕСКОГО ЖАНРА В ГОДЫ НЕЗАВИСИМОСТИ

### РЕЗЮМЕ

*В статье дано широкое понятие об усном народном творчестве, образцах фольклорного жанра, изданы библиографические материалы, отражающие фольклорную литературу.*

**SİMA İSMAİLOVA**

## FOLK-LORE STUDIES IN THE BIBLIOGRAPHIC SOURCES IN INDEPENDENT YEARS

### SUMMARY

*In this article were given comprehensive information about folk-lore created by people, examples of folk-lore, bibliographic sources show folk-lore literature have been analysed.*

# KİTABŞÜNASLIQ

**Şəhla TAHİRQIZI**

## MONOQRAFİYALAR ELMİ ƏDƏBİYYATIN NÖVÜ KİMİ

Kitab nəşri olduqca mürəkkəb, sistemli yaranışdır. O, bir-biri ilə qarşılıqlı surətdə bağlı olan və biri-digərini tamamlayan elementlər toplusudur. Onun ən vacib elementi mətndir. Mətnlər ədəbiyyatın növündən, məzmunundan və janrından asılı olaraq müxtəlif struktura və fikri elementlər məcmuuna malikdir. Beləliklə, nəşri ümumilikdə mürəkkəb və yaxşı təşkil olunmuş informasiya sistemi kimi nəzərdən keçirmək mümkündür.

Hər bir kitab, istər tədris ədəbiyyatı olsun, istər bədii, istərsə də elmi olsun, onlar müəyyən bilik sahələrinin oxucuları üçün yaradılır. Bu biliklər də, öz növbələrində müəyyən konkret bir məqsədlə təqdim edilir: bu və ya digər sahə üzrə toplanmış biliklərin ümumiləşdirilməsi, elmi tədqiqat nəticələrinin mübadiləsi, dünyagörüşün, ideoloji, siyasi baxışların formalaşması, dövlət və ictimaiyyətin mövqeyinin, hüquqi və mənəvi normaların oxucuya çatdırılması və s. Ədəbiyyatın ictimai təyinatı dedikdə, əsasən, onun oxucuya təsir etməsi başa düşülür. Demək olar ki, müxtəlif ədəbi əsərlər ictimai fəaliyyətin – elmin, təhsilin, ideoloji və siyasi tərbiyəvi işin, xalq təsərrüfatı sahəsinin, mədəniyyət və incəsənətin müxtəlif sferalarına xidmət edir.

Ədəbiyyatın ictimai təyinatı da müəyyən oxucu auditoriyasını nəzərdə tutur. Ədəbi əsərlərin oxucu ünvanı onun ictimai, məqsədli təyinatı ilə birlikdə ədəbi anlayışın sistemləşdirilməsinin əsasını təşkil edir. Ədəbi əsərlərin onların təyinatına və oxucu ünvanına belə sistemləşdirilməsi funksional hesab edilir.

Hər bir kitabın səciyyəvi xüsusiyyəti onun növünə müəyyən dərəcədə təsir göstərən informasiyanın xarakterindədir. Və bu xarakterin də əsas əlamətlərindən biri problemin dərindən tədqiqidir. Elmi nəşrlərdə informasiyanın əks etdirilməsində mövzunun arqumentləşdirilmiş əsaslar və sübutların səmərəli tədqiqi metodları yüksək elmi səviyyədə işlənilməli və özünəməxsus dil-üslub vasitələri olmalıdır.

"Kitab işi özlüyündə rəssamlıq, heykəltəraşlıq, kino, teatr kimi millətin mədəni yaradıcılığının mühüm bir sahəsidir. Əslində hər şeyin başlanğıcı kitab-

dır – hər şey kitabdan başlanır, hər şey kitabdadır. Bir vaxt deyərdilər ki, İnternet əsrində kitab öz əhəmiyyətini itirəcək, amma indi məlum olur ki, İnternet kitabı əvəz edə bilmir. İnsan zəruri bilikləri, akademik və sistemli savadı sakit bir şəraitdə kitabla baş-başa qalanda daha yaxşı mənimsəyir. Deməli, bəşəriyyət hələ bundan sonra da kitabsız keçinə bilməyəcək" (1, 5).

Hər bir kitabın özünəməxsus funksional əlaməti və funksiyalar tərkibi mövcuddur. Lakin müəyyən funksional əlamətlər hansısa konkret bir nəşrlə bağlıdır. Kitab nəşrinin əsas tipoloji kateqoriyalarından biri də nəşrin növüdür. O nəşrlərin tipoloji qruplaşmasını ehtiva edir. Hər bir nəşr növü, formalaşmasından asılı olaraq, standart əsaslara malikdir:

1) təyinatına görə;
2) informasiyanın əlamətinə görə;
3) informasiyanın analitik-sintetik işlənilməsinə görə;
4) əsas mətnin maddi quruluşu, həcmi və tərkibinə görə;
5) informasiyanın dövrülüyü, strukturu və xarakterinə görə.

Sadalanan əlamətlər arasında bütün nəşrlər üçün ümumi olanları ayırmaq vacibdir. Hər bir nəşrin spesifik xüsusiyyətləri isə məqsədyönlü təyinata malikdir və onlar nəşrin funksional rolunu və xarakterini cəmləşdirilmiş şəkildə əks etdirir.

Ədəbi əsərlər janrına görə elmi, bədii, bədii-publisistik, elmi-kütləvi, kütləvi-siyasi, rəsmi, tədris ədəbiyyatına bölünürlər.

Hər bir elmlə yanaşı onun kütləviləşdirilməsinə ehtiyac yaranır və bu ehtiyacı da kitab yerinə yetirir.

Monoqrafiyalar da elmi ədəbiyyatın növü olub konkret bir mövzuya həsr olunmuş elmi-tədqiqat əsəridir (4,114). Monoqrafiya yunan sözüdür: mono-tək, qrafo-yazıram deməkdir. Bu elmi yaradıcılıq işidir, müəyyən problem və ya müasir elm aləmini narahat edən hansısa məsələnin araşdırılması haqqında olan materialın əhatəli şərhidir. Monoqrafiyaları haqlı olaraq elmi əsərlərin əsas janrı hesab edirlər. Burada qarşıya qoyulan problemlər, biliyin müəyyən bir hissəsi və sahəsi tam və əhatəli şəkildə araşdırılır və ya işıqlandırılır. Monoqrafiyalarda eksperimental işlər nəzəri cəhətdən ümumiləşdirilir (2, 29).

Monoqrafiyalar ayrı-ayrı empirik faktların təsvirindən və onların öyrənilməsindən elmi nəzəriyyənin sistemli şərhinə, elmi axtarışlar strategiyalarının yaradılması üçün keçidə imkan verir. Elmi monoqrafiya bu gün elmin keçdiyi müəyyən yola yekun və gələcək elmi dərkə başlanğıc nöqtədir.

Monoqrafiya elmi kitab nəşri hesab edilir. Əsas məqsədi bir əsərdə bir və ya bir neçə müəllif tərəfindən hazırlanmış bir problem və ya mövzunun ətraflı və tam məzmuna malik olmasını təmin edən bir nəşrdir.

Məzmununa görə monoqrafiyalar fundamental elmi əsərdir. Onun əsasını elmi problemlərin ətraflı işlənilməsində böyük əhəmiyyətə malik olan əvvəlki elmi nailiyyətlərin və əsərlərin yenidən məqsədyönlü tədqiqi təşkil edir.

Təyinatına görə monoqrafiyalar müəyyən bir sahənin – elmi informasiyaların kommunikasiyalar sisteminə aid edilir və yeni-yeni problemlərin həllinə istiqamətləndirilir. Onlar əsas etibarilə tədqiq olunan həmin problemlərinin sahəsi ilə bağlı alim və mütəxəssislər üçün nəzərdə tutulur.

Elmi nəşr olduğu üçün monoqrafiyalarda tədqiq olunan predmet, onun elmi tədqiqat kimi məqsədi, xarakteri, metodu və nəticələri əksini tapmalıdır. Qeyd etmək lazımdır ki, elmi nəşrlərin redaktəsi zamanı elmi ədəbiyyatın janr xüsusiyyətlərinin düzgün işıqlandırılmasına diqqət yetirmək əsas amillərdəndir. Prinsipcə elmi nəşrlərin əsasını təşkil edən elmi ədəbiyyatı, yəni monoqrafiyanı üç hissəyə bölmək olar: giriş, əsas mətn və nəticə. Onların hər birinin öz təyinatı, quruluşu və məzmun dolğunluğu vardır.

**Girişdə,** ilk növbədə, mövzunun aktuallığı, tədqiqatın məqsədyönlülüyü əsaslandırılır, tədqiqatın aparılmasının məqsədi araşdırılır. Bundan əlavə, tədqiqatın aparılması şəraiti, metodu da göstərilə bilər. Eyni zamanda nəticələrin qısa şəkildə xüsusiyyətləri və bu xüsusiyyətlərin qiymətləndirilməsi və reallaşdırılma səviyyəsi, əsas hissədəki materialın qısa şərhi də monoqrafiyanın girişində əksini tapa bilər.

Giriş, bir qayda olaraq, əgər xülasə məqsədyönlü əsaslandırılmışsa, öhdəsinə düşən vəzifəsini yerinə yetirmiş olur, onun mövzusu və müzakirə olunan məsələlərin əhatə dairəsi xarakterizə edilir, məqsədin təyinatı əks olunur; tədqiqatın seçimi əsaslandırılır, istifadə olunmuş mənbələr səciyyələndirilir. Həmçinin burada mövcud xülasənin digərləri ilə müqayisədə xüsusiyyəti açıqlanır, informasiyanın analiz və sintezinə yanaşma izah edilir, əsas mətnin kompozisiya quruluşuna, üslub və terminoloji xüsusiyyətinə nəzər yetirilir, müəllif və ya tərtibçilər haqqında məlumatlara yer verir.

**Əsas mətndə** isə məqsəd, problemin tədqiqi prosesi, mövzunun məqsədyönlülüyünün şərhi, tədqiqatın aparılmasıdır. Burada qarşıya qoyulan məsələlər və onların həllinin vacibliyini bildirən şərhlər və izahatlar, dəlillər və əsaslandırmalar göstərilir. Əsas mətnin məqsədi yeni biliyin informasiyanın analizi və sintezi vasitəsilə formalaşdırılmasına xidmət edir.

Elmi ədəbiyyatın əsas mətnini elmi anlayışlar sistemi təşkil edir. Belə elmi anlayışlar bu və ya digər hadisənin, yaxud predmetin elmi dərk edilməsinin vəzifələri, prosesi və nəticələri haqqında təsəvvür yaradır. Janr xüsusiyyətindən asılı olaraq onlar ədəbi vasitələrlə elmi tədqiqatın müəyyən dərəcədə tamlığını əks etdirir. Beləliklə, monoqrafiyaların bir elmi ədəbiyyat kimi məqsədi əsas mətndə qarşıdakı məsələni lazımi səviyyədə işıqlandırmaq, problem açıqlamaq, kitabda elmi problemin hər bir aspektini aydın şəkildə təqdim etməkdir.

Hər bir əsərdə olduğu kimi, elmi əsərdə də müəllif tərəfindən təqdim olunan

informasiyanın daşıyıcısı olan məzmunda müəllif fikrinin realizəsini təmin edən fəsillərin, bölmələrin, paraqrafların arasında məntiqi əlaqənin olması vacibdir. Çünki elmi əsərin strukturu bilavasitə onun məzmunu və şərhinin məntiqi ilə sıx bağlıdır. Məzmunun daşıyıcısı və əsərin əsası kimi mətn, müəyyən mənada, kitabın oxucusu ilə təmasda olub, elmi kommunikasiya sisteminə daxil olur.

Monoqrafiyanın predmet və ya hadisənin təsviri, şərhi məhz əsərin əsas mətnində təqdim edilir: burada şərhin hərəkət trayektoriyası, obyektlərin təsnifatı, onların inkişafının təsviri və s. göstərilir.

Elmi nəşr olan monoqrafiyaların müəllifləri tərəfindən materialın təqdimatında şərhin izahedici növü geniş istifadə edilir. Əksər hallarda belə mətnləri mətn-mülahizələr adlandırırlar. Çünki onlar elmi sübutu və ya inkar etmə prosesini qeyd edirlər.

**Nəticədə** aparılan tədqiqatın məntiqi yekununa müvafiq olaraq nəticələr formalaşdırılır, tövsiyələr təqdir edilir, gələcək elmi tədqiqatların mümkün istiqamətləri göstərilir.

Nəticə konkret olmalı, təhlil edilən problemin əldə olunan faktiki səviyyəsi qiymətləndirilməli, monoqrafiyada həllini tapa bilməyən məsələlərin həlli üçün istiqamətlər göstərilməli, problemin (sahə və ya predmetin) gələcək inkişafının istiqamətlərinin və perspektivlərinin aşkarlanması haqqında məlumatları özündə əks etdirməlidir. Əgər burada tövsiyələr verilirsə, onlar çıxarılan nəticələrdən irəli gələrək əsaslandırılmalı, ölkədaxili və xarici elmi, texniki və istehsalat nailiyyətlərinin tətbiqi sahəsində aydın, konkret təkliflərlə çıxış etməlidir.

Elmi nəşr olan monoqrafiyalarda girişdən əvvəl ön söz, nəticədən sonra isə son söz verilir.

**Ön söz** ya müəllifin özü tərəfindən, ya da kitabın elmi redaktoru, tərtibçi tərəfindən yazılır. Burada təqdim edilən elmi tədqiqat barədə yığcam məlumat verilir, əsərin müəllifi və ya tərtibçisi oxuculara təqdim olunur, onların elmi fəaliyyətləri işıqlandırılır.

**Son söz** əsasən tarixi mövzuda olan və ya tərcümə ədəbiyyatlarına yazılır. Son söz elmi problemin müasir anlayışını, müəllifin tədqiqat predmetinin öyrənilməsindəki rolunu, ölkə və xarici alimlərin konsepsiya və yanaşmalarının xüsusiyyətlərini izah edir.

Monoqrafiya elmi əsərlərin daha əhəmiyyətli bir janrıdır. O, elmi biliyin bütün müasir elmi formalarını sistemli şəkildə təsəvvürdə yaradıb realizə etməyə imkan verir. Müəllifin fərdi yaradıcılığının təqdim etdiyi subyektiv və obyektiv məqamların varlığı monoqrafiyanın əsas əlamətlərindəndir. Onun bilik və təcrübəsi, monoqrafiyada həyata keçirə bildiyi metodiki yanaşma burada şərh olunan yeniliyin fərqləndirici xüsusiyyətlərindəndir. Müəllifin şəxsiyyəti və onun elmi səviyyəsi monoqrafiyanın elmi-kommunikativ

əhəmiyyətinə fəal təsir göstərir. Bu da əsərin redaktəsi zamanı mütləq nəzərə alınmalıdır.

Elm insan fəaliyyətinin sferası kimi obyektiv aləmin dərketmə şəklində əksi, yaranışın sosial istiqamətləndirilməsi ilə xarakterizə olunur.Bu aləmin elmi dərki prosesinin və nəticələrinin yazılı şəkildə çatdırılması elmi ədəbiyyatın öhdəsinə düşür.

Monoqrafiyaların, bir elmi ədəbiyyat kimi, predmeti elmin əsas formalarının - nəzəriyyə, qanun, təsnifat, problemlər, metodlar və s.-nin elmi kommunikasiyada fəaliyyətini təmin edən elmi anlayışlar sistemidir. Məhz elmi ədəbiyyat elmin belə dərketmə funksiyalarını - obyektiv həqiqi hadisələrin şərhini, aydınlaşdırılmasını və sistemləşdirilməsini həyata keçirməyə şərait yaradır.

Elmi ədəbiyyatın məzmununda elmi tədqiqatın əhəmiyyət kəsb edən elementlər anlayışının - məqsədin, problem şəraitinin, yekun ehtimallarının, ilkin biliklər və onların öyrənilmə metodlarının, və ən nəhayət, tədqiqatın nəticələri olan yeni biliklərin ifadəsi təqdim edilir. Bundan əlavə, elmi ədəbiyyata dair əsərlər konkret elmin tədqiqat prosesinin xüsusiyyətlərini şərtləndirən müxtəlif komponentlərin inikasıdır.

Elmi ədəbiyyatın məqsədyönlü təyinatı elmin müvafiq tələbləri ilə şərtlənir. Bu növ ədəbiyyat elmi biliklərin əsərdə şərh olunmasına imkan yaradır, yəni elmi anlayışların "istehsalını" təmin edir. Bundan əlavə, elmi ədəbiyyat həmin anlayışların qavranılması, bu və ya digər kommunikativ sistemdə istifadəsi üçün zəruri şəraitdir, elmi biliklərin istehlakının təminatçısıdır.

Elmi dərketmənin çoxçalarlı xarakteri elmi ədəbiyyatın məqsədyönlü təyinatının mürəkkəb daxili strukturunu müəyyən edir.

Monoqrafiya müəllifləri əsərlərinin oxucu ünvanını düzgün təyin etmək qabiliyyətinə malikdirlər: onlar elm fədailəri və elm xadimləridirlər. Oxucu nəinki elmi əsərlə tanış olur, müəllif anlayışını təsəvvüründə canlandırır, o, həmçinin elmi anlayışların müxtəlif məqsədlərini aşkarlayır, məzmunu öz şüurunda tamamlayır və onu (məzmunu) şəxsi nöqteyi-nəzəri ilə tutuşdurur. Belə hallarda şəxsi mülahizələrdən imtina edilmə halları heç də isnisna olunmur.

Elmi ədəbiyyat bir çox əsrlər ərzində formalaşmışdır. Onun formalaşmasına əsasən elmin tədricən insan fəaliyyətinin sferası kimi xüsusiləşməsi, ədəbiyyatın sosial kommunikasiyanın üsulu olması təsir etmişdir.

Elmi əsərin özünəməxsus müxtəlif növlərə ayrılan fərqləndirici xüsusiyyətləri mövcuddur. Monoqrafiyada qarşıda duran elmi məsələnin həllinə doğru yönələn faktların hərtərəfli təhlili onun məqsədyönlü istiqamətləndiricisidir. Buraya qarşılıqlı əlaqələrin, qarşılıqlı asılılığın və arqumentləşdirilmiş dəlil və əsasların, nəzəri ümumiləşdirilmələrin, faktların, məntiqi nəticələrin və praktiki tövsiyələrin əhəmiyyətinin qiymətləndirilməsi

daxildir.

İstənilən cəmiyyətdə və ölkədə elmi ədəbiyyatın rolu olduqca önəmlidir. Elmi nailiyyətlərin istehsalata tətbiqi, kompüterləşmə və s. elmi ədəbiyyatın daha çox inkişaf etməsini şərtləndirir. Elmi monoqrafiyaların əhatə dairəsi olduqca genişdir. Onlar maarifləndirici nəşr olmaqla yanaşı informasiya daşıyıcısı rolunu da ifa edir (3, 25-26).

Elmi ədəbiyyatın orijinal mətninin üzərində işləyərkən nəşriyyat redaktoru hadisələrin təqdimatının ardıcıllığına xüsusi diqqət yetirməlidir.

Bütün kitablarda olduğu kimi, hər bir elmi ədəbiyyat da özünə münasib **kompozisiyaya** malikdir. Ümumilikdə əlyazmaya olan tələblər onun kompozisiya quruluşuna da aiddir. Monoqrafiya mətnini redaktə edən hər bir nəşriyyat redaktoru əlyazmanın kompozisiyasının bir sıra tələblərə cavab verməsinə diqqət yetirməlidir:

1. Kompozisiya əlyazma mətninin qarşıya qoyduğu məsələlərin həllində ən yaxın köməkçi olmalıdır.
2. Kompozisiya mətnin məntiqinə müvafiq olmalıdır.

Elmi əsəri yazan, tərtib edən müəllif və ya müəllif kollektivi onun kompozisiyasını oxucu auditoriyasına çatdırmaq qabiliyyətinə malik olmalıdır.

Elmi ədəbiyyatın kompozisiyasına olan tələblərdən biri də materialın dəqiq plan əsasında işlənilməsidir. Mətnin kompozisiyası, onun prinsipləri və xüsusiyyətləri haqqında danışarkən, ilk növbədə, əsərin planı düşünülməlidir. Mətnin kompozisiyası elmi təhlil və keyfiyyətlərin qiymətləndirilməsində əsas yer cümlələr arasında kompozisiya əlaqələrinin mahiyyətinə aiddir. Bu əlaqələr özünü bütün mətn boyu bildirir. Kompozisiyanı və məzmunu biri-birindən ayrılıqda təsəvvür etmək mümkün deyil. Əgər kompozisiya prinsipcə mətnə uyğun deyilsə, elmi əsəri tam və bitmiş hesab etmək mümkün deyil.

Elmi nəşrlərin kompozisiya və quruluşunda mühüm rollardan birini də müxtəlif illüstrativ materiallar oynayır. Real həqiqəti əksetdirmə xüsusiyyətinə görə illüstrativ materialları iki növə ayırmaq mümkündür: elmi-anlaşılan (qrafiklər, sxemlər) və sənədli (fotolar).

Monoqrafiya müəllifi əsərin aparatına, ilk növbədə, onun mündəricatına fikir verməlidir. Müəllif çalışmalıdır ki, onun müvafiq oxucu auditoriyasına təqdim etdiyi əsərin hansısa fəsli və ya bölməsi digərindən güclü və ya zəif olmasın. Odur ki, müəllif əsərinin oxucuya qədər uğurlu olub-olmamasını özü müəyyən etmiş olmalıdır.

Hər bir elmi ədəbiyyatın elmi rəyçisi olmalıdır. Monoqrafiyaya rəy verən mütəxəssis müvafiq bilik sahəsinə dərindən bələd olmalı, əsərdəki problemlərlə əlaqədar dövlətin sənəd, material və qərarlarını, tədqiq edilən problemə dair hər hansı bir analoqun olub-olmaması məsələlərini dəqiq bilməlidir. Çünki onun verdiyi rəy əsərin hansı səviyyədə dəyərli olmasını bildirir.

Elmi əsər bütün hallarda inkişafetdirici rola malik olmalı, həm də ideya

cəhətdən qüsursuzluğu ilə diqqəti çəkməlidir. Məzmun və formanın vəhdəti elmi ədəbiyyatın əsas amllərindəndir. Məzmunla formanın vəhdətinə nail olmaq hər bir müəllifin başlıca öhdəliyidir.

Əlyazmalarda verilən terminlər, sxemlər, cədvəllər, illüstrasiyalar geniş dərketdirmə xüsusiyyətinə malik olduğundan müəllif onların tərtibinə də xüsusi diqqət yetirməlidir.

Monoqrafiya elmi ədəbiyyat olduğu üçün faktlara əsaslanır. Bu faktlar da üç əsas tələbə cavab verməlidir:

1. Tipiklik – cəmiyyət həyatının əsas qanunauyğunluqlarını əks etdirməli;
2. Siyasi və elmi əhəmiyyət daşımalı;
3. Müvafiq oxucu auditoriyasının marağını təmin etməlidir.

Elmi ədəbiyyatın predmeti (informasiyanın xarakteri) eyni zamanda elmin predmetidir. Bu predmetin düzgün qiymətləndirilməsi və tədqiq edilməsi xüsusi dəqiqlik tələb edir. Burada heç bir sarpmalara yol verilməməlidir.

Monoqrafiyanın strukturu təhlil edilib qiymətləndirilərkən əsas diqqət təqdim olunan məsələnin dəqiq qoyuluşuna, oxucu auditoriyasının nəzərə alınmasına, tədqiqatın nəticələrinin göstərilməsinə doğru yönəlməlidir.

Elmi əsərdə də, digər nəşrlərdə olduğu kimi, məzmunun bütün təsvir vasitələri – mətn, formullar, illüstrasiyalar, cədvəllər, həmçinin ədəbi janrın informasiya, analitik, bədii-publisistik elementləri istifadə olunur.

Elmi ədəbi əsərlərin struktur komponentləri belə sistemləşdirilir:

- **əsas mətn -** elmi ədəbiyyatın predmetini və ya hadisənin əsasını təşkil edən biliklər təsbit olunur;

- **əlavə mətn -** elmi ədəbiyyatın predmetinin və ya hadisənin xarakterindən asılı olaraq müxtəlif formalarda və məzmunda verilir.

- **izahedici mətn -** tanıdan və populyarlaşdıran funksiyaları yerinə yetirən nümunələrdə əksini tapır.

- **qavramanın təşkili aparatı (metodiki aparat)-** strukturun əsas komponentidir. Bu komponent elmi ədəbi əsərlərin predmetinin qavranılmasında yardımçı rolunu oynayır və tədris prosesinin müstəqil qavrayış fəaliyyətini istiqamətləndirir. Qavramanın təşkili aparatına müxtəlif suallar, tapşırıqlar, cədvəllər, illüstrasiyalara şəkilaltı sözlər və s. aiddir.

- **müxtəlif səpkili illüstrasiyalar** - rəngli, ağ-qara illüstrativ materiallar, çertyojlar, sxemlər, xəritələr məhz bu qəbildəndir.

**-istiqamətləndirici aparat** - giriş, mündəricat, rubrikalar, göstəricilər və s.-ni əhatə edir. Onlar ümumilikdə tədris ədəbiyyatının məzmun və strukturunu istiqamətləndirir, kitabla müstəqil iş vərdişlərini aşılayır.

Biliklərin qavranılması məsələsi elmi ədəbiyyatın strukturuna həlledici təsir göstərir. Elmi ədəbiyyatın metodiki təhlili zamanı biliklərin qavranılmasının keyfiyyətlə həyata keçirilməsində strukturun bu və ya digər konponentinin rolu daim diqqətdə olmalıdır.

Elmi ədəbiyyatın predmetinin xarakteri, oxucu ünvanı (yaş tərkibi) tədris ədəbiyyatının kompozisiyasını və materialın şərhini müəyyənləşdirir. Bu predmet elm kimi şərh edilməli, mövcud elmin məntiqi, elmi metodu nəzərə alınmalıdır. Əsərin materialı elə qruplaşdırılmalı və məntiqi cəhətdən elə qurulmalıdır ki, hər bir hissəsi tematika nöqteyi-nəzərincə tam təqdim edilsin və həmin predmetin dərk edilməsində müəyyən dərəcədə yeni pillə olsun (4, 15-16).

İrəlidə qeyd edildiyi kimi, kitabın bütün hissələri arasında daxili məntiq mövcuddur. Bu məntiqdə kitabın həm kompozisiyası, həm də strukturu açıqlanır. Nəinki elmi-kütləvi ədəbiyyatda, eləcə də digər əsərlərdə şərh bir qayda olaraq mühakiməni təlqin edir. Mühakimə iki növdür:

1) **deduktiv mühakimə** – ümumi mülahizələrdən fərdi nəticələrədək;

2) **induktiv mühakimə** – xüsusidən ümumiyə, yəni ayrı-ayrı faktlardan ümumiliyədək (5).

Monoqrafiyalarda məntiqi və tarixi şərhetmə metodlarından istifadə edilir.

**Məntiqi metod** müəllif mülahizələrini izləməyə imkan verir, elmi tədqiqatın modelini yaradır, bu və ya digər obyektin ətraflı tədqiqini verir. Şərh səbəb və təhqiqatın göstərilməsi, onların qarşılıqlı əlaqələrinin elementi və nəticəsi, strukturun ümumilikdə və ya ayrı-ayrı hissələrinin tədqiqi əsasında qurulur. Məntiqi metod materialın fikri fraqmentlərə ayrılması ardıcıllığını şərtləndirir. Bu metod yüksək informasiyalılığı ilə fərqlənir.

**Şərhin tarixi metodu** hadisə və predmetin inkişaf prosesinin xronoloji ardıcıllıqla verilməsinə imkan yaradır. Bu metod dinamikdir və dərketmədə çətinlik yaratmır.

Məzmunun məntiqi və tarixi şərhi metodlarının əlaqəliliyi elmi ədəbiyyatın quruluşu metodlarının dərketmə münasibətində nisbətən mürəkkəb əsasa malikdir.

**Abstraktlıqdan konkretliyə çıxış metodu** tədqiq edilən predmet və ya hadisə haqqında konkret biliyi dərin elmi anlayışlar əsasında sintezləşdirməyə imkan yaradır. Sintez, adətən, sadə abstraktlıqdan başlayır və elmi anlayışın mövcud müəyyənləşdirilməsinin çoxşəkilli sintezinin vəhdətini göstərir.

**Spiral metodu** tədqiq edilən elmi ədəbi əsərdə predmet və hadisənin əlamətlərinin tədricən açılmasını və inkişafını şərtləndirir. O, nəinki elmi materialın strukturunu əks etdirir, eyni zamanda oxucu dərketməsinə də istiqamətverici təsir göstərir. Spiral metodu fikrin, hər dəfə yeni, daha yüksək dərəcədə ümumiləşdirilmiş təkrarı yolu inkişafına əsaslanır.

Elmi əsərlərdə təqdim olunan tələblərin yerinə yetirilməsində **terminlər** xüsusi əhəmiyyət kəsb edir.

Məzmunun əsas şərhetmə vasitəsi dərketmə aparatı olan elmi mətnlərdə terminoloji leksikaya mühüm əhəmiyyət verilir. Elmi terminologiyanın istifadə edilməsi məzmunun şərhinin dəqiqliyini təmin edən daha optimal variantdır.

Uyğun terminlərin və leksik, qrammatik və sintaktik dil-üslub vasitələrinin dəqiq seçilməsi fikrin adekvat və birmənalı təqdimini təmin edir (6, 11).

Hər bir elmi ədəbiyyatın ayrılmaz tərkib hissəsi onun sorğu aparatıdır. Aparat elmi nəşrlərin mühüm tərkib hissəsi olduğu üçün oxucuya kitaba "daxil olmağa" imkan yaradır.

**Sorğu aparatının** vacibliyi və əhəmiyyəti oxucunu kitabın məzmunu ilə tanışlığa yardım etməkdən, kitabdan istifadəni asanlaşdırmaqdan, lazım olan məlumatı vaxt itirmədən, heç bir səhvə yol vermədən axtarıb tapmaqdadır. Aparat mövcud kitabla digər informasiya mənbələri arasında, əlaqələndirici orqan rolunu ifa edir, onun elmi-kommunikativ axında yerini müəyyənləşdirir. Elmi kitabın aparatının informasiya-arayış məsələlərinin həlli zamanı informasiyalar axınında hansısa kitabı axtarıb-tapmaq və onun məzmunu haqqında məlumatın rolu böyükdür. Hələ keçən əsrin ortalarında alimləri elmin informasiya təminatı ilə bağlı vəziyyəti olduqca narahat edirdi. O vaxtlar akademik S.İ.Vavilov yazırdı: "Müasir insan kitabxanalar Himalayının qarşısında qum içərisindən qızıl zərrəcikləri axtaran qızılaxtaranlara bənzəyirlər".

Elmi kitabın aparatı bütün axtarış variantlarında, əsasən də, avtomatlaşdırılmış axtarışda əsas eyniləşdirmə elementi kimi çıxış edir. Standarta müvafiq olaraq sorğu aparatı əsərin müəllifinin mətn orijinalının tərkibinə daxil olunur.

Monoqrafiyaların sorğu aparatına əksər hallarda elmi kitablarda əksini tapan qeydlər və şərhlər də daxildir.

**Qeydlər** sırf arayış xarakteri daşıyır. Onlar mənbə haqqında qısa məlumat və istinad verir, xarici mətnlərin tərcüməsini təqdim edir, hansısa əlavə faktı şərh edir.

**Şərhlər** çap olunan mətnlərin izahatını verir, tərtibçi və ya redaktorun onlara olan rəyini bildirir.

Elmi nəşrlərin aparatına bir qayda olaraq predmet, ad, terminoloji və s.-nin göstəriciləri də daxil edilir. **Göstəricilər** aparatın ən mühüm elementlərindən biridir, naviqasiyanı, informasiya arayışını, mətnin istqamətini, kitabdan istifadənin asanlaşmasını təmin edir.

Monoqrafiyanın spesifik göstəricisindən biri də mündəricatdır. **Mündəricat** əsas axtarış-məlumat elementi kimi nəşrin aparatının tərkibinə daxildir. Mündəricata fəsillər, bölmələr, paraqraflar daxildir. Məlumat-axtarış elementi olduğu üçün mündəricatı kitabın əvvəlində təqdim etmək daha məqsədyönlü olar.

Elmi kitabın aparatının daha bir əsas elementi də əlavələrdir. **Əlavələr** tədqiqatın yerinə yetirilməsində mühüm rol oynayan əlavə istifadə materiallarıdır. Əlavələrə, əsasən nəticələrin təsdiqi üçün tələb olunan material daxil edilməlidir.

Elmi monoqrafiyalarda **sitat və istinadlara** da geniş yer verilir. Sitatların istinad mənbələrini həm sətiraltı, həm də arxada təqdim etmək mümkündür. Lakin əksər hallarda mənbələri sonda vermək daha məqsədyönlü hesab edilir. Bəzi alimlərin fikrincə, sətiraltı istinad mənbələri oxucunun fikrini əsas mətndən yayındırır.

Yuxarıda göstərilənlərdən aydın olur ki, elmi monoqrafiyalarda sorğu aparatı iki funksiyanı yerinə yetirir: o, həm kitabın mətninin izahatını verir və onu sistemləşdirir, həm də gələcəkdə predmetin öyrənilmə yollarını göstərir (6, 22).

Görkəmli şəxsiyyətlərə həsr olunmuş biblioqrafik monoqrafiyalarda haqqında söhbət açılan mütəxəssisin əsas elmi işləri təqdim edilə bilər.Bu da oxucu üçün istinad mənbəyi kimi deyil, məhz həmin şəxsiyyətin elmi yaradıcılığının təqdimatı xarakterini daşıyır.

Səyahət xarakterli monoqrafiyalarda analoji məlumatlar verilə bilər. Bundan əlavə, belə nəşrlərdə bəzi hallarda tədqiqatçının tədqiqi ilə məşğul olduğu xalqın adət-ənənələri, yaşayış tərzi haqqında da söhbət açmaq mümkündür. Belə hallarda coğrafi adların terminoloji göstəricisini də təqdim etmək məqsədyönlüdür. Coğrafi göstəricilər əsas mətni dolğunlaşdırır və daha oxunaqlı edir.

Elmi-kütləvi xarakterli monoqrafiyalar da elmi nəşrlər kimi müxtəlif elmi biliklərin inkişafına və təbliğinə xidmət edir. Bu monoqrafiyaların da əsas predmeti elm və elmi tədqiqatlardır: elmi tədqiqatların nəticələri, tədqiqatın obyekti, elmi problem, məqsəd və metodu, tədqiqatın aparılma şəraiti, tədqiqatın əsasını təşkil edən faktlar, istifadə materialı və s.

Elmi-kütləvi nəşrlərin mövzu dairəsi olduqca geniş və əhatəlidir. O, cəmiyyətin tələbatı və oxucu marağı ilə müəyyənləşməlidir. Elmi-kütləvi nəşrlərin təyinat məqsədi elmi biliklərin, texnikanın, mədəniyyətin və s.-nin geniş oxucu kütləsi arasında təbliği və yayılmasıdır.

Elmi-kütləvi monoqrafik əsərlərin müəllifləri elmi bilikləri təbliğ etməklə elmdə olan son yeniliklərdən söhbət açır, bununla da müvafiq sahənin oxucu kütləsini maarifləndirməklə elmin yeni bilikləri ilə tanış edir, gələcək dərketmə maraqları oyadaraq, onun yaradıcılıq meyllərini inkişaf etdirirlər.

Belə monoqrafiyaların mühüm məqsədlərindən biri də oxucunun elmi dünyagörüşünü formalaşdırmaqdır. Elmi dünyagörüşünün formalaşdırılması insanların elmi biliklərlə təması, onlarda elmin qavranılması, elmi-texniki tərəqqinin məqsədinin dərk edilməsi xüsusiyyətlərinin inkişafı ilə həyata keçirilir. İncəsənətə dair elmi-kütləvi əsərlər estetik tərbiyənin funksiyalarını yerinə yetirir.

Qeyd etmək lazımdır ki, elmin inkişafını izləyən hər bir şəxsə – istər humanitar sahə olsun, istər təbiət elmləri sahəsi olsun, istərsə də dəqiq elmlər sahəsi olsun, özünün elmi dərketmə dairəsini inkişaf etdirmək əsas məqsədlərdən biri kimi vacib və əhəmiyyətlidir.

Oxucuda elmi dərketmə dairəsinin genişləndirilməsinə yardımçı məhz elmi-kütləvi nəşrlərin qarşıya qoyduğu məqsədləri, aşıladığı bilikləri dərindən qavramaq ola bilər.

Müasir şəraitdə elmi kütləvilik məsələləri genişlənmiş və nisbətən mürəkkəbləşmişdir, çünki oxucu sanki təkmilləşmiş, ümumiyyətlə, tamamilə dəyişmişdir. Bununla yanaşı, elmi-kütləvi kitabların da funksiyaları genişlənmişdir. Belə kitablara nəinki geniş oxucu kütləsi, eyni zamanda müxtəlif istiqamətdə fəaliyyət göstərən alim və mütəxəssislər də ehtiyac duyurdu. Onlar həm təhsil alan, həm də artıq təhsilini başa vuranlar üçün faydalıdır. Ali təhsilli şəxslər üçün bu monoqrafiyalar daha çox əhəmiyyətlidir, onlar bu dövrdə daha artıq səmərəli olur. Çünki artıq biliklərə yiyələnmək müstəqil həyata keçirilir və bu işdə elmi-kütləvi monoqrafiyalar öz müsbət təsirini göstərir. Müasir elm və texnikanın problemləri geniş şəkildə həkimi, müəllimi, hüquqşünası, artisti, rəssamı eyni dərəcədə dərindən maraqlandırır.

Deməli, elmi nəşrlər artıq ümumi tələbata çevrilib. Bununla bərabər, onlar hamı üçün eyni dərəcədə səmərə kəsb etmir. Hər bir sahənin özünə uyğun elmi nəşrləri mövcuddur. Çünki elmi kitabların oxucularını biri-birindən ayırmaq həlli çətin olan bir məsələdir. Bu kitabların oxucu auditoriyası hamını – orta məktəb şagirdlərindən tutmuş, alimlərədək əhatə edir.

Bütün elmi monoqrafiyalardakı şərhlərdə yalnız bir problem, bir mövzu haqqında məlumatlar verilir. Bu, hansısa bir kəşfə, ixtiraya, teoremin yaradılmasında, elmi axtarışların problemi, elmin təşəkkülü və inkişafı və s.-də təzahür edir. Şübhəsiz ki, elmin inkişaf etdiyi, elmi problemlərin həlli olduğu yerdə tədqiqatçılar, alimlər də, onların elmi bioqrafiyaları da mövcuddur.

Elmi monoqrafiyalarla yanaşı, görkəmli şəxsiyyətlərin həyatından, elmi fəaliyyətindən, yaradıcılığından bəhs edən əsərlər də monoqrafiya adlanır. Belə monoqrafiyalar bioqrafik əsər adlanır. Belə əsərlərdə alimin dünyagörüşünün formalaşması göstərilir, onun elm sahəsindəki sərvətləri əksini tapır. Məhz bu baxımdan bioqrafik monoqrafiyalar əhəmiyyət kəsb edir.

Mövzusunu alimlərin elmi məqsədlə səyahətlərinin tərtibi təşkil edən elmi əsərlər də monoqrafiya adlanır. Burada da, digər elmi bioqrafik monoqrafiyalarda olduğu kimi, söhbət alimin tərcümeyi-halından və elmi yaradıcılığından, ölkələr və materiklərdən, təbiət və əhalidən gedir. Səyahətlər haqqında olan elmi-kütləvi nəşrlər də informasiya xarakterinə görə bilavasitə monoqrafiyaya aid olunur. Çünki bütün elmi əsərlərin mahiyyətcə problemləri, tədqiqat istiqaməti, mövzu və mətnin xarakteri eyni xüsusiyyətlərə malikdir.

Elmi monoqrafiyaları mütaliə edən hər bir oxucu oradan tədris ədəbiyyatlarından olduğu kimi faydalanır, biliklərini təkmilləşdirir və yaxud inkişaf etdirir, elmin müasir və gələcək nailiyyətləri haqqında təsəvvürə malik olurlar.

Monoqrafiya - problemi və mövzusu elmin nisbətən məhdud konkret bir

sahəsini əhatə edən elmi nailyyətin əksidir. Monoqrafiyalar hər bir halda elmə xidmət edir, elmin nailiyyətlərini, görkəmli alimlərin elmi fəaliyyətlərini geniş oxucu kütləsinə çatdırır, elmi axtarışların nəticələrini şərh edir və gələcək elmi axtarışlar haqqında məlumatlar təqdim edir.

## ƏDƏBİYYAT


*1. Umudlu İ. Kitab nəşri bu gün. Bakı, Əbilov, Zeynalov və oğulları, 2004. – 322 s.*

*2. Редактирование отдельных видов литературы / Под ред. Н.М.Сикорского. Москва, "Книга", 1987. – 398 с.*

*3. Vəliyev İ. Redaktənin əsasları. Bakı, Günəş, 2005. – 96 s.*

*4. Canıyeva U.H. Əlyazma üzərində redaktor işi. Bakı, Bakı Universiteti Nəşriyyatı, 2007. – 90 s.*

*5. Каплан Г.Д. Редактирование отраслевой литературы. М.: Искусство, 1961.*

*6. Антонова С.Г. Редакторская подготовка изданий. www.mgpu.ru*



**Ш.Т.ГУЛИЕВА**


## МОНОГРАФИЯ – ОДИН ИЗ ВИДОВ НАУЧНОЙ ЛИТЕРАТУРА
## РЕЗЮМЕ


*В статье рассказывается об одном виде научной литературы – монографии. Автор в основном останавливает внимание на содержании читательской аудитории монографии. А также на цели, характере, методе и выводах монографии, как вида научной литературы, использовании авторами объяснительного текста для пояснения материала.*

**SH.T.QULİYEVA**

## MONOGRAPHY IS ONE OF THE TYPES OF SCIENTIFIC LITERATURE

### SUMMARY

*The article describes about monography as one of the form of scientific literature. The author mainly focuses on the content and reader's audience of monography as well as to the nature of the method and conclusions of the monography as a kind of scientific literature and using by authors of explanation text to explain the materials.*

**dosent Nadir İSMAYILOV**
**Mələk HACIYEVA**

## MİLLİ KİTABXANA: BEYNƏLXALQ ƏMƏKDAŞLIĞIN YENİ MƏRHƏLƏSİNDƏ

Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası tərəfindən "Bakı-İslam Mədəniyyətinin paytaxtı-2009" tədbirlər çərçivəsində 2009-cu il aprel ayının 20-22-də İqtisadi Əməkdaşlıq Təşkilatına (EKO) üzv ölkələrin Milli Kitabxanalarının direktorlar Şurasının II Konfransı keçirilmişdir.

Baş qərərgahı Tehran şəhərində yerləşən İqtisadi Əməkdaşlıq Təşkilatı regional, hökumətlərarası təşkilatdır. Bu təşkilatın əsası 1985-ci ildə İran İslam Respublikası, Pakistan İslam Respublikası və Türkiyə Respublikası tərəfindən qoyulmuşdur. Məqsəd üzv ölkələr arasında iqtisadi, texniki və mədəni əlaqələri inkişaf etdirməkdir. İqtisadi Əməkdaşlıq Təşkilatı 1992-ci ildə genişlənərək bu təşkilata Əfqanıstan İslam Respublikası, Azərbaycan Qazaxıstan, Qırğızıstan, Tacikistan, Türkmənistan və Özbəkistan respublikaları da üzv olmuşdur. Təşkilata üzv ölkələr 7.9 milyon kv.km ərazini və 386 milyondan çox əhalini əhatə edir. Bu ölkələrin yerləşdiyi region müxtəlif təbii ehtiyata malik olub, geostrateji mövqeyə malikdir.

Bu təşkilata üzv ölkələrin Milli Kitabxanalarının Direktorlarının I Konfransı 2007-ci ildə Tehranda, II Konfransı isə Bakıda keçirilmişdir.

Aprel ayının 20-də Konfrans iştirakçıları Fəxri Xiyabanda ulu öndər Heydər Əliyevin məzarına və Şəhidlər Xiyabanına əklillər qoydular.

Milli Kitabxana ilə tanışlıqdan sonra qonaqlar kitabxananın sərgi zalında təşkil edilmiş "İslam mədəniyyəti kitab səhifələrində" beynəlxalq kitab sərgisinin açılışı mərasimində iştirak etdilər. Sərginin ekspozisiyasında hər bir ölkənin Milli Kitabxanasının fondlarından 40-50 kitab nümayiş olunmuşdur. Bu kitabların əksəriyyəti sərgidən sonra Azərbaycan Milli Kitabxanasına hədiyyə kimi verilmişdir. Sərgidə gələn qonaqların təmsil etdikləri ölkələrin və Azərbaycanın islam mədəniyyətinə və incəsənətinə həsr edilmiş 500-dən artıq kitab nümayiş olunmuşdu.

Sərgidə eyni zamanda rəssam Yavər Əsədovun xəttatlıq nümunələri də nümayiş etdirildi. Sərgidə nümayiş olunan İçərişəhərin "Xalq sənəti" ev muzeyinin XIX-XX əsrin əvvələrinə aid Azərbaycan dekorativ sənət

nümunələri iştirakçıların böyük marağına səbəb olmuşdur. Bu sənət nümunələri içərisində milli geyimlərimiz, qadın bəzək əşyaları, misgərlik nümunələri və qədim çini qablar maraqla izlənilirdi.

Sərginin rəsmi açılışı bitdikdən sonra İqtisadi Əməkdaşlıq Təşkilatına üzv ölkələrin Milli Kitabxanalarının Direktorlar Şurasının II Konfransının açılışı oldu. Konfransı giriş sözü ilə açan Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Naziri Əbülfəs Qarayev kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması ilə əlaqədar ölkəmizdə həyata keçirilən tədbirlər barədə ətraflı məlumat vermişdir. Nazir diqqətə çatdırmışdır ki dövlətimizin başçısı İlham Əliyev mədəniyyətin bütün sahələrində olduğu kimi kitabxana şəbəkəsində işlərin yaxşılaşdırılmasına böyük diqqət və qayğı göstərir. Prezidentin "Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında" və "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında sərəncamları buna əyani sübutdur. Həmin sənədlərdə ölkə kitabxanalarında informasiya cəmiyyətinin tələblərinə uyğun müasir texnologiyaların tətbiqi mühüm vəzifə kimi qarşıya qoyulmuşdur. Daha sonra İqtisadi Əməkdaşlıq Təşkilatına üzv ölkələrin Milli Kitabxanalarının Direktorlar Şurasının prezidenti, İran İslam Respublikasının Milli Kitabxana və Arxiv Təşkilatının direktoru, İİR Prezidentinin Mədəniyyət məsələləri üzrə müşaviri Əli Əkbər Aşari, İƏT-in Mədəniyyət İnstitutunun Prezidenti Məhəmməd Rəcəbi, M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının direktoru Kərim Tahirov, Milli Məclisin üzvü millət vəkili Həvva Məmmədova, Xalq yazıçısı Çingiz Abdullayev və Milli Kitabxana Direktorları çıxış edərək bu konfransın əhəmiyyətindən söhbət açdılar.

Aprelin 21-də konfrans öz işini davam etdirərək İqtisadi Əməkdaşlıq Təşkilatına üzv ölkələrin Milli Kitabxanalarının Direktorlar Şurasının vahid portalının yaradılması, türk xalqının görkəmli şəxsiyyətlərinin yubileylərinin islam dünyasında qeyd olunması və Milli Kitabxanalar ilə bağlı müxtəlif çıxışlar dinlənildi.

M.F.Axundov adına Milli Kitabxanada keçirilən II Konfransın əsas məqsədi qloballaşan dünyada informasiya cəmiyyətinin tələblərinə uyğun Milli Kitabxanaların öz işlərini qurması problemlərinin müzakirəsi və qarşılıqlı əlaqələrin inkişaf etdirilməsi olmuşdur.

Konfransda eyni zamanda İqtisadi Əməkdaşlıq Təşkilatına (EKO) üzv ölkələrin Milli Kitabxanalarının Direktorlar Şurasının Konfransının Nizamnaməsi müzakirə edilib qəbul olundu.

Nizamnaməyə əsasən EKO üzv ölkələrinin Milli Kitabxanalar Direktorları Konfransının əsas nailiyyətləri üzv dövlətlər arasında qarşılıqlı və geniş məlumat mübadiləsi və bilik təcrübəsini təmin etməkdir. Konfransın fəaliyyət dövrü müddətsizdir. Konfransın əsas orqanları ümumi məclis, baş katib və işçi komitəsidir. Ümumi məclis EKO üzv ölkələrinin Milli Kitabxanalar

Direktorları və ya nümayəndə kimi təqdim olunan onların müavinlərinin iştirakı ilə keçiriləcəkdir. EKO Mədəniyyət İnstitutunun prezidenti və ya onun təqdim olunan nümayəndəsi də Məclisin üzvü olacaqdır. Umumi Məclis ən azı iki ildən bir keçiriləcəkdir. Ümumi Məclis iki illik müddət üçün üzv ölkələri Milli Kitabxanalar Direktorları arasında məclisin prezidentini seçəcək. Bu konfransda qarşıdan gələn iki il müddətinə Ümumi Məclisin Prezidenti vəzifəsinə Azərbaycan Milli Kitabxanasının direktoru Kərim Tahirov seçildi.

Konfrans Türkiyə, İran, Pakistan, Türkmənistan, Tacikistan, Özbəkistan, Qazaxıstan, Qırğızıstan ölkələrinin Milli Kitabxana direktorlarınn və İqtisadi Əməkdaşlıq Təşkilatının (EKO) Mədəniyyət İnstitutunun iştirakı ilə keçirildi.

Konfransın sonunda iştirakçıların Bakı Dövlət Universitetinin rektoru, akademik, millət vəkili A.M.Məhərrəmovun qəbulunda oldular. Rektor Azərbaycan Respublikasında aparılan islahatlar, ölkənin uğurları, daxili və xarici siyasəti haqqında geniş məlumat verərək qloballaşan dünyada informasiyanın rolunun artdığını vurğuladı və bu işdə kitabxanaların mühüm rol oynadığını qeyd etdi. Rektor, informasiya cəmiyyəti quruculuğunda dəyişən dünya, dəyişən kitabxana, dəyişən kitabxanaçı tezisini irəli sürdü və onun mahiyyətini ətraflı şərh etdi. Azərbaycanda kitabxana-informasiya sahəsinin, o cümlədən, təhsil sisteminin uğurları və perspektivlərindən bəhs etdi. Görüşdə Azərbaycan kitabxanaçılarının ağsaqqalı, Əməkdar elm xadimi, BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının həqiqi üzvü, professor A.A.Xələfov, Kitabxanaçılıq-informasiya fakültəsinin dekanı, professor X.İ.İsmayılov və başqaları çıxış edərək kitabxana quruculuğunun aktual problemlərindən söhbət açdılar. Sonra akademik A.M.Məhərrəmov Bakı Dövlət Universitetinin yeni korpusu və Elmi kitabxana ilə qonaqları tanış etdi. Bununla da çağdaş Azərbaycan mədəniyyətinə çox mühüm töhfə hesab edilən konfrans öz işini başa çatdırdı.

***Kompüter tərtibçisi:*** ***Nuriyyə MUSTAFAYEVA***

*Jurnal Azərbaycan Respublikası*
*Mətbuat və İnformastya  Nazirliyində*
*qeydə alınmışdır.*
*Şəhadətnamə Ng 575. 27 mart 1997.*
*Yığılmağa verilmişdir: 20.05.2009 Çapa imzalanmışdır: 20,06.2009 Kağız formatı 70x100*
*1/16 Fiziki ç.v. 10*
*Sayt 300 Qiyməti müqavilə ilə.*

*Ünvan: AZ-1073/1. Bakı şəhəri, Zahid Xəlilov küçəsi 23*
*Bakı Universiteti Nəşriyyalı*
*Bakı Universiteti Nəşriyyatının mətbəəsi.*